**İMRAN RZAYEV**

# BEYNƏLXALQ VERGİTUTMADA OFŞOR MEXANİZMLƏRİN TƏTBİQİ

**(Dərslik)**

**Azərbaycan Respublikası təhsil nazirinin 23.02.2006-cı il tarixli 113№-li əmri ilə dərslik kimi təsdiq edilmişdir.**

**BAKI - 2006**

downloaded from KitabYurdu.org

Elmi redaktoru: AMEA-nın müxbir üzvü, Azərbaycan Respublikası Vergilər Nazirliyi «Vergi siyasəti və strateji araşdırmalar» baş idarəsinin rəisi, Azərbaycan Dövlət İqtisad Universitetinin «Vergi və vergiqoyma» kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor **A.F.Musayev**

Rəyçilər: Azərbaycan Dövlət İqtisad Universitetinin «Maliyyə» fakültəsinin dekanı, iqtisad elmləri doktoru, professor **D.A.Bağırov**

Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadi təhlil və audit» kafedrasının professoru, iqtisad elmləri doktoru **R.B.Əliyev**

Azərbaycan Milli Elmlər Akademiyasının şöbə müdiri, Asiya Universitetinin prorektoru, iqtisad elmləri namizədi **İ.H.Alıyev**

**İ.Rzayev. Beynəlxalq vergitutmada ofşor mexanizmlərin tətbiqi. (Dərslik). Bakı: «İqtisad Universiteti» nəşriyyatı,-2006.,- 208 səh.**

Dərslik «Beynəlxalq vergitutmada ofşor mexanizmlərin tətbiqi» proqramı əsasında Azərbaycan dilində işlənmiş ilk əsərdir. Burada ofşor zonaların, ərazilərin yaranma tarixi, miqyası, mahiyyəti, baza ofşor kompaniyaları, onların vergilərin planlaşdırılmasında və minimumlaşdırılmasında rolu, xarici iqtisadi fəaliyyətdə baza ofşor kompaniyalarından istifadə problemləri, beynəlxalq bank və sığorta ofşor mərkəzləri, gəmilər vasitəsilə beynəlxalq yükdaşımada ofşor mərkəzlər və s. məsələlər öz şərhini tapmışdır.

Dərslik bakalavr səviyyəsində təhsil alan tələbələr, magistrlər, aspirantlar, dissertantlar, ali məktəb müəllimləri üçün nəzərdə tutulmuşdur.



downloaded from KitabYurdu.org

*© «İqtisad Universiteti» nəşriyyatı - 2006*

# MÜNDƏRİCAT

**Giriş**…………………………………………………… 3

**FƏSİL 1. BEYN ƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRDƏ OFŞOR ZONALARDAN İSTİFADƏNİN MƏQSƏD VƏ ÜSULLARI**

1.1.Ofşor fəaliyyətinin müasir miqyasları………………. 8

1.2.Ofşor mərkəz və zonalarda vergi yurisdiksiyalarının əsas tipləri və şirkətlərin vergi statusları……………….. 14

1.3. Ofşor şirkətlərin tətbiqi məqsədləri və statusları…. 25

**II FƏSİL. BAZA OFŞOR ŞİRKƏTLƏRİ**

2.1.Baza ofşor şirkətlər vergilərin minimumlaşdırılmasında əsas həlqədir………………………………… 43

2.2. Ofşor şirkətlər və onların vergilərin azaldılmasında rolu…………………………………………………….. 47

2.3. Rank Xerox transmilli qrupunun təqribi strukturu... 51

2.4 Vergilərin planlaşdırılmasının əsasları…………… 53

2.5.Xarici iqtisadi fəaliyyətin (XİF) ayrı-ayrı növləri üçün vergilərin planlaşdırılması………………………..... 60

2.6. Mallarla ixrac-idxal əməliyyatları. Ticarət-alqı baza şirkətləri……………………………………………… 65

2.7. Vergi siyasətinin müasir istiqamətləri və problemləri……………………………………………………… 69

**III FƏSİL. XARİCİ İQTİSADİ FƏALİYYƏTLƏ (XİF) ƏLAQƏDAR VERGİLƏRİN PLANLAŞDIRILMASI VƏ MİNİMUMLAŞDIRILMASI**

3.1.Vergiqoymadan yayınma və vergi pozuntuları üçün məsuliyyət…………………………… 72

3.2. Beynəlxalq vergi planlaşdırması XİF subyektlərinin vergi yükünün leqal minimumlaşdırılması üsulu kimi……………………………………………………….. 76

3.3. Hüquqi şəxslərin XİF-nin təşkilinin formaları və onların vergi xüsusiyyətləri……………………………… 79

3.4. Sərhədi keçmədən mal və xidmətlərin ixracı……… 80

3.5 Xarici ölkədə daimi nümayəndəlik yaratmadan məhdud iştirak……………………………………….. 83



downloaded from KitabYurdu.org

3.6. Şirkətin xarici filialının (şöbəsinin) yaradılması…… 85
3.7. Xarici ölkədə xüsusiləşmiş struktur yarımbölmə – «qız» müəssisə………………………………………… 86
3.8.Trans Milli Korporasiynanın (TMK) firmadaxili strukturunun yaradılması ……………………………… 87

## İV FƏSİL. BANK VƏ SIĞORTA OFŞOR MƏRKƏZLƏRİ VƏ ZONALARI

4.1. Əsas ofşor və güzəştli bank mərkəzlərinin müqayisəli xarakteristikası……………………………… 90
4.2. Aparıcı bank ofşor mərkəzləri və onların xüsusiyyətləri……………………………………………… 99
4.3. Sığorta fəaliyyəti üzrə ixtisaslaşmış ofşor mərkəzlər …………………………………………………….. 116
**V FƏSİL. BEYNƏLXALQ TRASTLAR…………………** 124
5.1. Beynəlxalq trastın mahiyyəti, quruluşu, növləri və tətbiqi sahələri……………………………………… 125
5.2. Trast təsisçi və benefisiarların cari vergi öhdəliklərinin minimumlaşdırılması vasitəsi kimi…………….. 138
5.3. Trastın təsis edilməsi ərazisinin seçilməsini müəyyən edən amillər….…………………………………... 139

## VI FƏSİL. İNVESTİSİYA HOLDİNQ MƏRKƏZLƏRİ

6.1. Holdinq şirkətinin yaradılmasının məqsədləri……. 155
6.2. Lüksemburqda və Niderlandda təsis edilən holdinq şirkətlərinin xüsusiyyətləri…………………………….. 165

## VII FƏSİL. GƏMİ SAHİBKARLIĞI VƏ BEYNƏLXALQ YÜK DAŞINMALAR ÜÇÜN OFŞOR ZONALAR

7.1. Gəmi sahibkarlığı və beynəlxalq dəniz yük daşınmaları üçün ənənəvi və yeni ofşor zonalar………. 182
7.2. Gəmilər vasitəsilə beynəlxalq yük daşınmalar sahəsində ayrı-ayrı ofşor zonaların xüsusiyyətləri və



downloaded from KitabYurdu.org

perspektivləri………………………………………………. 196

## GİRİŞ

XX əsrin 50-ci illərindən sonra beynəlxalq iqtisadi münasibətlərdə vergitutmada ofşor zonalardan istifadə böyük əhəmiyyət kəsb etməyə başlamışdır. İnkişaf etmiş ölkələrdə vergi dərəcələrinin nisbətən yüksək olması və vergi yükünün ağırlığı sahibkarları daima vergilərin minimumlaşdırılması problemləri üzərində düşünməyə məcbur edir. Ödənilən vergiləri minimumlaşdırmaq və digər sosial ödəmələri azaltmaq üçün beynəlxalq vergitutmada ofşor zonalardan istifadə XX əsrin ikinci yarısından sonra geniş yayılmış metodlardan birinə çevrilmişdir.

Müasir mərhələdə xarici iqtisadi fəaliyyətdə ikiqat vergitutmanı aradan qaldırmaq, həmçinin ödənilməli olan vergilərin məbləğini azaltmaq üçün ofşor zonalardan daha tez-tez istifadə olunur. İnkişaf etmiş ölkələrin xarici şirkətləri ofşor zonalar vasitəsi ilə üçüncü ölkədə fəaliyyət göstərməyə, bununla yanaşı iqtisadi cəhətdən zəif inkişaf etmiş, ticarət mərkəzlərindən uzaqda yerləşən, investisiya qoyuluşuna ehtiyacı olan ölkələr isə öz ərazilərini ofşor ərazilər elan etməyə maraqlı olurlar. Qeyd olunan iqtisadi münasibətlərdə vergi münasibətlərinin tətqiq olunması müasir dövrdə böyük əhəmiyyətə malikdir.

Hələ 20-30 il bundan əvvəl ofşor mərkəzlərin miqdarı barmaqla sayılası qədər az olmaqla yanaşı onlardan istifadə qaranlıq məqamlarla dolu idi. Hətta bu sahə üzrə ixtisaslaşmış peşəkar mütəxəssislər belə ofşor yurisdiksiyaların (hüquqi ünvanların) imkanlarından tam istifadə edə bilmirdilər. Texnologiya və telekommunikasiyadakı inqilab ofşor zonaların imkanlarını öyrənməyə və onlardan istifadəni genişləndirməyə şərait yaratdı. Bu günkü ofşor ərazilərdən istifadə inkişaf edərək dünya maliyyə əməliyyatlarının az qala yarısını əhatə edən qlobal bir biznesə çevrilmişdir.

Üçüncü minilliyin ərəfəsində praktiki olaraq bütün sahələr ya beynəlxalq xarakter almış, ya da beynəlxalq amilin təsirinə məruz qalmışdır. Müasir iqtisadi münasibətlərin ən geniş yayılmış əlamətlərindən biri ofşor zonalarda yerləşən müəs-



downloaded from KitabYurdu.org

sisələrin sürətlə genişlənməsidir. Bu gün biznes sənayesi dünya iqtisadiyyatının müstəqil sahəsinə çevrilmişdir. Bazar iqtisadiyyatının əsasında duran «qanunla qadağan olunmayan hər şeyə icazə verilir» prinsipi ofşor biznesin çiçəklənməsinə də geniş imkanlar açmışdır.

Bu gün Azərbaycan Respublikasının ərazisinin müəyyən bir hissəsini ofşor zona elan etməyə ehtiyacı yoxdur. Gələcəkdə də yəqin ki, buna ehtiyac olmayacaqdır. Azərbaycanın əlverişli coğrafi mövqeyi və bol təbii sərvətləri vardır. Azərbaycan çox sürətlə inkişaf edir.

Gün gələcəkdir ki, Azərbaycanın şirkətləri, hüquqi və fiziki şəxsləri beynəlxalq iqtisadi münasibətlərdə ofşor zonalardan geniş şəkildə istifadə edəcəkdir. Ona görə də dərslikdə ofşor zonalarla əlaqədar iqtisadi münasibətlərin, xüsusilə də vergi münasibətlərinin öyrənilməsinə önəm verilmişdir.

Dərslik 7 fəsildən ibarətdir. Proqramda mövcud olan mövzular dərslikdə öz əksini tapmışdır.

Birinci fəsil «Beynəlxalq iqtisadi münasibətlərdə ofşor zonalardan istifadənin məqsəd və üsulları» adlanır ki, bu fəsildə ofşor fəaliyyətin müasir miqyası, ofşor zonalar, onların yaranması zəruriliyi, ofşor şirkətlərin tətbiqi məqsədləri və statusları şərh edilmişdir.

İkinci fəsil baza ofşor şirkətlərinin öyrənilməsinə həsr edilmişdir ki, burada baza ofşor şirkətlərinin mahiyyəti, formaları, onların vergilərin minimumlaşdırılmasında rolu, yaranma prinsipləri izah olunmuşdur.

Üçüncü fəsil, xarici iqtisadi fəaliyyətlə əlaqədar vergilərin planlaşdırılması və minimumlaşdırılması problemlərinə həsr olunmuşdur ki, burada xarici iqtisadi fəaliyyət subyektlərinin vergi yüklərinin minimumlaşdırılmasının əsas üsulları, transmilli korporasiyanın firmadaxili strukturunun yaradılması və ofşor şirkətlərin bu qrupda rolu və digər məsələlər izah edilmişdir.

Dördüncü fəsil «Bank və sığorta ofşor mərkəzləri və zonaları» adlanır ki, burada əsas ofşor və güzəştli bank mərkəzlərinin müqayisəli xarakteristikası, aparıcı bank ofşor



downloaded from KitabYurdu.org

mərkəzləri və onların xüsusiyyətləri, sığorta fəaliyyəti üzrə ixtisaslaşmış ofşor mərkəzlər və onların xüsusiyyətləri öz əksini tapmışdır.

Beşinci fəsildə beynəlxalq trastın mahiyyəti, quruluşu, növləri və tətbiqi sahələri izah edilmiş, trast təsisçisi və benefisiarların cari vergi öhdəliklərinin minimumlaşdırılması üsulları, trastın təsis edilməsi, ərazinin seçilməsini müəyyən edən amillər və s. məsələlər tədqiq olunmuşdur.

Altıncı fəsil investisiya holdinq mərkəzlərinin problemlərinə həsr edilmişdir ki, burada holdinq şirkətlərinin yaranmasının məqsədləri, onların vergi münasibətləri, yaranma zəruriliyi, Lüksemburqda və Niderlandda təsis edilən holdinq şirkətlərinin xüsusiyyətləri və s. məsələlər öz əksini tapmışdır.

Yeddinci fəsil «Gəmi sahibkarlığı və beynəlxalq yük daşınmalar üçün ofşor zonalar» adlanır ki, burada gəmi sahibkarlığı və beynəlxalq dəniz yükdaşınmaları üçün ənənəvi və yeni ofşor zonaların xüsusiyyətləri və perspektivləri, həmin ərazilərdə vergi dərəcələri və sair məsələlər şərh olunmuşdur.

# FƏSİL I
# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRDƏ OFŞOR ZONALARDAN İSTİFADƏNİN MƏQSƏD VƏ ÜSULLARI

## 1.1. Ofşor fəaliyyətin müasir miqyasları.



downloaded from KitabYurdu.org

1.2.Ofşor mərkəz və zonalarda vergi yurisdiksiyalarının əsas tipləri və şirkətlərin vergi statusları

1.3.Ofşor şirkətlərin tətbiqi məqsədləri və statusları

## 1.1. Ofşor fəaliyyətinin müasir miqyasları

«Offshore» termininin ingilis dilindən hərfi tərcüməsi «sahildən uzaq yerləşən» məkan, yer mənasında başa düşülür.

Ofşor mərkəzlərindən istifadənin başlıca məqsədi müəssisənin həm fəaliyyət göstərdiyi, həm də yerləşdiyi ölkədə vergi öhdəliklərinin minimumlaşdırılmasıdır. Bu məqsədə yüksək vergiqoyma səviyyəsi olan ölkələrdən qanuni yolla gəlirlərinin dövriyyələrinin əmlakının ya bütün hamısını və ya bir hissəsini başqa ölkəyə çıxartmaq vasitəsi ilə nail olunur.

Son onilliklər ərzində dövriyyənin ofşor zona institutunun tətbiqilə həyata keçirilən artım templəri beynəlxalq iqtisadi fəaliyyətdə ümumi dövriyyələrin artım templərindən üstündür. Beynəlxalq vergi planlaşdırılması təcrübəsində 40-50 ölkə və ərazilərin vergi xüsusiyyətləri və üstünlüklərindən fəal surətdə istifadə olunur. Bu ölkələrin daha çox hissəsi Avropada və Karib regionunda yerləşir. Avropada olan ölkə və ofşor ərazilər - Andorra, Macarıstan, Hernsi, Cəbəllütariq, Danimarka, Cersi, İrlandiya, Kipr, Latviya, Lixtenşteyn, Lüksemburq, Madeyra, Malta, Monako, Men adası, Niderland, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Fransa, İsveçrədir. Ayrı-ayrı beynəlxalq vergi planlaşdırılması sxemlərində Fransanın, Almaniyanın və Rusiya Federasiyasının vergiqoyma sistemlərinin xüsusiyyətlərindən istifadə oluna bilər.

Karib regionunda beynəlxalq ofşor biznesinin liderləri aşağıdakılardır: Antiqua və Barbuda, Aruba, Baham adaları, Barbados, Beliz, Bermud adaları, Britaniyanın Virciniya adaları, Kayman adaları, Nefis və Sent-Kits, Niderlandın Antil adaları, Panama, Terks və Kaykos adaları.

Şimali Amerikada dünya ofşor mərkəzlərinin vergi rejimlərilə tutuşdurulan və vergiqoymanın xüsusi güzəştli re-



downloaded from KitabYurdu.org

jimlərini təmsil edən ərazilərə Kanada (Nyu-Bransuik) və ABŞ (Vayominq və Delaver) ştatları aiddir.

Sakit okean regionunda ən iri ofşor mərkəzlər aşağıdakılardır: Vanuatu, Honkonq, Qərbi Samoa, Kuk adaları, Labuan, Nauru. Xüsusi vergi sxemlərində Sinqapur və Yaponiyanın vergiqoyma sistemlərinin xüsusiyyətlərindən istifadə oluna bilər.

Afrikada ofşor biznesinin liderləri Liberiya, Mavriki, Madeyra adası, Kanar adaları, Cənubi Afrika Respublikasıdır.

Gəlir və əmlaka vergiqoymanın əlverişli rejimləri olan ölkə və zonalarda şirkətlərin qeydiyyatdan keçməsi barədə məlumatlar ofşor fəaliyyətinin miqyaslarına dəlalət edir. Ofşor şirkətlərin miqdarına görə Antil adaları, Bermud adaları, Britaniyanın Virciniya adaları, Kayman adaları, Kipr və Lixtenşteyn dünya liderləridir. Lixtenşteyndə 40 min qeydiyyatdan keçmiş ofşor şirkətlərdən gələn gəlir büdcə daxilolmalarının (qeydiyyat və illik ödənişlər) 30%-ə qədərinin təşkil edir. Kiprdə 90-cı illərin ortalarında 20 min qeydiyyatdan keçmiş ofşor şirkətdən gələn gəlir hər il 200 mln. dollar təşkil etmişdir (90-cı illərin sonlarında Kiprdə artıq 28 min ofşor şirkət qeydiyyatdan keçmişdi). Kayman adalarında 25 min şirkət yaranmışdır. 1995-ci ildə Britaniyanın Virciniya adalarında 15 mindən artıq ofşor şirkət qeydiyyatdan keçmişdi ki, bu da adanın hər bir sakininə 1 şirkətin düşməsi demək idi (Virciniya adalarının inzibati mərkəzi olan Rod Taunun əhalisi 4 min nəfərdir). Bermud adalarında hər il 6,5 mindən artıq qeydiyyatdan keçmiş şirkətlərdən gəlir 2003-cü ildə ümumi milli gəlirin 25%-ni (250 mln. dollar) təşkil etmiş, bütün beynəlxalq maliyyə fəaliyyətinin gəlirləri isə ölkənin ümumi daxili məhsulunun 40%-ə qədərini təşkil etmişdir. Terks və Kaykos adalarında 7 mindən artıq ofşor şirkət qeydiyyatdan keçmişdir. 80-ci illərin əvvəllərindən ofşor ərazilərdə yaradılan bank və bank şöbələrinin, sığorta və təkrarsığorta şöbələrinin gur və daimi artımı qeyd olunur. Kayman adalarnda 500-dən artıq ofşor bank qeydiyyatdan keçmişdir, o cümlədən dünyanın 40-50 iri banklarının şöbə və filialları bu adada mövcuddur.



downloaded from KitabYurdu.org

2003-cü ilin ortalarında Kayman adalarında bank şöbələrinin depozit əmanətlərinin məcmu məbləği 150 mlrd. dollardan artıq olmuşdur. Honkonqda baş lisenziyası olan 300-dən artıq bank və xarici bankların 1,5 mindən artıq şöbəsi, 16 depozit və 250 sığorta şirkəti fəaliyyət göstərir. Baham adalarında bank və maliyyə sektorunun payına ümumi daxili məhsulun 8%-ə qədəri düşür. Hernsi adasında 50-yə qədər bank qeydiyyatdan keçmişdir. Bermud adalarında 1300 müxtəlif tipli sığorta şirkəti, Kayman adalarında xarici sığorta şirkətlərinin 360 sığorta şirkəti və şöbəsi, Hernsi adasında 200 sığorta şirkəti fəaliyyət göstərir.

Ofşor kimi həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkə və ərazilər çıxış edə bilər.

Ayrı-ayrı gəlir növlərinə vergiqoymanın əlverişli rejimləri aşağıdakı yüksək inkişaf etmiş ölkələrdədir: Kanada, Lixtenşteyn, Lüksemburq, Malta, Monako, Niderland, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ABŞ, Fransa, İsveçrə və Yaponiya. Dinamik inkişaf edən ölkə və ofşor ərazilərə aiddir: Bağam adaları, Barbados, Bermud adaları, Britaniyanın Virciniya adaları, Hernsi, Cəbəllütariq, Honkonq, Cersi, Qərbi Samoa, Kuk adaları, Malayziya, Sinqapur. Ofşor mərkəzlər adambaşına düşən gəlir kimi göstərici ilə bir-birindən xeyli fərqlənir. 2003-cü ildə Kayman adalarında adambaşına gəlir 27 min dollar, Bermud adalarında 20 min, Kiprdə 12 min, Barbadosda 11,5 min, Terks və Kaykos adalarında isə 5 min dollar təşkil etmişdir. Adambaşına gəlirin nisbətən aşağı olduğu ölkə və ərazilər qrupuna Antiqua və Barbuda, Vanuatu, Liberiya, Nevis və Sent-Kits, Panama, Terks və Kaykos, həmçinin bir sıra inkişaf etməkdə olan ölkələr daxildir.

Ofşor mərkəzlər müstəqil dövlətlərin ərazisində, asılı ərazilərdə, dövlətlərin tərkibində olan ərazilərdə, hər hansı dövlətin yerli idarəetməsi ilə ərazilərdə yerləşdirilə bilər.

Müstəqil dövlətlər aşağıdakılardır: Cersi, İrlandiya, Kipr, Lixtenşteyn, Lüksemburq, Malta, Monako, Baham adaları, Barbados, Beliz, Nevis və Sent-Kits (Sent-Kristofer və Nevis Federasiyası – müstəqil dövlət), Panama, Vanuatu, Qərbi Samoa, Kuk adaları (1965-ci il Konstitusiyasına görə Yeni Zelandiya ilə azad assosiasiyaya daxil edilmiş müstəqil dövlətlərdir), Sinqapur.



downloaded from KitabYurdu.org

Hər hansı dövlətin tərkibinə daxil olan və ya ona tabe olan, lakin yerli idarəetmədə geniş hüquqlara malik olan ərazilər xüsusi qrupu təşkil edir. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının bu torpaq və ya tabelikdə olan ərazilərinə aiddir: Hernsi (tərkibində olan ərazi), Cəbəllütariq (tərkibində olan ərazi), Men adası (özünü idarə edən ərazi), Bermud adaları (yerli idarəetmə), Britariya Verciniya adaları (tabelikdə olan ərazi), Kayman adaları (yerli idarəetmə), Terks və Kaykos (yerli idarəetmə ilə tabelikdə olan ərazi). Niderland Krallığının ərazilərinə Antil adaları (yerli idarəetmə) və Aruba (özünü idarə edən ərazi) aiddir. Fransa Respublikasının dəniz departamentləri – Reyunyon, Qvadelupa, Qviana, Martinika və dəniz əraziləridir. Madeyra adası Portuqaliyanın tərkibində yerli özünüidarə ilə ərazisidir. Malayziyanın federal ərazisi Labuan adasıdır.

Ofşor ərazi (zona) unitar, federativ və ya konfederativ dövlətin əsas ərazisi ola bilər: Nyu-Bransuik (Kanadanın əyaləti), ABŞ-ın ştatları – Vayominq, Delaver, Florida; İsveçrə Konfederasiyasında Tsuq kantonu. Konkret ərazinin statusu dəyişə bilər. Belə ki, 1960-70-ci illərdə bir sıra asılı torpaqlar müstəqillik əldə etmişlər. 90-cı illərdə Honkonqun aidiyyəti dəyişmişdir.

Ofşor ölkə və zonaları şərti olaraq iki yerə bölmək olar: universal və ixtisaslaşmış. Müasir şəraitdə ofşor ölkələrin, zona və ərazilərin əksəriyyəti universallar sırasına aiddir, yəni müəssisənin fəaliyyət növündən asılı olmayaraq vergiqoymanın güzəştli şərtlərini təqdim edirlər. Qabaqcıl universal ofşor mərkəzlərə aiddir: Britaniyanın Virciniya adaları, Bermud adaları, Kipr, Kayman adaları, Kuk adaları.

Dar ixtisaslaşmış mərkəz və zonalara aşağıdakıları aid etmək olar: İsveçrə Konfederasiyası (investisiya və bank fəaliyyəti), Lixtenşteyn (investisiya fəaliyyəti), Avstriya (fiziki şəxslər üçün bank xidmətləri), Monako (fiziki şəxslər üçün vergi planlaşdırılması), Niderland (investisiya fəaliyyəti).

Ofşor mərkəz və ərazilər çox vaxt beynəlxalq trastlardan istifadə imkanlarına görə də ayrılır.



downloaded from KitabYurdu.org

Ofşor ölkə və ərazilərin üstünlüklərindən istifadə, bir qayda olaraq, istənilən ölkə müəssisələrinin potensial təsisçiləri üçün açıqdır. Bununla belə, peşəkarlar beynəlxalq vergi planlaşdırılmasında ayrı-ayrı ofşor mərkəz və ərazilərinin müəyyən ölkələrdən olan istifadəçilərin tələblərinin maksimum yerinə yetirilməsinə yönəldilməsini qeyd edirlər. Cersi və Hernsi adalarının, həmçinin Cəbəllütariqin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığından olan fərdi və korporativ vergi ödəyicilərinin tələbatlarının maksimal uçotuna olan oriyentasiyası (yönümü) məlumdur. Karib regionu ofşor ölkə və əraziləri müəyyən qədər ABŞ və Kanadadan olan sifarişçilərə xidmət göstərir. Liberiya ilə ABŞ, Lixtenşteyn və Almaniya, Labuan və Sinqapur arasında ənənəvi əlaqələr mövcuddur. Rusiyanın vergi rezidentlərinin fəaliyyəti üçün əlverişli şərait yaratmağa çalışan ofşor ərazilərdən biri Kiprdir.

Konkret ofşor mərkəzin müəyyən ölkələrin rezidentlərinə xidmət göstərməsi üçün oriyentasiyası müxtəlif gəliş və müvəqqəti qalma şərtləri ilə seçilir. Belə ki, Baham adaları Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının, həmçinin Kanada və ABŞ vətəndaşları üçün pasport və vizasız üç həftə gəlib qalmalarına icazə verir, üç həftədən artıq qalmaq üçün isə yalnız pasport tələb olunur. Belçika, Yunanıstan, İtaliya, İslandiya, Lixtenşteyn, Lüksemburq, Niderland, Monako, İsveçrə və Türkiyə vətəndaşlarına həmin müddətə qalmaq üçün təkcə pasport təqdim etmək kifayət edir, vizalar vacib deyil. Avstriya, Danimarka, Finlandiya, Fransa, Almaniya, İrlandiya, İsrail, Cənubi Koreya, Portuqaliya, İspaniya və İsveç vətəndaşlarına bura gəlmək üçün pasport kifayətdir, lakin üç həftədən artıq qalmaq üçün viza tələb olunur. Cənubi Amerika və Mərkəzi Amerika dövlətlərinin vətəndaşları da pasport təqdim etməlidirlər, ərazidə on dörd gündən artıq qaldıqda isə mütləq viza tələb olunur. Digər ölkə vətəndaşlarından bu mərkəzə gəlmək üçün mütləq həm pasport, həm də viza tələb olunur. Aydındır ki, bəzi ölkələrdən olan şəxslər üçün bu ərazidə fəaliyyətin təşkili və həyata keçirilməsi üçün daha əlverişli şərait yaradılmışdır. Bəzi hallarda, məsələn, bu ərazidə sövdələr başa çatdıqda, real dəyərlərlə, nağd pul



downloaded from KitabYurdu.org

vəsaitləri ilə əməliyyatlar keçirildikdə, səhmdarların və direktorların yığıncaqları təşkil olunanda gəliş və müvəqqəti qalma şərtləri xüsusi əhəmiyyət kəsb edir.

Şirkətin təsis yeri kimi konkret ərazidən istifadə üçün ölkənin (ərazilərin) müxtəlif növ beynəlxalq təşkilat və birliklərdə üzvlüyünün mühüm rolu ola bilər. Belə ki, Lüksemburq və İrlandiya Avropa Birliyinin tam üzvləridir. Malta və Kipr Avropa Birliyinin assosiasiyalı üzvləridir. Cəbəllütariq xüsusi statusa malikdir (lisenziyalı Cəbəllütariq sığorta şirkətləri öz fəaliyyətlərini Avropa Birliyinin üzvü olan ölkələrdə həyata keçirə bilər). Cersi, Hernsi və Men adaları Avropa Birliyinin hissəsi deyil, lakin bu ofşor mərkəzlərin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə xüsusi münasibətləri onlar üçün əlavə unikal imkanlar yaradır. Fransanın dəniz departamentləri Avropa Birliyinin tərkib hissəsi kimi nəzərdən keçirilir. Niderlandın Antil adaları və Avropa İttifaqı arasında xüsusi qarşılıqlı əlaqələr mövcuddur.

Prinsip etibarilə, hər hansı ölkə vergi qanunvericiliyinin elə xüsusiyyətlərinə malikdir ki, bunlar beynəlxalq vergi planlaşdırılmasında istifadə oluna bilsin. Lakin bir çox dövlətlər beynəlxalq fəaliyyət üçün məqsədyönlü xüsusi (güzəştli) şərait yaradırlar. Bu mərkəz və ölkələrə müasir dünyada 80-ə qədər dövlət aiddir.

## 1.2. Ofşor mərkəz və zonalarda vergi yurisdiksiyalarının əsas tipləri və şirkətlərin vergi statusları

### *Vergi yurisdiksiyalarının əsas tipləri*

Ayrı-ayrı ölkə və ərazilərin təqdim etdiyi vergi üstünlüklərindən səmərəli istifadə etmək üçün ümumi oriy istiqamətləri müəyyən etmək zəruridir. Bu istiqamətlərdən biri vergi yurisdiksiyası tipidir. Buna görə dünyanın bütün ölkələrini şərti olaraq altı qrupa bölmək olar.

Rezidentlərin gəlirlərindən vergitutma zamanı vergi güzəştlərinin verilməsi üsulu üzrə ayrılan vergi yurisdiksiyalarının əsas tipləri aşağıdakılardır:



downloaded from KitabYurdu.org

1. Gəlirlərə hər hansı vergi ilə vergiqoyma müəyyən olunmur;

2. Müəyyən fəaliyyət növü və müəssisə növlərinin vergiqoymadan tam azad edilməsi;

3. Sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərindən gələn gəlirlərə vergiqoyma dərəcələrinin aşağı səviyyəsi müəyyən edilir;

4. Holdinq şirkətlər üçün xüsusi (güzəştli) vergiqoyma rejimi təqdim edilir;

5. Gəlirlərə vergiqoymanın standart və ya yüksək səviyyəsi müəyyən olunur, lakin bu zaman hüquqi şəxslərə – qeyri rezidentlərə əlavə güzəştlər verilir;

6. Vergiqoymanın ərazi prinsipindən istifadə olunur.

Vergi yurisdiksiyasının birinci tipinə müvafiq olaraq, həmin ölkədə qeydiyyatdan keçmiş şirkətlərin gəlirlərinə hər hansı vergiqoyma yoxdur. Bu tip yurisdiksiyanı qəbul etmiş ölkələr «sırf ofşor» («tamamilə ofşor») nüfuzu qazanmışlar. Bu ölkələrdə qeydiyyatdan keçmiş şirkətlərin fəaliyyəti həmin ölkədə heç bir şərtlərlə əlaqədar olaraq vergiqoymaya səbəb ola bilməz. Vergi yurisdiksiyasının bu tipi aşağıdakı ölkələrdə tətbiq olunur: Ankilla, Baham, Bermud, Kayman adaları, Nauru, Terks və Kaykos adaları.

İkinci tip vergi yurisdiksiyası bu ölkədə qeydiyyatdan keçmiş, lakin öz fəaliyyətlərini həmin ölkənin və ya ərazinin hüdudlarından kənarda həyata keçirən şirkətlərin gəlirlərini vergidən tam azad edir. Bir qayda olaraq, bu ölkədə ofşor şirkətlərin fəaliyyətini tənzimləyən qanunvericilikdə həmin şirkətlərin fəaliyyətinə qadağa qoyulması qeyd olunmalı, həmçinin təsis edilən ofşor şirkətin nizamnamə sənədlərində də qeyd edilməlidir. Prinsipcə, istifadəçi üçün mövcud qayda və məhdudiyyətlərə riayət zamanı birinci və ikinci kateqoriya yurisdiksiyaları arasında fərq yoxdur, lakin yadda saxlamaq lazımdır ki, ikinci tip vergi yurisdiksiyalı ölkələrdə fəaliyyətin hər hansı məcburi şərtləri pozulduğu zaman qeydiyyat ölkəsində gəlirlərə vergiqoyma mümkündür, həmçinin vergi və vətəndaş hüquqlarının pozulmasına görə cərimə sanksiyalarının tətbiqi də mümkündür. İkinci tip vergi yurisdiksiyasından



downloaded from KitabYurdu.org

istifadə edən ölkə və ərazilərə Olderni, Antiqua, Aruba, Beliz, Britaniyanın Virciniya adaları, Kanar adaları – İspaniya, Kuk adaları, Cəbəllütariq, Qrenada, Hernsi, Men adası, İsrail dövləti, Cersi, İordaniya Krallığı, Liberiya, Lixtenşteyn, Madeyra – Portuqaliya, Marşall adaları, Mavriki, Monako Knyazlığı, Çernoqoriya, Monserat, Niderlandın Antil adaları, Nevis, Nayyu, İnquşetiya – Rusiya Federasiyası, Sent-Kits, Sent-Vinsent, Seyşel adaları, Virciniya adaları – ABŞ, Vanuatu, Qərbi Samoa aiddir.

Üçüncü tip vergi yurisdiksiyaları gəlirlərə aşağı salınmış dərəcələrlə vergiqoymaya imkan verir. Ayrı-ayrı dövlətlərin bir sıra ölkə və əraziləri rezidentlərin ayrı-ayrı gəlir növlərinə eyni zamanda ikinci və üçüncü tip vergi güzəştləri verir, yəni bir növ gəlirlər üçün vergiqoymadan tam azad edilmə nəzərdə tutulur, digər gəlir növləri üçün isə vergi dərəcələrinin aşağı səviyyəsi müəyyən olunur. Ona görə də üçüncü qrupa ikinci qrupa daxil edilmiş ayrı-ayrı ölkə və ərazilər düşür. Vergi yurisdiksiyası gəlirlərinin ayrı-ayrı növlərinə aşağı dərəcələrlə vergiqoyma tətbiq olunmasına imkan verən ölkə və ərazilərə aşağıdakılar aiddir: Barbados, Belçika, Kipr, Dublin – İslandiya, Cəbəllütariq, Hernsi, Men adası, İsrail, Cersi, Labuan – Malayziya, Madeyra – Portuqaliya, Malta, Mavriki və İsveçrə. Bu siyahını tam hesab etmək olmaz. Bu siyahıya başqa ölkələr də, həmçinin rezidentlərin ayrı-ayrı gəlir növlərinə xüsusi vergiqoyma rejimi müəyyən edilən azad iqtisadi zonalar da daxil edilə bilər. Keçmiş sosialist ölkələrində bu qrupa Macarıstan daxil ola bilər, belə ki, 1994-cü ilin yanvarından etibarən bu ölkədə güzəştli vergiqoyma rejimi ilə şirkətlər yaradılması imkanını nəzərdə tutan qanunvericilik («ofşor şirkətlər»in qanunla müəyyən olunmuş tələbləri yerinə yetirmək şərtilə gəlirlərinə aşağı dərəcələrlə vergiqoyma) qüvvəyə minmişdir.

Dördüncü qrupa holdinq şirkətlər üçün xüsusi vergiqoyma rejimləri təqdim edən ölkələrin vergi yurisdiksiyaları daxil edilir. Bu qrupa daxil olan ölkələrdə, bir qayda olaraq, rezilentlərin şirkətlərinin gəlirlərinə vergiqoymanın ümumi yüksək səviyyəsi müəyyən edilmişdir, lakin bu zaman holdinq



downloaded from KitabYurdu.org

şirkətlər üçün istisna vardır – onlara ya gəlirlərindən vergi tutulması aşağı dərəcələrlə müəyyən olunmuş, ya da başqa ölkələrdə qeydiyyatdan keçmiş şirkətlərin kapitalında iştirakdan daxil olan gəlirlər vergiqoymadan azaddır. Bu qrup ölkələrə aiddir: Avstriya, Almaniya, Danimarka, İspaniya, Lüksemburq, Niderland, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Fransa, İsveç.

Vergi yurisdiksiyalarının beşinci tipinin xüsusiyyətləri ondan ibarətdir ki, müəyyən şərtlərlə bu ölkədə qeydiyyatdan keçmiş şirkət həmin ölkədə vergiqoyma məqsədləri üçün rezident kimi nəzərdən keçirilməyə bilər ki, bu, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının vergi qanunvericiliyindən irəli gələn prinsiplərdən götürülmüş vergi qanunvericiliyi xüsusiyyətlərindən doğur. Bu tip vergi yurisdiksiyası olan ölkələrə Barbados, Britaniyanın Virciniya adaları, Cəbəllütariq, Qrenada, İrlandiya, Sinqapur və Svazilend aiddir. Müəyyən şərtlər və düzəlişlərlə bu kateqoriyaya Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının özü də daxildir.

Altıncı qrupa gəlirlərə vergiqoymanın ərazi prinsipinə əsaslanan vergi yurisdiksiyaları aiddir. Bu yurisdiksiyalara görə həmin ölkələrin rezidentlərinin başqa ölkələrdə aldıqları gəlirlər vergiyə məruz qalmır. Bu cür vergi yurisdiksiyası tipinə Kosta-Rika, Honkonq, Livan, Malayziya, Panama, Sinqapur və Cənubi Afrika Respublikası malikdir.

### *Ofşor mərkəz və zonalarda şirkətlərin əsas statusları*

Bir qayda olaraq, hər hansı ofşor mərkəzində və ya zonasında müxtəlif tip vergi statuslu şirkətlər qeydiyyatdan keçə bilər. Şirkətin vergi statusu şirkətin gəlirlərinin vergiqoyma spesifikasını (vergilərdən azad olunması) müəyyən edir, həmçinin ikiqat vergiqoymadan qaçmaq üçün beynəlxalq müqavilələrin normalarından istifadə üçün mühüm əhəmiyyət kəsb edir.

Vergi statuslarının əsas tiplərinə aşağıdakılar aiddir:

1) Milli şirkət (adi, xüsusi status verilməyən);
2) Xüsusi vergi statusu olan milli şirkət;



downloaded from KitabYurdu.org

3) Qeyri-rezident şirkət;

*Milli şirkət*

Milli şirkət – həmin dövlətdə qeydiyyat keçən və mövcud qanunvericiliyin normalarına müvafiq olaraq hər hansı xüsusi status verilməyən adi şirkət. Milli şirkət müvafiq korporativ qanunvericilik və ya mülki hüquq ilə icazə verilən hər hası formada yaradıla bilər. Rusiyada milli şirkətlərin (müəssisələrin) formaları RF Mülki Məcəlləsi və məhdud məsuliyyətli cəmiyyətlər haqqında qanunlar və digər qanunvericilik aktları ilə müəyyən olunur.

Milli şirkəti həm rezidentlər, həm də qeydiyyat ölkəsinin qeyri-rezidentləri yarada bilər. Ayrı-ayrı ölkələrdə milli şirkətin qeyri-rezidentlər tərəfindən təsis imkanları xüsusi qanunvericiliklə məhdudlaşdırıla bilər. Bundan başqa, fiziki və (və ya) hüquqi şəxslər – qeyri-rezidentlərin iştirakı ilə yaradılan şirkətin təsis edilməsi və qeydiyyatdan keçməsinin xüsusiyyətləri nəzərə alına bilər.

Milli şirkət hər hansı yol verilən fəaliyyət növləri ilə məşğul ola, həmçinin həm yerləşdiyi ölkədə, həm də onun hüdudlarından kənardakı mənbələrdən gəlir əldə edə bilər.

Əgər şirkətin qeydiyyatdan keçdiyi ölkədə valyuta məhdudiyyətləri müəyyən edilmişsə, bu məhdudiyyətlərin bütün növləri milli şirkətlərə də tam həcmdə aid edilir.

Bu statuslu şirkət yerləşdiyi ölkədə müəyyən edilən vergilərə məruz qalan subyektdir. Bu zaman o, mövcud vergi qanunvericiliyi tərəfindən təqdim edilən bütün imkan və güzəştlərdən istifadə edə bilər.

Milli şirkətin həmişə qeydiyyatdan keçdiyi ölkənin vergi rezidenti olması ilə əlaqədar olaraq, bu ölkənin gəlirlərə və əmlaka ikiqat vergiqoymadan qaçmaq üçün bağladığı müqavilələrin normaları tətbiq edilir.

Milli şirkətlərin tətbiqi təcrübəsi həddən artıq genişdir. Beynəlxalq vergi planlaşdırılmasında müxtəlif vergi yurisdiksiyası tipli və gəlirlərə vergiqoymanın müxtəlif səviyyələri olan ölkələrdə qeydiyyatdan keçmiş adi milli şirkətlər müxtəlif



downloaded from KitabYurdu.org

məqsədlər üçün istifadə olunur. Bir qayda olaraq, gəlirlərə yüksək vergiqoyma mövcud olan ölkələrdə bu statuslu şirkətlər gəlirlərə və əmlaka ikiqat vergiqoymadan qaçmaq üçün bağlanan müqavilələrlə verilən üstünlüklərdən istifadə üçün, həmçinin konkret ölkədə (məsələn, gəlirlərə vergi qoyularkən ərazi prinsipi, vergi qoyulan gəlirin müəyyən edilməsi qaydaları, müxtəlif növ məqsədli güzəştlər) mənfəətdən vergiqoymanın xüsusi şərtlərindən istifadə üçün qeydiyyatdan keçirilir. Gəlirlərə vergiqoymanın nisbətən aşağı səviyyəsi və ya hüquqi şəxslərin - rezidentlərin gəlirlərinə vergiqoyma müəyyən olunmayan ölkələrdə milli şirkətlər beynəlxalq vergi planlaşdırılması sxemlərində yüksək vergiqoyma səviyyəsi olan ölkə və zonalarda fəaliyyət göstərən müəssisələrin mənfəətlərinin bir hissəsinin bu şirkətlərə bölüşdürülməsi məqsədilə yaradılır.

*Xüsusi vergi statuslu milli şirkət*

Milli şirkət qeydiyyatdan keçdiyi zaman və ya sonra xüsusi vergi (güzəştli) statusu ala bilər. Bu statusun alınması həmişə fəaliyyətin həyata keçirilməsi imkanlarının məhdudlaşdırılması ilə bağlıdır. Bir qayda olaraq, bu, həmin ölkə və ya ərazinin vergi rezidentləri ilə fəaliyyətin həyata keçirilməsinin qadağan edilməsidir. Bu şirkətin iştirakçıları adətən fiziki və hüquqi şəxslər – rezidentlər ola bilməz. Bundan başqa, məhdudiyyət və qadağaların digər növləri də mümkündür. Xüsusilə, müvafiq dövlətin ərazisində yerləşən əmlakın alınmasına bu cür qadağa və məhdudiyyətlər qoyula bilər.

Xüsusi vergi statuslu milli şirkətlər qeydiyyat ölkəsində gəlirlərinə vergi qoyulan şirkətlər kimi nəzərdən keçirilir. Lakin bunlar ya konkret vergi növlərindən azaddır, ya da onların fəaliyyəti ümumi və ya xüsusi qanunvericiliyin xüsusi tələblərinə cavab verirsə, bu zaman onlara xüsusi güzəştli vergiqoyma qaydaları tətbiq edilir. Xüsusi vergi statuslu şirkətin qeydiyyatdan keçdiyi ölkədə vergiqoyma subyekti olması faktı, prinsip etibarilə bu şirkətlərə hətta fəaliyyət göstərdiyi və gəlir mənbəyi olduğu ölkə ilə qeydiyyatdan keçdiyi ölkə



downloaded from KitabYurdu.org

arasında gəlirlərə və əmlaka ikiqat vergiqoymadan qaçmaq barədə bağlanmış müqavilələrin normalarından istifadə imkanı verir. Bu zaman yadda saxlamaq lazımdır ki, gəlir mənbəyi olan ölkənin vergi qanunvericiliyinin xüsusiyyətləri və ya konkret müqavilənin normaları ilə beynəlxalq normaların xüsusi vergi statusu olan şirkətlərə tətbiq edilməsini istisna edən qaydalar müəyyən edilə bilər. Beynəlxalq müqavilə tərəfindən müəyyən edilən rejimin bu və ya digər şirkətə və ya bu və ya digər ödənilən gəlir növünə tətbiqinin düzgünlüyü məsələsini həll etmək üçün həmin müqavilənin bütün normalarının (xüsusilə də «müqavilənin tətbiq edildiyi şəxslər», «razılığa gələn dövlətlərin ərazisi» və xüsusi hallarda vergiqoymanı tənzimləyən maddələr), əlavə sənədlərin (protokolların, əlavələrin) təhlili, həmçinin gəlir mənbəyi olan ölkənin səlahiyyətli orqanının rəsmi izahatlarının uçotu zəruridir.

Milli şirkətlərin xüsusi vergi statuslarının növləri çoxcəhətlidir. Onlar yerli korporativ və vergi qanunvericiliyinin xüsusiyyətləri ilə müəyyən olunur.

Qeydiyyat zamanı alınmış xüsusi vergi statusu, bir qayda olaraq, həmin şəxsə beynəlxalq müqavilələrin konkret normalarının tətbiqi imkanlarını aşağı salır. Qeydiyyat zamanı alınan xüsusi vergi statuslarına aşağıdakılar aiddir:

- beynəlxalq işgüzar şirkət (BİŞ);
- ofşor şirkət;
- beynəlxalq şirkət.

Bir sıra ölkələrdə xüsusi güzəştli vergi statusunun olması barədə «ofşor (holdinq) şirkətlər haqqında qanuna müvafiq olaraq qeydiyyatdan keçmiş şirkət» ifadəsi dəlalət edir və ya xüsusi qanun qəbul edilməsi tarixi və nömrəsi göstərilir).

Beynəlxalq işgüzar şirkət (BİŞ) statusu aşağıdakı ölkə və ərazilərdə tətbiq edilir: Antiqua və Barbuda, Baham adaları, Barbados, Beliz, Bermud adaları, Britaniyanın Virciniya adaları. İlk dəfə olaraq BİŞ konsepsiyası Britaniyanın Virciniya adalarında hazırlanmışdı. Şirkət hər hansı şəxsə müstəqil və ya müştərək olaraq BİŞ təsis etməyə imkan verən beynəlxalq



downloaded from KitabYurdu.org

işgüzar şirkətlər haqqında qanun əsasında təsis edilir. Bu şirkətə hər hansı yerli vergilərdən azad olunmaq təmin edilir. Qeydiyyat üçün bir səhmdar (fiziki şəxs və ya korporasiya), zəruri olduqda bir direktor kifayətdir. Səhmdarların və (və ya) direktorların yığıncaqları istənilən vaxt və istənilən yerdə keçirilə bilər, o cümlədən iştirakçıları etibarlı şəxslər təmsil edə bilər. Səhmlər həm nominal dəyərin göstərilməsi ilə, həm də onsuz, həmçinin tələb edən üçün buraxıla bilər. BİŞ-nin səhm kapitalı tam ödənilməlidir, lakin nizamnamə kapitalına olan tələblər minimaldır. Hesablar üzrə çıxarışlar və səhmdarlar və ya direktorlar haqqında məlumatlar dövlət orqanlarına bildirilmir və kənar şəxslər üçün bağlıdır.

BİŞ-lərə bir qayda olaraq, qadağandır:

1) daim qeydiyyat ölkəsində yaşayan şəxslərlə sahibkarlıq fəaliyyəti həyata keçirmək;

2) qeydiyyat ölkəsində əmlaka tam və ya qismən malik olmaq;

3) bank, sığorta və ya təkrarsığorta fəaliyyəti ilə məşğul olmaq;

4) başqa şirkətlərə hüquqi ünvan vermək.

Bir sıra başqa ölkələrdə BİŞ abbreviaturası yuxarıda adları çəkilən ölkələrdə vergi statusundan fərqlənən vergi statusu olan şirkətlərə tətbiq oluna bilər. Belə ki, Cersi adasında 1993-cü il yanvarın 1-dən sonra yaradılan BİŞ-lər rezident şirkətlərdir ki, bunların gəlirləri xüsusi vergi dərəcələri sistemi üzrə vergiyə məruz qalır. Bu cür şirkət Cersi adalarından kənardakı mənbələrdən 3 mln. funt sterlinqə qədər mənfəət götürürsə, 2% dərəcəsi ilə vergiqoymaya məruz qalır. Mənfəət bu səviyyəni üstələyərsə, bu zaman aşağı salınmış dərəcələr tətbiq edilir. Cersidə qeydiyyatdan keçmiş beynəlxalq işgüzar şirkətlər Cersi adasının vergi rezidentləri ilə məhdud fəaliyyət həyata keçirə və adanın ərazisindəki mənbələrdən gəlir götürə bilərlər. Bu halda şirkətin gəliri 20% ölçüsündə dərəcə ilə vergiqoymaya məruz qalır. Bu qayda Cersi adasında qeydiyyatdan keçmiş banklar tərəfindən ödənilən faizlərə də aid edilir. İBC vergi tutulan gəliri əldə edə bilmirsə, həmçinin vergi tutulan gəlirdən çox deyilsə, bu zaman şirkətlər illik yığım



downloaded from KitabYurdu.org

formasında 1200 funt sterlinqdən az olmayan məbləği ödəməlidirlər. BİŞ statusu həmçinin Cersi adasının hüdudlarından kənarda inkorporasiya edilmiş, həmçinin onun filialları tərəfindən də alına bilər.

«Ofşor şirkət» milli şirkətin xüsusi növü kimi Kipr adasında təsis edilə bilər. Kiprdə ofşor şirkətin təsis edilməsi yalnız Mərkəzi bankın qabaqcadan razılığı ilə mümkündür. Xüsusi vergi statusundan istifadə etmək üçün şirkət eyni zamanda aşağıdakı tələblərə uyğun olmalıdır:

- gəlirləri Kiprdən kənarda almalı və öz xərclərini xarici mənbələrin hesabına örtməlidir;
- şirkətin mövcud olduğu dövr ərzində qeyri-rezidentlər birbaşa və ya dolayı yolla şirkətin səhmlərinə malik olmalıdırlar (rezidentlər yalnız səhmlərin nominal saxlayıcıları qismində çıxış edə bilər);
- şirkət bir neçə mənbədən vəsait cəlb edə bilməz;
- Mərkəzi banka hər il lisenziyalı auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatı təqdim edilməlidir.

Bundan başqa, xüsusi lisenziya almadan ofşor şirkət bank və sığorta fəaliyyətini həyata keçirə bilməz.

«Beynəlxalq şirkət»i güzəştli vergi statusu ilə olan milli şirkətin spesifik forması kimi nəzərdən keçirmək olar. Bu hüquqi forma Kuk adalarında və Qərbi Samoada istifadə olunur. Kuk adalarında bu şirkətlər beynəlxalq şirkətlər haqqında 1987-ci il qanununa əsasən qeydiyyatdan keçə bilər. Beynəlxalq işgüzar şirkətlərlə (BİŞ) müqayisədə bu forma təsisçilərə bəzi əlavə imkanlar verir. Xüsusilə, beynəlxalq şirkətlər səhm kapitalı olmadan da təsis edilə bilər ki, bu da təsisçilərə valyuta qanunvericiliyindən doğan məhdudiyyətlərdən uzaq olmağa, həmçinin nəzarət olunan xarici şirkətlər haqqında qanunvericilik normalarını pozmamağa imkan verir.

Milli şirkət qeydiyyatdan keçəndən sonra xüsusi vergi statusu ala bilər. Qeydiyyatdan keçdikdən sonra alınan vergi statuslarının iki növü mövcuddur:

- şərti-güzəştli şirkətlər;
- vergilərdən azad şirkətlər.



downloaded from KitabYurdu.org

Şərti-güzəştli şirkət – fəaliyyəti müəyyən olunmuş qaydalara uyğun olmaq şərtilə gəlirə vergiqoyma dərəcəsini seçmək hüququ olan şirkətdir. Bu tip şirkətlərdən o zaman istifadə olunur ki, beynəlxalq müqavilə mənbə ölkədə ödənilən gəlirlərin vergidən azad olmasını yalnız alanın gəliri (dividend formasında) daimi yerləşdiyi ölkədə (qeydiyyat) gəlir mənbəyi olan ölkədəki vergiqoymanın ölçüsünün yarısından az olmayan vergiyə məruz qalması şərtilə nəzərdə tutsun. Bu cür şərtləri Qərbi Avropa ölkələrinin bağladığı bir çox müqavilələr də nəzərdə tutur. Baş şirkətin (dividend alanın) gəlirinin vergiyə mənbə ölkədəki dərəcəsinin yarıdan az olmaması barədə sənədin təqdim edilməsi mənbə-ölkədə ödənilən dividendlərin vergidən azad edilməsi üçün əsasdır. Milli rezidentlərə bu cür vergi statusu verən ölkə və ərazilərə Cəbəllütariq, Men adası, Amerikanın Virciniya adaları aiddir.

Vergilərdən azad şirkət statusu həm şirkət qeydiyyatdan keçən zaman, həm də sonra verilə bilər. Əgər bu status qeydiyyatdan keçdikdən sonra alınırsa, şirkət qeydiyyat ölkəsində vergiqoymaya məruz qaldığı zaman ikiqat vergiqoymanı aradan qaldırmaq haqqında müqavilə üzrə gəlirlərinə xüsusi vergiqoyma rejiminə iddia edə bilər. Bir sıra ölkə və ofşor ərazilər – Vanuatu, Hernsi, Cəbəllütariq, Cersi, İrlandiya, Kayman adaları, Men adası, Lixtenşteyn, Terks və Kaykos adaları təsisçilərə standart milli şirkət yaratmağa, sonra isə müəyyən müddətə vergilərdən azad olmaq haqqında sertifikat (şəhadətnamə) tərtib etməyə imkan verir.

Cersi adasında vergilərdən azad edilmiş şirkət hər il təsdiq olunmalıdır.

Güzəştli vergi statuslarının göstərilən tipoloji (standart) növlərindən başqa əlavə növlər də mövcud ola bilər. Güzəştli vergi statuslarının əlavə növlərini iki böyük qrupa bölmək olar:

1) şirkətin güzəştli vergiqoyma rejimi olan hər hansı zonada qeydiyyatdan keçməsi ilə əlaqədar güzəştli vergi statusu;

2) iqtisadi fəaliyyətin xüsusiyyətləri ilə bağlı güzəştli vergi statusu (güzəştli sahəvi vergi statusu).



downloaded from KitabYurdu.org

Vergiqoymanın güzəştli rejimləri azad iqtisadi zonalar, azad sahibkarlıq zonaları, güzəştli gömrük zonaları, texnoparklar və s. tərəfindən təqdim edilə bilər. Qeyd etmək lazımdır ki, bir qayda olaraq azad iqtisadi zonalarda və başqa, gəlirlərə vergiqoyma üzrə güzəştlər müəyyən edən başqa zonalarda güzəştli vergi statusu gəlirlərə və əmlaka ikiqat vergiqoymadan qaçmaq haqqında müqavilələrin normalarından istifadə üçün heç bir maneçilik törətmir (bu müqavilənin normalarının konkret azad iqtisadi zonalarda və ya başqa zonalarda qeydiyyatdan keçmiş müəssisələrə aid olmayacağı göstərilən müqavilələr istisna olunmaqla).

*Qeyri-rezident şirkət*

Qeyri-rezident şirkət statusu o deməkdir ki, bu ölkədə milli vergi qanunvericiliyinin normalarına görə şirkət rezident şirkətlər üçün müəyyən olunmuş vergiqoymaya məruz qalmır. Qeyri-rezident şirkət yalnız fiziki və (və ya) hüquqi şəxslər – qeyri rezidentlər tərəfindən yaradıla bilər. Qeyri-rezident şirkətə bir qayda olaraq, qeydiyyatdan keçdiyi ölkənin vergi rezidentləri ilə fəaliyyət göstərmək qadağandır. Qeydiyyat ölkəsi ərazisindən kənarda olan mənbələrdən gəlir alarkən qeyri-rezident şirkət vergilərə məruz qalmır. Bu statuslu şirkətin qeydiyyat ölkəsində vergiqoyma subyekti olmaması faktı bu şirkətlərə gəlirlərə və əmlaka ikiqat vergiqoymadan qaçmaq haqqında müqavilələrin normalarını tətbiq etmək imkanını istisna edir.

Beləliklə, bir qayda olaraq, heç bir xüsusi vergi statusu olmayan milli şirkətin aldığı gəlirlərə ikiqat vergiqoymadan qaçmaq haqqında beynəlxalq müqavilələrin normaları həmişə tətbiq olunur; xüsusi vergi statusu olan rezident şirkətlərin (milli şirkətlərin) gəlirlərinə bu müqavilələrin normaları tətbiq oluna bilər, lakin tətbiq olunmaya da bilər; qeyri-rezident şirkətlər bu müqavilələrin tətbiq sferasından istisna olunur.

## 1.3. Ofşor şirkətlərin tətbiqi məqsədləri və statusları



downloaded from KitabYurdu.org

Ofşor şirkətlərin başlıca vəzifələri çoxsaylıdır. Güzəştli vergi rejimi olan ofşor mərkəzində və ya zonasında qeydiyyatdan keçmiş müəssisələr praktiki olaraq bir (və ya bir neçə) şəkildə çıxış edə bilər:

- idxal üzrə tədarükçü;
- ixrac üzrə alıcı;
- barter əməliyyatları iştirakçısı;
- vasitəçi – müstəqil agent;
- podratçı;
- əmlak sahibi;
- əmtəə nişanı, müəllif hüquqları sahibi və alıcısı;
- əmtəə nişanı, müəllif hüquqları lisenziyaları;
- daşınmaz əmlakın və avadanlığın lizinq təqdim edəni;
- investor;
- səhm (holdinq) saxlayıcısı;
- bank hesabı saxlayıcısı;
- borc saxlayan;
- öhdəliklər üzrə qarant;
- işəgötürən;
- kreditor;
- borc alan (ssuda götürən);
- gəmi sahibi;
- beynəlxalq ticarət sferasında daşıyıcı;
- sığortaçı;
- etibarlı rəhbər.

*İdxal üzrə tədarükçü*

Əgər ofşor şirkət malların idxalında istifadə olunursa, onda, bir qayda olaraq, qaldırılmış qiymətlər tətbiq olunur ki, bu da ölkə daxilində malını satan müəssisənin vergi qoyulan gəlirini aşağı salmağa imkan verir. Bu modelin öz nöqsanları vardır. İdxal olunan malın qiyməti qaldırılan zaman vergi-qoyma obyekti, malın gömrük dəyəri olduğu zaman vergi və yığımlar üzrə də ödənişlər artır. Bu vergilərə aiddir: gömrük



downloaded from KitabYurdu.org

rüsumları və yığımları, satış üçün ölkə ərazisinə idxal olunan zaman çıxılan əlavə dəyər vergisi.

Ofşor şirkətdən idxal sxemlərində istifadə zamanı adətən mənfəətdən vergi üzrə və gətirilən malın gömrük dəyərindən tutulan vergilər üzrə öhdəlikləri tutuşdurmaq zəruridir.

Lakin bir sıra mallar gömrük rüsumlarından azad ola bilər, bundan əlavə, gömrük rüsumunun çıxılması güzəştli tariflə mümkündür, həmçinin idxal zamanı tutulan əlavə dəyər vergisinə güzəştli dərəcələrin tətbiqi də mümkündür. Axırıncılarda ofşor şirkətdən malların idxalı üçün istifadə son dərəcə səmərəlidir.

Gömrük rüsumlarının güzəştli tarifləri, bir qayda olaraq, inkişaf etməkdə olan ölkələrdən, həmçinin gömrük ittifaqları, assosiasiyaları, birliklərinə daxil olan ölkələrdən mal idxalı zamanı müəyyən olunur. Məsələn, Avropa İttifaqı ölkələrində mallar həmin ittifaqın üzv olan ölkələrdən gətirilirsə, bu zaman sərhədi keçərkən rüsumlardan azaddır.

Vergi sxemlərinin elə variantları da mövcuddur ki, ofşor şirkətin köməyilə idxal olunan malın qiymətinin aşağı salınması həyata keçirilir. Bu o hallarda tətbiq olunur ki, xammalın və ya yarımfabrikatın gələcək emalı güzəştli iqtisadi zonada – mal idxalçısı ölkəsində (azad sahibkarlıq zonasında, azad iqtisadi zonada, mənfəətə vergiqoymanın güzəştli səviyyəsi olan zonada və s.) həyata keçirilir. Konkret idxal qiymətiin aşağı salınması ödənilən gömrük idxalı rüsumlarının məbləğini və malın idxalı zamanı əlavə dəyər vergisini aşağı salmağa imkan verir. Bu zaman malın mənfəətdən vergi üzrə güxəştli zonalarında emalı bəzən beynəlxalq şirkətlər qrupu çərçivəsində (kapitalda qarşılıqlı iştirakla bağlı və ya bir mərkəzdən nəzarət olunan müəssisələrin) vergi öhdəliklərinin ümumi minimumlaşdırılmasının optimal səmərəsinə nail olmağa imkan verir.

*İxrac üzrə alıcı*



downloaded from KitabYurdu.org

Malların ixracı zamanı ofşor şirkətdən istifadə adətən malı son dərəcə aşağı qiymətlə satmağa, sonra isə ofşor şirkət tərəfindən son alıcıya bazar (dünya) qiymətləri səviyyəsində təkrar satmağa imkan verir. Milli ixracatçının mənfəətinə qoyulan vergi bu halda minimal qalır, ixrac zamanı real və endirilmiş qiymət arasındakı fərq gəlirlərə vergiqoymanın güzəştli rejimi və ya sıfır səviyyəsi olan ölkədə qeydiyyatdan keçmiş ofşor şirkətin mənfəətini yaradır.

Beynəlxalq vergi planlaşdırılması sxemləri həmçinin milli istehsalçı-müəssisənin malın ixrac qiymətini qaldırdığı variantı da nəzərdə tuta bilər. Bu cür sxemlər nisbətən nadirdir. Onlardan istifadənin mahiyyəti malın ixracı zamanı milli istehsalçıya qaytarılan və ya hesablanan əlavə dəyər vergisini maksimum qaldırmaqdan ibarətdir. Adətən bu, o hallarda edilir ki, milli istehsalçının mənfəətdən vergiyə o qədər də vergi öhdəlikləri olmasın, lakin əvvəldən ödənilmiş əlavə dəyər vergisinin real əvəzini çıxmaq imkanları olmuş olsun. Aydındır ki, bu cür sxem yalnız o hallarda tətbiq olunur ki, ixrac rüsumlarının dərəcələri nisbətən aşağıdır və ya yalnız bu mal növünə tətbiq edilir.

### *Barter əməliyyatları iştirakçısı*

Barter əməliyyatları iştirakçısı kimi ofşor şirkət yuxarıdakı prinsiplər əsasında istifadə olunur. Lakin bəzi hallarda, mənfəətə vergiqoyma və əlavə dəyər vergisi üzrə milli qanunvericiliyin bəzi xüsusiyyətlərini, həmçinin idxal və ixrac rüsumlarının çıxılması prinsipini nəzərə almaqla, barter üzrə sövdələr ayrıca həyata keçirilən ixrac və idxal sövdələri ilə müqayisədə əlavə üstünlüklərə malik olur.

Bu cür üstünlüklər satış anının müəyyən edilməsi zamanı və müvafiq olaraq, mənfəətdən vergi üzrə vergi öhdəliklərinin meydana çıxması anında, barter əməliyyatları üzrə gömrük dəyərinin müəyyən edilməsinin xüsusiyyətləri ilə əlaqədar olaraq ixrac və ya idxal gömrük rüsumlarının minimumlaşdırılması ilə yarana bilər. Bir qayda olaraq, barter



downloaded from KitabYurdu.org

əməliyyatlarının əlavə üstünlükləri xarici ticarət üzrə həmin ölkələrdə valyuta tənzimlənməsinin və valyuta nəzarətinin sərt qaydalarının müəyyən olunduğu, həmçinin vergi gömrük xidmətləri ilə valyuta nəzarəti orqanları arasında səmərəli qarşılıqlı münasibətlərin olmadığı ölkələrdə mövcuddur.

«Barter ofşor müəssisə»nin tətbiqi sahəsi o zaman xüsusilə geniş ola bilər ki, xarici ticarət əlaqələri eyni zamanda sərt valyuta məhdudiyyətləri və valyuta nəzarəti rejimi müəyyən etmiş bir neçə ölkə arasında həyata keçirilsin. Bu halda ofşor müəssisə beynəlxalq xarici ticarət və valyuta-kredit münasibətlərində faktiki olaraq kliring palatası vəzifəsini yerinə yetirir ki, bu da nəinki vergi öhdəliklərinin həcmlərini aşağı salmağa, habelə xeyli dərəcədə idxalçılarla ixracatçılar arasındakı hesablaşmalarda xərclərin səviyyəsini azaltmağa, vaxtaşırı meydana çıxan borc problemlərini səmərəli tənzimləməyə imkan verir.

### *Vasitəçi – müstəqil agent*

Ofşor şirkətdən vasitəçi – müstəqil agent kimi istifadə olunması əlavə ödənişləri eyni zamanda idxal və ixrac hesabları axınından ayırmaqla həyata keçirməyə imkan verir. Ofşor şirkətin - vasitəçinin tətbiqinin xüsusi sahəsi podrat fəaliyyətin müxtəlif növləridir. Ofşor şirkət – müstəqil agentdən istifadənin ofşor şirkətdən idxalçı, ixracatçı, barter əməliyyatları iştirakçısı kimi istifadədən başlıca fərqi ondan ibarətdir ki, müstəqil agentlə ya hər hansı xidmət göstərilməsi barədə əlavə müqavilə bağlanır (bir qayda olaraq, uyğun kontragentin axtarışı ilə əlaqədar) və ya əsas müqavilədə bu agentin xərclərinin qaytarılmasının xüsusi rejimi müəyyənləşdirilir.

Bu halda idxal üzrə tədarükçü, ixrac üzrə alıcı, hər hansı işlərin yerinə yetirilməsi üzrə podratçı kimi ofşor zonada qeydiyyatdan keçməmiş müəssisə qalır. Bu, bir sıra hallarda ticarət sahəsində beynəlxalq müqavilələrin üstünlüklərindən



downloaded from KitabYurdu.org

səmərəli surətdə istifadə etməyə, həmçinin digər fəaliyyət növləri həyata keçirərkən vergiqoymanın xüsusi şərtlərinə iddia etməyə, yəni gəlirlərə və əmlaka ikiqat vergiqoymadan qaçmaq haqqında müqavilədən istifadə etməyə imkan verir ki, müqaviləyə görə kontragent ofşor şirkət olduğu zaman bunlar tətbiq edilə bilməzdi.

*Podratçı*

Ofşor şirkətdən podratçı kimi istifadə olunduğu zaman, bir qayda olaraq, milli müəssisənin mənfəətinə vergiqoyma zamanı nəzərə alınan xərclərin artırılmasına nail olunur. Başqa sözlə, milli istehsalçının balans mənfəətinin bir hissəsi «alınıb» ofşor zonada qeydiyyatdan keçmiş «ötürücü» müəssisəyə verilir. Bu zaman qanunvericiliklə xərclərin, milli müəssisənin vergi tutulan gəliri müəyyən edilərkən çıxılan kimi müəyyən etdiyi maddələrinə xüsusi diqqət yetirmək lazımdır.

Həmişə yadda saxlamaq lazımdır ki, bir sıra xərclər məhdud ölçülərdə çıxıla bilər. Bu, reklama, nümayəndəliyə və s. xərclər ola bilər.

Digər tərəfdən, bu cür sxemlər qurarkən nəzərə almaq lazımdır ki, ofşor şirkətin podrat fəaliyyəti vergi orqanları tərəfindən həmişə həmin ölkənin ərazisində həyata keçirilən fəaliyyət kimi nəzərdən keçiriləcəkdir ki, bu da öz növbəsində, podrat işlərinin həmin dövlətin ərazisindəki mənbələrdən alınan gəlir kimi təsnifləşdirilməsinə səbəb olacaq. Yəni ofşor müəssisənin – podratçının gəlirləri podrat işlərinin yerinə yetirilməsi zamanı həmin işlərin yerinə yetirildiyi ölkədə vergiqoymaya məruz qalacaq.

Bununla əlaqədar olaraq podrat işlərini həyata keçirən müəssisənin qeydiyyat yeri kimi ikiqat vergiqoymadan qaçmaq haqqında beynəlxalq müqavilənin qüvvədə olduğu ölkə və ərazilər xüsusilə cəlbedicidir. Bir qayda olaraq, inkişaf etmiş dövlətlər ofşor ərazilərlə bu cür müqavilələr bağlamır, lakin hər hansı dövlət müqavilə imzaladıqdan sonra azad iqtisadi zona təsis edə, qeydiyyatdan keçmiş müəssisələr üçün gəlirlərin müəyyən növlərinə güzəştli vergiqoyma rejimi tətbiq edə bilər.



downloaded from KitabYurdu.org

## *Əmlak sahibi*

Ofşor şirkətdən əmlak sahibi kimi istifadə olunduğu zaman ona hər hansı əmlak ya verilir, ya satılır, ya da ilkin olaraq alınır. Ofşor şirkətdən əmlak sahibi kimi adətən aşağıdakı məqsədlər üçün istifadə olunur:

1) borclunun öhdəlikləri üzrə əmlak cərimədən qorunur;

2) vergi öhdəlikləri minimumlaşdırılır.

Ofşor müəssisəyə əmlakın alınması həmin əmlaka şəxsin vergi və ya digər öhdəlikləri üzrə cərimə qoyulması vəziyyətindən qaçmağa imkan verir. Bu tədbirlər adətən daşınmaz əmlakın ayrı-ayrı növləri üçün o hallarda tətbiq edilir ki, bu əmlakın sahibi güman edir ki, əmlaka hər hansı öhdəliklərin yerinə yetirilməməsi səbəbindən (vergilərin verilməməsi, ssudanın qaytarılmaması, cərimə sanksiyaları, ziyan dəyməsi və s.) cərimə qoyula bilər. Qeyd etmək lazımdır ki, bir çox ofşor dövlət və ərazilərin qanunvericiliyində həmin ərazidə qeydiyyatdan keçmiş şirkətin əmlakına cərimələr xüsusi olaraq göstərilir (bu, bir qayda olaraq, yaradılan ticarət və qeyri-ticarət strukturlarından dələduzcasına istifadə hallarıdır). Bununla belə, başqa ölkələrin vergi orqanlarının iradları nəzərə alınmaya da bilər.

Ofşor şirkət – əmlak sahibi vergiqoymanın aşağıdakı növləri üzrə öhdəliklərin minimumlaşdırılması üçün istifadə oluna bilər:

- əmlak vergisi;
- əmlakdan istifadədən gələn gəlirlərə görə vergi;
- əmlakın satışından vergi;
- varislik və hədiyyələrdən vergi.

Müasir şəraitdə əmlaka qoyulan vergilər müxtəlifdir. Vergiqoymanın mövcud sistemləri ayrı-ayrı şəxslərə (fiziki və ya hüquqi) məxsus əmlakın dəyərinə məcmu vergi qoya bilər. Bu halda bir əldə olan əmlakın dəyərinin azalması ya vergi ödəməkdən qaçmaq, ya əlavə güzəştlər və ya vergi qoyulmayan



downloaded from KitabYurdu.org

minimumdan istifadə nəticəsində ümumi vergi öhdəliklərini azaltmaq imkanı verir. Bundan əlavə, mövcud vergi üstünlükləri o zaman meydana çıxa bilər ki, əmlakın sahibi hüquqi şəxs olsun (məsələn, amortizasiya xərcləri).

Fiziki şəxsin əmlakdan istifadədən əldə etdiyi gəlirlər adətən vergi tutulan bazaya ümumi əsaslarla daxil edilir. Bu zaman çox vaxt əmlakdan istifadədən əldə edilən gəlirlərin çıxılması üçün çəkilən xərcləri tam həcmdə çıxmaq imkanı olmur. Əgər əmlak hüquqi şəxsə məxsusdursa, onun əmlakdan istifadədən götürdüyü gəlirlər mövcud qanunvericilik normalarına əsasən bu gəlirlərin çıxılması üçün faktiki gətirilmiş və sənədlərlə təsdiqlənmiş xərclərin məbləği ilə vergi öhdəliklərinin müəyyən edilməsi zamanı azaldıla bilər. Bu zaman çəkilən xərclərin çıxılması qaydaları fiziki şəxslərdən vergi öhdəliklərinin çıxılması zamanı tətbiq olunan analoji qaydalarla müqayisədə daha əlverişlidir.

Bundan başqa, əgər əmlak ofşor müəssisə üçün qeydiyyatdan keçmişdirsə, paralel sövdələrin bağlanması, müxtəlif növ valyuta və xüsusi məhdudiyyətlərdən qaçmaq imkanı mövcuddur.

Əmlakın, xüsusilə də daşınmaz əmlakın satışı zamanı vergilər həddən artıq böyük ölçülərə çata bilər. Bir sıra ölkələrdə daşınmaz əmlakın təkrar satılmasına qadağa və məhdudiyyətlər mövcuddur. Bir qayda olaraq, daşınmaz əmlakın satışı notarial və dövlət qeydiyyatını tələb edir ki, bu da müvafiq rüsum və yığımların ödənişi zamanı böyük xərclərə səbəb olur. Bu cür xərclərdən və məhdudiyyətlərdən qaçmaq üçün adətən sxem istifadə olunur ki, bu sxemə müvafiq olaraq əmlakın özü deyil, bu əmlaka sahib olan şirkət (hüquqi şəxs) satılır. Yəni bu şirkətin 100%-li səhm paketi satılır.

Bu cür sxemlərdən bir çox Qərbi Avropa ölkələrində daşınmaz əmlakın satışı zamanı çox geniş istifadə olunur. Lakin yadda saxlamaq lazımdır ki, bir sıra ölkələrin qanunvericiliklərində, həmçinin gəlir və əmlaka ikiqat vergiqoymadan qaçmaq haqqında ayrı-ayrı müqavilələrdə bu cür sövdələrin baş verməsi imkanlarının aradan qaldırılması üzrə müvafiq mexanizmlər nəzərdə tutulmuş və ya daşınmaz əmlak



downloaded from KitabYurdu.org

obyektlərinə malik olan şirkətlərin səhmləri ilə sövdələrə vergiqoyma üçün xüsusi rejimlər müəyyən edilmişdir.

Ofşor şirkətlər həmçinin vərəsəlik və hədiyyələrə vergi öhdəliklərinin minimumlaşdırılması üçün də istifadə olunur. Ofşor müəssisənin səhmlərinə sahibliklə sxemdən adi istifadə bəzən əmlak sahibi olan müəssisənin səhmlərinin ilkin (və ya balans) dəyərinə bu vergilərin qoyulmasını məhdudlaşdırmağa imkan verir. Əks halda, əgər vergi tutma obyekti vərəsəlik və hədiyyə olunan daşınmaz və başqa əmlakdırsa, mülkiyyət hüququnun başqa şəxsə verilməsi xüsusi notarial və dövlət qeydiyyatı tələb edirsə, milli qanunvericiliyə müvafiq olaraq əmlakın yenidən hesablanması (yenidən qiymətləndirilməsi) tələb oluna bilər. Bu, çox vaxt vergiqoyma bazasının artımına səbəb olur.

Vərəsəlik və hədiyyələr zamanı, həmçinin vergiqoymanın başqa növlərində vergilərin minimumlaşdırılmasının əlavə imkanlarını beynəlxalq trastlar konsepsiyasına əsaslanan sxemlər verir.

### *Əmtəə nişanı, müəllif hüquqları sahibi və satıcısı*

Müəllif hüquqlarının və əmtəə nişanlarının satışı zamanı ofşor şirkət gəliri əmtəə nişanı və ya müəllif hüquqları alıcısının yerləşdiyi ölkənin ərazisindəki mənbələrdən deyil, xarici iqtisadi ticarətdən alır. Əgər ofşor şirkət bu ölkədə daimi nümayəndəliyə malik deyilsə, bu zaman müvafiq ödəniş mənbə yanında vergi tutulmadan həyata keçirilməlidir. Bu şirkət qeydiyyat keçdiyi ölkədə yerli vergi qanunvericiliyinə əsasən gəlirlərdən vergi ödəyir. Müəllif hüquqlarının və əmtəə nişanlarının satışı üçün gəlir və əmlaka ikiqat vergiqoymadan qaçmaq haqqında müqavilənin olmasının heç bir əhəmiyyəti yoxdur.

Müəllif hüquqlarının və əmtəə nişanlarının satılması sxemi adətən nəinki alıcı-müəssisə tərəfindən vergiqoyma bazasına mənfəətə görə vergini azaltmağa imkan verir, həmçinin gömrük rüsumlarının tutulmasından da azad edir (hər hansı başqa mal satıldığı zaman tutulan rüsumlar). Lakin



downloaded from KitabYurdu.org

müəllif hüquqlarının satılması ilə bağlı sxem adətən bir sıra əməliyyatlar və müəyyən xərclərlə bağlıdır. Əmtəə nişanının istifadə hüquqlarının satışı zamanı bu əmtəə nişanı həmin nişanı alanın yerləşdiyi dövlətin norma və qaydalarına uyğun qeydiyyatdan keçməlidir, yəni ixracatçı dövlət rüsumu ödəməklə, əmtəə nişanının qeydiyyatdan keçməsi prosedurunu həyata keçirməlidir. Bu sahədə bir sıra metodoloji və prosedur məqamları sona qədər tənzimlənməmişdir ki, bu da əlavə çətinliklər törədə bilər.

Ofşor şirkətdən müəllif hüquqları sahibi kimi istifadə edilməsinin əsas üstünlüyü ondan ibarətdir ki, müəllif hüquqlarının qiymətinin aşağı salınmasında tərəflər qiyməti razılaşdırarkən heç bir şərtlərlə məhdudlaşdırılmır. Əmtəə satışı zamanı gömrük və vergi orqanları əmtəənin gömrük dəyərinin müəyyən edilməsinin müxtəlif üsullarından istifadə edə bilər ki, bu, müəllif hüquqlarının, patentlərin, əmtəə nişanlarının satışına tətbiq oluna bilməz.

*Əmtəə nişanı, müəllif hüquqlarının lisenziarı*

Ofşor şirkət əmtəə nişanı, müəllif hüquqlarının lisenziarı kimi çıxış edə bilər. Onun əmtəə nişanı (müəllif hüquqları) satışından başlıca fərqi ondan ibarətdir ki, əgər əmtəə nişanından, müəllif hüquqlarından istifadə hüquqları satılan zaman bunlar tamamilə və qaytarılma söhbəti olmadan alıcıya keçirsə, lisenziya verilən zaman onlardan istifadə hüququ lisenziata lisenziya müqaviləsində göstərilən şərtlərlə verilir.

İkinci halda xarici hüquqi şəxs (ofşor şirkət) lisenziat-dövlətin ərazisində passiv iqtisadi fəaliyyətdədir və xarici hüquqi şəxs bu dövlətin ərazisində yerləşən mənbələrdən gəlirlər götürür. Lisenziat tərəfindən ödənilən royalti (lisenziya ödəmələri) lisenziarın ünvanına yalnız lisenziat-ölkədə qüvvədə olan qanunvericilik normalarına müvafiq şərtlərlə həyata keçə bilər (əgər ikiqat lisenziar və lisenziat ölkələr arasında gəlir və əmlaka vergiqoymadan qaçmaq haqqında müqavilənin şərtləri ilə başqa normalar müəyyən edilməmişdirsə). Beləliklə, müəllif hüquqları sahibi olan şirkətin vergi öhdəliklərinin səmərəli



downloaded from KitabYurdu.org

surətdə minimumlaşdırılması üçün onu lisenziat ölkə ilə müvafiq müqavilə inzalamış ölkədə qeydiyyatdan keçirmək lazımdır.

Qeyd etmək lazımdır ki, bir sıra ölkələr xaricə keçirilən müəllif hüquqları və lisenziyalardan gələn gəlirlərə vergi-qoymanı nəzərdə tutmamışdır. Milli vergi qanunvericiliyinə müvafiq olaraq xaricə keçirilən müəllif hüquqları və lisenziya-lardan gələn gəlirlərin vergidən azad edilməsi aşağıdakı ölkələr tərəfindən müəyyən etmişlər: Baham adaları, Barbados (ofşor müəssisələr üçün), Bəhreyn, Belçika (Koordinasiya mərkəzində qeydiyyatdan keçmiş şirkətlər üçün), Bermud adaları, Cəbəllütariq (azad olunmuş şirkətlər üçün), Honkonq, Səudiyyə Ərəbistanı, İsveçrə, Kayman adaları, Qətər, Kipr (ofşor şirkətlər üçün), Küveyt, Lixtenşteyn, Lüksemburq (holdinq şirkətlər üçün), Mavriki, Mali, Malta, Monako, Niderlandın Antil adaları, Niderland, Norveç, Birləşmiş Ərəb Əmirlikləri. Milli qanunvericilik həmçinin əmtəə nişanı və/və ya müəllif hüquqlarından istifadə hüququndan çıxılmaları azad edə bilər. Belə ki, İrlandiyada filmlərdən istifadə hüquqları istisna olmaqla, mənbə yanında əmtəə nişanından və müəllif hüquqlarından istifadə üçün köçürülən çıxılmalar tutulmur, Danimarka və Uruqvay isə filmlərdən istifadə hüquqları istisna olmaqla, müəllif hüquqlarından istifadə üçün köçürülən çıxılmalardan vergi tutmur.

*Daşınmaz əmlakın və avadanlığın lizinq təqdim edəni*

Ofşor şirkətdən lizinq təqdim edən (icarədar) kimi is-tifadə olunan zaman ona hər hansı əmlak satılır, sonra isə icarə müqaviləsi üzrə həmin əmlak başqa şəxslər tərəfindən alınır. Əmlak icarədarı – lizinq alan üçün başlıca fayda ondan ibarətdir ki, lizinq (icarə) ödənişləri mənfəətdən vergi üzrə vergi öhdəlikləri hesablanan zaman çıxılır. Əgər bu müəssisə belə əmlaka malik olmuşsa, bu zaman müvafiq milli qanunvericiliyə əsasən amortizasiya ayırmaları hüququna malik ola bilər. amortizasiya normaları və şərtləri heç də həmişə kifayət qədər



downloaded from KitabYurdu.org

əlverişli olmur. Bundan başqa, müəyyən qaydalara riayət edildikdə, icarədar əmlak vergisini ödəməyə də bilər.

*İnvestor*

Ofşor şirkət vergiqoymanın minimumlaşdırılmasının müxtəlif sxemlərində geniş istifadə olunur. Ofşor şirkət təsisçilərin və ya üçüncü şəxslərin vəsaitlərini cəlb edir və onları qız müəssisələrin (filialların) nizamnamə kapitallarına qoyur. Ofşor şirkətdən investor kimi istifadə aşağıdakı başlıca məqsədləri güdür:

- əmlak idxalı zamanı vergiqoymanı minimumlaşdırmaq;
- ofşor şirkətin qız müəssisəsinin cari fəaliyyətinə vergiqoymanı minimumlaşdırmaq;
- fəaliyyət göstərdiyi ölkədə müəyyən olunmuş ayrı-ayrı qadağa və məhdudiyyətləri aradan qaldırmaq.

*Səhm saxlayıcısı (holdinq)*

Ofşor şirkətin qız müəssisəsinin (holdinqin) səhm saxlayıcısı kimi vəzifəsi ofşor şirkətin investor kimi vəzifəsilə eynidir. Beynəlxalq vergi planlaşdırılmasının bəzi sxemlərində bəzən vəsaitləri qız müəssisənin nizamnamə kapitalına qoymaq, sonra isə ana şirkətin başqa vergi yurisdiksiyasında olan səhmlərini təkrar satmaq və yaxud ləğvetmə yolu ilə ara həlqəni aradan götürmək məqsədəuyğundur. Başqa sözlə, investisiya qoyulması vəzifəsi (qız müəssisənin nizamnamə kapitalına pay qoyulması) və holdinq vəzifəsi (qız müəssisənin səhmlərinə sahiblik) yaradılan beynəlxalq sxemin konkret məqsəd və vəzifələrindən asılı olaraq müxtəlif şirkətlər tərəfindən yerinə yetirilə bilər. Adətən bu kimi manevrlər ya qeydiyyat ölkəsinin, ya fəal iqtisadi fəaliyyət göstərən ölkənin daxili vergi qanunvericiliyində dəyişikliklər edildiyi zaman, yaxud da ikiqat vergiqoymadan qaçmaq haqqında müqavilənin şərtlərinə yenidən baxılarkən həyata keçirilir. Bu cür sxemlər o zaman



downloaded from KitabYurdu.org

xüsusilə səmərəli olur ki, nizamnamə kapitalına qoyulanlar daşınmaz əmlak obyektləri, bahalı avadanlıq komplektləri olmuş olsun.

Əgər ofşor şirkət – investor avadanlıq idxalı (nizamnamə kapitalına pay) zamanı vergi güzəştlərinə oriyentasiya ilə qeydiyyatdan keçirsə, müəssisənin ilkin inkişaf mərhələsi üçün holdinq şirkəti təsis etməkdən ötrü kapitalın maneəsiz olaraq qız cəmiyyətdən ana şirkətə keçməsinə xüsusi diqqət yetirilir. Başqa sözlə, holdinq adətən investisiyalarla uzunmüddətli idarəetmə, maliyyə axınları sxemlərinin optimal qurulması üçün yaradılır.

Bank hesabının saxlayıcısı kimi ofşor şirkət potensial istifadəçilərin, valyuta tənzimlənməsinin və valyuta nəzarəti qaydaları sərt olan ölkələrin diqqətini cəlb edir. Adətən bu cür şirkətlər, aşağı maya dəyərli şirkətlər olan ofşor mərkəzlərdə təsis edilir. Bu cür sxemin yaradılması zamanı başlıca problem ondan ibarətdir ki, sərt valyuta tənzimlənməsi ölkələrində kapitalın lisenziyasız ixracı qadağandır. Rusiya bu ölkələr sırasına aiddir.

*Girov saxlayıcısı*

Ofşor şirkət – girovsaxlayıcı statusu adətən o hallarda tətbiq olunur ki, bu və ya başqa səbəblərdən ofşor şirkətin əmlakının satışı mümkün deyil və ya məqsədəuyğun deyil. Sxemin mahiyyəti ondan ibarətdir ki, girov qoyanın ofşor şirkət qarşısında hər hansı öhdəliklərini təmin etmək üçün onun əmlakı ofşor şirkətə verilir. Ofşor şirkətin borclu şirkətin üçüncü şəxslər qarşısında öhdəlikləri üzrə qarant olduğu variantlar da məlumdur. Bu cür sxemlər adətən ofşor şirkət tərəfindən borclunun öz öhdəliklərini yerinə yetirmədiyi zaman girov predmetini götürmək barədə müraciətinin şərtlərini nəzərdə tutur.

Bundan başqa, ofşor şirkət həmçinin ara girovsaxlayıcı, yəni əmlakın kreditora verilməsi üçün də istifadə oluna bilər.



downloaded from KitabYurdu.org

*Öhdəliklər üzrə qarant*

Ofşor şirkət öhdəliklər üzrə qarant kimi o zaman tələb olunur ki, kreditor kimi xarici bank çıxış edir və onun üçün milli müəssisənin hər hansı zəmanəti kifayət deyil. Bir çox ofşor banklar təsisçilər tərəfndən müvafiq əmlak verilmiş ofşor şirkətin qarant kimi çıxış etdiyi sxemləri üstün tuturlar. Bir qayda olaraq, bu cür şirkətin aktivləri ofşor kreditor - bankın depozitlərində yerləşdirilir. Milli müəssisə faizlər üzrə vergiləri ödəmədikdə və ya əsas borcun qaytarılması üzrə öhdəlikləri yerinə yetirmədikdə bu bank ofşor şirkət – qarantın depozitinə cərimə qoyur.

*İşəgötürən*

Ofşor şirkətlər – işəgötürənlər (iş heyətinin muzdla götürülməsi) ənənəvi olaraq beynəlxalq daşınmalar sahəsində istifadə olunur. Son onilliklər ərzində bu şirkətlərin tikinti və quraşdırma işlərində, beynəlxalq ticarətdə, turizmdə, bank işində, sığorta və bir çox başqa sahələrdə xidmətinə tələb artmışdır. Adətən sxem bu cür qurulur: paralel olaraq işçi ilə iki müqavilə bağlanır. Biri – milli şirkətlə, digəri – işçi heyətin tutulması üzrə ofşor şirkətlə. Birinci müqavilə üzrə minimal zəruri xərclər nəzərdə tutulur, mükafatın digər hissəsi ofşor şirkətlə müqavilə üzrə ödənilir. Bu cür sxemdən istifadə aşağıdakı vergi növləri üzrə cari öhdəlikləri minimumlaşdırmağa imkan verir:

- əmək haqqı fondundan götürülən vergi və yığımlar;
- işəgötürənlərdən sosial sığortaya çıxılan üzvlük haqları;
- müzdlu işçilərdən sosial sığortaya çıxılan haqlar;
- fiziki şəxslərin gəlirlərindən vergi;
- müxtəlif növ xüsusi yığımlar.

Qeyd etmək lazımdır ki, bu cür sxemlər düzgün tətbiq olunmadıqda çox vaxt vergi qanunvericiliyi və valyuta nəzarəti normalarına zidd çıxır. Muzdlu işçilərin işə götürülməsi ilə



downloaded from KitabYurdu.org

şirkətlərlə sxemin hazırlanması müvafiq mütəxəssislərin cəlb edilməsi ilə həyata keçirilməlidir.

*Kreditor*

Ofşor şirkət – kreditor kapitalın fəaliyyət ölkəsinə yerləşdirilməsi üçün istifadə olunur. Nizamnamə kapitalına investisiya qoyulması ilə müqayisədə kreditin bir sıra üstünlükləri mövcuddur. Başlıca üstünlük vəsaitlərin istənilən anda köçürülməsidir, belə ki, vəsaitlərin qız müəssisənin nizamnamə kapitalına daxil edilməsi üçün çox vaxt nizamnamə kapitalının artımı haqqında qərarın qəbul edilməsi, təsliqi və qeydiyyatı vacibdir. Bundan başqa, nizamnamə kapitalının həddindən artıq artımı antiinhisar orqanlarla, bu sahədə (bank işi, sığorta, investisiya və s.) fəaliyyətə nəzarət edən xüsusi idarələrlə əlavə razılaşmalar tələb edə bilər. Nizamnamə kapitalına əlavə vəsaitlərin daxil edilməsi yalnız səhmdarlar tərəfindən mümkündür, müəssisənin kreditləşməsi isə hər hansı üçüncü şəxslər vasitəsilə həyata keçirilə bilər.

Vəsaitlərin qız müəssisənin nizamnamə kapitalına investisiyası zaman vəsaitlərin əks köçürülməsi imkanları məhdudlaşır. İnvestisiya qoyuluşları zamanı vəsaitlərin qaytarılmasının başlıca üsulu dividendlərin ödənilməsidir, lakin qız müəssisənin ölkəsinin milli qanunvericiliyin xüsusiyyətləri bu cür köçürülməyə maneçilik törədə bilər, belə ki, mənfəət olmadıqda heç də həmişə dividend ödənilməsi imkanları olmur.

Vəsaitlərin kredit və faizlərlə qaytarılması formasında köçürmənin əsas vergi üstünlüyü dividendlərin köçürülməsi ilə müqayisədə ondan ibarətdir ki, kreditin və müvafiq faizlərin qaytarılması prosesi müəssisənin gəlirinə mənfəətdən vergi üzrə vergiqoymaya qədər aparılır. Bu zaman ödənilmiş faizlərin məbləği vergiqoyma bazasının azalmasına aid ola bilər. Rusiya şəraitində ödənilmiş faizlərin məbləği Mərkəzi bankın yenidən maliyyələşdirmə dərəcələri ölçüsündə olan maya dəyəri üstəgəl 3 faiz bəndinə aid edilir. Dividendlər isə müəssisənin mənfəət vergisi ödənildikdən sonra yalnız xalis mənfəətindən ödənilir.



downloaded from KitabYurdu.org

Bundan əlavə, faizli gəlirə vergiqoyma rejimi, bir qayda olaraq, dividendlərə analoji vergiqoyma rejimi ilə müqayisədə daha güzəştlidir. Ədalət naminə qeyd etmək lazımdır ki, investisiya qoyuluşlarının qaytarılması yalnız dividendlərin bölüşdürülməsi yolu ilə deyil, başqa üsullarla da həyata keçirilə bilər. Məsələn, müəllif hüquqları və lisenziyalar üzrə hesablar, avadanlığın icarəsi üzrə hesablar, ana və qız müəssisələr arasında idxal-ixrac müqavilələri vasitəsilə, həmçinin başqa yollarla həyata keçirilə bilər.

Milli vergi qanunvericiliyinə müvafiq olaraq, istənilən ssudalar üzrə faizlər mənbə yanında xaricə köçürmə zamanı vergi qoyulmadan aşağıdakı ölkələrdə ödənilə bilər: Avstriya, Baham adaları, Barbados (ofşor müəssisələr üçün), Bəhreyn, Belçika (Koordinasiya Mərkəzində qeydiyyatdan keçmiş şirkətlər üçün), Bermud adaları, Britaniyanın Virciniya adaları, Almaniya, Cəbəllütariq (azad şirkətlər üçün), Honkonq, Danimarka, İran, İrlandiya (Beynəlxalq Maliyyə Mərkəzində qeydiyyatdan keçmiş şirkətlər üçün), Kayman adaları, Qətər, Kipr (ofşor şirkətlər üçün), Küveyt, Lüksemburq (holdinq şirkətlər üçün), Mavriki, Malta, Monako, Niderlandın Antil adaları, Norveç, Birləşmiş Ərəb Əmirlikləri, Oman, Puerto-Riko, Səudiyyə Ərəbistanı, Uruqvay, Finlandiya, Fransa, İsveçrə, İsveç, Ekvador, Cənubi Afrika Respublikası.

Banklara (bank fəaliyyətini həyata keçirmək üçün lisenziyası olan şirkətlər) ödənilən ssudalar üzrə faizlər vergiqoymadan azad edilir, başqa müəssisələrin ssudalar üzrə faizləri aşağıdakı ölkələrdə vergiqoymaya məruz qalır: Qvatemala (vergi dərəcəsi – 10%), Kosta-Rika (15%), Nikaraqua (22,5%), Salvador (20%), Türkiyə (12%), Estoniya (26%).

Xaricə gəlir faizi köçürülən zaman aşağıdakı ölkələrdə müxtəlif vergi dərəcələri müəyyən edilmişdir: Venesuela (bankların ssudaları üzrə ödənilən faizlər – 5% və başqa müəssisələrin ssudaları üzrə faizlər – 32,3%), Meksika (15% və 35%), Yeni Zelandiya (2% və 15%), Tunis (2,5% və 20%), Çexiya (15% və 25%), Çili (4% və 35%).

Digər ölkələrdə gəlirin bu növündən mənbə yanında bir qayda olaraq, 10%-dən 25%-ə qədər dərəcələr üzrə vergi tutulur. Lakin elə ölkələr də vardır ki, bu səviyyə çox yüksəkdir. Xüsusilə, Yunanıstanda hər hansı faiz gəliri üzrə vergi dərəcəsi mənbə yanında 40%, Misirdə 32%, Kolumbiyada



downloaded from KitabYurdu.org

39,5%, Yamaykada 33,3%-dir. Mənbə yanında Venesuelada vergi dərəcəsinin müxtəlif səviyyələri (banklara ödənilən faizlər üzrə 5%, başqa müəssisələrə ödənilən faizlər üzrə 32,3%), Meksikada (15% və 35%), Çilidə (4% və 35%) müəyyən edilmişdir.

### *Borclu (ssuda alan)*

Ofşor şirkət borclu (ssuda alan) kimi vəsaitlərdən istifadə imkanlarının genişlənməsi, həmçinin hər hansı başqa sxemin elementi kimi tətbiq edilə bilər. Ofşor şirkət vəsaitləri aşağı faizlərlə cəlb edib həmin şəxsə və ya üçüncü şəxsə yüksək dərəcələrlə verməklə mənfəətdən gəlir üzrə vergiqoyma bazasının aşağı salınmasına kömək edir. Yüksək səviyyədə faiz ödənilməsi sxemləri geniş yayılmışdır. Əgər ofşor şirkət faiz gəlirinin ödənişi zamanı mənbə yanında vergi tutmalı deyilsə, onda bu gəliri alan üstünlüklərə malik olur. Bu üstünlüklər ondan ibarətdir ki, fəal iqtisadi fəaliyyətdən gələn gəlirə vergiqoyma ilə müqayisədə alınan faiz gəlirinə adətən daha güzəştli vergiqoyma rejimi tətbiq edilir.

Ofşor şirkətlər borclu kimi bu və ya digər səbəblərdən kontragent-müəssisələrin qarşılıqlı əlaqələrini bəyan etmək sərfəli olmadıqda istifadə olunur, yəni ofşor şirkətdən vəsaitlərin maliyyə-sənaye qrupunun daxilində bölüşdürülməsi üçün istifadə olunur. Bu zaman borclunun və kreditorların aksiyaları birləşdirilir.

Borclu və kreditor kimi həm bank (bank fəaliyyətini həyata keçirmək üçün lisenziyası olan şirkət), həm də adi ofşor şirkət çıxış edə bilər. Milli vergi qanunvericiliyinin xüsusiyyətlərindən və ikiqat vergiqoymadan qaçmaq haqqında mövcud müqavilələrin normalarından asılı olaraq, bu sxemdə bankdan istifadə əlavə üstünlüklər verə bilər.



downloaded from KitabYurdu.org

# II FƏSİL
# BAZA OFŞOR ŞİRKƏTLƏRİ

2.1 Baza ofşor şirkətlər vergilərin minimumlaşdırılmasında əsas həlqədir
2.2 Ofşor şirkətlər və onların vergilərin azaldlmasnda rolu
2.3. Rank Xerox transmilli qrupunun təqribi strukturu
2.4 Vergilərin planlaşdırılmasının əsasları
2.5. XİF-in ayrı-ayrı növləri üçün vergilərin planlaşdırılması
2.6. Mallarla ixrac-idxal əməliyyatları. Ticarət-alqı baza şirkətləri.
2.7. Vergi siyasətinin müasir istiqamətləri və problemləri

## 2.1. Baza ofşor şirkətlər vergilərin minimumlaşdırılmasında əsas həlqədir



downloaded from KitabYurdu.org

Transmilli korporasiyanın müxtəlif səviyyəli həlqələri arasında əməliyyatları əlaqələndirən və transmilli qrupun strukturuna daxil olan ofşor şirkətlər baza ofşor şirkətlər adlanır. Baza ofşor şirkət anlayışı ümumi istifadə olunan kateqoriyadır. İlk dəfə olaraq bu kateqoriya 1962-ci ildə Amerika qanunvericiliyində öz əksini tapmışdır.

Aşağıdakı sxem baza şirkətlərin əməliyyatlarının xarakteri haqqında təsəvvür yaradır.

***Sxem 1.***






downloaded from KitabYurdu.org




Baza şirkətlərin aşağıdakı tipləri var:

- öz əməliyyatlarını yalnız üçüncü ölkədə aparan **kombinə edilməmiş şirkətlər;**
- yalnız üçüncü ölkələrdə deyil, həmçinin yerləşdiyi ölkədə də əməliyyatlar aparan **kombinə edilmiş baza şirkətlər.**

Rezident ölkənin nəzarət edən şirkətinə münasibətdə baza şirkətləri aşağıdakı iki yerə ayrılır:

1. Qız cəmiyyətləri arasında əməliyyatlar aparan, rezident ölkə ilə onların səhmlərinə nəzarət edən baş ana şirkətlə əlaqəsi olmayan **ənənəvi tipli baza şirkətləri**;

**Sxem 2.**

***Ənənəvi tipli baza şikrətlərin əməliyyatlarının strukturu.***




downloaded from KitabYurdu.org

2. Nəzarət edən səhmdar – ana şirkətlərin yerləşdiyi rezident ölkələrin şirkətləri arasında əməliyyatlar apara bilən, həmçinin rezident ana şirkətlər və qız şirkətlər arasında əlaqələrə vasitəçilik edən **qeyri-ənənəvi tipli baza şirkətləri**.

**Qeyri-ənənəvi tipli baza şirkətlərinin əməliyyatlarının strukturu**




downloaded from KitabYurdu.org

Transmilli korporasiyalarda vergi yükünün azaldılmasında baza şirkətləri xüsusi rol oynayır. Onlar səhmləri bir ölkədən başqa ölkəyə aparır, investisiyalara görə mənfəəti digər ölkələrə paylayır, yəni mənfəətin təkrar investisiyalaşdırılması adı altında başqa ölkələrə kapital axıdılır və s. Əməliyyatlarda başlıca məqsəd səhmlərə nəzarət edən ana cəmiyyət tərəfindən ödəniləcək vergilərin minimumlaşdırılmasıdır ki, bu əməliyyatlarda transmilli korporasiyaların strukturlarına daxil olan ofşor zonalarda yaradılan baza şirkətlər də mühüm əhəmiyyətə malikdir.

## 2.2 Ofşor şirkətlər və onların vergilərin azaldlmasnda rolu

1. İkinci sıra üzrə fəaliyyət göstərən şirkətlər ofşor aktivliyi ilə seçilən klassik formalardır və belə firmalar əsasən aşağı vergi səviyyəli və ya vergi güzəştləri olan ölkələrdə yaradılır. Şirkətlərin fəaliyyətlərinin ofşor mexanizmini şərh etmək üçün *ofşor biznes və ofşor şirkətlər* anlayışlarının mahiyyətini şərh etmək lazımdır.

Məlumdur ki, *ofşor biznes* – şirkətlərin yerləşdiyi və qeydiyyata alındağı ölkələrdən kənarda mövcud olan maliyyə-təsərrüfat fəaliyyətidir. Ofşor əməliyyatlarla məşğul olan



downloaded from KitabYurdu.org

şirkətlər müəyyən hüquqi ünvanda yerləşdiyi halda, bütün fəaliyyətini üçüncü ölkənin şirkət-rezidenti ilə aparır və öz hüquqi ünvanı ilə mövcud olan rezidentlə heç bir əməliyyat aparmır. Belə növ fəaliyyət forması məntiqi şəkildə göstərilən sxemdə transmilli şirkətlərin piramidal quruluşunda öz əksini tapmışdır. Həqiqətən, orta həlqənin şirkətlərinin (kompaniya – müşayiət edən) birbaşa istehsalla xidmət və digər fəaliyyət forması ilə əlaqəsi yoxdur. Bütün istehsal, xidmət və digər fəaliyyət forması ilə ikinci, üçüncü sırada yerləşən ofşor hüquqlu şirkətlər məşğul olur.

Ofşor yurisdiksiyalar – bu elə ölkələrdir ki, onlar öz ərazilərində belə şirkətləri aşağıdakı şərtlərlə qeydiyyata alırlar; onların fəaliyyəti yerləşdiyi ölkə ilə əlaqədar olmayacaq, daha doğrusu, şirkətin bütün gəlirləri ofşor yurisdiksiyasından kənarda olacaq və bu gəlirləri investisiyalaşdıran üçüncü ölkə olacaq. Əksər ofşor yurisdiksiyaların qanunauyğunluqlarının əsasında ingilis-sakson mənşəli qanunların normaları durur. Belə ki, şirkət, dünyanın bütün ölkələrində müxtəlif mənbələrdən alınan bütün gəlirlərinə uyğun vergini şirkətin inkorporasiya edilmiş ölkəsinə ödəyir.

Ofşor şirkətlərin təsisçiləri üçün başlıca məqsəd əksər ofşor yurisdiksiyaların ofşor statuslu şirkətlərə minimum gəlir vergisi təklif edən və rezidentlik prinsipi ilə alınan vergilərin minimumlaşdırılmasından ibarətdir.

Qeyd etmək lazımdır ki, yalnız ofşor əməliyyatlar güzəştli vergi ödəmə hüququ verir. Ofşor şirkətlər hansı ölkədə qeydiyyata alınmışsa, həmin ölkənin ərazisində fəaliyyətə başlayırsa, bu fəaliyyətdən əldə olunan gəlirə ofşor olmayan profilli rezidentlərin – şirkətlərin gəlirlərilə tətbiq olunan anoloji vergi tətbiq olunur. Belə vergi dərəcələri ofşor şirkətlərin güzəştli vergi ödəmə rejimindən əhəmiyyətli dərəcədə çox ola bilər.

Öz ərazilərində ofşor şirkətlər yaradan dövlətlər də udurlar: xarici investorları cəlb edir, infrastruktur elementləri yaradır, yerli əhalinin işlə təmin edilməsinə kömək edir, belə ölkələrin büdcələri ofşor şirkətlərin hamısı üçün məcburi olan çox da böyük olmayan vergilər formasında daimi əlavə gəlir



downloaded from KitabYurdu.org

alır. Uyğun olaraq onların sayı və əməliyyatlarının həcmi artdıqca vergi daxilolmaları da artır.

Ofşor şirkətlər iki statusa malik olur:

1. qeyri-rezident statuslu ofşor şirkətlər;
2. vergidən azad olunmuş statuslu rezident şirkətlər.

Qeyri-rezident ofşor şirkətlərin statusu ona əsaslanır ki, bu yurisdiksiyada qeydə alınmış şirkət, bu ölkə daxilində heç bir əməliyyat aparmır və xaricdən xarici direktor tərəfindən idarə olunur. Yalnız kağız üzərində mövcul olan belə faktiki statusa malik olan şirkətlər onun köməyi ilə TMK firmadaxili quruluşunda tamamilə leqal əsaslarla maliyyə əməliyyatları apara bilir.

Qeyri-rezident ofşor şirkətlərə İsveçrənin domisiar şirkətlərini misal göstərmək olar. Domisiar şirkət - İsveçrədə vergi domisisi vardır, daha doğrusu, bütün ölkələrdə bütün əməliyyatlardan əldə edilən gəlirdən İsveçrənin vergi ödəyicisidir.

Beləliklə, domisiar şirkətin İsveçrə ərazisində ofisi ola bilməz və İsveçrənin özündə bu və ya digər kommersiya fəaliyyəti həyata keçirməyə hüququ yoxdur. Mahiyyət etibarilə bu şirkət poçt qutusudur, bütünlüklə xaricdən idarə olunur.

Qeyri-rezident ofşor şirkətlər əsas vergiləri ərazi prinsipi üzrə öz gəlirlərinin yaranma mənbəyi olan ölkələrdə ödəyir. Öz yurisdiksiyalarında şirkətlər faktiki olaraq gəlir vergisindən azaddırlar və ya bu vergi dərəcəsi kəmiyyətli dərəcədə aşağıdır, İsveçrədə olduğu kimi yalnız qeydiyyat rüsumunu və illik qeydə alınmış vergini ödəyir. Beləliklə, firmanın qeydə alındığı yurisdiksiyada transmilli qrupun rezidentlik prinsipi üzrə gəlirini vergidən azad və ya üzərinə vergi qoyulmayan məbləğdə cəmləşdirmək olar.

Ofşor şirkətlərə o zaman vergidən azad olunmuş rezident şirkət statusu verilir ki, o qeyri-rezidentə məxsusdr və yerli direktorlar vasitəsilə idarə olunur, bu yurisdiksiyanın ərazisində öz ofisi var və ofşor əməliyyatlar həyata keçirir. Rezident şirkətlərə yalnız ofşor əməliyyatlardan gəlir vergisindən azad olmaq, vergi ödəməkdən azad olmaq imkanı verilir. Belə şirkətlər, həqiqətən həmçinin qeydə alınmış dərəcə



downloaded from KitabYurdu.org

üzrə və ya azaldılmış dərəcə üzrə gəlir vergisini ödəyir. Bununla bərabər, şirkətin öz əməliyyatlarının müəyyən hissəsinin aparılmasını korporasiyanın başqa ölkələrdə yerləşən strukturlarına keçirmək hüququ var, məsələn, başqa ölkələrdən onun aldığı gəliri investisiyalaşdıra bilər. Ölkədə qeydə alınmış belə şirkətlərə münasibətdə mənbədən gəlir əldə olunduğu halda daxili, gəlir vergisinin güzəştsiz dərəcəsinin tətbiq olunması zəruridir.

Məsələn, əgər Kiprin rezident ofşor şirkəti başqa ölkələrdən aldığı gəlirə görə 4,25% vergi ödəməlidirsə, Kiprdən əldə etdiyi gəlirdən mövcud olan dərəcə ilə 25% vergi ödəməlidir.

Ofşor şirkətlərin fəaliyyətinin və təşkil olunmasının ümumi prinsiplərindən aşağıdaıları qeyd etmək olar.

1. İnkorporasiyanın yurisdiksiyasında zəruri olan qeydə alınmış ofis. Ofisin yerləşdiyi ünvan şirkətin hüquqi ünvanı adlanır. Bu ofisdə firmanın maliyyə sənədləri saxlanılır, ofis hökumətin rəsmi sorğularına cavab verməyə hazır olmalıdır.

İnkorporasiyanın ölkə ərazisində ofisinin olmasına icazə verilməyən qeyri-rezident şirkətlər ofşor şirkətin hüquqi ünvanı olacaq fiziki şəxs (və ya rezident şirkət) qismində vasitəçi kimi istifadə olunur. Şirkətin faktiki fəaliyyətini isə istənilən yerdən, o cümlədən xaricdən də koordinasiya və idarə etmək olar.

2. Nizamnamə kapitalı. Onun həcmi bir sıra amillərdən asılıdır (təşkil olunan şirkətin forma və növündən, inkorporasiyanın yurisdiksiyasından və s.). Qanunauyğun olaraq, Avropa ölkələrində ofşor şirkət-korporasiyalar qeydiyyata almaq üçün ən az kapital əhəmiyyətli dərəcədə, 10 000 dollardan çoxdur. Eyni vaxtda Karib regionunda, Asiya-Sakit okean regionunda ofşor şirkətlərin yaradılması üçün daha yumşaq şərait yaradlmışdır. Nizamnamə fondu 1000 dollardan çox deyildir.

3. Həmin yurisdiksiyanın qanunvericiliyinə uyğun olaraq şirkətin səhmlərinin bölüşdürülməsi həyata keçirilir, tələb olunur ki, səhmlərin müəyyən hissəsi yurisdik ofşor vətəndaşa – fiziki şəxsə aid olsun.

4. Ofşor şirkətlərin idarə edilməsi.



downloaded from KitabYurdu.org

Şirkətin nominal və real mülkiyyətçisi prinsipial əhəmiyyət kəsb edir. Ofşor şirkətin müdiri xalis nominal ola bilər, idarəetmənin özü isə telekommunikasiya sisteminin köməyi ilə yerli direktorlar vasitəsi ilə firmanın həqiqi yaradıcı şəxsi tərəfindən həyata keçirilir. Ofşorların yurisdiksiyalarında firmaların idarə olunmasında yerli direktorlardan və işçilərdən istifadə olunması zəruridir, beləliklə, yerli əhalinin işlə təmin olunması və gəlir əldə etməsi probleminə kömək olunmuş olur. Direktorların nominal statusuna baxmayaraq, onlar ofşor şirkətlərin fəaliyyətinə cavabdehdirlər, ona görə də istənilən halda əməliyyat kursuna transmilli qruplar daxil edilir. Bununla yanaşı, ofşor şirkətlərin yerli direktorlarının firmanın bank hesabına girmək, transmilli korporasiyanın maliyyə səhmlərinin içində real nəzarət etmək imkanı vardır.

5. Şirkətin hesabatı – hesabdarlığı TNK təşkilatı quruluşu olan ofşor şirkətlər onlardan yuxarıda duran həlqələr qarşısında özlərinin maliyyə balansı, iş fəaliyyəti və s. haqqında hesabat təqdim etsin və onlar TNK balansında cəmləşdirilir. Açıq hesabata gəldikdə isə bir sıra ofşor yurisdiksiyalarda heç də zəruri deyildir. Başqa halda maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin həqiqiliyi, dəqiqliyi üçün müstəqil auditin yekun rəyini tələb etmək olar.

6. Qeydiyyatın qiyməti. Hər illik qeydə alınmış vergini (vergi güzəştləri) illik kompensasiya qeydiyyatına və şirkətin qeydə alınmasına görə haqqı özündə birləşdirən inkorporasiyanın qiymətidir.

## 2.3. Rank Xerox transmilli qrupunun təqribi strukturu

Məlumdur ki, Rank Xerox transmilli qrupu ABŞ-ın Xerox Corporation və Böyük Britaniyanın Orqanization Pic baş şirkətləri tərəfindən birlikdə nəzarət olunan orta həlqədə dörd ana şirkətdən ibarətdir. Xerox Corporation orta həlqədə yerləşən dörd ana şirkətinə tam nəzarət edir. Öz növbəsində oxşar formal olan qrup Rank Xerox-u yaradırlar (Rank Xerox Proforma Group). Daha sonra Rank Xerox qrupu üçüncü sı-



downloaded from KitabYurdu.org

ranı əmələ gətirən 50-yə qədər regional qız cəmiyyətlərdən ibarətdir.

Qrupun bütün strukturunu aşağıdakı kimi təsəvvür etmək olar:

**Sxem 4.**

## RANK XEROX transmilli qrupunun strukturu

| XEROX CORPORATİON ABŞ | THE RANK ORGANİZATİON PİC | BAŞ ŞİRKƏTLƏR |
|---|---|---|

| RANK XEROX PROFORMA GROUP | SUBHOLDİNQLƏR |
|---|---|
| -Rank Xerox Limited, Böyük Britaniya | -Avropa, Afrika və müəyyən qədər Asiyada marketinq və lizinq əməliyyatları.<br>- Böyük Britaniya, Fransa və İspaniyada istehsal |
| -Rank Xerox Holdinq BV Niderland | -Niderlandiyada istehsal |
| -Rank Xerox İnvestment Ltd. Bermud adaları | - Şimali Afrikada marketinq və istehsal əməliyyatları və orta Şərqdə marketinq əməliyyatları |
| -Rank Xerox Holdinq ltd Bermud adaları | - Çində müştərək müəssisələr əməliyyatları |

| Marketinq əməliyyatları / Qız şirkətləri | İstehsal-mühəndis vəelmi-tədqiqat mərkəzləri | Müştərək assosiasiya olunmuş müəssisələr |
|---|---|---|
| Avstriya, Belçika, Bolqarıstan, Böyük Britaniya, Macarıstan, Yunanıstan, Honkonq, Danimarka, Misir, İrlandiya, İspaniya, İtaliya, Keniya, Çin, Mərakeş, Nigeriya, Norveç, Polşa, Portuqaliyva, Rusiya, Rumıniya, Finlandiya, Solvakiya, Türkiyə, Ukrayna, Fransa, AFR, Çexiya, İsveçrə, İsveç | -Böyük Britaniya<br>-İspaniya<br>-Niderland<br>-Fransa | Fuli Xeox Co Ltd<br>- Avstriya, Yeni Zelandiya, Koreya Respublikası, Sinqapur, Tailand, Tayvan, Filippin, Yaponiya<br><br>Modi Xerox Limiteb<br>- Hindistan |

Sxem 4-dən göründüyü kimi, baş holdinq şirkət qrupu Rank Xerox əsas istehsal, tədqiqat və xidmət profilli əsas



downloaded from KitabYurdu.org

şirkətlərə birbaşa deyil, vasitəçi funksiyasnı yerinə yetirən aşağıdakı dörd ana cəmiyyətləri (Rank Xerox Proforma Group) vasitəsilə nəzarət edir. Həmin ana cəmiyyətlər isə ofşor yurisdiksiyalarda (Böyük Britaniya, Niderland, Baham adalarında) yerləşmişdir. Belə struktur firmadaxili strukturda bütün maliyyə əməliyyatlarından daha səmərəli istifadə edilməsinə və öz yerləşdiyi ölkədə gəlir vergisinin minimumlaşdırılmasına imkan verir. Sxemdən həmçinin heç olmazsa, dörd şirkətdən Rank Xerox Proforma Group, üçüncü ofşor əməliyyat olduğu görünür ki, bu da onları baza ofşor şirkət adlandırmağa imkan verir.

## 2.4. Vergilərin planlaşdırılmasının əsasları

Dünyanın bir çox ölkələrində vergi ödəyicisi rezidentlərin xaricdə və həmçinin xarici hüquqi şəxsin öz ölkəsində fəaliyyətini nizamlayan vergi qanunları mövcuddur. Müxtəlif ölkələrdə müxtəlif vergi sisteminin mövcud olmasına baxmayaraq, onlar arasında zəruri və prinsipial qarşılıqlı anlaşılma mövcuddur.

Vergi ödəyicisi hansı hüquqi ünvanda yerləşərsə, həmin ölkə vergiyə cəlb olunan məbləğin hamısının həmin ölkədə ödənilməsini tələb edə bilər. Bununla yanaşı, vergi ödəyicisi gəlir əldə etmək üçün digər ölkələrdəki fəaliyyətlə əlaqədar göstərməli, götürdüyü gəlirdən vergi ödəməlidir. Buna görə də müasir vergi ödəyicilərinin tez-tez üzləşdikləri ikili vergi ödəmə problemləri meydana çıxır. Müasir mərhələdə istehsalın beynəlmiləlləşdirilməsi, bir ölkə çərçivəsindən kənara çıxması, dünya ticarəti ikili vergi tutulması ilə əlaqədar problemləri ön plana çəkmişdir.

Məlumdur ki, XXI əsrin başlanğıcı qapalı iqtisadiyyatı sevmir. Beynəlxalq iqtisadi əlaqələr adi hala çevrilmişdir. Müəssisə və təşkilatlar tez-tez xarici partnyorlarla əlaqəyə girir, xaricdə gəlir əldə etmək üçün fəaliyyət göstərirlər. Beləliklə də,



downloaded from KitabYurdu.org

ikiqat vergitutma beynəlxalq iqtisadi münasibətlərdə öz həllini axtaran başlıca problemə çevrilmişdir.

Vergi sahəsində beynəlxalq əməkdaşlığın başlıca məqsədi ikiqat vergitutmanın və vergi ödəyicilərinin hüquq bərabərliklərinin pozulmasının aradan qaldırılmasıdır. Bununla yanaşı, heç də başlıca məqsəddən az əhəmiyyət kəsb etməyən digər məqsədlər də mövcuddur:

1. Vergi sisteminin və vergi siyasətinin bir-birinə uyğunlaşdırılması.
2. Fiskal siyasətin və vergi qanunvericiliyinin vahid formaya uyğunlaşdırılması.
3. İkili vergitutma probleminin həll edilməsi.
4. Vergi ödəmədən yayınmanın aradan qaldırılması.
5. Vergi ödəyicisi – qeyri-rezidentlərin hüquq bərabərliklərinin pozulmasının aradan qaldırılması.
6. Vergitutmanın investisiya siyasətinin üyğunlaşdırılması.

Beynəlxalq iqtisadi inteqrasiya xarici ölkələrdə vergi siyasəti və Milli vergi hüququnun uyğunlaşması meylini şərtləndirir. Uyğunlaşdırma dedikdə, müxtəlif ölkələrin vergi sistemlərinin qarşılıqlı eyni ölçülərə gətirilməsi prosesi başa düşülür.

Avropa İqtisadi Birliyinin üzvü olan ölkələrin (Böyük Britaniya, İtaliya, Fransa, Almaniya Federativ Respublikası, İspaniya və b.) vergi qanunvericiklərinin vahid formaya uyğunlaşdırılması haqqında əsasnamə 1957-ci il Roma müqaviləsində öz əksini tapmışdır. Bu ölkələrdə vahid bazar sisteminin formalaşması prosesi əvvəlcə gömrük ittifaqı çərçivəsində fiskal siyasətin vahid formaya uyğünlaşdırılması istiqamətindən başlamışdır. Sonradan ikiqat vergi ödəmə problemlərinin həllinə, vergi ödəmə hallarından yayınma hallarının qarşısının alınmasına və vergi hüququ bərabərsizlikləri üzrə mövcud olan şəraitin ləğv edilməsinə keçilmişdir.

AİB-ə daxil olan ölkələrdə vergi qanunvericiliyinin razılaşdırılması gedişində dolayı vergilərin tutulmasının yavaş-yavaş və məcburi vahid formaya uyğunlaşması prosesi həyata keçirilmişdir. Bir sıra aksiz tutmaları (çay, duz, qənd) ləğv



downloaded from KitabYurdu.org

edilmiş, digər dolayı vergilər isə vahid vergi dərəcəsi üzrə tutulmağa başlanmışdır. Sonradan isə vahid vergi siyasəti həyata keçirmək ideyası və vahid vergi rejimi ilə fəaliyyət göstərən ərazi yaratmaq fikri yaranmışdır.

Ayrı-ayrı ölkələrdə vergi ödəmə sahəsindəki münasibətlər milli qanunvericilik və beynəlxalq hüquq normaları ilə tənzimlənir. Beynəlxalq hüquq normalarının həyata keçirilməsi formaları beynəlxalq müqavilələr və razılaşmalar vasitəsi ilə həyata keçirilir.

Böyük hüquqi ünvanların nəyə söykənərək fəaliyyət göstərməsindən asılı olaraq, ölkədaxili qanunlara və ya beynəlxalq müqavilələrə, milli hüquqi sistemlər bir-birindən fərqlənir. Bir sıra ölkələrdə beynəlxalq vergi müqavilələrinə o qədər də böyük əhəmiyyət vermirlər. Məsələn, ABŞ-da, AFR-də və s. vergi müqavilələrinə milli qanunvericilik normalarının təsirini müəyyən etmək üçün həmin ölkədə beynəlxalq müqavilənin hüquqi statusunu bilmək mühüm əhəmiyyət kəsb edir. Əgər beynəlxalq razılaşmalar milli qanunvericiliyin tərkibinə daxil edilmişsə, onlar eyni gücə malikdirlər, yalnız müəyyən çətinliklər meydana gəlir. Bu cür məsələləri həll edərkən dövlət iki prinsipi əsas tutur.

1. Sonrakı qanun əvvəlki qanunları rədd edir.

Əsasən dövlətlər birinci prinsipi əsas tuturlar. Bu halda beynəlxalq müqaviləni öz tərkibinə daxil etmiş qanun əvvəlki qəbul edilmiş dövlət daxili qanunları sıxışdıralacaqdır.

2. İkinci prinsipə əsasən isə daha çox ümumi normalar deyil, xüsusi hallar fəaliyyət göstərir. Bu qaydalar beynəlxalq vergi razılaşmalarının əsaslarını rədd edən milli qanunlar qəbul edilənə qədər tətbiq edilir.

Azərbaycanda dövlətin qəbul etdiyi vergi qanunları beynəlxalq müqavilələrdən daha çox qüvvəyə malikdir. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 127-ci maddəsində xarici ölkələrdə ödənilən mənfəət vergisinin nəzərə alınması qeyd edilmişdir.

İkiqat vergitutmaları aradan qaldırmaq məqsədi ilə Azərbaycan hökuməti ilə digər ölkələr arasında müqavilələr, razılaşmalar mövcuddur. Bir sıra ölkələrdə danışıqlar aparılır.



downloaded from KitabYurdu.org

İkiqat vergilərin aradan qaldırılması üçün Azərbaycanla digər ölkələr arasındakı danışıqlar, razılaşmalar və müqavilələr haqqında ətraflı məlumatı qrafik 1-dən almaq olar (qrafik 1 əlavə olunur).

Vergi üzrə beynəlxalq razılaşmalar vergi qanunvericiliyi sistemində aşağıdakı qruplara ayrılır:

1. Ümumi xarakterli beynəlxalq razılaşmalar
2. Xüsusi vergi razılaşmaları
   a) ümumi vergi razılaşmaları və konvensiyalar
   b) məhdud xarakterli vergi razılaşmaları
   c) inzibati kömək göstərmək üzrə müqavilələr.
3. Həmçinin vergi məsələlərinə toxunan müqavilələr
   a) vergi rejimi və güzəştləri haqqında razılaşmalar
   b) ticarət müqavilələri
4. Ayrı-ayrı təşkilatlar arasında spesifik razılaşmalar.

Mövcud olan vergi güzəştlərindən və vergi öhdəliklərinin azaldılması metodlarından istifadə edərək vergidən yayınmanın qanuni üsullarını da vergilərin planlaşdırılmasına aid etmək olar.

Vergilərin planlaşdırılmasının zəruriliyi vergi qanunvericiliyinin müxtəlif şəraitdə konkret vergi rejiminin mövcud olması, vergi bazasının hesablanması metodlarının müxtəlif formaları, vergi ödəyicilərinə müxtəlif formalı güzəştlərin təklif olunması və s.

Vergilərin planlaşdırılmasının mahiyyəti vergi ödəyicilərinin bütün mövcud olan qanuni vasitələrdən istifadə edərək onlara aid olan vergi öhdəliklərinin maksimum dərəcədə aşağı salınmasından ibarətdir. Vergilərin planlaşdırılması iki yerə ayrılır. Birinci - korporativ, yəni müəssisələr üçün vergi planlaşdırılması, ikinci - şəxsi, yəni fiziki şəxslər üçün vergilərin planlaşdırılması, müəssisələr üçün vergilərin planlaşdırılması dedikdə, sahibkarlıq fəaliyyəti və biznes-planın maliyyə planlaşdırılmasının strateji tərkib hissəsi başa düşülür. Onun başlıca məqsədlərindən biri vergi qanunvericiliyinin bütün xüsusiyyətlərindən istifadə edərək vergi ödəmələrinin minimuma endirilməsidir.



downloaded from KitabYurdu.org

Vergi ödəyicilərinin hərəkətlərinin müxtəlif modelləri mövcuddur (sxem 5). Ona görə də vergilərin planlaşdırılması anlıyışını vergilərin ödənilməsindən kənarlaşma və vergilərdən yayınma məlumatlarından fərqləndirmək lazımdır.

**Sxem 5.**




Vergi ödənilməsindən kənarlaşmaq dedikdə, vergilərin vaxtında ödənilməməsi, müvafiq sənədlərin təqdim edilməməsi, vergi güzəştlərindən qeyri-qanuni istifadə və s. başa düşülür. Vergi öhdəliklərinin qeyri-qanuni azaldılmasının elementləri «vergidən kənarlaşma» və «vergilərin planlaşdırılması» anlayışlarını bir-birindən ayırır.

Vergilərdən yan keçmək dedikdə, müxtəlif səbəblərdən hüquqi və fiziki şəxsin vergi ödəyicisi olmadığı vəziyyət başa düşülür. Vergi hüququ nəzəriyyəsində vergidən yayınmanın iki üsulu bir-birindən fərqləndirilir.

1) qanuni;
2) qadağan edilmiş qanun və metodlardan istifadə edilərək.



downloaded from KitabYurdu.org

Vergidən yan keçmək imkanları aşağıdakılarla müəyyənləşdirilir:

- vergitutma obyektinin xüsusiyyətləri, məsələn, dövlət lotereyasından gələn gəlirlərdən vergi tutulmur;

- vergi subyektlərinin xüsusiyyətlərindən, məsələn, vergi krediti formasında kiçik biznes müəssisələri müəyyən səviyyədə vergi güzəştlərinə malikdirlər;

- vergilərin hesablanması və ödənilməsi metodlarının xüsusiyyətləri;

- vergitutma sisteminin formalara, məsələn, şedulər sistemdə istiqraz, dividend və bank depozitləri üzrə gəlirlər müxtəlif vergi dərəcələri üzrə vergiyə cəlb oluna bilərlər;

- «vergi sığınacaqlarından» istifadə, məsələn, müxtəlif ölkələrdə vergi rejimində mövcud olan fərqlər vergi yükünün azaldılmasına və ya vergi ödəməkdən tamamilə yan keçməyə imkan verir.

Vergilərin planlaşdırılmasının prinsiplərini aşağıdakı kimi təsəvvür etmək olar:

1. «Ölüm və vergi mütləqdir» (T.C. Halliberton)
2. Vergi yükünü artırmaq üçün vergi dərəcəsini artırmaq deyil, vergi ödəyicilərinin sayını artırmaq gərəkdir (M. Hüseynli)
3. «Vergilərin planlaşdırılması qanunların pozulması deyil, - bütün dünyada biznesin adi təcrübəsidir. Vergilərin planlaşdırılması dünyagörüşü qanunvericilikdə müvəqqəti dəyişikliklərə deyil, məntiqə əsaslanan meyldir» (Con Pepper).
4. Vergiləri ödəmək lazımdır. Ancaq ağılla (B.A. Raqozin),

- vergilərin yalnız minimum məbləğinin ödənilməsi zəruridir;

- vergi güzəştinin bütün məcmusundan tamamilə istifadə etmək lazımdır;

- vergilərin ödənilməsi üçün müəyyən edilmiş axırıncı günlər vergiləri ödəmək zəruridir;

- vergilərin planlaşdırılması ümumi sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektindən ayrılmazdır.



downloaded from KitabYurdu.org

A.N. Medvedev «Vergi ödənişlərini necə planlaşdırmalı» əsərində haqlı olaraq qeyd edir ki, belə ki, vergilərə qarşı mübarizə aparmaq lazım deyil, istənilən sahibkarlıq fəaliyyətinin son məqsədi olan gəlir uğrunda mübarizə aparmaq lazımdır. Gəlirlə istehsal sahələrinin yaradılmasına şərait yaratmaq lazımdır.

Vergilərin planlaşdırılmasının elementləri aşağıdakılardan ibarətdir:

- vergi öhdəliklərinin optimallaşdırılması strategiyası və bu strategiyanın reallaşdırılması planı;
- biznes müştəriyə məntiqi və təbii şəkildə əlavə edilənlərin və vergi yükünün azaldılmasının qanuni şəkildə əsaslandırılmasına xidmət edən vergilərin planlaşdırılması qrafiki;
- müəssisə tərəfindən seçilmiş mühasibat və vergi uçotunun aparılması üsullarının məcmusundan ibarət olan uçot siyasəti;
- informasiya alınmasına şərait yaradan, o cümlədən vergilərin planlaşdırılması məqsədi üçün mühasibat uçotu və hesabatının mövcud vəziyyəti;
- vergi ödənişlərinin vaxtında ödənilməsini gözləmək və doğru hesablanmasına nəzarət üçün nəzərdə tutulan vergi təqvimi;
- vergi və digər öhdəliklərin dəqiq yerinə yetirilməsi.

## 2.5. Xarici iqtisadi fəaliyyətin (XİF) ayrı-ayrı növləri üçün vergilərin planlaşdırılması

Korporativ BVP-də baza şirkətlərində olan potensialdan düzgün istifadə etmək bacarığı həlledici rol oynayır. Bu zaman xarici iqtisadi əməliyyatların elə dairəsini dəqiq müəyyən etmək vacibdir ki, bunlar üçün firmadaxili strukturu səmərələşdirən və vergi yükünü azaldan BŞ yaradılması daha məqsədəuyğun olsun. Həmçinin yaradılacaq BŞ-lərin inkorporasiya olacaqları yurisdiksiyaları da düzgün seçmək zəruridir. Məlumdur ki, həyata keçirilməsinə TMK-ların daxil edildiyi beynəlxalq



downloaded from KitabYurdu.org

iqtisadi münasibətlərin başlıca formalarına aşağıdaklar daxildir:

- beynəlxalq istehsal;
- mallarla idxal-ixrac əməliyyatları;
- beynəlxalq maliyyə və investisiya fəaliyyəti;
- intellektual mülkiyyətin beynəlxalq transferti;
- xidmətlərin beynəlxalq ticarəti;
- beynəlxalq nəqliyyat daşınmaları.

BİM-in bu formalarından hər birinin həyata keçirilməsi zamanı transmilli qrupun strukturu elə qurulur ki, bura müvafiq ixtisaslaşmış BŞ daxil olsun. İxtisaslaşmış BŞ-nin köməyilə transmilli qrup üçün bütövlükdə vergi yükünün xeyli qənaet edilməsinə nail olunur.

*İstehsal fəaliyyəti. Xarici istehsal şirkətləri*

Vergiqoyma nöqteyi-nəzərdən istehsal fəaliyyətini aşağıdakı əlverişli şərait mövcud olan yurisdiksiyalarda qurmaq sərfəlidir:

- mənfəətdən vergi minimaldır və ya yoxdur;
- ixrac rüsumları aşağıdır və ya yoxdur;
- ətraf mühitin çirklənməsinə məhdudiyyətlər minimaldır (ekologiyaya vergilər);
- sənaye müəssisələri üçün xüsusi vergi güzəştləri mövcuddur.

Yuxarıda sadalanan bütün meyarların riayət olunduğu elə bir ideal ölkə tapmaq mümkün olsa belə, ixtisaslaşmış işçi qüvvəsi, inkişaf etmiş bazar infrastrukturu (nəqliyyat, rabitə, maliyyə sistemi) və ən başlıcası, siyasi sabitliyin yüksək səviyyəsi də mühüm əhəmiyyətə malikdir. Başqa sözlə, söhbət bu dövlətdə vergi mühitilə yanaşı, ümumi investisiya iqlimini də formalaşdıran amillərdən gedir.

Misal üçün, özünün vergi xarakteristikalarına görə TMK-nın istehsal bazasının yerləşdirilməsi üçün Liviya çox idealdır. Burada xarici korporasiyaların fəaliyyətilə bağlı vergilər mövcud deyil. Lakin bu Latın Amerikası dövləti ölkə-



downloaded from KitabYurdu.org

nin siyasi kursunun qeyri-sabitliyi, ümumi iqtisadi şəraitinin əlverişsiz olması, iqtisadiyyatda cinayətlərin yüksək səviyyəsi hesabına aşağı investisiya reytinqinə malikdir. Ona görə də xarici investorlar öz kapitalları üçün daha etibarlı təminatlar olan ölkələrə cəhd edir.

Karib regionunun korporativ vergilərin olmadığı və böyük sabitlik, yaxşı nəqliyyat və maliyyə infrastrukturu fərqləndirən (Baham, Bermud və Kayman adaları) bir sıra ada dövlətlərində daha bir, heç də az əhəmiyyəti olmayan tərkib hissəsi – işçi qüvvəsi yoxdur.

Transmilli qrupun istehsal şirkətinin bazasının yaradılması üçün yurisdiksiyanın müəyyənləşdirilməsinə maksimal ehtiyat və ölçülüb-biçilmiş yanaşmanın zəruriliyi həm də onunla izah olunur ki, bu halda söhbət daha böyük birbaşa xarici investisiya riskləri barədə gedir. Əgər baza şirkətlərinin fondlarının yığcam olmasına görə baza ticarət-alqı şirkətini (maliyyə, lisenziya və s.) bir neçə saat ərzində başqa yurisdiksiyaya yerləşdirmək olarsa, onda istehsal şirkəti real fəaliyyət göstərən müəssisə olacaq, onun fondları isə mobil olmayan kapitala (torpaq, binalar, tikililər, avadanlıq) malik olacaq.

İstehsal şirkəti öz yerləşdiyi ölkədə ofşor əməliyyatları apara bilməz. Bu dövlətin ərazisində istehsal fəaliyyətinə başlarkən, hər bir halda daimi nümayəndəlik yaradılır (əgər baş xarici firmanın filialı varsa), ya da xüsusi struktur yarımbölmə – həmin yurisdiksiyanın «qız» rezident-şirkəti yaradılır. Ona görə də istehsal yönümlü şirkətlər rezident korporasiya üçün nəzərdə tutulan bütün vergiləri, ya da öz xarici daimi nümayəndəliklərinin gəlirlərinə olan vergiləri ödəməlidirlər.

Lakin istehsal şirkətlərinin qeyd olunan bu nöqsanları BŞ ilə müqayisədə müəyyən şəraitdə məziyyətlərinə çevrilə bilər. İş burasındadır ki, praktiki olaraq hər hansı dövlət müstəqil şəraitdə özünün vergi qanunlarının köməyilə istehsal fəaliyyətini dəstəkləməyə (həvəsləndirməyə) cəhd edir. O, birbaşa xarici investisiyaların axınını, milli iqtisadiyyat üçün xeyirli olması dərəcəsi üzrə zəruri tələblərə cavab verən yeni istehsalların yaradılmasını stimullaşdırır. Təbiidir ki, dünyanın



downloaded from KitabYurdu.org

qabaqcıl ölkələri burada istehsalın ekoloji və texnoloji prosesin yeniliyi baxımından daha sərt məhdudiyyətlər qoyur ki, bu da özünü ekologiyaya spesifik vergilərdə, lisenziyalaşdırmada, ETT-nin son nailiyyətlərini tətbiq edən şirkətlər üçün güzəştlərdə və s. göstərə bilər. Daha aşağı inkişaf səviyyəli ölkələr ilk növbədə yerli əhalinin məşğulluğu, daxili bazarın doldurulması, istehsalçıların vergi ayırmaları hesabına dövlət gəlirlərinin yığılması problemlərini həll etməyə çalışır, ekoloji və texnoloji tələblər isə bu zaman ikinci plana keçir. Buna baxmayaraq, hər halda birbaşa xarici investisiyalar cəlb edərək, ölkə əlavə üstünlüklər əldə edir. Deməli, xarici investor da müəyyən güzəştlər əldə edir.

Xarici istehsal bazasını yerləşdirərkən TMK-nı ilk növbədə xərclərin aşağı salınması və mənfəətin maksimumlaşdırılması maraqlandırır. Əgər istehsal üçün elə yurisdiksiya seçmək mümkündürsə ki, bürada vergiqoymanın səviyyəsi baş «ana» şirkətin yerləşdiyi ölkədə olduğundan aşağıdır, BVP-nin köməyilə buna nail olmaq olar. Vergi ödənişləri TMK xərclərinin böyük hissəsini təşkil edir, buna görə də qrupun istehsal xərclərini istehsalçı-şirkətlərin firmadaxili strukturunda vergiqoymanın aşağı salınması hesabına azaltmağa çalışırlar.

Dünyanın qərargahları Avropada, Şimali Amerikada və ya Yaponiyada yerləşən bir çox qabaqcıl TMK-ları Cənubi-Şərqi Asiyada və ya Latın Amerikasında, həmçinin xüsusi ixrac sənaye zonalarında inkişaf etmiş iqtisadiyyatı olan ölkələrin ərazisində istehsal bazasına malikdir. Bu meyl istehsal şirkətlərinin yerləşdiyi ölkələrdə aşağı vergiqoyma səviyyəsilə də izah olunur. Burada xarici investorlara çoxsaylı vergi güzəştləri (mənfəətdən vergilər, ƏDV, gömrük rüsumları üzrə) verilir, korporativ vergilərin ümumi səviyyəsi isə burada əvvəlcədən dünyanın bir çox qabaqcıl ölkələrində olduğundan aşağıdır.

İqtisadiyyatı inkişaf etmiş ölkələri bütün qalan dünyadan ayıran Şimalla Cənubun sərhədlərində qabaqcıl dünya istehsalçılarının məhsulunun emalı və yığılması üzrə artıq bütöv sənayesi meydana gəlməkdədir. Xarakterik misal – ABŞ-ın



downloaded from KitabYurdu.org

Meksika rayonlarına yaxın ərazilərində meydana gəlmiş makvayladoranı göstərmək olar. Amerika komponentləri ora yığılmaq üçün göndərilir, hazır məmulatlar isə yenidən ABŞ-a ixrac olunur. Əməliyyatlar gömrük rüsumlarının çıxılmaması ilə aparılır. Amerika istehsalçıları işçi qüvvəsinə çəkilən xərclərin və dolayı vergiləri minimuma endirirlər. Meksika tərəfinə gəldikdə isə, o əlavə iş yerləri alır, burada məşğul olanlar isə gəlirdən vergi ödəyərək, bununla da dövlət büdcəsini artırırlar.

Bu cür kooperasiya dünyanın başqa regionlarında da mövcuddur. Vergi nöqteyi-nəzərdən o həm dolayı vergilərin (ƏDV, gömrük rüsumları, aksizlər) minimumlaşdırılması ilə, həm də son tədarükçü-təkrar ixracatçı tərəfindən alınan mənfəətə görə daha aşağı vergiqoyma səviyyəsilə maraqlıdır. Məsələn, Avstriya sahibkarlarına istehsalı mənfəətə görə korporativ verginin səviyyəsi 2 dəfə aşağı olan Macarıstana köçürmək daha sərfəlidir (Macarıstanda 18%, Avstriyada 34%). Bu, məhsulu ucuzlaşdırır, onu dünya bazarında rəqabət qabiliyyətli edir. Bu zaman istehsalçılar vergidən qənaət edilmiş mənfəətin gələcəkdə investisiya qoyuluşu üçün yararlı olan hissəsini öz sərəncamlarına alırlar. Baza maliyyə şirkətlərinin köməyilə sonra transmilli qrupun struktur yarımbölmələri arasında mənfəətin ötürülməsini həyata keçirmək olar.

TMK-lar öz istehsallarını ekoloji mülahizələrdən də inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdən dünyanın daha az inkişaf etmiş ölkələrinə köçürməyə səy edirlər. Ekoloji cəhətdən zərərli istehsallar (metallurgiya, kimya sənayesi və s.) çox vaxt köhnəlmiş texnologiyalara əsaslandığına görə tədricən inkişaf etmiş ölkələrdən geridə qalmış ölkələrə köçürülür. Bu zaman TMK ekoloji vergiləri minimuma endirir və mümkün qəza halları zamanı cərimə sanksiyalarına qənaət edir. Rusiya metallurgiya və kimya zavodlarının demək olar ki, tam yüklənməsi müasir şəraitdə təkcə iqtisadi yüksəlişin başlanğıcı ilə deyil, həm də çirkli istehsalları ətraf mühitin vəziyyətinə nəzarətin olmadığı və ekologiya vergilərin tutulmadığı ölkələrə köçürən, xarici şirkətlərin sifarişilə xammalla aparılan fəal əməliyyatlara cəlb edilməsi ilə izah edilir.



downloaded from KitabYurdu.org

Bir sıra ölkələr, o cümlədən dünyanın qüdrətli dövlətləri öz ərazilərində ixrac sənaye zonaları yaradır. Bu regionlara qabaqcıl xarici texnologiyalar və xarici kapital cəlb edilir, investorlar xeyli vergi güzəştləri alır, milli iqtisadiyyat isə yeni iş yerləri, ən yaxşı dünya texnologiyaları və yerli büdcəyə vergi çıxılmaları şəklində çoxlu üstünlüklər əldə edir. Bir sıra hallarda bu cür sənaye zonalarının yaradılması nəinki ixrac, həm də idxalı əvəz edən məhsulun istehsalına kömək edir, ondan istifadənin rahatlığı isə satış bazarına yaxınlıqdan ibarət ola bilər. Məsələn, İrlandiyada ixrac istehsalı TMK-lar tərəfindən malların Avropa Birliyi bazarına gələcək tədarükü üçün xüsusi sənaye zonalarında aparılır. Bu zaman yalnız İrlandiya vergiləri deyil, həm də AB-nin üzv-ölkələrinin idxal gömrük rüsumları minimumlaşdırılır. İxrac sənaye zonalarında gəlirdən vergilər milli vergi dərəcələrindən xeyli aşağıdır (İrlandiyada 3,5 dəfə az), gömrük rüsumları isə mövcud deyil.

TMK-nın xarici istehsal güclərində istehsal edilmiş məhsul sonra transfert qiymətqoymadan istifadə edən ticarət-alqı BŞ-ləri vasitəsilə bölüşdürülür.

## 2.6. Mallarla ixrac-idxal əməliyyatları. Ticarət-alqı baza şirkətləri

TMK-nın iri miqyaslarda müxtəlif yurisdiksiyalarda ticarət-alqı fəaliyyəti həyata keçirdiyi hallarda bu cür ixrac-idxal əməliyyatlarını ara, baza ticarət şirkətləri vasitəsilə mərkəzləşdirmək səmərəli görünür. Vergiqoyma nöqteyi-nəzərdən TMK-nın xarici ticarət əməliyyatlarının mərkəzləşdirilməsinin üstünlükləri ondar ibarət olacaq ki, BŞ vasitəsilə qrupun ticarət mənfəətini yüksək vergiləri olan yurisdiksiyalardan vergi yükünün səviyyəsinin xeyli aşağı olduğu ölkələrə paylaşdırmaq olar. Burada mənfəətin təkrar bölgü mexanizmi işə düşür. Ticarət-alqı BŞ yurisdiksiyasına tələb burada elə mühüm məqamdır ki,  o, güzəştləri məhz vasitəçi ixrac-idxal əməliyyatları üçün təqdim etməlidir.

İxrac-idxal BŞ-ləri iki fəaliyyət növündə ixtisaslaşa bilər:



downloaded from KitabYurdu.org

(1) TMK istehsal kompleksi məhsulunun regional satış «qız» şirkətlərinə, yaxud «qız» şirkətlərinə – hazır məmulatların, yarımfabrikatların və komplektləşdiricilərin son istehlakçılara satışı;

(2) məhsulun (xammal, komplektləşdirici, yarımfabrikat, hazır məmulatların) qrupun assosiasiyalaşmış şirkətləri arasında onun sonrakı bölüşdürülməsi üçün müstəqil istehsalçılardan alınması.

*Satış baza şirkəti*

Satış BŞ firmadaxili istehsalçı-şirkətlərdən hazır məhsulu alıb, onu öz TMK ticarət şəbəkəsi vasitəsilə müxtəlif ölkələrdə yaşayan istehlakçılara satmaq üçün, yaxud yarımfabrikatları və komplektləşdirici məmulatları başqa «qız» istehsalçı şirkətlər arasında yenidən bölüşdürmək üçün alır. Bu halda BŞ-nin rolu TMK-nın firmadaxili satış kanallarının optimallaşdırılmasıdır. Satış TMK-sı malları aşağı manqadan olan «qız» şirkətlərin xeyrinə bölüşdürərək məhsulun istehlakçı-şirkətlərindən qazanc toplayır, belə ki, malların firmadaxili hərəkəti qrupda kommersiya əsasında həyata keçirilir.

Sonra satışdan gələn qazanc satış BŞ-nin yurisdiksiyasında bank hesablarında yığılır və yenidən islehsalçı-şirkətlərin maraqlarına əsasən investisiya qoyula bilər. Satış BŞ-nin gəlirləri mahiyyətinə görə ofşordur, belə ki, zəncirin bütün şirkət-iştirakçıları müxtəlif yurisdiksiyalardadır. Bu cür ofşor əməliyyatlar sayəsində satış BŞ öz yurisdiksiyasında minimal vergilər ödəyərək, artıq vergi yükü olmadan transmilli qrupun mənfəətini toplayır. Satış BŞ-nin fəaliyyətini sxem 6-dan görmək olar. Firmadaxili strukturun satış şirkəti yalnız TMK-nın satış fəaliyyətini mərkəzləşdirən, məhsulu istehsalçı-şirkətlərdən tutmuş müxtəlif ölkələrdə yerləşən lokal ticarət şirkətlərinə qədər paylaşdıran vasitəçi deyil, həmçinin həm xarici, həm də inkorporasiya edildiyi ölkədə yerləşən son istehlakçıya bilavasitə satış üçün yaradıla bilər. Vergi və digər dövlət nəzarət orqanları ilə xoşagəlməz halların olmaması üçün vasitəçi satış şirkətinin yaradılmasının vacib şərti onun ofis



downloaded from KitabYurdu.org

şəklində real mövcudluğu və inkorporasiya ölkəsində işləyən işçi heyətinin olmasıdır. Şirkətin kağız statusu yeganə məqsəd olan vergilərin minimumlaşdırılması olan əməliyyatlara şübhələri gücləndirir. Bu cür saxta satış BŞ vergi orqanlarının xüsusi nəzarəti altına götürülə bilər.

Satış BŞ-nin əməliyyatlarını elə planlaşdırmaq lazımdır ki, şirkət ikiqat vergiqoymaya məruz qalmasın, yəni istehsalçı-firmadan məhsul alarkən ixracla «milli sərhədi keçmədən ixrac» prinsipi üzrə və ya «xarici ölkədə məhdud fəallıq» prinsipi üzrə məşğul olmaq lazımdır. Vergi planlaşdırması zamanı firmanın idxalçıları yerləşən ölkə ərazisində daimi nümayəndəliyin yaradılmasına yol verilməməlidir. Yalnız bu halda satış BŞ-lərin ticarət mənfəəti xarici vergilərdən azad olacaq və bu zaman o öz yurisdiksiyasında mənfəətin ofşorluluğu mənşəyi faktı üzrə aşağı vergi dərəcələri üzrə vergiyə cəlb olunacaq.

*Alqı baza şirkəti*

Alqı BŞ bilavasitə istehsalçıdan TMK üçün zəruri məhsulun alqısını həyata keçirir. Bu cür alqı BŞ sifarişləri müstəqil yerli istehsalçılardan alıb yerləşdirir, sonra hazır məhsul alıb bütün transmilli strukturun xeyrinə yenidən bölüşdürür. Satış BŞ nəinki hazır məmulatları, həm də xammal, yarımfabrikat və komplektləşdiricilər alır və onları TMK-nın istehsal güclərində gələcək emal üçün istifadə edir.

Alqı BŞ-nin yurisdiksiyası üçün lokal müstəqil istehsalçılara yaxın vergi limanı/ofşor yurisdiksiyası seçilir ki, firma buradan hərəkət edir. Bu yaxınlıq və regional bazarları bilmək burada ayrılmaz atributdur ki, şirkət bu halda artıq saxta ola bilməz, onun fəaliyyəti realdır.

Regional alqı BŞ-lərinə misal olaraq Honkonq ixrac-idxal şirkətlərini göstərmək olar ki, bunlar vasitəsilə Çin mallarının ixracının 40%-ə qədəri həyata keçirilir. Bu BŞ-lər yerli, çox vaxt xırda Çin istehsalçılarından sifariş yerləşdirərək, sonra Çin məhsullarını iqtisadiyyatı inkişaf etmiş ölkələrə yenidən ixrac edir.



downloaded from KitabYurdu.org

Alqı BŞ yerli müstəqil istehsalçılarla müqavilə şərtlərilə işləyir və vergi nöqteyi-nəzərdən burada o fakt mühümdür ki, BŞ-lər tamamilə qanuni əsaslarla yenidən ixrac (reixrac) zamanı məmulatın ilkin qiymətlərindən yüksək ola bilər. Cənubi-Şərqi Asiya regionuna görə bu o deməkdir ki, istehsalın aşağı xərcləri Filippində, İndoneziyada, Malayziyada müstəqil istehsalçıların məhsulunu birinci alqı zamanı nisbətən ucuz edir. Sonra alqı BŞ yenidən ixrac zamanı qiyməti dünya səviyyəsinə çatdırır, alınan fərq isə BŞ yurisdiksiyasında mənfəət kimi qalır və aşağı vergilərə cəlb olunur (bax: sxem 6).

Firmadaxili ticarət sisteminin əsasında olan ən mühüm mexanizm transfert qiymətqoymadır. Məhz bu, transmilli qrupun mənfəətinin yenidən bölüşdürülməsinə kömək edir, TMK-nın assosiasiyalaşmış şirkətləri arasında bütün sövdələrin əsasında durur.

**Sxem 6.**

**Alqı BŞ-lərin əməliyyatları**






downloaded from KitabYurdu.org

## 2.7. Vergi siyasətinin müasir istiqamətləri və problemləri

Qədim zamanlardan vergi siyasəti hər bir iqtisadi inkişaf mərhələsində mühüm əhəmiyyət kəsb etmişdir. Vergilərin inkişaf tarixinə nəzər saldıqda məlum olur ki, hər bir inkişaf mərhələsinin özünün vergi siyasəti olmuşdur. Hətta ayrı-ayrı ölkələrdə müxtəlif vergi siyasəti mövcud olmuşdur.

XVII əsrə qədər mövcud olan vergilər haqqında təsəvvürlər ardıcıl və dərin kökləri olan nəzəriyyələrdən ibarət olmamışdır. Təsadüfi xarakter daşımış və sistemli olmamışdır.

XVII əsrdən başlayaraq vergilər ümumi prinsiplər əsasında tutulmağa başlamış və daimi xarakter daşımışdır. Buna uyğun olaraq da vergi nəzəriyyələri meydana gəlmişdir.

Vergilər haqqında ümumi nəzəriyyələrdən mübadilə nəzəriyyəsini, atomistik nəzəriyyəni, klassik nəzəriyyəni, monetarizm nəzəriyyəsini qeyd etmək xüsusi əhəmiyyət kəsb edir. Məhz bu nəzəriyyələr əsasında müasir dövrün vergi siyasəti formalaşmışdır.

XX əsrin ikinci yarısından dünya miqyasında vergi siyasətində köklü dəyişikliklər getmişdir. Bir sıra inkişaf etmiş ölkələrdə vergi islahatları aparılmışdır. Uzun müddət bazar iqtisadiyyatı şəraitində yaşamış ölkələrin təcrübəsindən vergi sisteminin ümumi inkişaf qanunauyğunluqlarını müəyyənləşdirmək mümkün olar.

Xüsusi sahibkarlığın stimullaşdırılması üçün XX əsrin 50-70-ci illərində bir sıra ümumi vergi vasitələrindən istifadə edilmişdir. Məsələn, investorlara mədən sahələri müəssisələrinə, nəqliyyata, aviatikintiyə, məhsulların xaricə ixrac edilməsinə vergi güzəştlərinin müəyyənləşdirilməsi.

80-ci illərdə əksər ölkələrdə gəlir vergisi sisteminin liberallaşdırılması, vergi dərəcəsinin aşağı salınması, eyni zamanda vergitutma bazasının genişləndlirilməsi  və vergi güzəştləri azaldılması meyli mövcud olmuşdur.

Bu dövrlərdə həmçinin bir sıra inkişaf etmiş ölkələrdə dolayı vergilər sistemində aparılan islahatlar gömrük haqlarının azaldılması, aksiz toplamalarının səviyyəsinin aşağı salınması və əlavə dəyər vergisinin rolunun artırılması ilə müşayiət olunmuşdur.

XX əsrin 80-ci illərinin axırı 90-cı illərinin əvvəllərində dünyanın aparıcı ölkələri kapital yığımının sürətləndirilməsi və



downloaded from KitabYurdu.org

işgüzar fəallığın stimullaşdırılması istiqamətində vergi islahatı həyata keçirmişlər. Bu islahat öz əksini korporasiyaların vergi dərəcələrinin azaldılmasında tapmışdır (qrafik 1).

1993-cü ildə dünya vergi kodeksi rolunu yerinə yetirən sənəd işlənib hazrlanmşdır. Harvard Universitetinin alimləri tərəfindən hazırlanmş bu kodeks 590 maddədən ibarətdir, təklif xarakteri daşıyır. Müasir vergi sisteminin mahiyyətini özündə əks etdirir. Bir çox ölkələrin təcrübəsində sınaqdan çıxmış vergi sisteminin üstünlüklərini özündə birləşdirir. Milli qanunvericiliyin işlənməsi üçün məsləhətlər verilir və ayrı-ayrı ölkələrdə səmərəli vergi aparatının yaradılmasına yardım xarakterli işləmələr mövcuddur.

İnkişaf etmiş ölkələrdə vergi yükünün yüksək olması beynəlxalq vergitutma ofşor mexanizmlərin tətbiq olunmasına gətirib çıxarmışdır. Bu mexanizmlərin tətbiq olunmasının mahiyyəti ondan ibarətdir ki, vergi ödəmə obyektlərinin hüquqi cəhətdən vergi dərəcələri yüksək olan ölkələrdən, aşağı olan ölkələrə köçürülməsidir. Ona görə inkişaf etmiş ölkələr müxtəlif yollarla kapital və vergi ödənişlərinin ofşor zonalara axıdılmasının qarşısını almaq üçün müxtəlif tədbirlər planı həyata keçirirlər. Məsələn, müxtəlif əməliyyatlara vergi və lisenziya tətbiq edilməsi, milli vergi qanunvericiliyində rezident və qeyri-rezident prinsipinin müəyyənləşdirilməsi, xüsusi vergi mərkəzlərinin yaradılması.

**Qrafik 1.**

**XX əsrin 80-ci illərinin axrı- 90-cı illərinin əvvəllərində korporasiya vergilərinin dərəcələrinin azalması**

| Vergi dərəcələrinin səviyyəsi | ABŞ | İngiltərə | Fransa | Yaponiya |
|---|---|---|---|---|
| Əsas tələb olunan | 46% | 45% | 50% | 42% |
| Tələb olunan | 34% | 35% | 42% | 37,5% |

Müasir mərhələdə XX əsrin 90-cı illərindən Azərbaycan Respublikasında vergi islahatları həyata keçirilir. Vergi sistemi yeni yaranmaqla bərabər, həm də dünya vergi sisteminin nailiyyətlərindən istifadə edilərək daim təkmilləşdirilir.



downloaded from KitabYurdu.org

Respublikamızda vergi islahatlarının müasir istiqamətlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

- dövlət büdcəsi qəbul edilənədək Vergilər Məcəlləsində dəyişikliklərin edilməsi və onların növbəti ildən tez fəaliyyətə başlanmaması;
- dövlət, muxtar respublika və yerli vergilərin bitmiş siyahısının müəyyənləşdirilməsi;
- hər bir vergi formasının elementlərinin müəyyənləşdirilməsi;
- vergi güzəştlərinin azaldılması;
- vergi yükünün müəyyənləşdirilməsində dövlət büdcədənkənar fondlarının vergilərdən ayrılması;
- qanuna ardıcıl şəkildə tabe olan vergi ödəyicilərinin vergi yükünün həcminin azaldılması;
- oxşar vergi bazası və vergi ödəyiciləri olan vergilərin birləşdirilməsi;
- vergilərin sayının azaldılması və ümumilikdə vergi yükünün aşağı salınması;
- vergi ödəmə sahəsində əsas anlayışların işlənib hazırlanması;
- az səmərəli və ya baha başa gələn vergilərin ləğv edilməsi;
- məqsədli vergilərin ləğv edilməsi;
- vergi münasibətlərinin iştirakçılarının hüquq və vəzifələrinin real şəkildə təmin edilməsi.

# III FƏSİL
# XARİCİ İQTİSADİ FƏALİYYƏTLƏ ƏLAQƏDAR VERGİLƏRİN PLANLAŞDIRILMASI VƏ MİNİMUMLAŞDIRILMASI



downloaded from KitabYurdu.org

3.1.Vergiqoymadan yayınma və vergi pozuntuları üçün məsuliyyət

3.2. Beynəlxalq vergi planlaşdırması xarici iqtisadi fəaliyyət (XİF) subyektlərinin vergi yükünün leqal minimumlaşdırılması üsulu kimi

3.3. Hüquqi şəxslərin XİF-nin təşkilinin formaları və onların vergi xüsusiyyətləri

3.4. Sərhədi keçmədən mal və xidmətlərin ixracı

3.5 Xarici ölkədə daimi nümayəndəlik yaratmadan məhdud iştirak

3.6. Şirkətin xarici filialının (şöbəsinin) yaradılması

3.7. Xarici ölkədə xüsusiləşmiş struktur yarımbölmə – «qız» müəssisə

3.8. TMK-nın firmadaxili strukturunun yaradılması

## 3.1.Vergiqoymadan yayınma və vergi pozuntuları üçün məsuliyyət

Biz artıq bilirik ki, sahibkarlar milli yurisdiksiyaların (hüquqi ünvanların) güclənməsi şəraitində vergilərin minimumlaşdırılmasının müxtəlif üsullarını axtarırlar. Vergiqoymadan həm leqal metodlarla, həm də qeyri-qanuni əməliyyatların köməyilə yayınmaq olur. Vergilərdən kriminal yayınma iqtisadiyyatı inkişaf etmiş ödkələrdə kifayət qədər sərt cəzalandırılır. Məşhur mafiozi Al Koponeni yada salaq. Onu yalnız vergidən yayınmağına görə cinayət məsuliyyətinə cəlb etmək mümkün olmuşdur ki, bu da qabaqcıl dünya dövlətlərində vergi axtarış institutunun kifayət qədər olan gücündən xəbər verir. Ona görə də vergilərin ödənilməməsinə görə cərimə verməmək, məhkəmə tərəfindən izlənməmək və həbs cəzasına məhkum olmamaq üçün qanuna riayət edib vergiləri ödəmək daha yaxşıdır. Bunun üçün vergi planlaşdırılmasının tamamilə leqal mexanizmləri mövcuddur.

Vergi planlaşdırması həm fiziki, həm də hüquqi şəxslərin maliyyə-təsərrüfat fəaliyyətinin tərkib hissəsidir. Bununla əlaqədar olaraq, onu fərdi (həm ailələr, həm də iqtisadiyyatın



downloaded from KitabYurdu.org

qeyri-korporativ sektorları üçün xarakterikdir) və korporativ vergi planlaşdırmasına ayırmaq olar.

Vergi planlaşdırmasının vəzifəsi vergilərin minimumlaşdırılması hesabına gəlirin maksimumlaşdırılmasıdır.

Fəaliyyətin vergi nəticələrini planlaşdırarkən hara və nə qədər vergi ödəmək, həmçinin vergiləri həddən artıq ödəməmək, gəlirləri biznes etikası çərçivəsində qalmaqla qanuni üsul və metodlarla hərəkət edərək maksimumlaşdırmaq üsulları mövcuddur. Vergi planlaşdırması vergi hüququnu və cari vergi qanunvericiliyini bilməklə qurulur.

Beynəlxalq vergi planlaşdırmasının (BVP) vəzifəsi təsərrüfat subyektinin qlobal gəlirinin onun məcmu vergi yükü hesabına yüngülləşdirilməsi, bütün fəaliyyət yurisdiksiyalarında ödənilmiş bütün vergilərin uçotu, bu cür vergilərin aşağı salınmasının daha səmərəli üsullarının tapılması, yəni minimumlaşdırılmasıdır. Korporativ BVP-nin xüsusiyyəti qrupun müxtəlif vergi səviyyələri olan ölkələrdə yerləşən müvafiq struktur vahidləri arasında mənfəətin bölüşdürülməsi üçün korporasiyanın transmilli strukturunun istifadəsidir.

Həm korporativ, həm də fərdi BVP-yə ödəyicinin ümumi vergi yükünün minimumlaşdırılmasının üç səviyyəsi daxildir: 1) aşağı vergi dərəcələrindən istifadə; 2) beynəlxalq ikiqat vergiqoymanın tənzimlənməsinin müxtəlif üsullarından səmərəli istifadə (vergi kreditləri və vergi zaçotları sisteminin tətbiqi); 3) gəlirlərin repatriasiyasına (vətəninə qaytarılma) vergilərin minimumlaşdırılması.

Vergilərin minimumlaşdırılmasından başqa korporativ BVP-nin vəzifəsi bir sıra hallarda şirkət üçün əlverişli olan vaxtın uzadılmasıdır (xüsusilə gələcəkdə firmanın mənfəətini/itkilərini bir neçə il ərzində tənzimləmək mümkün olması üçün).

Korporativ BVP-nin başlıca texniki mexanizmləri aşağıdakılardır:

1. Transmilli qrupun mənfəətini aşağı səviyyələrlə olan yurisdiksiyalara (tabelikdə olanlara) köçürməyə və qrupun gəlirlərini vergi limanlarının «qız» rezident şirkətlərinin



downloaded from KitabYurdu.org

hesabatlarında cəmləşdirməyə imkan verən *transfert qiymətqoyma*;

*2.* Gəlirləri minimal vergi xərcləri ilə faiz, dividend və royalti formasında repatriasiya etməyə imkan verən *«şoppinq» beynəlxalq vergi müqavilələri;*

Bir sıra hallarda biznesin faktiki olaraq vergi limanına çıxarılması hesabına aşağı vergiləri olan ölkədə *mənfəət yaradılması* kimi mexanizm də sərfəlidir.

Fərdi BVP fiziki və qeyri-korporativ hüquqi şəxslərin əmlakının trast idarə edilməsi konsepsiyasından geniş istifadə edir.

Vergi planlaşdırması, xüsusilə beynəlxalq vergi planlaşdırması hazırda perspektivli maliyyə xidmətləri sahəsinə çevrilir, bu üsulla öz vergi xərclərini minimumlaşdırmaqla ondan praktiki olaraq xarici iqtisadi fəaliyyətin bütün iştirakçıları istifadə edir.

Bu fəsildə biz xarici iqtisadi əməliyyatlar aparan fiziki və hüquqi şəxslərin vergi yüklərinin minimumlaşdırılmasının 2 əsas üsulunu təqdim edəcəyik. Birinci üsul kifayət qədər sadədir – vergiləri vergi məsuliyyətindən yayınaraq heç ödəməmək də olar. Lakin bu halda qanunu pozan üçün ən sərt cəzalar da nəzərdə tutulmuşdur. Ona görə də cinayət yoluna düşməmək, artıq vergi yükündən qaçmağın leqal metodlarından istifadə etmək, beynəlxalq vergi planlaşdırmasını tətbiq etmək daha məqsədəuyğundur.

*Vergi ödəməkdən yayınma və fiskal cinayətlərin miqyası*

Əsas fiskal cinayət vergi qanunvericiliyini pozmaqla baş verən vergidən yayınmadır. Vergi hüququ vergi pozuntularına «öhdəliklərin yerinə yetirilməməsinə və ya lazım olduğu kimi yerinə yetirilməsinə, vergi münasibətləri iştirakçılarının hüquqi və qanuni maraqlarının pozulmasına aparan, bunlar üçün hüquqi məsuliyyət müəyyən edilən qeyri-hüquqi, təqsirli hərəkətlər və ya hərəkətsizlik» kimi tərif verir.

Vergi ödəməkdən yayınma əsasən maliyyə və vergi hesabatlarında təqdim edilməyən gəlirlərin gizlədilməsini, vergi güzəştlərindən qeyri-qanuni istifadə, vergilərin vaxtında



downloaded from KitabYurdu.org

ödənilməməsilə əlaqədardır. Vergi ödəməkdən yayınmanın və planlaşdırmasının müxtəlif üsullarından fərqləndirilməsinin başlıca meyarı qüvvədə olan vergi qanunvericiliyinin düşünülmüş və ya düşünülməmiş edilməsindən asılı olmayaraq pozulmasıdır. Bu nöqteyi-nəzərdən vergi planlaşdırması vergiqoyma obyekti haqqında informasiyanın elə formada təqdim edilməsini nəzərdə tutur ki, bu zaman qanun tərəfindən nəzərdə tutulan vergi güzəştlərindən tam həcmdə istifadə edilsin.

Vergiqoymadan yayınma kifayət qədər ictimai təhlükədir. Birincisi, dövlət büdcə vəsaitlərini tam almır və bununla əlaqədar olaraq, dövlət proqramlarının maliyyələşdirilməsi azalır. İkincisi, vergi ödəməyənlər bazar rəqabəti nöqteyi-nəzərdən qanuna riayət edən vergi ödəyiciləri yanında daha sərfəli mövqedədir – onlar öz hərəkətlərilə iqtisadi fəallığın digər subyektlərini də təhrik edə bilirlər. Üçüncüsü, büdcənin gəlir hissəsinin kəsirinə aparan fiskal cinayətlərin geniş yayılması zamanı dövlət vəsait çatışmamazlığını yeni vergilərin tətbiqi, mövcud vergi və yığımların dərəcələrinin artırılması ilə kompensasiya edə bilər. Ona görə də, vergi qanunvericiliyinin nadir hallarda pozulması bütün cəmiyyətin və vergi ödəyicilərinin marağındadır.

Tənəzzül və ya böhran mərhələsində olan ölkələrin iqtisadiyyatına gəldikdə, vergiqoymadan yayınma da sahibkarlar üçün yaşayış üsullarından biri ola bilər. Lakin bir qədər yaxşı vəziyyətdə olan milli iqtisadiyyatlar üçün də fiskal cinayətlər son dərəcə geniş yayılmışdır. İnkişaf etmiş iqtisadiyyatlı ölkələrin büdcələri bu səbəbdən onlara düşən vergi yığımlarının üçdə birinə malik ola bilmirlər.

1996-cı ildə Fransada Hüquq və kriminologiya institutlarının fəaliyyəti sahəsində sosioloji tədqiqatlar mərkəzi tərəfindən hazırlanmış «Fransada cinayətlərin qiyməti» adlı məruzənin göstəriciləri vergi ödəməmələri, vergiqoymadan yayınma haqqında əyani təsəvvür yaradır. Ölçülərinə görə fiskal pozuntular bütün qalan kriminal əməliyyatlardan artıqdır, ödənilməmiş vergilər arasında isə korporasiyaların



downloaded from KitabYurdu.org

mənfəətinə olan vergi birinci yerdədir. 1991-ci ildə Fransada vergidən yayınma ÜDM-in 2,4%-ni təşkil etmişdir.

Vergi ödənilməsindən yayınmanın başlıca səbəbləri arasında vergi ödəyicilərinin vergi yükünün güclənməsinə olan cavab reaksiyasını, vergi dərəcələrinin yüksəldilməsini (mənəvi amil), vergi orqanları tərəfindən nəzarətin forma və metodlarının qeyri-mükəmməl olmasını (texniki səbəblər) və vergilərin ödənilməsinin və ödənilməməsinin iqtisadi nəticələrinin müqayisəsini (iqtisadi səbəblər) göstərmək olar. Vergi ödənilməməsinin xeyir və üstünlüklərinin büdcə ilə qarşılıqlı münasibətlərin insaflılığı ilə tutuşdurulması vergi pozuntularının baş verməsinə sövq edən əsas motiv (səbəb) kimi nəzərdən keçirilə bilər.

## 3.2. Beynəlxalq vergi planlaşdırması XİF subyektlərinin vergi yükünün leqal minimumlaşdırılması üsulu kimi

Beləliklə, beynəlxalq vergi planlaşdırması (BVP) fiziki və hüquqi şəxslərin xarici iqtisadi fəaliyyətin bütün yurisdiksiyalarında meydana çıxan məcmu gəlirlərinin minimumlaşdırılması məqsədilə qlobal vergi yükünün qanunvericiliklə yol verilən aşağı salınmasıdır. Aydındır ki, beynəlxalq korporativ vergi planlaşdırması və qeyri-korporativ müştərilər üçün BVP planlaşdırmanın müxtəlif mexanizmlərini üstün tutacaqlar. Onu da qeyd edək ki, BVP yalnız XİF subyektləri üçün deyil, həm də öz yurisdiksiyalarında vergi ödənişlərini minimumlaşdırmağa cəhd edən bütün milli hüquqi və fiziki şəxslər üçün xarakterikdir. Hətta əgər vətəndaş və ya şirkət XİF aparmırsa, vergilərin minimumlaşdırılması üsullarından biri gəlirlərin güzəştli vergiqoyma rejimi olan ölkələrə köçürülməsi beynəlxalq kapital bazarlarında şəxsi və ya korporativ kapitalın investisiyalarının daha gəlirli və vergi qoyulmayan aktivlərinə qoyulması ola bilər. Bu, qanunvericiliyə zidd deyil, hər bir fiziki/hüquqi şəxslərin vergi ödənişlərinin yığımı üzrə dövlət maşınının artan iştahına səmərəli reaksiyasıdır.



downloaded from KitabYurdu.org

### *Korporativ BVP*

Korporativ BVP-nin subyekti korporasiyadır. Bu cür planlaşdırma daha tam həcmdə XİF subyektlərinin fəaliyyətinə, xüsusilə transmilli korporasiyalara (TMK) tətbiq edilir. Vergiqoyma nöqteyi-nəzərdən baş holdinq şirkəti və onun bazasının yurisdiksiyasından fərqli olan ölkələrdə yerləşən «qız» şirkətlərini, nümayəndəlik və filiallarını əhatə edən qrupun firmadaxili strukturu hesab edilir. Əlbəttə, transmilli qrupun yaradılmasının əsas məqsədləri istehsal, satış və korporasiyanın fəaliyyətinə nəzarət prosesinin optimallaşdırılması, qrupun xərclərinin minimumlaşdırılması və mənfəətinin maksimumlaşdırılması, dünya bazarında TMK-nın mövqelərinin güclənməsidir. Lakin TMK-nın strukturunun qurulması prosesində fəaliyyətin vergi aspektləri heç də sonuncu yeri tutmur. Korporativ BVP-nin məqsədi də şirkətin məcmu mənfəətinin maksimumlaşdırılması üçün məhz TMK-nın firmadaxili strukturunun optimallaşdırılmasıdır.

Korporativ BVP TMK-nın vergi yükünün aşağı salınmasının qanuni üsullarının axtarışıdır. O, TMK-nın bütün ölkələrdə kommersiya fəaliyyətinin aparılmasında lokal vergilərin (ərazi prinsipi üzrə) məbləği, həmçinin şirkətin inkorporasiyası və mərkəzi ofisin yerləşdiyi ölkədə vergilərin (rezidentlik prinsipi üzrə) meydana çıxan məcmu vergi ödənişlərini minimumlaşdırmağa yönəldilmişdir.

Korporativ BVP-nin obyekti transmilli korporasiyanın mənfəətidir. Qrupun qlobal mənfəətinin maksimumlaşdırılması üçün TMK-nın fəaliyyətilə əlaqədar meydana çıxan əsas vergiləri minimumlaşdırmaq zəruridir. Bu vergilər arasında:

*BİRBAŞA VERGİLƏR*

a) gəlirdən: korporasiyanın mənfəətinə vergi, mənfəətin dividendlər, faizlər, royalti tipində korporasiyanın səhmdarlarının xeyrinə ödənişlərinin bölüşdürülməsindən vergi (o cümlədən repatriasiyasına vergi – onun xarici tərəfdaşlarının xeyrinə bölüşdürülməsi), satış və daşınmaz əmlakdan, qiymətli



downloaded from KitabYurdu.org

kağızlarla aparılan əməliyyatlardan kapitalın bazar dəyərinin artımına vergi;

b) əmlak: kapitala, mülkiyyətə (daşınmaz əmlaka, torpağa) vergilər;

c) sosial sığortaya vergilər və başqa birbaşa vergilər.

*DOLAYI VERGİLƏR*

a) əlavə dəyər vergisi və aksizlər;

b) gömrük vergiləri və yığımları (idxal-ixrac rüsumları, tərtibat yığımları və s).

c) transfert vergiləri: sövdələrə görə vergi, əmlakın ötürülməsinə vergi və s.

Korporativ BVP-nin məqsədinə nail olmağa kömək edən əsas mexanizm çevik firmadaxili strukturun yaradılmasıdır ki, bu çərçivə hüdudlarında vergilərin minimumlaşdırılması üzrə aşağıdakı başlıca əməliyyatlar aparılır:

1. Mənfəətin təkrar bölüşdürülməsi – TMK-nın qlobal mənfəətinin əsasən vergiqoymanın daha aşağı səviyyəsi olan ölkələr üzrə yerləşdirilməsi;

2. Mənfəətin aşağı salınması – xarclərin, faiz ödənişlərinin, dividendlərin, royaltilərin bir hissəsinin vergi limanlarının firmadaxili şirkət-rezidentlərinin maliyyə nəticələrinə aid edilməsi;

3. Mənfəətin yaradılması – yurisdiksiyalarda vergi yükünün yüksək səviyyəsində vergiqoyma fəallığı ilə əlaqədar olmayaraq bütün əməliyyatların vergi limanlarına çıxarılması.

Birinci iki əməliyyat növü firmadaxili BVP-də daha geniş yayılmış, üçüncü əməliyyat növü o qədər də istifadə olunmur.

## 3.3. Hüquqi şəxslərin XİF-nin təşkilinin formaları və onların vergi xüsusiyyətləri

Xarici iqtisadi fəaliyyət zamanı şirkətin xarici bazarlara daxil olmasının tədriciliyi nöqteyi-nəzərdən korporativ hüquqi



downloaded from KitabYurdu.org

şəxslərin kommersiya fəallığının təşkilinin 7 formasını ayırmaq olar. XİF-in bu formaları korporasiyaların vergiqoyma xüsusiyyətlərinə uyğun olaraq seçilir. Bu formalar arasında:

- ixracatçı tərəfindən milli sərhədi keçmədən, yəni xarici ölkədə fiziki cəhətdən olmadan mal və xidmətlərin ixracı;
- korporasiyanın xarici yurisdiksiyada daimi nümayəndəliyi yaradılmadan xarici ölkədə məhdud şəkildə iştirak;
- yeni hüquqi şəxs yaratmadan şirkətin xarici filialının (şöbəsinin) yaradılması;
- TMK-nın xaricdə xüsusiləşmiş yarımşöbəsinin – qrupunun firmadaxili strukturuna daxil olan «qız» şirkətinin yaradılması;
- xarici holdinq şirkəti yaratmaqla qeyri-rezidentlərin TMK-nın xarici müəssisələrinin birləşmiş qrupunda cəmləşməsi;
- hazır xarici şirkətin alınması və onun TMK-nın firmadaxili strukturuna daxil edilməsi;
- müstəqil xarici şirkətlə birgə müəssisənin təşkili (başqa TMK ilə alyans).

XİF-in təşkilinin əsas formalarını daha ətraflı nəzərdən keçirək.

### 3.4. Sərhədi keçmədən mal və xidmətlərin ixracı

Malların ixracı zamanı bütün sövdələr şirkətin öz ofisində, onun inkorporasiyası yurisdiksiyasında bağlanır. Ən sadə halda malın milli sərhədlərdən göndərilməsilə əlaqədar olan bütün xərcləri xarici tərəfdaş öz üzərinə götürür. Bir sıra hallarda sənədlərin xaricə ötürülməsinə və müqavilənin razılışdırılmasına yol verilmir.

Xidmətlərin ixracı zamanı bu fəaliyyət forması müəyyən özünəməxsusluğa malikdir. Məsələn, bu yolla maliyyə-məsləhət, hüquqi xidmətlər, yəni qeyri-maddi xarakterli xidmətlər göstərmək olar. Lakin maddi xidmətlər göstərərkən (tikinti işləri, lizinq) bir qayda olaraq, xarici dövlətdə fiziki iştirak tələb olunur.



downloaded from KitabYurdu.org

XİF-in bu formasının üstünlükləri ondan ibarətdir ki, korporasiya sərhədi keçmədən ixrac edərkən ixrac gəlirlərinə xarici vergilərdən qaçır (mənfəətə vergi, gömrük yığımları, aksizlər, başqa birbaşa və dolayı vergilər).

Qeyd etmək lazımdır ki, malların ixracı zamanı əlavə dəyərə daxili vergi tətbiq olunmur. Lakin xidmətlərin ixracı zamanı onlardan bəziləri, məsələn, Böyük Britaniyada lizinq xidmətləri ƏDV-dən azad edilmir.

Beləliklə, xaricə göndərilən malların satışından, ƏDV-dən gələn mənfəətə vergilərin ödənilməsi üzrə bütün vergi məsuliyyətini xarici yurisdiksiyada idxalçı şirkət – bu xarici dövləti rezidenti öz üzərinə götürür.

**Misal 1.**

Kanadanın S şirkəti öz məhsulunu Torontoda istehsal edir. Şirkət bazarın öyrənilməsinə əsasən öz məhsulunu ABŞ-da, xüsusilə Orta Qərbdə potensial satış bazarı barədə nəticəyə gəlmişdir. S Amerikanın kommersiya jurnallarında öz məhsullarının reklam kampaniyasını keçirmiş və İndiana, İllinoys, Minnesota və Ohayoda yerləşən şirkətlərdən sifarişlər almağa başlamışdır. Kanada şirkəti öz məhsulunu FOB-un şərtlərilə Torontodan yükləyir, Kanadadan hesab-faktura yazır və Orta Qərbdəki istehlakçılarından hesabatlara görə ödənişlərin poçt ilə, ABŞ-da hər hansı nümayəndələri olmadan alır.

Amerika qanunvericiliyinə görə xarici şirkət ABŞ-da o vaxta qədər vergiqoymaya məruz qalmır ki, ABŞ ərazisində ticarət və ya bizneslə bilavasitə məşğul olmasın. Bu misalda Kanadanın S şirkəti qanunun bütün tələblərinə riayət edir. Deməli, onun məhsulunun Amerika şirkətlərinə satışından alınan mənfəəti ABŞ-da təkrar mənfəətdən vergiyə məruz qalmır.

Lisenziyalaşma zamanı milli şirkət özünün xarici tərəfdaşı ilə lisenziya müqaviləsi bağlayır ki, bu müqaviləyə uyğun olaraq tixarət mənfəəti deyil, royalti alır. Lisenziyalaşma da həmçinin xaricdə vergi ödəyicisinin iştirakının vacibliyini tələb etmir, belə ki, xaricdə daimi nümayəndəlik yaratmayan, kommersiya fəaliyyətinin passiv forması olacaqdır. Ona görə



downloaded from KitabYurdu.org

də lisenziar mənfəətdən xarici vergiyə məruz qalmır. Lakin lisenziyaların gəlirinin royalti tipində ödəniş formasında köçürülməsi zamanı xarici dövlət ərazi prinsipinə müvafiq olaraq royaltinin repatriasiyasına vergi

çıxa bilər. Əgər royaltinin xarici tərəfdaşın xeyrinə bölüşdürülməsinin analoji vergiləri lisenziarın ölkəsində mövcuddursa, xarici dövlətdə onun repatriasiyası zamanı mənfəətdən çıxılan vergini öz ölkəsində kreditləşdirə bilər. Əgər lisenziarın ölkəsində repatriasiyaya vergi yoxdursa, onun xaricdən royaltinin köçürülməsi zamanı ödənilən məbləğ korporasiya üçün əlavə vergi yükünə çevrilə bilər.

Lakin royaltinin repatriasiyası zamanı bir sıra üstünlüklərdən istifadə etmək olar. Royalti tipli ödənişlərin repatriasiyasına olan vergilərin dərəcəsi xeyli azaldıla və ya əgər iki ölkə arasında ikiqat vergiqoymadan qaçmaq haqqında müqavilə varsa, heçə endirilə bilər.

Xüsusilə qeyd etmək lazımdır ki, inteqrasiya proseslərinin inkişaf etdiyi şəraitdə regional qrupların iştirakçıları bu problemi tənzimləməyə cəhd edirlər. Avropa İttifaqı ölkələrində royalti tipli ödənişlər həmin royaltilər Aİ-nin başqa üzv olan ölkələrinə köçürüldükdə, praktiki olaraq repatriasiyaya görə vergiyə cəlb olunmur.

Verginin çıxıldığı hallarda isə onu kreditləşdirmək mümkündür.

**Misal 2.**

İngiltərənin lisenziar-şirkəti Portuqaliyadakı lisenziar-şirkətdən 100 min f. st. məbləğində royalti alır. Royalti Portuqaliyadan İngiltərəyə köçürülən zaman 5% repatriasiyaya çıxılır. İngilis firmasının mənfəətdən vergi ödəməsi aşağıdakı sxem üzrə həyata keçirilə bilər:

| | |
|---|---|
| Vergi qoyulan gəlir | 100 000 f.st. |
| 33% dərəcəsi ilə mənfəətdən vergi çıxılsın | 33 000 f.st. |



downloaded from KitabYurdu.org

Portuqaliyada ödənilmiş vergi
krediti 5 000 f.st.
Böyük Britaniyada vergi ödənişinin
məbləği 28 000 f.st.

Verginin ümumi məbləği 33 000 f.st.-ə bərabər qalır, lakin Böyük Britaniyada lisenziar-şirkət tərəfindən ödənilmiş vergi Portuqaliyada ingilis şirkətinin xeyrinə ödənilmiş royaltinin köçürülməsi zamanı vergi məbləği qədər azalır.

Onu da qeyd etmək lazımdır ki, dünyanın əksər ölkələrində firmaya xarici ölkələrdən royalti formasında gələn daxilolmalar ƏDV-dən azaddır.

Françayzinq – vergi nəticələrinə görə lisenziyalaşdırmanı xatırladan XİF növüdür. Fəaliyyətin bu növü aşağıdakı bir sıra ixrac xidmətləri üçündür:

- malların standartlarının monitorinqi;
- məhsulun marketinqi;
- ümumi məsləhət dəstəyi.

Bu zaman vergitutmadan ötrü xarici ölkədə daimi nümayəndəlik yaradılmır. Franşiz satıcısı həmçinin royalti formasında gəlir alır, lakin bir sıra hallarda satıcının ölkəsində françayzinq fəaliyyətindən əldə edilən daxilolmalar ƏDV-yə məruz qalır.

Beləliklə, XİF-in təşkilinin ilk forması, bir qayda olaraq, özünə xarici vergilər cəlb etmir və korporasiya bütün vergi məsuliyyətini yalnız özünün yerləşdiyi ölkədə daşıyır. Royaltilərin repatriasiyası üçün xarici vergi çıxılan hallarda lisenziyalaşdırma və françayzinq üçün adətən vergi krediti almaq olur, həmçinin beynəlxalq vergi müqavilələrindən istifadə etmək və ya vergi cəhətdən neytral ölkələrlə kommersiya fəaliyyətinin bu cür növlərini həyata keçirmək mümkündür.

## 3.5. Xarici ölkədə daimi nümayəndəlik yaratmadan məhdud iştirak



downloaded from KitabYurdu.org

XİF-in bu forması xarici ölkə bazarına bilavasitə çıxışı nəzərdə tutur, vergi planlaşdırmasının bütün səyi isə həmin dövlətin ərazisində korporasiyanın daimi nümayəndəliyinin yaradılmamasına yönəlir. Burada fəallığın məhdud səviyyəsi və iştiraka vergiqoymadan qaçmaq nəzərdə tutulur. Ölkə ilə biznesin aparılmasından ölkədə biznesin aparılmasına keçidin sərhədləri xarici dövlətin daxili vergi qanunvericiliyindən, onun interpretasiyalarından, həmçinin ikitərəfli vergi konvensiyalarından asılıdır.

Bir sıra hallarda «daimi nümayəndəlik» meyarına anbar binaları, nümayiş zalları, şirkətin müştərilərə servis xidmətləri göstərən, bazar haqqında informasiya toplayan nümayəndəlikləri, reklam və marketinq büroları daxil olmur. Çox da uzun olmayan müddət ərzində müəyyən fəaliyyət növləri də həmçinin daimi nümayəndəlik hesab edilmir (məsələn, gəlirlərə və əmlaka ikiqat vergiqoymadan qaçmaq haqqında Rusiya-Kipr müqaviləsində 12 aydan azmüddətli olan tikinti-quraşdırma işləri).

Əgər şirkət xarici daimi nümayəndəlik yaratmırsa, bu zaman o, xarici yurisdiksiyada vergiqoyma obyekti də yaratmır. Xarici ölkədə məhdud iştirak üçün xarici şirkətlər tərəfindən müstəqil agentlərdən istifadə də həmçinin kifayət qədər tez-tez tətbiq edilir.

**Misal 1.**

İtaliyanın İ şirkəti ABŞ-ın Hyuston şəhərindəki D distribyutoru vasitəsilə öz məhsullarının pərakəndə satışını həyata keçirir. D müstəqil distribyutordur, italyan şirkətinin məhsullarına mülkiyyət hüququ yoxdur və Amerika istehlakçılarının İ şirkətindən sifarişlərinin vaxtında alınmasına kömək edir. D İ-nin məhsullarını reklam və bazara ötürmür, servis xidmətilə məşğul olmur, yalnız İ ilə istehlakçılar arasında ara funksiyalarını həyata keçirir. Buna görə də italyan şirkəti ABŞ ərazisində ticarətlə və ya bizneslə məşğul olan hesab edilmir və Amerikanın gəlirdən vergilərinə məruz qalmır.



downloaded from KitabYurdu.org

## 3.6. Şirkətin xarici filialının (şöbəsinin) yaradılması

Korporasiyanın filialı xarici yurisdiksiyada təsis edildiyi ölkənin rezidenti deyil, daimi nümayəndəliyi hesab ediləcək. Filialı yaratmaq üçün bir sıra prinsiplərə riayət etmək zəruridir:

- heyyət xarici işəgötürənlə əmək müqavilələri bağlayır;
- elə müəssisə, biznes vahidi yaranır ki, onu mütləq bu yurisdiksiyada xarici filial kimi qeydiyyatdan keçirmək lazımdır. Lakin bu zaman ayrıca hüquqi şəxs yaranmır, filialın məqsədi birləşmiş transmilli qrupun tərkibində kommersiya fəaliyyətinin həyata keçirilməsidir;
- filial istehsal binalarına (binalar, tikililər) malikdir, konstruktor və ya tədqiqat layihələrini həyata keçirir, yəni baş şirkətin xarici istehsal, yığım və ya xidmət müəssisəsi yaranır;
- filial uzun müddət üçün (1 ildən artıq) yaradılır;
- filialın fəaliyyəti həmin filialın aid olduğu baş şirkətin rezidentliyi ölkəsi tərəfindən əlaqələndirilir və maliyyələşdirilir.

Vergi nöqteyi-nəzərindən filial iki vergi yurisdiksiyası qanunlarına düşür:

1. Birincisi, filialın mənfəəti filialın yerləşdiyi yerdən gəlir vergilərinə cəlb olunacaq. Həm də filial yerləşdiyi ölkənin daimi nümayəndəliyi kimi həmin dövlətdə şirkətlərdən tutulan bütün lazımi vergiləri ödəyəcəkdir. Mənfəətə görə vergidən başqa bu, əmlaka, kapitala vergi, ƏDV və müxtəlif yerli vergi və yığımlardır.
2. İkincisi, bütün vergilər çıxılmaqla filialın mənfəəti baş şirkətin yerləşdiyi ölkəyə köçürüləcək ki, burada şirkətin ümumi balansına daxil olaraq, rezidentliyi yeri üzrə yenidən korporasiyanın gəlirlərinə görə vergiyə cəlb olunacaq.

Bu cür ikiqat vergiqoymanı aradan qaldırmaq üçün baş şirkətin məcmu vergi məsuliyyətini hesablarkən yerləşdiyi ölkədə filialın ödədiyi vergilərin kreditləşməsindən istifadə etmək olar.



downloaded from KitabYurdu.org

XİF-in bu formasının müəyyən üstünlüyü filialın vergi tutulan mənfəətindən onun yurisdiksiyasında baş şirkətin xeyrinə idarəetmə, məsləhət, marketinq və buna oxşar xidmətlərə görə ayırmaların çıxılması imkanı ola bilər. Lakin beynəlxalq vergi müqavilələrində bu cür çıxılmaların yol verilən hədləri ayrıca olaraq nəzərə alınır.

Filiallar ƏDV üzrə müəyyən üstünlüklərə malikdirlər. Əgər filialla üçüncü şəxs arasında (qrupun firmadaxili strukturuna daxil olmayan) sövdələrə ƏDV qoyulursa, filiallar və bir transmilli qrupun yarımbölmələri arasında sövdələr ƏDV-dən azad edilir.

Lakin filialın yerləşdiyi ölkədə mənfəətdən verginin dərəcəsi baş şirkətin yerləşdiyi ölkədə olduğundan aşağıdırsa, bu zaman filial vasitəsilə əməliyyatların vergi məsuliyyəti transmilli qrupa daxil olan xüsusiləşmiş «qız» şirkəti tərəfindən həyata keçirilən fəaliyyətdəki vergi yükündən böyük vergi məsuliyyəti deməkdir.

## 3.7. Xarici ölkədə xüsusiləşmiş struktur yarımbölmə – «qız» müəssisə

Xarici «qız» şirkətinin başlıca məziyyəti onun aktivlərinin xüsusiləşməsi və deməli, baş şirkətdən əməliyyatların xüsusiləşməsidir. Xarici dövlətin rezidenti kimi yaradılan bu «qız» şirkət bütün vergiləri rezidentliyi yeri üzrə ödəyəcəkdir. Bu hallarda baş korporasiyanın yurisdiksiyasında «qız» şirkətin gəlirlərinə vergiqoymadan həmin gəlirlər repatriasiya olunmayacağı və meydana gəldiyi ölkədə qalacağı zaman qaçmaq olar. Beləliklə, «qız» şirkətin mənfəətinə ikiqat vergiqoymadan qaçmaq mümkündür ki, bu, xarici filialın mənfəətinə vergiqoyma hallarında mümkün olmur. Lakin mənfəətin köçürülməsi dividendlər, faizlər, royalti formasında olduğu zaman ikiqat vergiqoyma da olacaqdır. Əvvəlcə «qız» şirkətin rezidentliyi yurisdiksiyasında bu cür ödənişlərin repatriasiyasına vergilər çıxılacaq, sonra «qız» şirkətin kapitalında iştirakdan gəlirlər baş şirkətin ümumi mənfəətinə daxil olacaq və rezidentliyi yeri üzrə mənfəətdən vergiyə cəlb olunacaq.



downloaded from KitabYurdu.org

Firmadaxili struktur çərçivəsində ikiqat vergiqoymanı minimumlaşdırmaq üçün vergi yükünün yüngülləşdirilməsi də nəzərə alınmışdır. Xarici şirkət kapitalda 10%-dən yüksək iştirakla nəzarət olunursa, mənfəətin repatriasiyasına vergiyə müəyyən endirim əldə etmək olar. Filial üçün olduğu kimi, mərkəzləşmiş idarəetmə üzrə xərclərin bir hissəsini baş şirkətin hesabına aid etmək olar ki, bu da həmçinin vergi tutulan mənfəəti aşağı salır. Lakin «qız» şirkətinin biznesi xüsusiləşmiş olduğundan, onun itkilərini «ana» şirkətin mənfəətinə şamil etmək olmaz. «Ana» şirkət özünün «qız» şirkətinin öhdəliklərinə cavabdeh deyil.

## 3.8. Trans Milli Korporasiyanın (TMK) firmadaxili strukturunun yaradılması

XİF-in təşkilati formalarının – hüquqi şəxs, korporasiyaların nəzərdən keçirilməsi əsasında xarici qeyri-rezident firmanın bu yurisdiksiya bazarına transmilli qrupun struktur biznes vahidləri yaratmaqla daxil olmasının mərhələliyini təklif etmək olar. Bu mərhələlilik vergi yükünün tədricən yüksəlməsi və assosiasiyalaşdırılmış şirkətlər tərəfindən yeni vergi statuslarının alınması demək olacaqdır.

### *Vergi nəticələrini nəzərə almaqla TMK-nın piramidalı strukturunun qurulması*

TMK-nın firmadaxili strukturu qurulan zaman nəinki xarici şirkətlərin assosiasiyalaşdırılmış qrupunun şəbəkəsini yaratmaq, həm də maliyyələşdirmə və vergi planlaşdırmasının strateji məsələlərinin həlli üçün onları vahid qrupda birləşdirmək mühümdür. Qrupun vergi yükünü minimumlaşdıran maliyyə transsəhmləri «ana» və «qız» şirkətlərin, onların filiallarının məhz bu firmadaxili zənciri vasitəsilə həyata keçirilir.

Birləşmiş qrupun şirkətləri arasında qarşılıqlı münasibətlərin mexanizmində həlledici rol ötürücü şirkətlərə məxsusdur ki, bunların başlıca vəzifəsi maliyyə fəaliyyətinin əlaqələndirilməsi və TMK daxilində pul axınlarının yenidən bölüşdürülməsidir. TMK-nın firmadaxili strukturunun zirvəsində baş «ana» şirkət – TMK-nın baş «beyin» strateji mərkəzi özünəməxsus piramida şəklində, onun bünövrəsini isə müxtəlif



downloaded from KitabYurdu.org

fəaliyyət sahələri üzrə ixtisaslaşmış «qız» şirkətləri kimi təsəvvür etsək, bu zaman piramidanın əlaqələndirici həlqəsi, baş şirkətlə çoxsaylı «qız» müəssisələri arasında əlaqə yaradan məhz vasitəçi şirkətlər-ötürücülər olacaqdır.

Ötürücü şirkətlər qrupun şirkətləri arasında maliyyə transsəhmlərinə nəzarət edir, onların vasitəsilə bütöv firmadaxili zəncir üzrə investisiyalar həyata keçirilir, onlar öz hesablarında TMK-nın gəlirlərini cəmləşdirir və bölgüsü ilə məşğul olur. Ötürücü şirkətlərin fəaliyyət sahəsinə həmçinin aşağı səviyyəli «qız» şirkətlərin operativ idarə edilməsi aiddir. Vasitəçi şirkətlər subholdinqlər, maliyyə şirkətləri və servis şirkətləri ola bilər, həmçinin özlərində həmin ixtisaslaşmış şirkətlərin növlərini birləşdirə bilər. Bu nöqteyi-nəzərdən TMK-nın firmadaxili strukturunu sxematik olaraq aşağıdakı kimi təsəvvür etmək olar (bax: sxem 7-1ə).

Bir qayda olaraq, şirkətlər transmilli qrupa daha yüksək yaruslu şirkətlərin aşağı həlqənin aktivlərində iştirakı sistemi əsasında birləşir. Klassik formada bu cür iştirak sistemi birbaşa xarici investisiyalar əsasında qurulur. Bu o deməkdir ki, «ana» şirkət aşağı yaruslu şirkətlərin fəaliyyətinə nəzarət etməlidir. Lakin portfel investisiyalarından da istifadə etmək mümkündür. «Ana» şirkət hətta qrup daxilində maliyyə sövdələrinin gələcək əməliyyatları üçün şəraiti təmin etmək məqsədilə bu iştirak formasından istifadə edə bilər. Bu halda məlum olur ki, tam asılı olmayan «qız» şirkət rəsmi olaraq özünün «ana» şirkətinə münasibətdə transmilli qrupda iştirak sistemi ilə bağlı olmayan üçüncü tərəf kimi qəbul edilə bilər ki, sonralar bunu firmadaxili (transfert) qiymətqoymada və ya beynəlxalq vergi müqavilələrində «şoppinq» zamanı istifadə etmək olar.

**Sxem 7**

**TMK-nın firmadaxili strukturunun yaradılması**






downloaded from KitabYurdu.org

# İV FƏSİL

## BANK VƏ SIĞORTA OFŞOR MƏRKƏZLƏRİ VƏ ZONALARI

4.1. Əsas ofşor və güzəştli bank mərkəzlərinin müqayisəli xarakteristikası

4.2. Aparıcı bank ofşor mərkəzləri və onların xüsusiyyətləri.

4.3. Sığorta fəaliyyəti üzrə ixtisaslaşmış ofşor mərkəzlər



downloaded from KitabYurdu.org

## 4.1. Əsas ofşor və güzəştli bank mərkəzlərinin müqayisəli xarakteristikası

Ofşor ərazilərdə bankların təsisi təcrübəsi İkinci dünya müharibəsindən sonra geniş şəkildə yayılmışdır. Ofşor bank mərkəzlərinə marağın artmasının başlıca səbəbləri kimi inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə valyuta məhdudiyyətlərinin həyata keçirilməsi və valyuta nəzarətinin tətbiqini, bank fəaliyyəti qaydalarının sərtləşməsi və onların gəlirlərinə olan vergilərin yüksək dərəcələrini hesab etmək olar. Müasir şəraitdə praktiki olaraq heç bir iri beynəlxalq bank birliyi güzəştli vergiqoyma zonalarında ya filial, ya da hər hansı «qız» cəmiyyəti bankı yaratmadan keçinə bilmir.

Valyuta məhdudiyyətləri və valyuta nəzarəti bu və ya başqa formada praktiki olaraq bütün inkişaf etmiş ölkələrdə mövcuddur ki, bu da milli müştərilərə təqdim edilən xidmət sahələrinin genişləndirilməsi üzrə imkanları azaldır, həmçinin beynəlxalq bankların beynəlxalq maliyyə əməliyyatlarında iştirakı imkanlarını məhdudlaşdırır. Qərbi Avropa ölkələrində valyuta məhdudiyyətləri 50-60-cı illərdə geniş yayılmışdı. Müştərilərin valyuta əməliyyatlarına məhdudiyyətlər qoyulması bu əməliyyatların ölkədən kənarda həyata keçirilməyə başlanmasına səbəb olmuşdu.

İnkişaf etmiş ölkələrdə valyuta məhdudiyyətlərinin tədricən aradan qaldırılması bu amilin əhəmiyyətinin azalmasına səbəb olurdu, lakin bir çox ölkələrdə rezidentlər üçün valyuta məhdudiyyətlərinə qayıdış potensial təhlükə kimi qaldığından, bununla əlaqədar olaraq, yenə də o, başlıca amillər içərisində qalmaqda davam edir. Belə ki, Fransada sosialistlərin hakimiyyətə gəlməsi ilə valyuta nəzarəti və valyuta məhdudiyyətləri böyük miqyaslarda bərpa olunmuşdur.

İnkişaf etməkdə olan və keçmiş sosialist ölkələrində bank əməliyyatlarının müəyyən hissəsinin milli hüquqi ünvandan kənar fəaliyyətini stimullaşdıran amil kimi valyuta nəzarəti və valyuta məhdudiyyətləri xüsusi əhəmiyyət kəsb edir. Daxili



downloaded from KitabYurdu.org

iqtisadi vəziyyətin qeyri-sabitliyi və çoxsaylı qadağaların olması bu ölkələrdən kapital axınına zəmin yaradır. İqtisadi fəaliyyətin bir çox iştirakçıları valyuta əməliyyatları qaydalarını pozduqlarına görə dövlət tərəfindən müsadirə tədbirlərindən ehtiyatlanaraq, öz kapitallarını bu cür pozucuların əmlakına cərimə müraciəti etməyə imkan verməyən ölkələrin banklarına yerləşdirməyə səy edirlər.

Valyuta məhdudiyyətləri banklara bir çox hallarda öz real və potensial müştərilərinə xidmətlər kompleksi təqdim etməyə imkan vermir ki, bu da bankları onların xarici rəqibləri ilə müqayisədə pis vəziyyətə qoyur. İqtisadi cəhətdən qeyri-sabit ölkələrin hökumətləri böhran dövrlərində tez-tez valyuta məhdudiyyətlərindən əlavə daxili resursların səfərbər edilməsi vasitəsi kimi istifadə edirlər, baxmayaraq ki, milli bankların və digər kredit müəssisələrinin xarici kontragentlərinə qarşısında öz öhdəliklərini vaxtında yerinə yetirə bilməmələri həmin ölkələrin beynəlxalq nüfuzunu aşağı salır.

Bank fəaliyyətinin həyata keçirilməsi qaydalarının sərtləşməsi həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr üçün ümumi meyldir. Bu amillər bankların və kredit müəssisələrinin minimal nizamnamə kapitalına yüksək tələblərin qoyulmasını, bank fəaliyyətinə lisenziya almağın sərt şərtlərinin müəyyən edilməsini, informasiyanın açıqlanması üzrə yüksək standartlığın tətbiqinıı, fiziki şəxslərdən əmanətlər cəlb edən banklara əlavə tələbləri, investisiya fəaliyyətinə məhdudiyyətləri, müəyyən əməLiyyatların aparılmasına, iqtisadiyyatın ayrı-ayrı sahələrində «qız» müəssisələrin təsisinə qoyulan qadağaları aid etmək olar. Bir çox ölkələrdə banklar böyük həcmdə hesabat verməyə məcburdurlar. Praktiki olaraq bütün ölkələrdə vergi və xüsusi bank hesabatının auditor tərəfindən təsdiqi vacibdir.

Kredit müəssisələrinin fəaliyyətinin mərkəzi banklar tərəfindən tənzimlənməsi bəzi hallarda iqtisadi qərarlar qəbul edilməsi üzrə kommersiya banklarının sərbəstliyini məhdudlaşdıran formalar alır. Məcburi normativlər sistemi tez-tez həddən sərt sanksiyaları nəzərdə tutur. Bank müəssisələrinin



downloaded from KitabYurdu.org

müxtəlif növ xüsusi fondlara məcburi ödəmələri onların kredit və investisiya imkanlarını xeyli məhdudlaşdırır, əməliyyatlarının rentabelliyini aşağı salır. Bir qayda olaraq, inkişaf etməkdə olan və keçmiş sosialist ölkələrində bankların məcburi ödəmələri və ehtiyatları sistemi mərkəzi banklara kommersiya bankları tərəfindən cəlb olunmuş vəsaitlərdən güzəştli və hətta pulsuz istifadə imkanları verir. Ofşor bankın yaradılması yuxarıda göstərilən problemləri tamamilə və ya hissə-hissə (qismən) həll etməyə imkan verir.

Sözsüz ki, vergi amili bank əməliyyatlarının bir hissəsinin ofşor mərkəzlərə keçirilməsi üçün başlıca amildir. Bankın təsis edilməsi üçün konkret yer seçilən zaman nəinki kredit müəssisənin özünün vergiqoyma rejiminə, həmçinin bu bankın müştəriləri üçün mövcüd vergi şərtlərinə də xüsusi diqqət yetirmək lazımdır.

Ofşor zonalarda təsis edilən bankların əsas üstünlükləri aşağıdakılardır:

- milli qanunvericilik tərəfindən müəyyənləşdirilmiş məhdudiyyətlərdən yan keçərək vəsaitlərin cəlb edilməsi və yerləşdirilməsi üzrə beynəlxalq bazarlara daxil olmaq;

- mənfəətə vergiqoymanın güzəştli rejimi resursların bir yerə toplanmasına (akkumulyasiyasına) və təsisçinin məqsəd və vəzifələrinə uyğun olaraq bölüşdürülməsinə imkan yaradır;

- ofşor banklara verilən kreditlərdən, mənfəətə verginin yüksək dərəcələri mövcud olan ölkələrdə vergiqoymanın minimumlaşdırılması üçün fəal istifadə olunur;

- ofşor zonalarda qeydiyyatdan keçmiş banklarda depozitlər üzrə hesablanan və ödənilən faizlər ödəmə mənbəyindən vergiqoymadan azaddırlar;

- bir qayda olaraq bu banklara maliyyə məhdudiyyətləri, onların fəaliyyəti qeydiyyata alınmış ölkələrin sərhədlərindən kənarda həyata keçirilən zaman aid edilmir;

- bu cür bankın təsis edilməsi və cari fəaliyyətinin dəstəklənməsi zamanı vəsaitlərə xeyli qənaət imkanı əldə edilir.

Ofşor zonada bankın təsis edilməsi maliyyə əməLiyyatlarının xeyli hissəsinin hər hansı beynəlxalq maliyyə-sənaye qrupu çərçivəsində ofşor mərkəzlər vasitəsilə həyata keçirildiyi



downloaded from KitabYurdu.org

zaman əlavə əhəmiyyət kəsb edir. Bu halda ofşor ərazidə qeydiyyatdan keçən bank öz qrupunun müəssisələrinə xidməti həyata keçirə bilər.

Ofşor ərazilərdə qeydiyyatdan keçən bütün bank və kredit müəssisələrini yaranma məqsədindən asılı olaraq 3 kateqoriyaya ayırmaq olar: müstəqil müştərilərə tam xidmət kompleksi təqdim etmək üçün yaradılan mükəmməl bank müəssisələri; əsasən bir maliyyə-sənaye qrupu (keptiv bank müəssisələri) daxilində əməliyyatlar aparmaq üçün banklar; ayrı-ayrı əməliyyat növləri aparmaq və ya təsisçinin aktivlərini idarə etmək üçün bank müəssisələri.

Ofşor bankın təsis edilmə yerini seçərkən həmişə onun məqsəd və vəzifələrini nəzərə almaqla həyata keçirmək lazımdır.

Bank müəssisələri vergi tutulan sxemdə məhdud funksiyaların yerinə yetirilməsi üçün o ölkələrdə yaradılır ki, həmin ölkələr adətən gəlirlərə ikiqat vergiqoymanın oradan qaldırılması üçün gəlirlərin əldə edilməsi nəzərdə tutulan ölkələrlə əlverişli müqavilə şərtləri bağlayırlar. Real əməliyyatlar və müstəqil müştərilərə xidmət üçün nəzərdə tutulan bankları adətən minimal vergiqoyma səviyyəsi olan və valyuta tənzimlənməsi normaları olmayan ölkələrdə təsis edirlər. Bir qayda olaraq, yalnız təsisçilərin vergi öhdəliklərini minimumlaşdırmaq məqsədləri üçün yaradılan banklar o ölkələrdə qeydiyyatdan keçirlər ki, onlar eyni zamanda aşağıdakı şərtlərə də uyğun olsun;

– rezidentlərin gəlirlərinə vergi qoyulmur;

- gəlirləri bölüşdürən mənbə yanında vergiqoyma yoxdur;

- xüsusi statusu olan bankların (ofşor bankların) əməliyyatlarına valyuta məhdudiyyətləri yoxdur;

- bankın qeydiyyatı və cari xidmətləri üzrə xərclər yol veriləndir (məqbuldur);

- mükəmməl bank müəssisələri vasitəsilə geniş əməliyyatlar keçirmək imkanı vardır.

Qeyd etmək lazımdır ki, ənənəvi ofşor zonaların əksəriyyəti eyni zamanda bütün göstərilənlərə, bəzi hallarda isə təsisçilərin əlavə spesifik tələblərinə tam uyğun gələ bilməz.



downloaded from KitabYurdu.org

Belə ki, xüsusi statuslu müəssisələrin gəlirlərinə vergiqoyma tətbiq etməyən bəzi ənənəvi ofşor mərkəzlərdə kredit əməliyyatlarının həyata keçirilməsi üçün mərkəzi bankın lisenziyasını almaq tələb olunur, bu cür lisenziya almaq üçün şərtlər isə güzəştli vergi statusu əldə etmək şərtləri ilə bir yerə sığmır. Bir sıra ölkələrdə bank sirrinin saxlanması məqbul hesab edilmir. Bir çox ölkələr vergi güzəştlərini yalnız xüsusi statusu olan müəssisələrin gəlirlərinə tətbiq edirlər, lakin bu cür müəssisənin bölüşdürülməmiş gəlirləri, məsələn, dividend şəklində olan gəlirləri yüksək dərəcələr üzrə vergiyə cəlb olunur. Sonuncu daha çox investisiya və holdinq mərkəzləri üçün səciyyəvidir. Bir çox klassik ofşorlar praktiki olaraq insan ayağı dəyməmiş adaları xatırladır. Onlar beynəlxalq ticarətdə yalnız «şirkət-həlqələrin» qeydiyyatına xidmət edirlər.

Ayrı-ayrı ofşor mərkəzlər müstəqil ölkə olmayıb, rezidenti potensial bank təsisçisi olan ölkənin vergiqoyma sahəsində əməkdaşlıq və qarşılıqlı informasiya mübadiləsi haqqında xüsusi müqavilə bağladığı dövlətin tərkibinə daxil ola bilər, bu zaman konkret «özünüidarə ərazisinin» xüsusi statusu konkret məlumatların açıqlanması üçün böyük bir maneə olmayacaqdır.

Ofşor ərazilərin çoxu beynəlxalq maliyyə mərkəzlərindən uzaqda yerləşir. Onların müəyyən əməliyyatlar aparmaq üçün şərait yaratmağa kifayət edəcək inkişaf etmiş infrastrukturları yoxdur. Xüsusilə də, kifayət qədər yüksək ixtisaslı iş heyəti, zəruri olan ofis sahəsi və s. də olmaya bilər.

Təsisçilərin xüsusi tələblərinə qüvvədə olan mülki qanunvericiliyin aydın başa düşülən sisteminin olması, klassik trastın təsisi üzrə imkanlar, ofisin yaradılması, iş heyətinin cəlb edilməsi, daşınmaz əmlakın alınması aid edilə bilər. Nəticədə bank fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasında ixtisaslaşmış ofşor mərkəzlər, başqa sözlə, xüsusi bank ofşorları meydana gəlmişdir.

Bu cür mərkəzlərdə fəaliyyət şəraiti fərqli ola bilər. Təsis edilən bankın vergiqoymadan azad edilməsinə və ya güzəştli status almasına müvafiq hüquqi əsaslara xüsusi diqqət yetirmək lazımdır. Belə ki, Kayman adaları klassik ofşora aiddir - burada gəlirlərə vergiqoyma sistemi tamamilə yoxdur. Bu,



downloaded from KitabYurdu.org

bank öz fəaliyyətini həyata keçirərkən müəyyən edilmiş hədlərdən kənara çıxan hallarda vergiyə görə cərimə sanksiyalarının tətbiqini qeyri-mümkün edir. Cersi və Hernsi adaları müvafiq ərazilərdən kənarda fəaliyyət göstərən hallarda qeyri-rezidentlərin gəlirlərinə vergiqoyma üçün güzəştli vergi rejimi sistemləri tətbiq edən ərazilərə aiddirlər. Müəssisənin bu cür ofşor zonada qeydiyyatdan keçdiyi, bu ərazidə yerləşən mənbələrdən gəlirlər aldığı sübuta yetirilərsə, onda bu gəlirlər müəyyən edilmiş ümumi qaydalara əsasən vergiyə cəlb ediləcəkdir. Qeyd etmək lazımdır ki, göstərilən ofşor mərkəzlərdə vergiqoymanın ümumi şərtləri güzəştlidir. Cersi adasında rezidentlərin - fiziki şəxslərin gəlirlərinə olan maksimum vergi dərəcəsi 20% təşkil edir. Bu cür dərəcə rezidentlərin hüquqi şəxslərinin mənfəətinə də tətbiq edilir. Kiprdə - ümumi vergiqoymanın yüksək səviyyəsi olan ölkədə xüsusi qaydada qeydiyyatdan keçmiş müəssisə və təşkilatlar xüsusi vergi statusu alırlar. Yuxarıda göstərilən halla analoji pozuntu Kipr adasında müəssisənin öz statusunu itirməsilə bağlı ola bilər ki, bu da müvafiq olaraq ölkədə vergi qanunvericiliyinin ümumi normaları ilə nəzərdə tutulmuş cərimə sanksiyalarına səbəb ola bilər.

Bank fəaliyyətinə lisenziya almaq üçün yerinə yetirilməsi zəruri olan vacib şərtlər bir-birindən xeyli dərəcədə fərqlənə bilər. Xüsusi bank ofşor zonaları adətən müxtəlif tipli lisenziyalar almağa imkan verir. Bu zaman hər tip lisenziyaya müəyyən şərtlər uyğun olur. Bir qayda olaraq, tam və ya qeyri-məhdud lisenziyanı yalnız nüfuzlu xarici banklar tərəfindən təsis edilmiş banklar ala bilər. Məhdud əməliyyatlar dairəsini həyata keçirmək üçün lisenziya onlar tərəfindən o hallarda da alına bilər ki, bankın təsisçisi xarici banklar olmasın. Bir ofşor mərkəzdə tam və ya qeyri-məhdud lisenziya bank sahibinə ofşor ərazinin özündə də fəaliyyət göstərməyə imkan verir, digər ölkələrdə isə bu cür lisenziyanın alınması mükəmməl bank fəaliyyətini həyata keçirməyə imkan versə də, yalnız qeyri-rezident müştərilərlə və ya xüsusi statusa malik - vergidən azad şirkətlərlə bu fəaliyyəti mümkün edir.



downloaded from KitabYurdu.org

Demək olar ki, bütün ofşor bank mərkəzləri üçün iqtisadiyyatın başqa sahələrində olan şirkətlərlə müqayisədə lisenziyalaşma və qeydiyyatın sərt şərtləri ümumi qaydadır. Belə ki, səhmlərin tələb edilənə qədər emissiyası üzrə ümumi imkanlar təsis edilən banklara aid edilməyə də bilər. Qeydiyyat və lisenziya almaq üçün təqdim edilən məcburi informasiyanın həcmi xeyli genişdir. Bir çox ofşor bank mərkəzlərində banklar üçün eyni zamanda qeydiyyatdan keçmək və lisenziya almaq proseduru nəzərdə tutulmuşdur. Çox vaxt ilk dəfədən tam və ya geniş tipli lisenziya almaq mümkün olmur. Bu cür lisenziyaların alınması üçün məhdud lisenziyalı bankın fəaliyyətinin məcburi müddəti müəyyən edilməlidir.

Bir qayda olaraq, ofşor bankların məcburi hesabatlarının həcmi adi ofşor şirkətlərin hesabatlarının həcmindən genişdir. Nəinki illik, hətta rüblük hesabat qaydaları, bəzi bank mərkəzlərində isə bankın aylıq maliyyə hesabatı müəyyənləşdirilə bilər. Adətən təsis edilən bankın müxtəlif növ əməliyyatları həyata keçirmək imkanları geniş olduqca, hesabatlara olan tələblər də sərtləşir. Belə ki, fiziki şəxslərə depozit hesablar açmağa imkan verən lisenziyanın verilməsi üçün vacib şərt müntəzəm maliyyə hesabatıdır ki, bu da müstəqil lisenziyalı auditor tərəfindən təsdiq edilir.

Bir sıra ofşor bank mərkəzlərində nəinki xüsusi statuslu bankın təsisi, həm də xarici bankların filiallarının açılmasına da yol verilir. Filialın müstəqil hüquqi şəxs olmadığı ilə əlaqədar olaraq, müəyyən əməliyyatlar həyata keçirilərkən vergi nəticələri də başqa ola bilər. Bəzi hallarda ofşor mərkəzlərdə gəlirə güzəştli vergiqoymanı öz filialını açan kredit müəssisəsinin müqavilə bağladığı ölkə ilə gəlirlərə və əmlaka ikiqat vergiqoymadan yan keçməyə imkan verən müqavilələrlə birgə istifadə etmək olar. Ayrıca götürülmüş bank ofşor mərkəzinin ərazisində xarici bankların filiallarının fəaliyyətinə olan tələb və məhdudiyyətlər də bir-birindən fərqlənə bilər. Ayrı-ayrı ofşor mərkəzlərdə təsisçinin qeydiyyatdan keçdiyi ölkənin qanunvericiliyinin öz rezidentlərinə ölkədən kənarda



downloaded from KitabYurdu.org

filiallar yaratmağı qadağan etmədiyinin təsdiqi üzrə tələb müəyyən edilmişdir.

Ofşor bank mərkəzləri həmçinin bankın və ya kredit müəssisəsinin minimal nizamnamə kapitalı haqqında tələblərin şərtlərinə görə də fərqlənirlər. Sahibinə daha geniş xidmətlər spektrini həyata keçirmək hüququ verən lisenziyanı almaq üçün həmişə böyük nizamnamə kapitalı tələb olunur, nizamnamə kapitalının ölçüsü isə həm qeydiyyat vergi və yığımlarının, həm də illik məcburi ayırmaların (vergi və ya yığım formasında) ölçülərini müəyyən edir.

Təsis edilən bankın köməyilə vergi öhdəliklərinin minimumlaşdırılması məqsədləri üçün həm klassik ofşor əraziləri, həm də yüksək inkişaf etmiş ölkələr - qabaqcıl dünya və regional maliyyə mərkəzləri istifadə edilə bilər. Deməli, Qərbi Avropanın hər hansı ölkəsində bank yaradılması Sakit və ya Atlantik okeanlarının hər hansı adasında olduğundan xeyli baha başa gələcəkdir. Lakin hətta qeydiyyat xərclərinin yüksək səviyyəsinə baxmayaraq, kredit müəssisəsinin fəaliyyətinə çəkilən böyük xərclər, xüsusi sərt tələbləri və yüksək vergiqoyma səviyyəsi olan ölkənin seçilməsi özünü doğrulda bilər, belə ki, bu cür ölkələr həm ikitərəfli, həm də çoxtərəfli əsaslarla ikiqat vergiqoymadan yan keçmək haqqında müqavilələrdən geniş istifadə edirlər.

Klassik ofşor mərkəzləri gəlirlərə ikiqat vergiqoymadan yan keçmə haqqında müqavilələrin üstünlüklərindən istifadə imkanlarını çox nadir hallarda təqdim edirlər.

Bu cür müqavilələr mövcüd olduğu hallarda isə xüsusi vergi statuslu bankda (azad iqtisadi zonada qeydiyyatdan keçmiş ofşor banklar, vergiqoymadan azad edilmiş banklar) müqavilənin konkret normasının yayılması haqqında məsələni xüsusi olaraq işləmək lazımdır. Gəlirlərə ikiqat vergiqoymadan yan keçmək haqqında müqavilə xüsusi statusu olan muxtar ərazi vahidinin (müstəmləkə, protektorat, asılı ərazi və s.) daxil olduğu ölkə ilə bağlana bilər. Bu halda müqavilənin bir konkret normaları prinsip etibarilə xüsusi statuslu ərazidə



downloaded from KitabYurdu.org

qeydiyyatdan keçmiş müəssisələrə şamil edilə bilir, digər normaların tətbiqi isə həm müqavilənin özündə, həm də hər hansı əlavə sənəddən (əlavə və dəyişikliklərin edilməsi barədə müqavilədən, müqavilənin protokolundan, səlahiyyətli şəxslər arasında məktub mübadiləsindən) çıxarıla bilər.

Müqavilənin konkret normasının tətbiqinin qeyri-mümkünlüyü birbaşa və ya dolayı yolla metropoliyanın milli qanunvericilik müddəalarından irəli gələ bilər. Bundan başqa, ikiqat vergiqoymadan yan keçmək haqqında müqavilənin təqdim etdiyi güzəştli rejimin hər hansı növünün qadağan edilməsi gəlir mənbəyi olan ölkənin qanunvericilik aktlarında və ya başqa beynəlxalq müqavilələrdə mövcud ola bilər.

Nəhayət, bank ofşor mərkəzləri öz nüfuzlarına görə də xeyli fərqlənirlər. Bankın qeydiyyatdan keçirilməsi nəzərdə tutulan ölkənin və ya ərazinin yüksək nüfuzu üçüncü şəxslərin maliyyə vəsaitlərinin cəlb olunması ilə real əməliyyatların həyata keçirilməsi planlaşdırıldığı hallarda daha böyük əhəmiyyət kəsb edir. Bu kimi ofşor ərazilərə xüsusilə Kayman adaları aiddir.

## 4.2. Aparıcı bank ofşor mərkəzləri və onların xüsusiyyətləri

*Kayman adaları.*

Kayman adaları yerli özünüidarə ilə Britaniya tacına məxsus ərazidir. Konstitusiyası 1972-ci ildən qüvvədədir. Bundan başqa, Britaniya qanunvericiliyinin sadələşdirilmiş (uyğunlaşdırılmış) variantı olan yerli mülki qanunvericiliyi mövcuddur.

Kayman adaları klassik ofşorlara aiddir. Burada gəlirdən vergi (o cümlədən rezidentlər üçün), əmlak hüququnun bir şəxsdən digər şəxsə verilməsinə görə vergi tamamilə yoxdur,



downloaded from KitabYurdu.org

həmçinin faizlər, dividendlər və lisenziya hüquqlarının ödənilmə mənbəyindən gəlirlərə vergiqoyma yoxdur. Vergi sistemini faktiki olaraq hökumət və yerli qeydiyyat və illik yığımlar sistemi əvəz edir.

Kayman adalarında heç bir formada valyuta məhdudiyyətləri yoxdur, valyuta nəzarəti mövcud deyil.

Qanunvericilik normaları metropoliyadan götürülsə də, Britaniya nümunəsi olan klassik trast yaradılması imkanları olsa da, buna baxmayaraq hökumətin münasibətini, məhkəmə praktikasını, həmçinin Kayman adaları bankirlər assosiasiyasının (olduqca nüfuzlu təşkilatdır) yeritdiyi siyasəti maksimal əlverişli də adlandırmaq olmaz.

Qeyd etmək lazımdır ki, 1990-cı ildə Kayman adalarında dələduz əmlak sərəncamçılığı haqqında qanun qəbul edilmişdir ki, bu da bu ərazidə qeydiyyatdan keçmiş strukturlardan kreditorlar qarşısında öhdəliklərinin yerinə yetirilməsindən yan keçməsinin qarşısını almağa istiqamətlənmişdir ki, bu da aktivlərin müdafiəsi üzrə trastlar üçün şəraiti pisləşdirir.

Kayman adalarında standart şirkətin qeydiyyatdan keçməsinin ümumi şərtləri əlverişlilər sırasına aid edilə bilər. Şirkətin qeydiyyatı üçün bir səhmdar da kifayət edir. Təqdim edən üçün səhm buraxılışına yalnız azad edilmiş şirkət statuslu müəssisələrə icazə verilir. Onlar həmçinin dəyəri göstərilməyən səhmlər də buraxa bilər. Səhmləri təqdim edən üçün buraxan şirkətin nizamnamə kapitalı bütövlükdə ödənilməlidir. Faktiki olaraq səhmdarların yığıncaqları və onların açıq reyestrinin aparılması vacib deyil. Qeydiyyatdan keçmiş şirkətlərin əmlak sahibləri və səhmdarları haqqında məlumatları açıqlanmamalıdır. Şirkətin bir direktorunun olması kifayət edər, o, rezident olmaya da bilər, bu zaman direktorun vəzifələrini yerli etibar olunan şəxs icra edə bilər. Şirkətin yerli hüquqi ünvanı mütləq olmalıdır, lakin bu da problem deyil. Şirkət yerli etibarlı şəxsin ünvanı üzrə qeydiyyatdan keçə bilər. Adi şirkət üçün illik maliyyə hesabatı tələb olunmur və buna müvafiq olaraq məcburi auditor təsdiqinə də ehtiyac yoxdur.



downloaded from KitabYurdu.org

Şirkətinin yeri çox da mürəkkəb olmayan formal prosedurların yerinə yetirilməsi yolu ilə dəyişdirilə bilər.

Şirkətin təsisçiləri xarici şirkətin bütün prosedurlarını bir-iki gün ərzində keçə bilərlər. Təsisçilər fəaliyyətin həyata keçirilməsi üçün adətən müəssisələrin aşağıda göstərilən başlıca formalarından istifadə edirlər:

- azad edilmiş şirkət;
- adi şirkət;
- xarici şirkət;
- məhdud məsuliyyətlə tərəfdaşlıq.

Nizamnamə sənədlərinə tələblər son dərəcə məhduddur. Bu sənədlərdə mütləq aşağıdakı informasiyalar olmalıdır: ad, hüquqi ünvan, fəaliyyətinin məqsədləri, tərəfdaşların (səhmdarların) məsuliyyətinin məhdud olması (tam məsuliyyətli yoldaşlığın qeydiyyatı halları istisna edilməklə), nizamnamə kapitalının ölçüsü (istənilən valyutada göstərilə bilər) barədə müddəa.

Elan olunmuş və ödənilmiş nizamnamə kapitalları arasındakı nisbət (bank, trast və sığorta şirkətləri və başqa şirkətlərin idarə edilməsi üzrə şirkətlər kimi) müəssisələrə tətbiq edilən xüsusi qaydalar istisna edilməklə, qüvvədə olan qanunvericiliklə müəyyən edilməmişdir.

Şirkətlər adətən ölçüsü 900 min dollar (azad edilmiş şirkətlər) və ya 960 min dollar (adi şirkətlər, lakin qeyri-rezidentlər) nizamnamə kapitalı ilə qeydiyyatdan keçirlər ki, bu da hökumət, qeydiyyat və illik yığımların minimal ölçüsü üzrə nizamnamə kapitalının maksimal ölçüsünü ifadə edir.

Kayman adalarında şirkətin fəaliyyətinin təsis edilməsi və dəstəklənməsi üzrə xərclər əksəriyyət başqa ofşorlardakı analoji xərclərdən xeyli yüksəkdir. Şirkətin yaradılması üzrə minimal xərclər azad olunmuş şirkətlər üçün 3000 min dollara qədər (hökumət qeydiyyatı yığımının ölçüsü 1000 ABŞ dollardır) təşkil edir, adi qeyri-rezident şirkət üçün isə 2000 min dollar



downloaded from KitabYurdu.org

(qeydiyyat yığımını - 610 ABŞ dollarını da daxil etməklə) təşkil edir. Minimal cari xərclər (qeydiyyatdan keçmiş ofisin saxlanması, etibarlı direktorun xidmətlərinin ödənilməsinin minimal səviyyəsi, hökumət yığımı) 2500-3000 ABŞ dolları təşkil edir.

Qüvvədə olan qanunvericilik həmçinin xarici şirkətin filialının qeydiyyatı imkanına yol verir. Bu halda qeydiyyat orqanlarına sənədlərin aşağıdakı növlərinin daxil edilməsi tələb olunur: xarici şirkətin təsdiq edilmiş nizamnamə sənədləri, direktorların siyahısı (ünvanları və fəaliyyət növü göstərilməklə), işdə etibarlı hesab edilənlərin ünvanları və adları (bir qayda olaraq hüquqi və ya məsləhət firması). Filial qeydiyyatdan keçən zaman 1000 dollar həcmində hökumət yığımı ödənilir, hər gələn ilin yanvarında isə 600 ABŞ dollarına ekvivalent məbləğdə illik yığım ödənilir. Məhdud məsuliyyətli yoldaşlıqların təsisçiləri də təxminən bu cür xərclər ödəyirlər.

Kayman adalarında bank fəaliyyəti əsasən 1989-cu ildə qəbul edilmiş Banklar və trast şirkətləri haqqında qanunla tənzimlənir. Bu sənədlə bank və ya trast əməliyyatlarını həyata keçirmək üçün məcburi lisenziyalaşdırma müəyyən edilmişdir. Bank fəaliyyəti üçün üç növ lisenziya mövcuddur:

- şirkətə, o cümlədən Kayman adaları ərazisində bank xidmətlərinin bütün növlərini icra etməyə imkan verən «A» tipli;

- istənilən yerdə, ancaq Kayman adaları ərazisindən kənarda olmamaq şərtilə bank fəaliyyətinin istənilən növlərini həyata keçirməyə imkan verən «B» tipli;

- şirkətlərə Kayman adalarının qeyri-rezident müştəriləri ilə yalnız Kayman adalarından kənarda müəyyən əməliyyatları həyata keçirməyə imkan verən məhdud «V» tipli lisenziya.

«A» tipli lisenziya yalnız yüksək nüfuzlu beynəlxalq maliyyə təşkilatları tərəfindən yaradılmış banklara verilə bilər. Bu cür lisenziyanın alınması üçün məcburi şərtlərdən biri daimi



downloaded from KitabYurdu.org

ofis və ixtisası beynəlxalq bank standartlarına cavab verən müəyyən iş heyətinin olmasıdır. Həm bütöv, həm də məhdud «V» tipli lisenziya öz sahibinə Kayman adalarının rezident-müştəriləri ilə əməliyyatlar həyata keçirməyə imkan vermir. «V» tipli məhdud lisenziya adətən öz fəaliyyətlərini qabaqcadan hər hansı maliyyə-sənaye qrupuna (keptiv banklar) daxil olan müəssisələrlə işləməklə məhdudlaşdıran banklar tərəfindən alınır.

Trast əməliyyatları üçün aşağıdakı lisenziyalar mövcuddur:

- hər hansı məhdudiyyət olmadan trast əməliyyatlarının həyata keçirlirməsi üçün (tam lisenziya);
- məhdud müştərilərlə işləyən şirkətlər üçün (məhdud trast lisenziyası);
- nominal saxlayıcı kimi çıxış etmək hüququ üçün (başqa şirkətə aid olan, bank və ya trast əməliyyatlarına lisenziyası olan şirkətlərə o şərtlə verilir ki, «qız» şirkətin müstəsna fəaliyyət sahəsi özünün «ana» şirkəti üçün nominal saxlayıcı kimi fəaliyyəti olacaqdır).

Qüvvədə olan qanunvericilik aşağıda göstərilən bir sıra məcburi tələbləri müəyyən edir:

«V» tipli bank lisenziyasına malik məhdud şirkət və ya trast əməliyyatlarına məhdud lisenziyası olan şirkət 24000 ABŞ dolları həcmində ödənilmiş minimal kapitala malik olmalıdır;

nominal saxlayıcı kimi çıxış etmək hüququ lisenziyasına malik şirkət «ana» şirkətin 240000 ABŞ dollarına qədər öhdəliyə təminat verməlidir;

bank və ya trast fəaliyyətinin istənilən başqa növlərinə lisenziyası olan şirkətlər 480000 ABŞ dollarından aşağı olmayan ödənilmiş kapitala malik olmalıdırlar;

qubernatorun qabaqcadan sanksiyası alınmadan bankın və ya trast şirkətinin səhmləri buraxıla və ya başqa sahibkara verilə bilməz;



downloaded from KitabYurdu.org

istənilən tip bank və ya trast fəaliyyətinə lisenziyası olan hüquqi şəxslərin ən azı iki direktoru və yüksək icraçıları olmalıdır, bu zaman hər hansı təyinatlar maliyyə xidmətləri müfəttişi tərəfindən təsdiq edilməli, yüksək icraçı şəxs isə qubernator tərəfindən təyin edilməlidir.

İstənilən tip lisenziyanı almaq üçün ərizə aşağıdakılardan ibarət olmalıdır:

təsis edilən şirkətin adı və ünvanı;

zəruri ixtisasa malik kifayət qədər işçi heyətin olmasının təsdiqi;

şirkətin müəyyən edilmiş xarici korporasiya prosedurunu keçməsinin təsdiqi;

səhmlərin bütün saxlayıcılarının adları, ünvanları və rezidentlikləri;

bütün direktorların və məsul vəzifəli şəxslərin anket məlumatları;

zəruri yazılı tövsiyələr və zəmanətlər;

müstəqil auditorun nəticəsi, son tarix üçün maliyyə hesabatı, həmçinin şirkətin filiallarının siyahısı;

təsisçilərin lazımi ölçülərdə nizamnamə kapitalının ödənilməsini həyata keçirmək barədə yazılı öhdəliyi.

Lisenziya yığımının ödənilməsi lisenziya almaq üçün ərizə verilən zaman həyata keçirilir. Yanvarın 15-nə qədər lisenziyanın fəaliyyət müddətinin uzadılması baş verərsə, həmin məbləğdə illik ödənişlər həyata keçirilir. Lisenziyanın növündən asılı olaraq müəyyən edilmiş lisenziya ödəmələrinin dərəcələri aşağıda göstərilmişdir (ABŞ dolları ilə):

«A» tipli bank lisenziyası.............................51200

«B» tipli bank lisenziyası.............................15366

«V» tipli məhdud bank lisenziyası....................7317

Trast əməliyyatlarının həyata keçirilməsi üçün



downloaded from KitabYurdu.org

tam lisenziya……………………………………………15366

Məhdud trast lisenziyası……………………………7317

Nominal saxlayıcı kimi çıxış etmək

hüququ verən lisenziya……………………………..1220

Şirkət eyni zamanda həm bank, həm də trast lisenziyası ala bilər, lakin bank lisenziyasının sahibləri trast əməliyyatlarını həyata keçirmək üçün ayrıca yığım ödəmirlər. Lisenziya hüququnu saxlamaq üçün bank müəssisələri və trast şirkətləri 3 ay ərzində maliyyə ilinin sonuna qədər maliyyə xidməti müfəttişinə müəyyən olunmuş qaydada, müstəqil auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatı təqdim etməlidir. Hesabatın ləngidiyi halda bank müfəttişə yazılı surətdə həmin ləngimənin səbəblərini izah edən ərizə təqdim etməlidir. Müfəttiş əlavə vaxt verə bilər. Müəyyən edilmiş müddətdə lazımi formada tərtib edilmiş hesabat təqdim olunmazsa, lisenziyanın geri çağırılması üçün əsas yaranır.

Xarici bankların filialları öz hesabatları ilə yanaşı, həm də baş müəssisənin müstəqil auditor tərəfindən **zaverennıy** hesabatını təqdim etməlidir.

«V» tipli lisenziyalı bank müəssisələri növbəti rüb qurtarandan sonra 21 gün ərzində rüblük maliyyə hesabatı təqdim edirlər. Nəzarət instansiyaları əlavə məlumat almaq ixtiyarındadırlar.

Kayman adalarının xüsusi qanunvericiliyi məcburi normativlər barədə heç bir tələb müəyyən etməmişdir. Lakin belə bir təcrübə mövcuddur ki, şəxsi kapitalla bir müştəriyə verilmiş kreditlər arasında nisbət 10:1 olmalıdır. Bu və bir sıra başqa məhdudiyyətlər avtomatik olaraq bütün kredit müəssisələrinə aid edilmir. Bunlar adətən fərdi qaydada, əməliyyatların miqyasını və konkret bankın risklərini nəzərə almaqla maliyyə xidmətləri müfəttişi tərəfindən müəyyən edilir. Bank fəaliyyətinin reqlamentasiyalarının böyük bir hissəsi bank iş etikasının norma və qaydalarını faktiki olaraq müəyyən edən



downloaded from KitabYurdu.org

Kayman adaları Bankirlər Assosiasiyası tərəfindən həyata keçirilir.

Kayman adalarında bank fəaliyyətinin yüksək standartları ilə ofşor biznesin böyük miqyasları (ölçüləri) bu ofşor əraziyə qabaqcıl maliyyə mərkəzlərindən birinə çevrilməyə imkan vermişdir. 90-cı illərin ortalarında burada 20000 ofşor şirkət və 520-dən artıq ofşor bank qeydiyyatdan keçmişdi, bu zaman dünyanın 50 ən iri bankından 43-nün öz filialı və ya «qız» bankı mövcud idi, Kayman adalarında qeydiyyatdan keçmiş banklarda və filiallarda isə depozit qoyuluşların məcmu məbləği 150 mlrd. ABŞ dollarını ötürdü.

Kayman adalarında qeydiyyatdan keçən bank müəssisələri ya real əməliyyatların (bu, bir qayda olaraq, «A» tipli lisenziyası olan şirkət və banklar üçün) aparılması üçün, ya da təsisçi bankların öz əsas fəaliyyətlərini həyata keçirdikləri ölkələrdə vergiqoymanın minimumlaşdırılması məqsədləri üçün yaradılır. «A» tipli lisenziyası olan banklar vergiqoymanın minimumlaşdırılması və maliyyə axınlarının optimallaşdırılması üçün fəal istifadə olunurlar.

Kayman adaları gəlirlərə və əmlaka ikiqat vergiqoymadan yan keçmək haqqında heç bir müqaviləyə malik deyil. Prinsip etibarilə bu, nöqsan kimi nəzərdən keçirilə bilər, lakin bank işinin spesifikası ondan ibarətdir ki, bank adətən gəliri verdiyi kreditlər üçün faiz formasında alır. Əgər Kayman adalarında beynəlxalq sxemdə vergi öhdəliklərinin optimallaşdırılması üzrə bank qarşısında ümumi vergiqoyma şərtlərində bank krediti üzrə ödənilən faizlərə vergiqoymanı nəzərdə tutmayan ölkənin ərazisində qeydiyyatdan keçən müəssisə durursa, zəncirin bu həlqəsində heç bir problem meydana çıxmır. Vergiqoymanın minimumlaşdırılması üzrə müxtəlif növ sxemlər üçün Kayman adalarında «personalsız bank» formasında qeydiyyatdan keçmiş bank müəssisələrindən fəal istifadə olunur. Bu banklar adətən «A» bank lisenziyası tipli şirkətlərin təklif etdikləri xidmətlərdən istifadə edirlər.

*Malta*



downloaded from KitabYurdu.org

Malta klassik ofşor ərazisi deyil. Çox da böyük olmayan bu müstəqil ada ixrac yönümlü inkişaf etmiş sənaye (toxuculuq, tikiş, ayaqqabı) dövlətidir. Başlıca ticarət tərəfdaşları Avropa Birliyinə daxil olan ölkələrdir. İqtisadiyyatının mühüm sahəsi turizmdir. Ölkə əsas gəlirlərini azad liman kimi istifadədən əldə edir.

Vergiqoyma sahəsində dövlətin siyasəti xarici kapitallı şirkətlərin fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına, Maltanın yüksək nüfuzlu beynəlxalq maliyyə mərkəzinə çevrilməsinə yönəldilmişdir.

Rezidentlər və hüquqi şəxslər üçün vergiqoymanın ümumi səviyyəsi təxminən orta Avropa səviyyəsinə bərabərdir. Qeyri-rezident şirkətlər üçün vergiqoymanın xüsusi şərtləri yaradılmışdır, burada mənfəətə vergi dərəcəsi 5% müəyyən edilmişdir. Bundan əlavə, şirkətlər vergidən azad edən status almaqla qeydiyyatdan keçə bilərlər. Qeyri-rezident və vergidən azad edilmiş şirkətlər üçün dividendlərə, lisenziya hüquqlarının verilməsindən gələn faiz və gəlirlərə vergiqoyma yoxdur. Onlara həmçinin Maltada qüvvədə olan valyuta məhdudiyyətləri aid deyil. Ölkədə bank və ya başqa işgüzar informasiyasının konfidensiallığı (məxfiliyi) təmin edilir.

Xüsusi statuslu müəssisələr üçün fəaliyyətini və vergiqoymanın xüsusiyyətlərini tənzimləyən əsas sənədlərə 1988-ci ildə qəbul edilmiş Maltada beynəlxalq fəaliyyət və ofşor zonalar haqqında qanunlar aiddir.

Şirkətlər haqqında qanunvericilik əsasən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının şirkətləri haqqında 1948-ci ildə qəbul edilmiş qanunlara əsaslanır. Bu zaman aşağıdakı xüsusiyyət nəzərə çarpır – yoldaşlıq şirkətləri, o cümlədən vergiqoyma məqsədləri üçün də müstəqil hüquqi şəxslər kimi təqdim olunur.

Müəssisələrin başlıca formaları aşağıdakılardır:

şirkətlər (kütləvi və şəxsi);



downloaded from KitabYurdu.org

tam məsuliyyətli yoldaşlıqlar;

məhdud məsuliyyətli yoldaşlıqlar.

Vergilərdən azad edilmiş şirkətlərin qeydiyyatı adətən bir neçə günə həyata keçirilir. Potensial təsisçilərə hazır şirkətlər əldə etmək imkanı olmur.

Təsis edilən güzəştli vergi statuslu şirkətlər iki tipdə olur:

vergi ödənişlərindən azad edilmiş qeyri-ticarət şirkətləri;

5% ölçüsündə güzəştli faiz dərəcəsi tətbiq edilməklə sərbəst olaraq vergiqoyma məbləğini təyin etmək imkanı verilən ticarət şirkətləri.

Şirkətin bu və ya digər kateqoriyaya aid edilməsinin meyarı fəaliyyət sahəsidir. Əgər şirkətin fəaliyyəti öz mülkiyyətinə sahiblik, idarəetmə və bölüşdürməklə (patentlər, ticarət markaları, lisenziyalar, müəllif hüquqları və s. daxil olmaqla) məhdudlaşırsa, onda həmin şirkət qeyri-ticarət şirkətlər kateqoriyasına aiddir. Bura həmçinin holdinq şirkətləri, lisenziya hüquqları verilməsindən gəlir alan müəssisələr, gəmiçilik şirkətləri də daxil edilir.

Əgər şirkətlərin fəaliyyət sahələri göstərilən çərçivələrlə məhdudlaşmırsa, onda onlar ticarət şirkətləri kateqoriyasına (Traiding Companys) aiddir. Ümumi ticarət şirkətləri ilə yanaşı bu kateqoriyaya bank, sığorta, broker sığorta və başqaları da aiddir.

Qeyri-ticarət şirkətləri 10 il müddətinə vergilərdən azad edilmək barədə təminat ala bilərlər. Maltada banklar ticarət şirkətləri kateqoriyasına  aid edilir ki, bu da onlara aldıqları gəlirlərdən vergi ödəməsi, prinsip etibarilə burada ikiqat vergiqoymadan yan keçmək haqqında müqavilələrin ayrı-ayrı üstünlüklərindən istifadə etmək imkanı verir. Lakin Malta ilə 1995-ci ildə ikiqat vergiqoymadan yan keçmək haqqında bağlanmış beynəlxalq müqavilə ofşor ticarət şirkətlərinə tətbiq edilmir. Malta ikiqat vergiqoymadan yan keçmək haqqında adları aşağıda çəkilən ölkələrlə müqavilələr imzalamışdır: Avstraliya, Avstriya, Belçika, Bolqarıstan, Macarıstan,



downloaded from KitabYurdu.org

Almaniya, Danimarka, Misir, İtaliya, Kanada, Kipr, Malayziya, Niderland, Norveç, Pakistan, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ABŞ, Finlandiya, Fransa, İsveç, İsveçrə.

Ticarət şirkətlərində vergiqoymanın xüsusiyyətləri ondan ibarətdir ki, onlara vergi bazasını müstəqil olaraq müəyyən etmək hüququ verilir. Vergi orqanları aşağıdakı prinsipdən istifadə edirlər - onlar əksini sübut edə bilmədikləri halda vergilərin ödənilməsi haqqında olan hesabat düzgün və tamdır.

Şirkətin qeydiyyatdan keçməsi zamanı hökumət yığımının ölçüsü şirkətin nizamnamə kapitalının ölçüsündən asılı olaraq 100-dən 573 Malta lirəsinə qədər təşkil edir. İllik hökumət yığımının dərəcəsi 25 Malta lirəsidir. Bunlardan başqa, şirkət Maltanın Beynəlxalq biznes idarəsinə qeydiyyat və illik yığımlar da ödəməlidir ki, bunların da dərəcələri şirkətin fəaliyyət növündən asılıdır.

Maltada ofşor bankın təşkili və fəaliyyətinin dəstəklənməsi üzrə xərclər olduqca böyükdür, belə ki, yalnız göstərilən xərclər 70000 ABŞ dolları təşkil edə bilər. Maltada işləməyə icazəsi olan rezident və qeyri-rezident fiziki şəxslərin gəlirlər vergisinin maksimum vergi dərəcəsi 35% təşkil edir. Bundan əlavə, digər sahələrdə fəaliyyət göstərən şirkətlərdən (qeyri-ticarət) fərqli olaraq banklar mütləq müstəqil auditor tərəfindən təsdiq edilən maliyyə hesabatı verməlidirlər. Beləliklə, Malta ofşor bankların qeydiyyat yeri kimi heç də bütün potensial təsisçilər üçün əlverişli deyil. Lakin adada yüksək ixtisaslı peşəkar kadrların olması, olduqca əlverişli ərazisi və ofşor biznesin müxtəlif növlərinin inkişafı imkanları ayrı-ayrı bank əməliyyatlarının həyata keçirilməsini planlaşdıran təsisçilərdə xüsusi maraq doğurur.

### *Labuan (Malayziya)*

Yenicə təşəkkül tapan bu bank mərkəzinin başlıca potensial cəlbedici cəhəti Labuanda qeydiyyatdan keçmiş



downloaded from KitabYurdu.org

bankın hüquqi və vergi statusunun xüsusiyyətindən ibarətdir. Labuan adasının Malayziyanın federal ərazisi olduğu ilə bağlı olaraq, burada qeydiyyatdan keçən bütün şirkətlər müəyyən şərtlərə riayət etməklə ikiqat vergiqoymadan yan keçmək haqqında müqavilələrin üstünlüklərindən istifadə etmək hüququna malikdirlər.

Malayziya ikiqat vergiqoymadan yan keçmək haqqında aşağıdakı ölkələrlə beynəlxalq müqavilə bağlamışdır: Avstraliya, Avstriya, Banqladeş, Belçika, Macarıstan, Almaniya, Danimarka, Hindistan, İndoneziya, İtaliya, Kanada, Çin, Niderland, Yeni Zelandiya, Norveç, Pakistan, Polşa, Rumıniya, Rusiya, Sinqapur, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ABŞ, Tailand, Filippin, Finlandiya, Fransa, İsveç, İsveçrə, Şri-Lanka, Cənubi Koreya, Yaponiya.

Labuan adasında qeydiyyatdan keçmiş şirkətlər vergidən azad edilməsi statusuna malik deyillər. İkiqat vergiqoymadan yan keçmək haqqında müqavilələrin normalarının tətbiqi məqsədləri üçün bu şirkətlər Malayziyanın vergiqoymaya məruz qalan rezidentləri hesab edilir. Lakin onlar üçün vergiqoymanın güzəştli şərtləri müəyyən edilmişdir: onların mənfəətinə ya 3% dərəcə ilə vergi qoyulur, ya da ildə qanunla müəyyən edilmiş 20000 Malayziya dolları (Malayziya dolları 0,4 ABŞ dollarına bərabərdir) məbləğində yığım ödəyirlər.

Malayziyanın federal hökuməti Labuan adasına beynəlxalq ofşor maliyyə mərkəzi statusu verməyi məqsəd qoymuşdur. Vergiqoymanın güzəştli şərtlərinin hazırlanması zamanı sahibkarlıq fəaliyyətinin aşağıdakı növlərinə xüsusi diqqət verilir:

- bank əməliyyatları;
- əmlakı etibarlı idarəetmə;
- kollektiv investisiya qoyuluşu;
- sığorta;



downloaded from KitabYurdu.org

- holdinq şirkətlərinin investisiyaları.

Malayziyada valyuta tənzimlənməsinin milli qaydaları qüvvədədir. Labuanda qeydiyyatdan keçmiş bank müəssisələri qeyri-rezidentlər kimi valyuta tənzimlənməsi normalarının tətbiqi məqsədləri üçün nəzərdən keçirilir.

Şirkətin Labuanda təsis edilməsi spesifikası ondan ibarətdir ki, şirkətin fəaliyyətinin qeydiyyatı və saxlanmasının bütün prosedurları etibarlı idarə üzrə yerli şirkət tərəfindən həyata keçirilməlidir, bu zaman yerli trast şirkəti yalnız etibarlı şəxs və ya nominal səhm sahibi qismində güzəştli vergiqoyma rejimi ilə şirkətin səhmlərinin saxlayıcısı kimi çıxış edə bilər. Trast şirkətlərinin fəaliyyəti 1990-cı ildən Labuanın trast şirkətləri haqqında qanunla tənzimlənir.

Labuanda nizamnamə kapitalının minimal ölçüsü müəyyən edilmişdir ki, bu da 500000 Malayziya dollarından aşağı olmamalıdır. Minimal ödənilmiş kapital isə 150000 Malayziya dollarından aşağı olmamalıdır.

Labuanda bank müəssisəsi kimi fəaliyyət göstərmək üçün şirkət ofşor və ya xarici ofşor şirkətlər kimi 1990-cı ildən ofşor şirkətlər haqqında qanunun tələblərinə uyğun olaraq qeydiyyatdan keçməli və ya inkorporasiya edilməli, Malayziyanın Mərkəzi bankı, yaxud da Neqara Malayziya bankı (NMB) tərəfindən verilmiş lisenziyası olmalıdır. Bank lisenziyalarının verilməsi qaydaları 1990-cı il ofşor bank fəaliyyəti haqqında qanunla tənzimlənir. Bu sənəd həmin kateqoriyaya daxil olan şirkətlərə olan öhdəlik və tələbləri müəyyən edir. Hər il lisenziyanın müddətinin uzadılması üçün yanvarın 15-nə qədər ödənilən yığım 60000 Malayziya dolları təşkil edir. Lisenziya alınan ilk ildə illik yığım hər ay 5000 Malayziya dolları şəklində ödənilir.

Ofşor bank fəaliyyəti aşağıdakı sahələri əhatə edir: valyuta depozitlərinin cəlb edilməsi, müştərilərin depozit, əmanət və başqa hesablarının aparılması, kredit xidmətlərinin təqdim edilməsi. Bütün sövdələr NMB-dən icazə verilən



downloaded from KitabYurdu.org

müəyyən spesifik əməliyyatlar istisna olunmaqla, xarici valyuta ilə həyata keçirilməlidir.

1990-cı ildə qəbul edilmiş bank ofşor fəaliyyəti haqqında qanuna müvafiq olaraq, bütün lisenziyası olan bank müəssisələrinə istənilən qeyri-rezidentdən, həmçinin rezidentlərdən məhdudiyyət qoyulmadan qoyuluşlar qəbul etməyə, istənilən qeyri-rezidentə və rezidentə xarici valyutada 1 mln. Malayziya dolları məbləğində borc verməyə icazə verilmişdir. Lakin ofşor bank «identifikasiyasız» müştərilərə hesab açmaq hüququna malik deyil. Başqa sözlə, təqdim edən hər bir kəsə hesab açmaq qadağandır.

Lisenziyalı ofşor banklar xarici valyutalarla, o cümlədən qeyri-rezidentlərdən və səlahiyyətli banklardan valyutanın forvard və topdansatış alqısı da daxil olmaqla, sövdələrdə iştirak edə bilər. 1 Malayziya dolları ekvivalentindən artıq məbləğdə xarici valyuta ilə borc verilməsi yalnız müfəttişin qabaqcadan icazəsi ilə həyata keçirilə bilər.

Banklar hər hansı qeyri-rezidentin adından Malayziyadan kənara və ya hər hansı ölkədən Malayziyaya vəsait ödəmək və ya köçürmək hüququna malikdirlər. Rezidentlərdən və ya qeyri-rezidentlərdən Malayziya dolları ilə qoyuluşların qəbulu, həmçinin milli valyuta ilə borclarn verilməsi yalnız valyuta nəzarəti müfəttişinin qabaqcadan razılığı ilə həyata keçirilə bilər. Səlahiyyət verilmiş banklar istisna olunmaqla, qalan banklara rezidentin adından xarici valyuta ilə hər hansı sövdələri həyata keçirmək, rezident-banklarda Malay-banklarda Malay hesablar açmaq, rezidentlərdən Malayziya dolları ilə vəsaitlərin cəlb edilməsində iştirak etmək qadağandır. Bundan başqa, Labuanda ofşor banklara İsrailin və ya Cənubi Afrika Respublikasının rezidentləri ilə hər hansı sövdələr həyata keçirmək və valyuta ilə əməliyyatlar aparmaq qadağan edilmişdir.

Ofşor bank fəaliyyətinə xüsusi məhdudiyyət ondan ibarətdir ki, ofşor banklar əməliyyatları Labuan adasından başqa Malayziyanın heç bir yerində həyata keçirə bilmirlər. Bu



downloaded from KitabYurdu.org

banklar əsas fəaliyyət yerindən başqa hər hansı müəssisələrə (filiallar, ofislər, nümayəndəliklər) malik ola bilmirlər. Hər hansı ofisin açılması yalnız NMB-nin qabaqcadan icazəsi ilə mümkündür. Yuxarıda göstərilən tələb və məhdudiyyətlərlə yanaşı, hesabatların aparılmasına və təqdim edilməsinə sərt nəzarət də mövcuddur ki, bu da Labuanda yalnız yüksək beynəlxalq nüfuza malik beynəlxalq bankların fəaliyyətini həyata keçirməyə xidmət edir.

Labuanda yaradılmış ofşor bankın əlavə üstünlüklərindən biri də ofşor bank fəaliyyəti çərçivəsində həyata keçirilən bütün əməliyyatların gerb yığımlarından azad edilməsi, cəlb edilən personal üçün gəlirdən vergi üzrə əlavə stimulların və güzəştlərin olması, sığorta şirkətlərinin, gəmiçilik sahəsində neft məhsulları ilə əməliyyatlarda vergiqoymanın xüsusi rejimləridir.

Bütün yuxarıda qeyd olunanları nəzərə alaraq demək olar ki, Labuan xüsusi statusuna və güzəştlər verilməsi mexanizmlərinə görə ofşor bank fəaliyyətinin müəyyən formaları üçün əlverişli ərazidir.

Bəzi potensial investorlar Labuanın separatist qüvvələrin olduğu Sabah ştatının (adasının) bilavasitə yaxınlığında yerləşməsindən müəyyən dərəcədə ehtiyat edirlər, halbuki Labuan adası Malayziyanın federal ərazisidir.

## MADEYRA (PORTUQALİYA)

Madeyra ən yeni ofşor bank mərkəzlərinə aiddir. Madeyra yerli idarəetmə ilə Portuqaliyanın tərkibində olan ərazi, Madeyranın azad iqtisadi zonasında qeydiyyatdan keçmiş şirkətlərin isə rezident olduğuna görə, burada Portuqaliyanın gəlirlərə və əmlaka ikiqat vergiqoymadan yan keçmək haqqında beynəlxalq müqavilələr imzalanmasının üstünlüklərindən istifadə imkanları mövcuddur.



downloaded from KitabYurdu.org

Bu qayda qeydiyyatdan keçən bank müəssisələrinə də aid olmalıdır. Beynəlxalq müqavilələr üzrə vergi güzəştlərinin verilməsi mexanizmi Malayziyada Labuan adasındakı kimi hüquqi əsaslara malikdir. Lakin onu da qeyd etmək lazımdır ki, Portuqaliyanın ikiqat vergiqoymadan yan keçmək haqqında müqavilələr bağladığı ölkələrin siyahısı Malayziyada olduğundan xeyli qısadır. Braziliya ilə yanaşı, bu siyahıya Qərbi Avropa ölkələrindən Avstriya, Belçika, Almaniya, Danimarka, İspaniya, İtaliya, Norveç, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ABŞ, Finlandiya, Fransa, İsveçrə daxildir. Madeyra adasının Avropa Birliyinin tamhüquqlu ərazisi olması faktı ona xüsusi cəlbedicilik verir.

Madeyrada qeydiyyatdan keçmiş şirkətlər Portuqaliyanın Maliyyə nazirliyində ikiqat vergiqoymadan yan keçmək haqqında müqavilənin şərtlərinə uyğun olaraq, şirkət-rezident statusunu təsdiq edən sertifikat ala bilərlər.

Madeyrada uzun müddət yalnız Portuqaliya banklarının filiallarını yaratmağa icazə verilirdi. Xarici bankların filiallarına bank lisenziyalarının verilməsi təcrübəsi yalnız 90-cı illərin ortalarında həyata keçirilməyə başladı və bu gün Qərbi Avropanın bir çox iri kommersiya bankları Madeyra azad iqtisadi zonasına böyük maraq göstərirlər.

Müəyyən nöqsanlar qüvvədə olan qanunvericiliyin azad iqtisadi zonada qeydiyyatdan keçən şirkətlərə qoyduğu tələblərin nisbətən sərtliyi ilə bağlıdır. Bu onunla əlaqədardır ki, adları çəkilən şirkətlər prinsip etibarilə Portuqaliyanın digər şirkətlərinin də tabe olduqları normativ aktlara tabedirlər. Madeyra azad iqtisadi zonasında qeydiyyatdan keçmiş şirkətlərin yeganə fərqi ondan ibarətdir ki, onların mənfəətinə 2011-ci ilə qədər vergi qoyulmur. Deməli, bu, bütünlüklə həm maliyyə şirkətlərinə, həm də banklara aiddir. Başqa sözlə, bu cür müəssisələr Portuqaliyanın qüvvədə olan qanunvericiliyinin tələblərinə tamamilə uyğun olmalıdırlar. Madeyrada müəssisələrin xüsusi formalarının təsisi və ya onlara vergidən azadetmə statusunun verilməsi nəzərdə tutulmamışdır.



downloaded from KitabYurdu.org

Portuqaliyada yaradılan cəmiyyətlərin iki tipi mövcuddur:

- məhdud məsuliyyətli cəmiyyət;
- səhmdar cəmiyyət.

Məhdud məsuliyyətli cəmiyyət 400000 Portuqaliya eskudosu həcmində minimal nizamnamə kapitalına malik olmalıdır. Cəmiyyətin kapitalı hər biri 21000 eskudodan az olmayaraq hissələrə bölünə bilər, bu zaman hər bir hissə 2 abunəçiyə malik olmalıdır. Səhmdar cəmiyyətin minimal səhmdar kapitalı 5 mln. eskudodan az olmamalıdır. Səhmlərin zəruri minimal sayı 5 olmalıdır, həm də bir səhmdara məxsus olan səhm zərfi 1000 Portuqaliya eskudosundan az olmamalıdır. Səhmdar cəmiyyətin səhmdarları haqqında məlumatlar açıq olmalıdır, bu zaman səhmdarların açıq reyestrinin aparılması vacib şərtlərdəndir. Səhmdarların yığıncaqları ildə bir dəfədən az keçirilməməli, yığıncaqların keçirilmə yeri Madeyra adası və ya cəmiyyətin qeydiyyatdan keçmiş xarici ofisi olmalıdır. Səhmdar cəmiyyətlər üçün maliyyə hesabatlarının auditor yoxlanması da vacibdir. Yuxarıda göstərilən problemlər müəyyən dərəcədə etibarlı idarəetmə və səhmlərin nominal saxlayıcılarından istifadə ilə həll edilə bilər. Səhmdar cəmiyyətin minimum üç direktoru olmalıdır. Əgər direktor qismində etibarlı idarəedici çıxış edirsə, o həm də rezident olmalıdır.

Bankın qeydiyyatı zamanı 750 ABŞ dolları məbləğində hökumət yığımı ödənilir. Qeydiyyatdan keçib lisenziya aldıqdan sonra banklar hər il 25000 ABŞ dolları məbləğində hökumət yığımı ödəməlidirlər.

### 4.3. Sığorta fəaliyyəti üzrə ixtisaslaşmış ofşor mərkəzlər

İnkişaf etmiş ölkələrdə sığorta iqtisadiyyatın dinamik sahələrindən birinə aiddir. Praktiki olaraq bütün ölkələrdə yığılan mükafatların məbləği hər il artır. Hökumətlər adətən elə



downloaded from KitabYurdu.org

xüsusi qanunvericilik paketləri işləyib hazırlamağa çalışırlar ki, o, qabaqcıl sığorta şirkətlərinə fəaliyyətlərini genişləndirmək üçün zəruri şəraiti təmin etsin. Bunlara hər şeydən əvvəl, həm sığorta edənlər, həm də sığorta olunanlar üçün yaradılan əlavə üstünlüklər aiddir.

Hər bir konkret ölkədə sığorta işinin müvəffəqiyyəti dövlətin nə dərəcədə sığorta təşkilatları ilə səmərəli müqavilələr bağlamasından asılıdır. Sığorta biznesinin ümumi daxili məhsulda payı yüksək olan ölkələrin vergi qanunvericiliyində sığortaçılara ya tamamilə və ya qismən vergi qoyulan məcmu gəlirdən sığortalar üzrə xərcləri çıxmağa, ya da vergi haqqından endirimlər, çıxılmalar hüququ almağa imkan verən xüsusi şərtlər sisteminə rast gəlmək olar.

Sığorta əvəzi formasında alınan gəlirlərə vergiqoymanın güzəştli rejimi tətbiq edilir. Bir sıra hallarda sığorta əvəzi mənbədən vergi tutmadan ödənilir. Sığorta əvəzinin ayrı-ayrı ödənişləri gəlirlərə görə tam vergiyə cəlb olunmur, elə qaydalar da mövcud ola bilər ki, sığorta əvəzi məbləği vergi ödəyicisinin məcmu gəlirinə aid edilmir, ayrıca vergi qoyulur, nəticədə konkret vergi ödəyicisinin vergi öhdəliklərinin ümumi həcmi xeyli azalır.

Sığortaçılar (sığorta şirkətləri) üçün vergi güzəştlərinin başlıca növü kimi gəlirlərə vergiqoymanın xüsusi rejimi çıxış edir. İqtisadiyyatın başqa sahələri ilə müqayisədə sığortaçılara aşağıdakılar icazə verilir:

- qısa və uzunmüddətli əlavə ehtiyat yaratmaq;
- cari və ötən illər üçün deyil, növbəti illər üçün vergi öhdəliklərinin həcmini müəyyən etmək;
- konkret ilin vergi öhdəliklərini hesablayarkən əvvəlki illərin (bir qayda olaraq, böyük müddətlər üzrə) itkilərini daha geniş tətbiq etmək;
- müəyyən öhdəliklərin meydana çıxması ilə əlaqədar əvvəlki illərin vergi öhdəliklərinə yenidən baxmaq;



downloaded from KitabYurdu.org

- istehsal üzrə vergilər (aksizlər, əlavə dəyər vergisi) adətən sığorta üzrə dövriyyə vergiqoyma obyekti olmurlar;

- bir qayda olaraq, sığorta əməliyyatlarına gerb və notarial yığımlarla vergiqoymanın güzəştli sistemləri nəzərdə tutulur.

Sığortaçıların gəlirlərinə xüsusi vergiqoyma rejimlərinin tətbiqi həmişə xüsusi qadağa və məhdudiyyətlərlə əlaqədardır. Praktiki olaraq, demək olar ki, bütün ölkələrdə sığortanın digər fəaliyyət növləri ilə birgə aparılması qadağandır. Bəzi ölkələrdə bir sıra qaydalar müəyyən olunur ki, bunlara müvafiq olaraq, sığortanın müəyyən növləri konkret sığortaçının müstəsna fəaliyyət sahəsi olmalıdır. Ən çox bu, həyatın sığortasına aiddir. Məsələn, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında həyatın sığortalanması müstəsna fəaliyyət növü olmalıdır. Həyatın sığortalanmasının nəinki sənaye və ticarətdə birgə fəaliyyətlə, hətta sığortanın başqa növləri ilə də birgə həyata keçirilməsinə yol verilmir. Bundan başqa, sığorta şirkətinin investisiyalarına əlavə məhdudiyyətlər də mövcuddur.

Sığorta sahəsinə dövlət tərəfindən nəzarət qabaqcadan, cari və növbəti olaraq üç yerə bölünür. Sığorta fəaliyyətinin müəyyən növlərinə lisenziya alınması ilə əlaqədar qabaqcadan nəzarətin böyük əhəmiyyəti var. Bir qayda olaraq, minimal nizamnamə kapitalı və həmin kapitalın şərtləri üzrə yüksək məcburi tələblər qoyulur. Lisenziya alınan zaman nizamnamə kapitalı bütünlüklə ödənməlidir. Nizamnamə kapitalının cəlb edilmiş kreditlər hesabına ödənilməsi yolverilməzdir. Adətən sığortaçının şirkətində nizamnamə kapitalında payların satışına məhdudiyyətlər mövcuddur. Şirkətin personalına, xüsusilə yuxarı idarəedicilərə yüksək tələblər irəli sürülür. Sığorta şirkətinin nizamnamə kapitalının yerləşdirilməsi üzrə məcburi tələblər müəyyən olunur:

- sığorta şirkətinin təsisçilərinin səhm, istiqraz almaq və başqa öhdəliklər üzrə imkanları ya qadağan edilir, ya da məhdudlaşdırılır;



downloaded from KitabYurdu.org

- aktivlərin müəyyən riskli növlərinə qoyuluşlar qadağan edilir;

- yüksək likvidlilərə (bank depozitləri və dövlət qiymətli kağızları) aid olan aktivlərin müəyyən növlərinə qoyuluşun minimal səviyyəsi müəyyən edilir;

- daşınmaz əmlak obyektlərinin və daşınmaz əmlak hüquqlarının əldə edilməsi üzrə imkanlar məhdudlaşdırılır;

- aktivlərin bir emitentdən və məhdudiyyət və qadağaların başqa növlərinə maksimal qoyuluşun hüdud səviyyələri müəyyən edilir.

Şirkətlər sığorta fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya almaq məqsədilə cəlb edilən personalın ixtisas səviyyəsini təsdiq etməli, həm müştərilərə xidmət, həm də aktivlərin yerləşdirilməsi üzrə hazırlanmış qaydalar və prosedurlara malik olmalıdırlar. Adətən qeydiyyat orqanları müstəqil auditorlar tərəfindən imzalanmış ətraflı maliyyə hesabatları, yaxın illər üçün təfsilatı ilə hazırlanmış biznes-planları və başqa əlavə məlumatlar tələb edirlər.

Lisenziyalaşmanı və sığorta şirkətinin fəaliyyətinə cari nəzarəti adətən ixtisaslaşmış idarə - sığorta nəzarəti orqanı həyata keçirir. Ölkələrin əksəriyyətində sığortaçılar illik və rüblük hesabatlarla yanaşı müntəzəm olaraq aylıq hesabatlar da təqdim edirlər. Ayrı-ayrı ölkələrdə isə həftəlik, bəzi hallarda isə sığortaçının həmin nəzarət orqanına təqdim etdiyi gündəlik hesabatı da nəzərdə tutulur.

Sığorta sahəsində sığorta nəzarəti orqanları və özünü tənzimləyən təşkilatlarla yanaşı, sığorta şirkətlərinin fəaliyyəti bir sıra dövlət idarələri tərəfindən də yoxlamalara məruz qalır. Bu idarələrdən ən mühümləri kimi Mərkəzi bank və ya valyuta və ixrac nəzarətini həyata keçirən hər hansı başqa təşkilat, vergi xidmətləri, qiymətli kağızlar bazarının tənzimlənməsi sahəsində təşkilatlar çıxış edir.

Reqlamentasiyaya və dövlət və ya başqa təşkilatlar tərəfindən nəzarətə məruz qalmayan bazar iqtisadiyyatı



downloaded from KitabYurdu.org

ölkələrində sığorta şirkətlərinin praktiki olaraq yeganə fəaliyyət sahəsi qiymət siyasətidir.

Beləliklə, ofşor mərkəzlərdə sığorta şirkətlərinin təsis edilməsinin başlıca səbəblərindən birini inkişaf etmiş ölkələrdə fəaliyyətin sərt tənzimlənməsindən uzaqlaşmaq üzrə imkanları hesab etmək lazımdır. Sığorta ofşor mərkəzləri potensial təsisçilərə adətən aşağıda göstərilənləri təklif edirlər:

- şirkətlərin qeydiyyatdan keçirilməsinin və lisenziyalaşdırılmasının sürətləndirilmiş prosedurları;

- minimal nizamnamə kapitalına endirilmiş tələblər;

- minimal nizamnamə kapitalının tam olmayan ödənişləri üzrə imkanlar;

- nizamnamə kapitalının bir hissəsinə nağd pulun keçirilməsinin əvəzinə qarantiya verilməsi imkanı;

- təsisçi və səhmdarlar haqqında məcburi məlumatların minimimu;

- məcburi normativlərin sayının məhdudlaşdırılması;

- məcburi hesabata tələblərin sadələşdirilməsi;

- bir qayda olaraq, ofşor sığorta mərkəzlərində hesabatların auditor tərəfindən təsdiqlənməsi vacid hesab edilir, lakin bu maddə üzrə sığortaçıların xərcləri adətən endirilmiş dərəcələr və məcburi hesabatın həcminin azaldılması hesabına aşağı olur;

- yeni məhsulların işlənməsi və tətbiqi üzrə böyük sərbəstlik dərəcəsi;

- filialların açılmasının və «qız» müəssisələrin təsis edilməsinin sadələşdirilmiş proseduru;

- valyuta nəzarətindən və valyuta məhdudiyyətlərindən azad edilməsi.

Ayrı-ayrı ofşor sığorta mərkəzləri bir sıra əlavə üstünlüklər də təklif edir:

- aşağı əmək haqqı səviyyəsi ilə ixtisaslı personalın cəlb edilməsi imkanları;



downloaded from KitabYurdu.org

- işçilərin gəlirlərinə olan verginin əlavə güzəştli rejimləri;
- istənilən valyutada nizamnamə kapitalına qoyuluş və mühasibat uçotunun aparılması imkanları;
- gerb yığımlarından tam azad edilməsi;
- sığorta və başqa fəaliyyət növlərinin birgə həyata keçirilməsi;
- təkrar sığorta şirkətlərinin qeydiyyatı üzrə prosedurların sadələşdirilməsi;
- xarici şirkətlərin filiallarının yaradılması və s.

Sığorta şirkətlərinin gəlirlərinə vergiqoyma ofşor sığorta şirkətinin sığortaçıların ümumi və xüsusi vergiqoyma rejimləri sığorta şirkətlərinə tam sığorta xidmətləri kompleksini həyata keçirməyə imkan verməyən ölkələrdə yaradılması üçün başlıca amil kimi çıxış edir. Sığorta əməliyyatlarının ənənəvi olaraq sığorta olanların vergi öhdəliklərini minimumlaşdırmaq üçün istifadə olunduğu ilə əlaqədar olaraq, bir çox ölkələrdə dövlət vergidən azad olmaq üzrə variantların və sxemlərin sayını azaltmağa cəhd edir, güzəştlərin verilməsi və müxtəlif növ ehtiyatların yaradılması üzrə qaydaları sərtləşdirir. Digər tərəfdən isə sığortalıların vergiqoyma bazasını genişləndirir. Bu cür tədbirlər sığorta əməliyyatlarının rentabelliyini aşağı salır, ölkədə sığorta biznesinin şərtlərini pisləşdirir, xırda və orta sığortaçıları sıxışdırır.

Dünya ticarəti və beynəlxalq daşınmalar sahəsində dövriyyənin artımı şəraitində müvafiq sığorta xidmətləri bazarı da genişlənir. Beynəlxalq ticarətdə və beynəlxalq daşınmalarda əməliyyatların çox hissəsinin ofşor zonalarda və ya xüsusi vergiqoyma rejimi mövcud olan ölkələrdə və ya mərkəzlərdə qeydiyyatdan keçmiş şirkətlər tərəfindən həyata keçirilməsi ilə əlaqədar olaraq, ofşor sığorta şirkətinin yaradılmasına əlavə stimul meydana gəlir.

Fəaliyyət sahəsindən asılı olaraq, əlverişli vergi şəraiti olan zonalarda yaradılan bütün sığorta şirkətlərini aşağıdakı tiplərə bölmək olar:



downloaded from KitabYurdu.org

- müstəqil müştərilərlə sığorta əməliyyatları həyata keçirmək üçün yaradılan şirkətlər (yüksək səviyyəli sığorta şirkətləri);
- məhdud sayda müştərilərlə real sığorta əməliyyatları həyata keçirmək üçün şirkətlər (keptiv);
- təsisçinin vergi məqsədlərinə nail olması üçün istifadə edilən şirkətlər.

Bir qayda olaraq, müstəqil müştərilərlə sığorta əməliyyatları həyata keçirmək üçün yaradılan şirkətlər real və potensial müştərilərin tələblərini daha tam yerinə yetirmək üçün iri sığortaçılar tərəfindən təsis edilir. Bu şirkətlər öz ölkələrində ya fəaliyyətin reqlamentasiyasının olduqca sərt sistemi ilə, ya da əlverişsiz vergi şərtləri ilə qarşılaşırlar.

Sığorta şirkətinin ofşor zonada yaradılmasını stimullaşdıran mühüm amil ana sığorta şirkətlərin ölkəsində iqtisadi və siyasi qeyri-sabitliyin hökm sürməsidir. Sığorta əvəzinin ödənilməsini iqtisadi və siyasi vəziyyəti stabil olan ölkədə qeydiyyatdan keçmiş şirkət öz üzərinə götürdükdə sığorta olunanın daha etibarlı sığorta ödəyicisi olur.

Keptiv sığorta şirkətləri və ya məhdud sayda müştərilərlə real sığorta əməliyyatları həyata keçirmək üçün şirkətlər adətən maliyyə-sənaye qrupları çərçivəsində təsis edilir. Keptiv şirkətlərin meydana gəlməsinin ilkin səbəbləri bir qrupa daxil olan müəssisə sahiblərinin sığortalar üzrə xərcləri azaltmaq və sığorta olunanlarla sığorta edənlər arasında qarşılıqlı münasibətlərin tənzimlənməsi üzrə əlavə imkanlar əldə etməyə cəhd olmuşdur. İri sahələrarası konsern çərçivəsində müəyyən sahəvi və ərazi risklərinin aşağı salınması üzrə həmişə imkan mövcuddur. Sığorta şirkəti adətən bu məqsədlə təsis edilir və sonralar lisenziya alaraq həmin qrupa daxil olan müəssisələrlə müqavilələr bağlayır.

Yeni yaradılmış müəssisəyə ucuz sığorta xidmətləri göstərən keptiv sığorta şirkəti tez bir zamanda müvafiq xərclər maddəsini aşağı salmaqla ona rentabellik əldə etməyə, mal və xidmətlərinin rəqabət qabiliyyətini yüksəltməyə imkan verir.



downloaded from KitabYurdu.org

Keptiv sığorta şirkətləri «ofşor sənaye»nin meydana gəlməsindən əvvəl yaranmışdır. Bu cür sığorta şirkətləri indi də inkişaf etmiş ölkələrdə yaradılır.

Təsisçinin vergi məqsədlərinə nail olması üçün istifadə edilən şirkətlər adətən sığortaçının gəlirlərinin vergiyə cəlb olunmasının güzəştli rejimləri müəyyən edilmiş, həmçinin sığorta şirkətlərinin qeydiyyatının daha sadələşdirilmiş prosedurları tətbiq edilən ölkələrdə və ofşor mərkəzlərdə yaradılır. Sığorta şirkətinin nizamnamə kapitalının tam olmayan ödənişinə yol verən ofşor mərkəzlər daha cəlbedicidir.

Sığorta şirkətinin qeydiyyat yeri kimi Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Almaniya, Fransa, İrlandiya, Niderland, İsveç, İsveçrə və İspaniya istifadə edilə bilər.

Qabaqcıl sığorta şirkətlərinə aiddir:

1. Kipr, Bermud adaları, Kayman adaları, Cəbəllütariq, Labuan, Qərbi Samoa, Baham adaları, Honkonq;

2. Keptiv sığorta şirkətləri üçün: Hernsi, Niderlandın Antil adaları, Uruqvay, Vanuatu, Barbados, Cersi;

3. Nevis (təkrar sığorta üçün məhdud sayda müştəriləri olan şirkətlər);

4. Men (keptiv, sığorta, təkrar sığorta), Madeyra (keptiv və sığorta).

# V FƏSİL
# BEYNƏLXALQ TRASTLAR

5.1. Beynəlxalq trastın mahiyyəti, quruluşu, növləri və tətbiqi sahələri

5.2. Trast təsisçi və benefisiarların cari vergi öhdəliklərinin minimumlaşdırılması vasitəsi kimi

5.3. Trastın təsis edilməsi ərazisinin seçilməsini müəyyən edən amillər

Vergiqoymanın optimallaşdırma və minimumlaşdırma üzrə bir çox beynəlxalq sxemləri ya beynəlxalq trast əsasında qurulmuş, ya da onun mexanizmindən ümumi sxemin tərkib



downloaded from KitabYurdu.org

hissəsi kimi istifadə olunur. Beynəlxalq trastın üstünlüklərinin potensial istifadəçisi elə ilk mərhələdə – ayrı-ayrı ölkələrdə, başlıcası isə ofşor zonalarda təsis edilmiş trastların üstünlükləri ilə tanışlıq zamanı terminologiyadan istifadə ilə bağlı bir sıra problemlərlə üzləşirlər: ofşor zonalarda xidmət təklif edən hüquqşünas və vergi məsləhətçilərinin istifadə etdikləri xüsusi terminologiya müştərinin daimi yerləşdiyi ölkədəki izahla üst-üstə düşmür; çox vaxt hüquqşünaslar və məsləhətçilər buna görə müştərinin real problemlərini başa düşmür, müştərilər isə ofşor trastın təsisinin köməyilə qarşılarına qoyduqları məqsədləri dəqiq ifadə edə bilmirlər.

Beynəlxalq trastların istifadə mexanizminin təklif edilən sxem və variantların mahiyyətini kütləvi və ya xüsusi ədəbiyyatın köməyilə anlamaq cəhdləri heç də həmişə uğurlu olmur. Beynəlxalq trast haqqında kitab və broşürlərin əksəriyyəti heç olmazsa, ilkin xüsusi hazırlığa və ya ofşor zonalarda yerləşən müəssisələrdə iş təcrübəsinə malik olan oxucular üçün nəzərdə tutulmuşdur.

## 5.1. Beynəlxalq trastın mahiyyəti, quruluşu, növləri və tətbiqi sahələri

Trastın quruluşu trast təsisçisinin (settlor), etibarlı idarəedicinin (etimad menecmenti) və faydalananların (benefishiaries) mövcudluğunu nəzərdə tutur. Təsisçi ilə etibarlı idarəedici arasında bağlanmış müqavilə əsasında müəyyən əşya (və ya əşyalar) trastın mülkiyyətinə verilir, etibarlı idarəedici isə müqavilədə faydalanan kimi göstərilən şəxslərin (benefisiarların) maraqları əsasında trastın mülkiyyəti üzərində tam və ya məhdud sərəncam vermək hüququ alır. Trastın benefisiarı kimi istənilən şəxs və ya şəxslər qrupu göstərilə bilər. Bu zaman etibarlı idarəedicinin fəaliyyətinə nəzarətin forma və metodları, alınan mükafat, trastın müddəti və s. üzrə istənilən əlavə şərtlər müəyyənləşdirilə bilər.



downloaded from KitabYurdu.org

Prinsip etibarilə trast bir yox, bir neçə təsisçi tərəfindən təsis edilə bilər. Trastın təsisçisi və etibarlı idarəedicisi eyni şəxs ola bilər. Trastın təsisçisi və benefisiarı da eyni şəxsdə birləşə bilər.

Yuxarıda göstərilən şəxslərlə yanaşı, müqavilədə vəzifəsi etibarlı idarəedicinin fəaliyyətinə nəzarət etməyi nəzərdə tutan xüsusi şəxsin də olduğu göstərilə bilər. Nəzarət edən şəxsin (custodian) trastın müqaviləsində qeyd edilən səlahiyyətləri həddən artıq geniş ola bilər. Müqavilədə trastın əmlakı ilə bağlı bütün və ya müəyyən əməliyyatların həyata keçirilməsi üçün mütləq nəzarətçinin (himayəçi) qabaqcadan razılığının alınması da nəzərdə tutula bilər. Trastın idarəedicisi ilə nəzarətçinin (himayəçinin) eyni şəxsin olması da istisna edilmir.

Ayrı-ayrı ölkələrdə trastların münasibətlərini tənzimləyən norma və qaydalara uyğun olaraq, trastların müəyyən qadağa və məhdudiyyətləri mövcud ola bilər, yaxud trastın təsisçisi ilə benefisiarı, təsisçisi ilə etibarlı idarəedicisi, etibarlı idarəedicisi ilə benefisiarı, trastın təsisçisi ilə nəzarətçisi, benefisiarı və nəzarətçisi eyni şəxs olduqda, xüsusi şərtlər müəyyənləşdirilə bilər. Trastın qeydiyyatı prosedurunun xüsusiyyətləri mühüm əhəmiyyət kəsb edir. Ayrı-ayrı ölkələrdə yalnız müqavilənin bağlanması ilə işi başa çatdırmaqla kifayətlənmək olur, digər ölkələrdə trast ixtisaslaşdırılmış orqanda qeydiyyatdan keçməlidir.

Beləliklə, praktikada trastların yaradılması sxeminin müxtəlif variantları və buna uyğun olaraq, müxtəlif imkanları var. Bir qayda olaraq, konkret seçilmiş variant müəyyən üstünlüklər və nöqsanlarla bağlıdır. Trastların əsas növlərini nəzərdən keçirək.

Bütün trastları milli və beynəlxalq trastlara ayırmaq olar. Sözün geniş mənasında beynəlxalq trast dedikdə, bir ölkədə yaradılıb başqa ölkədə yerləşən əmlakı idarə edən trast başa düşülür. Müvafiq olaraq, milli trast dedikdə, bir ölkədə yerləşən əmlakı idarə etmək üçün təsis edilən trast başa düşülür. Qeyd etmək lazımdır ki, «beynəlxalq trast» termini çox vaxt dar mənada işlidilir, yəni Ümumi (ingilis-sakson) hüquq normalarına uyğun təsis edilmiş, bütün standart tələblərə cavab



downloaded from KitabYurdu.org

verən trast başa düşülür. Bu cür trast yalnız Ümumi hüquq normalarının (common law) tətbiq edildiyi ölkələrdə təsis edilə bilər. Adətən bunlar Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə ənənəvi olaraq bağlı (müstəmləkələr, keçmiş müstəmləkələr, protektoratlar, asılı ərazilər) və ya xüsusi olaraq müvafiq qanunvericilik normalarını işləyib hazırlamış ölkələrdir.

Klassik olaraq trast ölkələri və əraziləri Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Britaniyanın Virciniya adaları, Baham və Bermud adaları, Cəbəllütariq, Kayman adaları, Terks və Kaykos adaları, Men adası və bir sıra başqa ərazilərdir.

Digər kateqoriyaya aid olan ölkələrə İsveçrə Konfederasiyası, Panama, Lixtenşteyn, Monako və bir sıra başqa ölkə və ərazilər daxildir. Qeyd etmək lazımdır ki, «yeni trast ölkə və əraziləri» adlandırılan ölkələrdə trast qanunvericiliyinin mövcud norma və qaydaları birinci qrup ölkələrdə tətbiq edilənlərdən xeyli fərqlənə bilər ki, bu da trast sxemlərindən istifadə imkanlarını məhdudlaşdıra bilər.

Bütün trastları geri çağırılan və geri çağırılmayan trastlara bölmək olar. Geri çağırılan trast təsis edilərkən təsisçi ya müddət keçdikdən sonra, ya da müqavilədə göstərilən müəyyən öhdəliklərə əsasən əmlakı öz mülkiyyətinə qaytarmaq imkanına malikdir.

Geri çağırılan trast təsisçi üçün bir sıra üstünlüklərə malikdir. Bu üstünlüklər etibarlı idarəedicinin fəaliyyətinə sərt nəzarət imkanından, trast müqaviləsinin dayandırılması hallarında özünün marağına görə əmlakdan istifadədən ibarətdir. Lakin bu zaman çox vaxt təsisçinin öhdəlikləri üzrə cərimə müraciətindən trasta verilən əmlakı müdafiə imkanları itirilir, məcburən varislikdən, əmlaka qoyulan vergilər üzrə vergi öhdəliklərinin minimumlaşdırılması məqsədilə trastlardan istifadə, gəlirlərə və mülkiyyət hüququna ötürülməsinə görə trast əmlakının mudafiəsi məhdudlaşır. Geri çağırılmayan trast (irrevocable) təsisçiyə əvvəldən trasta verdiyi əmlakı yenidən öz mülkiyyətinə qaytarmaq hüququnu qeyri-mümkün edir.



downloaded from KitabYurdu.org

Etibarlı idarəediciyə verilmiş hüquqların həcmindən asılı olaraq, trastlar təsbit olunmuş və diskresion olur. Təsbit olunmuş trastların (Fixed Trust) müqaviləsində etibarlı idarəedici öz fəaliyyətində trasta verilmiş əmlakla aparılan əməliyyatlar zamanı təsisçinin və ya himayəçinin göstərişlərinə əsaslanmalıdır. Diskresion trast (Discretionary Trust) zamanı etibarlı idarəedici (etibarlı mülkiyyətçi) əmlakla əməliyyatlar zamanı özünün şəxsi fikirlərinə görə (fransızca discretionnaire – öz fikrindən asılı) hərəkət edir.

Təsbit olunmuş trastdan fərqli olaraq, diskresion trast üzrə etibarlı idarəedici trastın əmlakından istifadə üçün təsisçinin göstərişlərindən asılı deyil, lakin trastın təsisi zamanı ayrı-ayrı qadağa və məhdudiyyətlər qoyula bilər.

Prinsip etibarilə diskresion trastın mexanizmi təsisçilər və ya benefisiarlar tərəfindən etibarlı idarəedicinin fəaliyyətinə idarəetməyə və nəzarətə imkan verir, lakin bu elə formalarda həyata keçirilməlidir ki, sonra üçüncü şəxslər iddia etməsinlər ki, etibarlı idarəedici öz fəaliyyətində yalnız təsisçinin və ya benefisiarın göstərişlərinə əsaslanıb. Əks halda, üçüncü şəxslər (varislər, kreditorlar, vergi orqanları) məhkəmədə trastın müqaviləsinin ən azı sövdə və ya buradan irəli gələn bütün nəticələri ilə təsbitolunmuş trast (idarə olunan - ministerial) olduğunu sübut etmək şansı əldə edirlər. Başqa sözlə, trast sxemi qarşıya qoyulan məqsədə nail olmaq üçün səmərəsiz ola bilər.

Etibarlı idarəedicinin fəaliyyətinə nəzarət məsələləri trasta verilmiş əmlakın müdafiəsi məqsədini güdən bütün trast sxemlərinin ən mürəkkəb və incə sahəsidir. Qeyd etmək vacibdir ki, trast müqaviləsində ifadə və adlar heç bir əhəmiyyətə malik deyil. Məhkəmə bu konkret trastın təsbit olunmuş (idarə edilən) və ya diskresion olduğu barədə qərar çıxararkən trastın təsisçisi və benefisiari ilə etibarlı idarəedicinin real qarşılıqlı münasibətini nəzərə alacaqdır. Ayrı-ayrı ölkələrdə məhkəmə qərarlarının təcrübəsi, həmçinin bu və digər qərarın verilməsi üçün istifadə edilən meyarlar bir-birindən xeyli dərəcədə fərqlənir.



downloaded from KitabYurdu.org

Trastlar fərdi və kollektiv trastlara bölünür. Bu halda trastın təsisçilərinin sayı nəzərdə tutulur. Müvafiq olaraq fərdi trastda təsisçi bir şəxsdir, kollektiv trastda isə onların sayı təsbit olunmuş, ya da təsbit olunmamış ola bilər.

Kollektiv trast (Unit Trust) ümumi şərtlərlə etibarlı idarəetmə üçün resursların (əşyaların, aktivlərin) birləşdirilməsi formasıdır. Adətən kollektiv trastlar geri çağırılan və diskresion trastlar kateqoriyasına aid edilir, yəni trastın təsisçiləri (adətən pay investisiya fondlarının payçıları) trasta verilmiş əmlakı geri qaytarmaq imkanına malikdirlər (özlərinə məxsus paylardan haqq tələb edə bilərlər), investisiya fondunun kollektiv trastının etibarlı idarəedicisi isə fondun əmlakını özü lazım bildiyi kimi idarə etmək imkanına malikdir. Kollektiv investisiya qoyuluşu müqaviləsi üzrə etibarlı idarəedici öz fəaliyyətində yalnız investisiya paylarının emissiya prospektində olan normalar daxilində və (və ya) konkret fondun qaydaları çərçivəsində məhduddur.

Trast təsisçilərinin məqsədlərini aşağıdakı əsas qruplara bölmək olar:

- irsən keçən əmlakın ötürülməsi üzrə əlavə imkanların əldə edilməsi;
- əmlakın müdafiəsi;
- varislik zamanı vergiqoymanın azaldılması;
- cari vergi öhdəliklərinin minimuma endirilməsi;
- iş fəallığı imkanlarının genişləndirilməsi;
- xeyriyyə məqsədləri.

Adətən təsisçilər bir neçə məqsəd güdür. Tipik kombinasiya kimi ayrı-ayrı kateqoriyalardan olan varislərin maraqlarının müdafiəsini, məcburi vərəsəliyə yol verilməməsi və mülkiyyət hüquqlarının vərəsəlik alana keçməsi nəticəsində meydana çıxan vergi öhdəliklərinin minimumlaşdırılmasını hesab etmək olar. Çox vaxt gəlirlərə görə vergilər üzrə cari vergi öhdəliklərinin minimuma endirilməsi ilə aktivlərin təsisçinin öhdəlikləri üzrə cərimə müraciətindən müdafiəsi ilə əmlak bir yerdə götürülür. Bəzi hallarda rəsmi görüntü (fasad) kimi irəli sürülən xeyriyyə məqsədləri gəlirlərə görə vergilər üzrə cari



downloaded from KitabYurdu.org

öhdəliklərin minimuma endirilməsi üzrə sxemləri örtür. Aktivlərin müdafiəsi üzrə trastın imkanları həm dövlətin müsadirə tədbirlərindən müdafiə üçün, həm də fırıldaqçı sxemlərin qurulmasında istifadə edilir.

Qeyd etmək lazımdır ki, trastların müxtəlif məqsədləri öz aralarında ziddiyyət təşkil edə bilər. Bir məqsədə nail olmaq üçün istifadə edilən konkret trast mexanizminin xüsusiyyətləri təsisçi və benefisiarlar üçün digərinin həyata keçirilməsində xeyli məhdudiyyət və qadağalarla əlaqədar ola bilər.

*Varisliklə əlaqədar problemlərin həlli üçün trastlar*

Məqsədlərin birinci qrupu ənənəvidir. Trastların meydana gəlməsi də ilk dəfə məhz bu qrupla bağlı olmuşdur.

Bu qrupun konkret məqsədləri kimi aşağıdakıları göstərmək olar:

- əmlakın vərəsəyə keçməsi zamanı təsisçinin mülkiyyətinin xırdalanmasının qarşısının alınması;
- vərəsəlik üzrə narazılıqların meydana çıxmaması üçün xəbərdarlıq edilməsi;
- ailə mülkiyyətinin gələcək nəsillər üçün qorunması və artırılması;
- yetkinlik yaşına çatmamış və ya qərar vermək qabiliyyətindən məhrum olan vərəsələrin maraqlarının müdafiəsi üçün xüsusi tədbirlərdən istifadə edilməsi;
- məcburi vərəsəliyin aradan qaldırılması;
- əmlak barədə sərəncam verilərkən çevikliyin genişləndirilməsi.

Əmlakın trasta verilməsi təsisçiyə vərəsələr arasında əmlakın bölünməsinin qarşısını almağa imkan verir. Bu halda vərəsələr əmlakın bir hissəsinin əvəzinə trastın əmlakından istifadədən əldə edilən gəlirdən istifadə hüququ qazanırlar. Trastın bu funksiyanı yerinə yetirməsi üçün o, geri çağırılmayan və uzunmüddətli (və ya əbədi) olmalıdır.

Əgər əmlak trasta verilmişsə, bu zaman vərəsələr onlara düşən paya yenidən baxmaq hüququndan məhrum olurlar, paydan başqasına vermək və ya başqa varislərin xeyrinə



downloaded from KitabYurdu.org

paydan imtina hüququnu itirirlər. Təsisçinin vəfatından sonra isə trasta verilmiş əmlak varislik kütləsinə daxil edilmir, "qanun üzrə varislərin" bütün mübahisələri isə trasta verilməmiş əmlak növləri ilə məhdudlaşır.

Trasta verilmiş əmlak adətən yüksək ixtisaslı mütəxəssislər tərəfindən idarə olunur, bu zaman onların fəaliyyəti trastın təsisçisinin iradəsindən asılı olaraq xeyli məhdudlaşdırıla bilər. Belə ki, əmlakın idarə edilməsi üzrə hər hansı konkret hərəkətlər, məsələn, aktivlərin riskli növlərinin alınması qadağan edilə bilər. Etibarlı idarəetməyə verilmiş müəssisə səhmləri bir əldə qalır ki, bu da müəssisələrin əvvəlki statusunu saxlamağa imkan verir. İdarə təsisçisinin varislərinin trasta verilmiş əmlakı mülkiyyətlərinə sala bilmədiklərinə görə, onların öhdəlikləri üzrə cərimə həmin əmlaka aid edilə bilməz, bu isə onu düşünülməmiş hərəkətlər nəticəsində müflisləşməkdən qoruyur.

Əmlakın trasta verilməsi təsisçinin ailəsinin düşünmək qabiliyyəti olmayan üzvlərinin maraqlarını müdafiə etməyə imkan verir. Trast müqaviləsinə benefisiarlara düşən gəlirləri ödəməyin müddətləri və formaları haqqında istənilən şərtlər daxil edilə bilər. Belə ki, gəlirin verilməsini deyil, konkret şəxslərin saxlanmasına çəkilən xərcləri həyata keçirməyi nəzərdə tutmaq olar, bu və ya digər gəlirlərin ödənişini müəyyən öhdəliklərin yerinə yetirilməsi ilə şərtləndirmək, qaytarılacaq xərclərin ayrı-ayrı növləri üzrə məhdudiyyətləri müəyyən etmək olar.

Bir sıra ölkələrin qanunvericiliyi əmlakı idarə etmək üzrə miras qoyan şəxsin imkanlarını məhdudlaşdırır. Belə ki, vəsiyyətin məzmunundan asılı olmayaraq, qanun üzrə varislərin müəyyən kateqoriyaları əmlakdan pay almaq uğrunda mübarizə apara bilərlər. Bu kateqoriyaya adətən vərəsəlik verənin yetkinlik yaşına çatmamış və ya əmək qabiliyyəti olmayan övladları, əmək qabiliyyəti olmayan ər və ya arvad, valideyn və himayədə olanları aiddir. Bundan başqa, konkret ölkədə vərəsəlik hüququ bir kateqoriyadan olan varislərin digər kateqoriya varislərdən əlavə üstünlük normalarına malik ola bilər. Nəhayət, həmişə ehtimal etmək



downloaded from KitabYurdu.org

olar ki, varislər qanun üzrə vərəsəlik verənin vəsiyyətinə məhkəmədə etirazlarını bildirə bilər, o cümlədən vəsiyyəti qanunsuz və ya etibarsız qəbul edə bilərlər. Məcburi vərəsəliyi qəbul etməyən ölkələrdə təsis edilən trastlar bu cür fəsadlardan uzaqdırlar. Bir sıra hallarda müvafiq qayda və prosedurlara riayət etməklə, trast təsisçisi qanun üzrə vərəsələrə məcburi əmlak vərəsəliyinin mümkünlüyünü aradan qaldırmağa müvəffəq olur.

Vərəsəlik verən heç də həmişə öz vəsiyyətində gələcəkdə edilə biləcək mümkün dəyişiklikləri nəzərə ala bilməz. Bu cür dəyişikliklərə yeni varislərin meydana çıxması, övladların nigaha daxil olması, ər və ya arvadın təkrar nigaha daxil olması, varislərin arzu olunmaz hərəkətləri və s. Vərəsəlik vəsiyyəti üzrə qəyyum yalnız vəsiyyətin mətninə tam müvafiq olaraq hərəkət etmək hüququna malikdir. Trastın təsisçisi nəzarətçiyə (himayəçi) müəyyən edilmiş hədlər daxilində sərbəst qərarlar qəbul etmək səlahiyyəti verə bilər.

*Aktivlərin müdafiəsi üçün trastlar*

Bu cür trastların məqsədləri yalnız məcburi vərəsəlikdən müdafiə ilə məhdudlaşmır. Trast, əmlakı trast təsisçisinin öhdəlikləri üzrə cərimə müraciətindən müdafiə etmək imkanı verir. Bu yalnız ciddi hazırlanmış, trastın qeydiyyatdan keçdiyi ölkənin qanunvericiliyi tələblərinə uyğun, həm də trastın əmlakının yerləşdiyi ölkənin qanunvericiliyinə uyğun olan trast sxeminin tətbiqi nəticəsində mümkündür.

Təsisçinin əmlakının müdafiəsi üzrə trast (Asset Protection Trust) yalnız o zaman səmərəli ola bilər ki, trastın təsis edildiyi ölkədə mülkiyyət hüququnun təsisçidən etibarlı idarəediciyə keçməsi qəbul edilmiş olsun.

Aktivləri təsisçinin borcları üzrə cərimə müraciətindən müdafiə edən trastın mənası bu situasiyada təsisçinin aktivlərinin hamısını və ya müəyyən hissəsini onun mülkiyyətindən çıxarmaqdan ibarətdir. Mülki hüququn kontinental sistemi mövcud olan ölkələrdə, xüsusilə də Rusiyada trastın



downloaded from KitabYurdu.org

təsis edilməsi və əmlakın etibarlı idarəetməyə verilməsi mülkiyyət hüququnun etibarlı idarəediciyə verilməsi demək deyildir. Trastın təsisçisi əmlakın mülkiyyətçisi olmaqda davam edir, deməli, trasta verilmiş əmlaka cərimə müraciəti də mümkündür. Ümumi hüquq normaları (Common Law) tətbiq edilən ölkələrdə bir sıra öhdəçilik şərtlərinə riayət olunduqda, geri çağırılmayan diskresion trasta verilmiş əmlak artıq trast təsisçisinin əmlakı olmur və deməli, onun cərimə müraciəti də qeyri-mümkündür.

Trastın təsisçi öhdəlikləri üzrə cərimə müraciətindən müdafiə funksiyasını səmərəli yerinə yetirməsi üçün zəruri şərtlər aşağıdakılardan ibarətdir:

- trast geri çağırılmayan olmalıdır;
- trast diskresion olmalıdır;
- təsisçi və benefisiarla etibarlı idarəedicinin qarşılıqlı hərəkətləri prosedurları elə qurulmalı və tətbiq edilməlidir ki, heç bir üçüncü şəxs məhkəmədə etibarlı idarəedicinin trast əmlakının idarə edilməsi üzrə fəaliyyətini həyata keçirərkən təsisçinin və ya benefisiarın birbaşa göstərişlərini əsas tutmadığını sübuta yetirə bilməsin;
- əmlak faktiki olaraq trasta verilməlidir;
- əmlak trasta konkret öhdəliyin meydana çıxması anına qədər müəyyən müddət ərzində verilməlidir ki, bu öhdəlik üzrə təsisçinin əmlakına cərimə müraciəti üzrə addımlar atıla bilər;
- kreditorlar tərəfindən trastın təsis edilməsinin və əmlakın verilməsinin təsisçi tərəfindən konkret öhdəliklər üzrə cərimə müraciətinin aradan qaldırılması imkanı əldə etmək məqsədilə həyata keçirildiyini sübuta yetirmək imkanını istisna etmək zərurəti.

Əgər trast geri çağırılandırsa, aydındır ki, əmlakın təsisçiyə qaytarılması və ya bu əmlakın benefisiara verilməsi zamanı təsisçinin və ya benefisiarların öhdəlikləri üzrə cərimə müraciəti meydana çıxır.

Əgər trast diskresion trastlara qoyulan tələblərə cavab vermirsə, prinsip etibarilə, tapşırıq müqaviləsi əsasında etibarlı



downloaded from KitabYurdu.org

idarəedicinin fəaliyyəti kimi qəbul edilə bilər. Belə bir təhlükə də mövcuddur ki, məhkəmədə həmin müqavilə yanlış və ya yalançı sövdə kimi qəbul edilə bilər və bu da trasta verilən əmlaka cərimə qoymağa imkan yaradar.

Əgər məhkəmədə sübut olunarsa ki, əmlakın etibarlı idarə edilməsi üzrə etibarlı idarəedici öhdəliklərini yerinə yetirən zaman trastın təsisçisi və ya benefisiarlarının birbaşa göstərişlərini əsas tutmuşdursa və ya məhkəmədə heç olmazsa trast təsisçisinin əmlaka dair sərəncamı ilə (məsələn, hesabdan pul çıxarılması) bircə fakt müəyyən olunarsa, bu zaman trast idarə edilən kimi (Ministerial Trust) qəbul olunacaqdır. Bu o deməkdir ki, etibarlı idarəedici sadəcə təsisçinin tapşırığı ilə hərəkət etmiş, təsisçi isə konkret əmlak növünə mülkiyyətçi hüququnu həyata keçirməkdə davam etmişdir.

Əmlakın idarə edilməsi üzrə bütün qərarlar müstəsna olaraq etibarlı idarəedici tərəfindən qəbul edilməlidir. Adətən trastın təsisçisi ilə etibarlı idarəedici arasında olan qarşılıqlı münasibətlər arzu və istəklər haqqında məktublarla (Letters of wishes) qurulur. Əgər trastın təsis olunduğu ölkədə trastlar haqqında qanunvericilik bu cür məktublara etibarlı idarəedici üçün zəruri olmayan kimi baxırsa, bu zaman problem aradan qaldırıla bilər. Lakin bir çox ölkələrdə belə bir potensial təhlükə mövcuddur ki, bütün və ya ayrı-ayrı istək məktubları təlimat və sərəncamların verilməsi kimi də nəzərdən keçirilə bilər.

Qismən bu problem trast müqaviləsinə etibarlı şəxsin üzərinə heç bir öhdəlik qoymadığını bildirən müddəanın daxil edilməsi ilə həll edilə bilər, çünki hər belə məktubda göstərilir ki, etibarlı idarəedici məktubdakı arzu və tövsiyələrə əməl etməyə borclu deyil. Lakin yadda saxlamaq lazımdır ki, hər məktubun etibarlı idarəedici üçün hüquqi cəhətdən zəruri olub-olmadığı haqqında qərarı başqa fakt və şərtləri də nəzərə alaraq, məhkəmə həll etməlidir.

Dəqiqlik və ehtiyatlılıq nəinki trastın təsisçisi (benefisiarları) ilə, həmçinin təsisçinin və benefisiarların hər hansı başqa işlərində də zəruridir. Belə ki, məsələn, işgüzar



downloaded from KitabYurdu.org

yazışmaya birmənalı şəkildə daxil edilən və trast təsisçisinin konkret layihə haqqında tratsın nəzarət etdiyi strukturun (şirkət, bank) müəyyən hallarda müəyyən şəkildə (müəyyən edilmiş qiymətlərlə əmtəəni alır, müəyyən olunmuş stavka ilə kredit verir, kreditin vaxtını uzadır) fəaliyyətinin təsisçinin trastın real nəzarətini saxlayacağı faktı kimi nəzərdən keçiriləcək.

Əgər əmlak trast təsisçisi tərəfindən onda öhdəliklər meydana çıxdıqdan sonra verilirsə, bu zaman kreditorlar həmin əmlaka cərimə müraciəti etməyə şans qazanırlar. Adətən inkişaf etmiş trast qanunvericiliyi olan ölkələrdə elə müddət (müddətlər) müəyyən edilir ki, bu müddət çərçivəsində trastın əmlakına cərimə müraciəti məqsədi üçün təsisçinin əmlakı kimi baxmaq olar. Bir qayda olaraq, bu müddət iki ildə bir dəfədən az olmayaraq müəyyən edilir və qanunda göstərilən müəyyən şərtlərdən asılı olaraq uzadıla bilər.

Əgər əmlak faktiki olaraq trasta verilməmişsə, yəni etibarlı idarəedicinin öz üzərinə mülkiyyətçi öhdəliklərinin götürməsi üzrə birmənalı şəkildə təsdiqi yoxdursa, yaxud təzə mülkiyyətçinin hüquqları lazımi qaydada tərtib edilməmişdirsə (reyestrdə səhm sahiblərinin dəyişməsi həyata keçirilməyib, daşınmaz əmlak obyektlərinə mülkiyyət hüququnun tərtibi əmlakın yerləşdiyi ölkənin qanunvericiliyinin pozulması ilə həyata keçirilib), yaxud trastın təsisçisi etibarlı idarəedicinin verdiyi xüsusi etibarnamə olmadan əmlakdan istifadəni davam edirsə, bu zaman trastın müqaviləsi məhkəmədə qüvvəyə minməmiş kimi qəbul edilə bilər.

Yuxarıda göstərilən, həmçinin bir sıra başqa zəruri şərtlərə riayət edilməsi trastın təsisçisini və benefisiarlarını o halda aktivləri cərimə müraciətindən qorumur ki, trastın təsisi bilərəkdən öhdəliklərin yerinə yetirilməsindən qaçmaq məqsədilə həyata keçirilsin. Başqa sözlə, əgər hətta trast tamamilə diskresion trastın tələblərinə cavab verirsə və konkret şəraitin meydana çıxmasından çox-çox əvvəl təsis edilmişsə, amma kreditorlar trastın təsisi ilə öz üzərinə konkret öhdəlik götürməsinin arasında birbaşa əlaqə olduğunu sübuta



downloaded from KitabYurdu.org

yetirərlərsə, bu zaman trastın təsisinin müqaviləsi təsisçinin dələduzluq hərəkəti kimi qəbul edilə bilər.

Əgər trastın təsisindən və əmlakın trasta verilməsindən sonra təsisçi əvvəllər özünə xas olmayan hərəkətlər etməyə başlayarsa, məsələn, böyük həcmdə kreditlər götürmək, üçüncü şəxslərin öhdəlikləri üzrə böyük məbləğlərin qarantı kimi çıxışlar etmək, borc vəsaitləri cəlb etmək sahəsində riskli siyasət aparmaqla şirkətlər yaratmaq və s. bu, trast təsisçisi ilə yeni öhdəliklərin yaranması arasında əlaqənin olduğunu qəbul etmək üçün əsas olduğu deməkdir. Hər hansı konkret ölkədə məhkəmənin həmin trastın təsisini dələduzluq faktı kimi qəbul etməsi də istisna deyil.

*Vərəsəlik zamanı vergiqoymanı azaltmaq üçün trast*

Klassik (geri çağırılmayan və diskresion) trasta verilmiş əmlaka trast təsisçisinin mülkiyyəti kimi baxılmasının başa çatması ilə əlaqədar olaraq, onun vəfatından sonra həmin əmlak vərəsəlik kütləsinə daxil edilmir. Beləliklə, vergi öhdəlikləri müəyyən edilərkən yalnız təsisçinin trasta vermədiyi əmlak nəzərdə tutulur.

İnkişaf etmiş ölkələrdə vərəsəliyin iki tipi və ya onların birləşməsi istifadə olunur. Mirasın hamısının dəyərinə (Estate-type) və ya vərəsəlik üzrə hər əmlak düşənin payına (Inheritance-type) vergi qoyula bilər. Bütün mirasın dəyərinə vergi qoyulması ingilis-sakson hüquq sistemi olan ölkələrdə tətbiq edilir. Kontinental hüquq sistemli ölkələrdə adətən vərəsələrin paylarına vergi qoyulur, lakin İtaliyada və İsveçrədə bu vergiqoyma tiplərinin hər ikisi tətbiq edilir. Hər halda, əmlakın bir hissəsinin vərəsəlik kütləsindən çıxarılması vergi öhdəliyini verginin müəyyən edilmiş stavkalarının az məbləğlərə tətbiq edilməsi hesabına vergi öhdəliyini aşağı salır.

Vərəsəliyə vergiqoyma sistemlərinin praktiki olaraq hamısı güzəştlər nəzərdə tutur. Bir qayda olaraq, vergi qoyulmayan minimum məbləğ müəyyən edilir və ya vergiqoyma obyektinin dəyərindən minimum məbləği çıxmaq



downloaded from KitabYurdu.org

hüququ müəyyən edilir. Bəzi hallarda ayrı-ayrı vərəsəlik obyektlərinin dəyərindən çıxma hallarına yol verilir, məsələn, əgər vərəsə vərəsəliyi verənlə bir yerdə hər hansı yaşayış evində yaşamışsa, bu zaman yaşayış binasının dəyəri və s.

Vərəsəlik verən vəsiyyət tərtib edərkən əmlakın minimal vergi öhdəlikləri ilə bağlı həcmdə verilməsini nəzərdə tuta bilər, qalan əmlak isə trasta verilir.

Praktiki olaraq bütün ölkələrdə hər bir vərəsənin – mirası alanın payına vergi qoyularkən differensiasiya sistemi tətbiq olunur ki, buna uyğun olaraq bütün vərəsələr qohumluq dərəcəsindən asılı olaraq siniflərə bölünürlər. Daha çox güzəştlər birinci sinif vərəsələrinə və ya birinci növbə vərəsələrinə təqdim edilir, uzaq qohumlar və ya vərəsə verənlə qohumluq əlaqəsi olmayan vərəsələr üçün isə güzəştlər verilmir. Trastdan istifadə, bərabərsizliyi aradan qaldırmağa və vergiqoyma zamanı müxtəlif dərəcəli qohumluq əlaqələrində olan benefisiarlar üçün eyni şərtləri təqdim etməyə imkan verir.

Vərəsəliyə vergiqoymanı minimumlaşdırmaqla yanaşı, trast həm də mülkiyyət hüququnun yenidən tərtibi, vərəsəlik hüququna keçmə zamanı tutulan müxtəlif növ qeydiyyat rüsumlarının ödənilməsi üzrə xərcləri bir qədər azaltmağa imkan verir. Bu sahədə trastın mühüm üstünlüyü ondan ibarətdir ki, trastın təsisçisinin vəfatı zamanı əmlakın vərəsəliyə keçməsində olduğu kimi, əmlakın idarə edilməsi dayandırılmır.

## 5.2.Trast təsisçi və benefisiarların cari vergi öhdəliklərinin minimumlaşdırılması vasitəsi kimi

Trastın cari vergi öhdəliklərinin minimumlaşdırılması üçün tətbiqi olduqca rəngarəngdir. Trast optimal vergiqoyma müddətləri nöqteyi-nəzərdən benefisiarlara gəlirlər əldə edilməsi imkanları verir. Benefisiarın gəlirinin mütərəqqi stavkalar üzrə qoyulan səviyyəni keçməməsi üçün konkret ödəmələrin vaxtını uzatmaq olar. Benefisiarların gəlir əldə etməsini elə bir dövrdə həyata keçirmək mümkündür ki, daimi yerləşdiyi ölkənin qanunvericiliyinə görə o, vergiqoyma



downloaded from KitabYurdu.org

məqsədləri üçün əlavə güzəştlərə hüququ olan rezident kimi çıxış etməsin.

Trast sxemləri benefisiara gəliri «rahat formada» almağa imkan verir. Gəlirə qaytarılmayan məqsədli subsidiya, məqsədli istiqraz, kompensasiya ödənişi və s. forma vermək olar. Əgər benefisiarın daimi yerləşdiyi ölkənin qanunvericiliyi ayrı-ayrı gəlir növlərinin müxtəlif vergiqoyma rejimlərini müəyyən edirsə, bu cür təcrübə olduqca səmərəli ola bilər.

Əmlakın etibarlı idarə edilməsindən əldə olunan gəlirin bir hissəsi benefisiara birbaşa keçirilməyə də bilər, onun maraqlarına uyğun olaraq başqa üsullardan istifadə edilə bilər: yenidən investisiya qoyulması, daşınmaz əmlak obyektlərinin alınması, mal və xidmətlərin ödənilməsi, üçüncü şəxslərin öhdəliklərinin yerinə yetirilməsi üçün nəzərdə tutulmuş depozitlərə yerləşdirmək və s.

Beynəlxalq vergi planlaşdırmasının digər elementləri ilə birlikdə trast mənfəətə vergiqoyma müəyyən edilərkən çıxarılacaq xərclərin məbləğinin artırılması; əmlaka vergilər üzrə ödəmələrin minimuma endirilməsi; gəlir və əmlaka ikiqat vergiqoymadan yan keçmək üçün bağlanmış müqavilələr tərəfindən təqdim edilən güzəştlərin alınması; «incə kapitallaşma» sxemləri üçün; beynəlxalq ticarətin güzəştli rejimlərindən istifadə; antiinhisar qanunvericiliyinin tələblərinə uyğunlaşmaq üçün istifadə edilə bilər.

Başlıca vergi məqsədlərindən biri kimi aktivlərin vergi orqanları tərəfindən həyata keçirilən cərimə müraciətindən müdafiəsi çıxış edir. Bu vəzifə xüsusilə vergi ödəyicilərinin zəif mexanizmi işlənib hazırlanmış, vergi orqanlarının isə işin baş vermə səbəbləri araşdırılana qədər preventiv (qarşısını alan) həbs qoymağı və bank hesablarını dondurmağı (bağlamağı) geniş istifadə etdikləri ölkələrdə daha aktualdır. Məhkəmə araşdırmaları illərlə davam edə bilər, əmlakın mülkiyyətçisi isə əmlakdan istifadə etmək hüququndan məhrum olur. Bu şəraitdə əmlaka sahiblik operativ idarəetmədən ayrılmışsa, sahibkar əlavə sərbəstlik dərəcəsinə malikdir.

Əlavə vergi üstünlükləri trastın təsis edildiyi yalnız güzəştli vergiqoyma olan ölkələrdə meydana çıxır.



downloaded from KitabYurdu.org

## 5.3. Trastın təsis edilməsi ərazisinin seçilməsini müəyyən edən amillər

Trastın təsis yerinin seçilməsi zamanı əsas diqqət konkret məqsədlərə nail olmaq imkanlarının təhlilinə yetirilməlidir. Prinsip etibarilə, əmlakın etibar olunan idarə edilməsi barədə müqavilə hər bir ölkədə bağlana bilər. Lakin Ümumi hüquq normaları tətbiq edilməyən ölkələrdə bu, buradan irəli gələn bütün mülki-hüquqi və vergi nəticələri ilə tapşırıq müqaviləsinin növlərindən biri olacaqdır. Bu halda idarəetmə ilə məşğul olan idarəedicinin yüksək peşəkarlığı, aktivlərin saxlanmasının etibarlı sistemi sayəsində aktivlərin daha səmərəli idarə edilməsi məqsədlərinə nail olmaq olar.

İnkişaf etmiş qabaqcıl ölkələrdə etibar olunan idarəedicinin, depozitarinin, qeydiyyatçının və aktivləri idarə etməyə aidiyyatı olan başqa şəxslərin məsuliyyəti qüvvədə olan xüsusi qanunvericiliyin normaları ilə tənzimlənir. Kontinental hüquq sistemi olan ölkələrdə əmlakın etibar edilməklə idarəsi trast təsisçisinə kollektiv investisiya qoyuluşunun bu və ya digər xüsusiyyətləri ilə bağlı vergi ödəmələrinin optimallaşdırılması, həmçinin fərdi müqavilə üzrə aktivlərin etibarlı idarə edilməsi imkanlarını verə bilər. Lakin klassik trastın üstünlüklərindən istifadə edilməsi yalnız Ümumi hüquq sistemini tətbiq edən ölkələrdə mümkündür.

Ümumi hüquq sistemini həmçinin Avstraliya, İrlandiya Respublikası, Kanada (Albert əyalətləri, Britaniyanın Kolumbiyası, Nyu-Bransuik, Nyufaundlend, şahzadə Eduard adası), Yeni Zelandiya, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Amerika Birləşmiş Ştatları kimi ölkələr istifadə edir. Həmin qrupa aid edilən Honkonq, Kipr və Sinqapur, ofşor ölkə və ərazilərdən Baham, Bermud və Kayman adaları, Beliz, Britaniyanın Virciniya adaları, Vanuatu, Cəbəllütariq, Hernsi, Cersi adaları, Qərbi Samoa, Liberiya, Men adası, Terks və Kaykos adaları, Kuk adaları, Labuan (Malayziya) adası müəyyən fəaliyyət növləri üçün güzəştli rejimlər təqdim edir.



downloaded from KitabYurdu.org

Trastlar üzrə kontinental hüquq sistemi olan Venesuela, Lixtenşteyn, Panama, Portuqaliya (Madeyra adası), Malta, Meksika, Monako kimi ölkələrdə trastlar üzrə xüsusi qanunvericilik hazırlanmış və istifadə edilir. Qeyd etmək lazımdır ki, bu ölkələrdə təsis olunan trastlardan istifadə sxemləri mülki hüququn xüsusiyyətləri və xüsusi trast qanunvericiliyi ilə əlaqədar olaraq məhdudlaşdırılmış şəkildə tətbiq edilə bilər.

Bundan başqa, bir sıra ərəb ölkələrində öz spesifikliyi olan «Şəriət qanunları üzrə trast»lar istifadə edilir. Cənub-Şərqi Asiyanın ayrı-ayrı ölkələrində tətbiq edilən «Çin ailə trastı»nın da adını çəkmək olar.

Hüquq sistemindən başqa, trast zonasının seçilməsinə aşağıdakı ümumi amillər də təsir edir:

- benefisiarların gəlirlərinin qüvvədə olan vergiqoyma rejimi;
- trastın qeydiyyatdan keçdiyi ölkədə benefisiarların gəlirlərinin vergiqoymadan azad edilməsi mexanizmi;
- valyuta məhdudiyyətlərinin olması;
- məxfilik rejiminə riayət edilməsi;
- məcburi hesabat və informasiyaların açıqlanmasına olan tələblər;
- trastın məhkəmə hüququnun dəyişdirilməsi imkanı;
- siyasi risklər;
- xüsusi qanunvericilikdə dəyişikliklərlə əlaqədar risklər;
- etibar olunan idarəetmə üzrə xidmət təklif edənlərin ixtisas dərəcəsi;
- konkret ölkənin və ya ofşor ərazinin nüfuzu;
- trastın fəaliyyətinin təsisi və dəstəklənməsi üzrə xərclər;
- əlavə imkanlar.

### *Benefisiarların gəlirlərinə vergiqoyma rejimi*

Trastın təsis olunduğu ölkədə qeydiyyat yeri seçilərkən benefisiarların gəlirlərinə vergiqoymanın qüvvədə olan rejimi



downloaded from KitabYurdu.org

əsas amillərdən biridir. Qeyd etmək vacibdir ki, praktiki olaraq bütün trast ölkələrində rezident olmayanların trastın qeydiyyatdan keçdiyi ölkədən kənarda yerləşən mənbələrindən olan gəlirlərinə vergi qoyulmur.

Trastı təsis edən şəxs yalnız bu faktın əsasında gəlirlərdən vergiqoyma subyektinə çevrilmir. Əgər trast qeydiyyatdan keçmiş trast ölkəsindən kənarda yerləşən əmlakın idarə edilməsi üçün təsis olunubsa, bu zaman etibarlı idarəediciyə (çox güman ki, bütün öhdəlik şərtlərini yerinə yetirərkən) vergiqoyma məqsədləri üçün trastı təsis edən şəxsin daimi nümayəndəsi kimi baxılmır. Rezident olmayan benefisiarların gəlirlərinə yalnız o zaman vergi qoyulur ki, trast qeydiyyatdan keçdiyi ölkədə yerləşən mənbələrdən gəlirlər alsın.

Beləliklə, qeydiyyat yeri kimi Ümumi hüquq normalarını tətbiq edən hər hansı ölkə ola bilər və «trast sxemi»ni hazırlayarkən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının, Avstraliyanın və ya Amerika Birləşmiş Ştatlarının imkanlarına göz yumub diqqəti müstəsna olaraq ofşor ərazilərə yönəltmək lazım deyildir. Bu ölkələrin rezidentlərinin qeydiyyat yeri kimi ofşor mərkəzlərinə olan marağı əhəmiyyətli dərəcədə onların öz ölkələrində gəlirlərə vergiqoymanı azaltmaq səylərilə bağlı olub, heç də həmişə milli trast qanunvericiliyinin xüsusiyyətləri və nöqsanları ilə əlaqədar deyil. Lakin əgər hər hansı bir şəxs başqa fəaliyyət növlərini həyata keçirməyi nəzərdə tutursa, eyni zamanda trastın həmin, yüksək vergiqoyma səviyyəsi olan ölkədə təsis edilməsi əlavə risklə bağlı olacaqdır.

*Trastın qeydiyyatdan keçdiyi ölkədə benefisiarların gəlirlərinin vergiqoymadan azad edilməsi*

Trastın qeydiyyatdan keçdiyi ölkədə benefisiarların gəlirlərinin vergiqoymadan azad edilməsi həmin ölkədə (klassik ofşor ölkələri) rezident olmayanların xüsusi vergiqoyma rejimini təqdim etməklə; xüsusi vergi güzəştlərinin tətbiqi ilə gəlirlərə vergiqoymanın olmaması ilə təmin edilə bilər. Cari vergi planlaşdırması məqsədləri üçün bu fərqlər çox da böyük olmaya bilər, lakin trastı təsis edən zaman orta uzunmüddətli



downloaded from KitabYurdu.org

perspektivləri nəzərə almaq lazımdır. Əgər güzəştli vergi rejimləri qanunvericilik aktları ilə müəyyən edilmiş müddətə təqdim edilirsə, bu zaman güzəştlərə yenidən baxılması və ya onların ləğv edilməsi də istisna deyil.

Vergiqoymanın güzəştli rejiminin təqdim edilməsini həmçinin trastın benefisiarlarının beynəlxalq trastın təsis edildiyi ölkənin rezidentləri olması ehtimal edilən hallarda da nəzərə almaq lazımdar. Məsələn, qeyri-rezident Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında trast təsis edir və eyni zamanda özünü trastın benefisiarı təyin edir, bir neçə ildən sonra isə maliyyə ilinin 183 gününü həmin ölkənin ərazisində olur. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının vergi qanunvericiliyi normalarına müvafiq olaraq, həmin şəxs eyni zamanda vergiqoyma məqsədləri üçün rezident kimi tanınacaq və çox ehtimal ki, ona rezidentlər üçün trastların vergi imkanlarını məhdudlaşdıran Britaniya qanunvericiliyinin xüsusi normaları tətbiq ediləcək. Əgər trastın qeydiyyatdan keçdiyi ölkədə gəlirlərə vergiqoyma yoxdursa (həm rezidentlər, həm də qeyri-rezidentlər üçün), benefisiarların rezident statusu almasının mənfi vergi nəticələri olmayacaq.

Trastın benefisiarlarının gəlirlərə vergi qoyulmasından azad edilməsi mexanizmini həmçinin trast sxeminin əlavə ofşor qurumları olduğunu nəzərdə tutduğu hallarda da nəzərə almaq lazımdır. Adətən konkret əmlak (binalar, tikililər, mülkiyyət hüquqları və daşınmaz əmlak obyektləri) birbaşa olaraq trasta çox nadir hallarda verilir. Bir sıra hallarda isə əvvəl ofşor şirkətlərinin bu obyektlərini satmaq, sonra həmin şirkətin səhmlərini trasta vermək yaxşı olardı.

Ofşor şirkətin qeydiyyatı aparılan ölkə ilə trastın təsis edildiyi ölkə əlavə şərtlərdən asılı olaraq üst-üstə düşə də bilər, düşməyə də bilər (fəaliyyət göstərdiyi ölkədə və ya əmlakın yerləşdiyi ölkədə ikiqat vergiqoymaya, spesifik güzəştlərə və əmlaka vergiqoymanın xüsusiyyətlərinə yol verməmək üçün müqavilənin olması).

Trast ofşor şirkətin qeydiyyatdan keçdiyi ölkədə təsis olunarsa (bu, nəzarəti sadələşdirir və bütün vergi sxeminin fəaliyyətinin təmin edilməsi üzrə xərcləri aşağı salır), vergi



downloaded from KitabYurdu.org

güzəştlərinin təqdim edilməsi və ofşor şirkətin qeydiyyatdan keçdiyi ölkədə vergilərdən azad olması mexanizmi həlledici əhəmiyyətə malik ola bilər.

Əgər şirkət xüsusi status (vergidən azad qeyri-rezident şirkət) almaqla vergiqoymadan azad olursa, bu zaman adətən həmin şirkətə gəlir və əmlaka ikiqat vergiqoymaya yol verməmək barədə müqavilə normaları aid edilmir. Bundan əlavə, təsisçilərin və səhmdarların vergi məqsədlərində şirkət tərəfindən məruz qalmış zərərlərinin qeydə alınması üzrə imkanları xeyli məhdudlaşdırıla bilər. Gəlirlərə görə vergi üzrə vergi öhdəliklərinin müəyyənləşdirilməsi üçün «qız» müəssisələrin (filialların) məruz qaldığı zərərlərin qeydə alınması bir sıra «trast ölkələrində» geniş həyata keçirilir.

Trast təsisçisinin fəaliyyəti iqtisadiyyatın müxtəlif sahələrini əhatə edəndə və eyni zamanda bir neçə ölkədə aparılan hallarda holdinq strukturlarının, bankların, ofşor, sığorta və yenidənsığorta şirkətlərinin, gəmiçilik müəssisələrinin və s. yaradılması zərurəti meydana çıxır. Bu cür ofşor strukturlarının uğurlu fəaliyyəti üçün bəzən qeydiyyat ölkəsində daşınmaz əmlak obyektlərinin əldə edilməsi tələb olunur.

Xüsusi vergi statusu bu cür obyektlərin alınması üçün imkanları ilə uyğun gəlməyə bilər. Aydındır ki, bu barədə o ölkə və ərazilər daha əlverişli ola bilər ki, bir tərəfdən, gəlir və əmlaka vergiqoyma sistemi olmasın, digər tərəfdən isə, real fəaliyyət üçün bütün imkanlar olsun (yüksək ixtisaslı iş heyəti, kifayət qədər inkişaf etmiş infrastruktur), yerli qanunvericilik isə qeyri-rezidentlərə daşınmaz əmlak obyektlərini almağa imkan versin.

### *Valyuta məhdudiyyətləri və valyuta nəzarəti*

Valyuta məhdudiyyətləri və valyuta nəzarəti rejimini hər hansı tip və məqsədlər üçün trastın təsisi zamanı nəzərə almaq lazımdır. Bir qayda olaraq, klassik ofşor mərkəzlərində valyuta



downloaded from KitabYurdu.org

nəzarəti ya tamamilə aradan qaldırılmış, ya da yalnız rezidentlərin fəaliyyətində istifadə edilir.

Valyuta nəzarəti Qərbi Avropanın aşağıdakı ölkə və ofşor ərazilərində tamamilə yoxdur: Hernsi və Cersi adaları, Cəbəllütariq, Lixtenşteyn, Men, İsveçrə. Rezidentlər üçün valyuta məhdudiyyətləri İrlandiyada, Kiprdə, Maltada, Monakoda, Portuqaliyada (Madeyra adası) mövcuddur.

Valyuta məhdudiyyətləri Karib regionunun aşağıdakı ölkə və ofşor ərazilərində tamamilə yoxdur: Britaniyanın Virciniya adaları, Kayman adaları, Panama, Terks və Kaykos adaları. Qeyri-rezidentlərin fəaliyyəti üçün valyuta məhdudiyyətləri Karib regionunun aşağıdakı ofşor zonalarında tətbiq edilmir: Antiqua, Barbuda, Antil adaları, Aruba, Baham adaları, Bermud adaları, Nevis, Sent-Kitts. Rezidentlər üçün valyuta məhdudiyyətləri Karibin Barbados və Beliz mərkəzlərində müəyyən edilmişdir.

Sakit okean regionunda valyuta məhdudiyyətləri Vanuatuda, Honkonqda, Kuk adalarında tamamilə yoxdur; valyuta məhdudiyyətləri yalnız rezidentlər üçün Qərbi Samoada, Sinqapurda mövcuddur.

Vergi nəzarəti amillərini perspektivləri nəzərə almaqla, xüsusilə də trastın uzun müddət üçün təsis edildiyi hallarda və həmçinin şirkətlər qrupu çərçivəsində vergi öhdəliklərinin minimumlaşdırılması məqsədilə nəzərdən keçirmək lazımdır.

### *Məxfilik rejimi*

Məxfilik rejiminə riayət edilməsi aktivləri kreditorların cərimə müraciətlərindən müdafiə və cari vergi öhdəliklərini minimumlaşdırmaq üçün trastın təsis edilməsi zamanı mühüm əhəmiyyət kəsb etməyə başlayır. Bu amil ailə və vərəsəlik trastlarının təsisi zamanı, məcburi vərəsəlikdən müdafiə və vərəsəlik zamanı vergi öhdəliklərinin minimumlaşdırılması zamanı daha az əhəmiyyətə malik olur. Trastın məxfiliyi baxımından konkret ərazisinin qiymətləndirilməsi adətən trast



downloaded from KitabYurdu.org

reyestrinə daxil olacaq məlumatların həcminin müəyyən edilməsi ilə başlayır.

Trastın təsisçisi və benefisiarları haqqında məlumatların təqdim edilməsinin zəruriliyi aşağıdakı ölkə və ofşor mərkəzlərdə müəyyən edilməmişdir: Hernsi, Cersi, İrlandiya, Monako, Men, İsveçrə.

Müəyyən məqsədli trastlar üçün (adətən kapital qoyuluşunun müdafiəsi üzrə qanunvericilik normaları ilə uyğun təsis edilən trastlar üçün) təsisçi və (və ya) benefisiarlar haqqında kütləvi məlumatların təqdim edilməsi aşağıdakı ölkə və ofşor ərazilərdə nəzərdə tutulmuşdur: Cəbəllütariq, Lixtenşteyn, Madeyra adası (Portuqaliya), Malta.

Trast reyestrinin aparılması məqsədləri üçün kütləvi məlumatların mütləq təqdim edilməsi Karib hövzəsinin aşağıdakı ölkə və ofşor ərazilərində nəzərdə tutulmamışdır: Baham adalarında, Belizdə, Bermud adalarında, Britaniyanın Virciniya adalarında, Kayman adalarında, Terks və Kaykos adalarında. Ayrı-ayrı vacib məlumatların təqdim edilməsi Nevis adasında və Panamada nəzərdə tutulmuşdur.

Trastın təsisçiləri və benefisiarları haqqında məlumatlar trast reyestrinə daxil etmək üçün Sakit okean regionunun aşağıdakı ölkə və ofşor mərkəzlərində mütləq təqdim edilməməlidir: Vanuatu, Honkonq, Qərbi Samoa, Kuk adaları (burada reyestrə yalnız trastın adı qeyd olunur), Sinqapur.

Məxfiliyə riayət edilməsinin digər mühüm momenti (şərti) etibar olunan idarəedicinin trast təsis oldunduğu ölkənin rezidenti olması şərtidir. Bu şərt trastlar üzrə mövcud qanunvericilikdə təsbit olunursa, yerli agentin seçilməsi xüsusi ehtiyat tələb edir. Bu zaman hörmətli, nüfuzlu ixtisaslaşmış və trast firmalarının xidmətlərindən istifadə etmək yaxşıdır.

Bir qayda olaraq, benefisiarlar və təsisçilər haqqında məlumat trast reyestrinə o hallarda salınır ki, trast müflisləşmə və işləmək qabiliyyətini itirmək haqqında xüsusi qanunvericilik normalarına uyğun təsis olunmuşdur, yəni trast potensial kreditorların aktivlərini cərimə müraciətlərindən qorumaq üçün təsis olunmuşdur.



downloaded from KitabYurdu.org

*Hesabatlara və məlumatların açıqlanmasına olan tələblər*

Trastın təsisçiləri və benefisiarları haqqında hesabatların və məlumatların açıqlanmasına olan əlavə tələblər inkişaf etmiş ölkələrdə və yüksək işgüzarlıq nüfuzunu saxlamağa çalışan ofşor mərkəzlərdə tez-tez rast gəlinir. Məhkəmə izləməsi hallarında məlumatların açıqlanması üzrə xüsusi qaydaları bu və ya digər trast ərazisnin birmənalı olaraq neqativ əlaməti kimi nəzərdən keçirmək lazım deyil.

90-cı illərdə bir sıra ölkələrdə və ofşor ərazilərdə kapital qoyuluşlarının müdafiəsi üzrə trastların yaradılması qaydalarını tənzimləyən xüsusi qanunlar qəbul edilmişdir. Bu ərazilərə Baham və Kayman adaları, Cəbəllütariq, Kuk adaları, Panama, Terks və Kaykos adaları aiddir. Müəyyən hallarda müdafiə trastları barədə xüsusi qanunvericiliyin olması vicdanlı təsisçiyə xüsusi qayda və normalara dəqiq riayət etdikdə, qarşısına qoyduğu vəzifələri tam yerinə yetirə biləcəyi inamını verir. Adətən qanunvericiliyin xüsusi normaları yalnız dələduzluq məqsədilə təsis edilmiş trastdan istifadənin qarşısını almağa yönəldilir və təsisçinin daimi yerləşdiyi ölkənin vergi orqanlarının iddiaları üzrə cərimə müraciəti üçün trastı "açmağı" qarşısına məqsəd qoymur. Lakin bir sıra ofşor mərkəzlərdə trastın yalnız vergi öhdəliklərini minimumlaşdırmaq üçün təsis edilmədiyi barədə qanunvericilik normaları mövcuddur.

Əmlakın dələduzluqla verilməsi ilə mübarizə haqqında xüsusi qanunvericiliyinin normaları Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında (Statute of Elizabeth I), ABŞ-da (həm federal, həm də ştatlar səviyyəsində), Avstraliyada və Kanadada mövcuddur.

Qeyd etmək vacibdir ki, mütləq hesabat və məlumatların açıqlanması üzrə əlavə tələblər o hallarda təqdim edilə bilər ki, trastdan müəyyən fəaliyyət növləri ilə (bank, sığorta, kollektiv



downloaded from KitabYurdu.org

investisiya fondlarının təsis edilməsi və s.) məşğul olmaq üçün zəruri olan lisenziyaya malik şirkətlərin səhmlərini almaq üçün istifadə olunsun. Bir çox nüfuzlu ofşor mərkəzlərində lisenziyanın alınması səhmlərin son sahibinin (benefisiar) adını göstərmək zərurəti ilə bağlıdır. Belə hallarda müvafiq lisenziya və qeydiyyat orqanlarının son sahibin (benefisiarın) adı haqqında sirri saxlamalı olub-olmadıqlarını, və ya bu məlumata üçüncü şəxslərin əlyetərliliyini müəyyənləşdirməsi məqsədəuyğun olardı.

*Məhkəmə hüququnun dəyişməsi imkanı*

Təsis edilən trastın məhkəmə hüququnun (səlahiyyətinin) dəyişməsi əlverişsiz vergi qanunvericiliyinin qəbul edilməsi ehtimalı olduqda, valyuta məhdudiyyətləri tətbiq edildikdə, həmçinin trastın benefisiarlarının rezidentliyi dəyişildikdə daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Əgər trastın təsis edilməsinin məqsədləri aktivlərin qorunması, cari vergi öhdəliklərinin minimumlaşdırılması, vərəsəlik zamanı vergiqoymanın aşağı salınması, təsisçinin fəaliyyət imkanlarının genişləndirilməsidirsə, bu amili həmişə nəzərə almaq lazımdır.

Ofşor mərkəzlərinin bir sıra xüsusi trast qanunvericiliyi trastın məhkəmə hüququnun dəyişməsi imkanını məqbul hesab edir. Qeyd etmək zəruridir ki, bu imkanı adətən kontinental mülki hüquq sistemi olan ayrı-ayrı ölkələrin xüsusi trast qanunvericiliyi normaları da verir.

*Siyasi risklər*

Siyasi risklər ofşor mərkəzlərinin bir çoxunda mövcuddur. Bunlar müharibə təhlükəsi və dövlətlərarası münaqişələrlə, siyasi çevrilişlərlə, digər dövlətlərin ərazi iddiaları və s. ilə bağlıdır. Belə ki, uzunmüddətli trastların təsis yeri kimi Honkonqun cəlbediciliyi xeyli aşağı düşmüşdür. Prezident Noryeqanın Panamadakı hakimiyyəti dövründə baş verən



downloaded from KitabYurdu.org

məlum hadisələr bu perspektivli ofşor, maliyyə və gəmiçilik mərkəzinin inkişafını xeyli ləngitmişdir. Əgər trastın qeydiyyat yeri asılı və ya nəzarət edilən ərazidirsə, bu zaman metropoliyada siyasi qeyri-sabitlik potensial təsisçini ehtiyatlı olmağa hazır etməlidir.

### *Xüsusi trast, vergi və valyuta qanunvericiliyinin dəyişməsi ilə bağlı risklər*

Xüsusi trast, vergi və valyuta qanunvericiliyinin dəyişməsi ilə bağlı risklər bütün ölkələrdə mövcuddur. Uzunmüddətli praktikada bütün potensial dəyişiklikləri nəzərə almaq qeyri-mümkündür, lakin bir sıra hallarda bu cür dəyişiklikləri yüksək ehtimal dərəcəsi ilə qabaqcadan söyləmək olar. Avropa Birliyi ölkələrində, həmçinin xeyli dərəcədə bu birliyə yönəlmiş başqa Qərbi Avropa ölkələrində xüsusi qanunvericiliyin dəyişməsi vergi qanunvericiliyinin, iqtisadi fəaliyyətin əsas növlərini tənzimləyən qaydaların, xüsusilə bank və sığorta işinin uyğunlaşdırılması (ahəngdarlığı) istiqamətində baş verəcəkdir.

Yüksək nüfuz qazanmağa çalışan ofşor mərkəzləri yaxın illərdə, şübhəsiz, trastın dələduzluq imkanlarının minimumlaşdırılması üzrə tədbirlər həyata keçirəcəklər. Verginin güzəştli rejimlərini təqdim edən bir sıra ölkələrin və özünü idarə edən ərazilərin cinayət işi qaldırılan zaman (xüsusilə dələduzluq, narkotiklərlə ticarət və s.) informasiyaların açıqlanması üzrə sərt qaydalar qoyan qabaqcıl inkişaf etmiş ölkələrlə müqavilə bağlaması da istisna deyil.

Ofşor mərkəzlərinin əksəriyyəti vergiqoymanın əlverişli rejimlərinin təqdim edilməsinin sərbəst siyasətini həyata keçirir, lakin bir sıra ofşor mərkəzlərində keçirilən tədbirlərin təhlili göstərir ki, ayrı-ayrı mərkəzlər ayrı-ayrı ölkələrin və ya bir qrup ölkələrin rezidentlərinə xidmət göstərilməsi üçün müəyyən oriyentasiyaya malikdirlər. Bu cür ofşor mərkəzlərində xüsusi qanunvericiliyin dəyişməsi oriyentasiya ölkəsinin hakimiyyət orqanlarını «əsəbiləşdirməmək» üçün də həyata keçirilə bilər.



downloaded from KitabYurdu.org

Misal kimi Britaniyanın Virciniya adalarının və Panamanın ABŞ-la bağladığı müqavilələri göstərmək olar.

*Etibarlı idarəetmə üzrə xidmətlər təqdim edən şəxslərin ixtisas dərəcəsi*

Etibarlı idarəetmə üzrə xidmətlər təqdim edən şəxslərin ixtisas dərəcəsi etibar edilən şəxsə nəinki hüquqi, həm də faktiki olaraq aktivlərlə idarəetmə hüququ verildiyi hallarda (uzunmüddətli ailə və vərəsəlik trastları, gələcək nəsillərin maraqlarının qorunması üzrə trast, kollektiv investiya qoyuluşu fondları) trast yerinin təsisinin müəyyən edilməsinin başlıca amillərindən biridir. Etibar olunan idarəedicinin real diskresion səlahiyyətləri genişləndikcə, trast təsisçisinin onun vicdanına, peşəkarlığına, ixtisas dərəcəsinə və məsuliyyətinə inamı da yüksək olmalıdır.

Ofşor mərkəzlərində potensial agentlər kimi (etibar edilən idarəedici) həm də az tanınan yeni firmalar və iri beynəlxalq trast, hüquqi, auditor, konsaltinq, yüksək ixtisaslı mütəxəssis və sabit nüfuza malik şirkətlər də fəaliyyət göstərir. Yeni ofşor mərkəzlərində az tanınan firmaların xidmətlərindən ya yan keçməli, ya da onlara ehtiyatla yanaşmaq lazımdır.

Yüksək ixtisaslı personalın seçilməsi o hallarda həlledici rol oynaya bilər ki, trast sxemi çərçivəsində müxtəlif sahələr üzrə bir qrup müəssisə yaradılması nəzərdə tutulsun. Daha az dərəcədə bu amil o hallarda mühüm ola bilər ki, trastın təsis edilməsinin başlıca məqsədi aktivlərin təsisçinin borcları üzrə cərimə müraciətindən qorunması olsun.

*Konkret ölkənin və ya ofşor trast ərazisinin nüfuzu*

Trastın təsis edilməsi müəssisələr qrupu yaradılmasının start tədbiri olduğu zaman, gələcək fəaliyyət inkişaf etmiş ölkələrdə planlaşdırılan zaman, bank və sığorta şirkətlərinin,



downloaded from KitabYurdu.org

investisiya fondlarının təsis edilməsi perspektivi istisna olmayan zaman konkret ölkənin və ya ofşor trast ərazisinin nüfuzu ön plana keçir. Əgər trast təsisçilərinin məqsədləri yuxarıda qeyd edilənlərlə üst-üstə düşərsə, trast yerini müəyyənləşdirən zaman «çirkli pulların yuyulması», narkotiklərin daşınması və s. nüfuzu qazanmış və ya qazana biləcək ofşor mərkəzlərindən imtina etmək daha yaxşıdır.

Konkret ofşor mərkəzdə bu və ya digər əməliyyatın (trastın təsis edilməsi, şirkətin qeydiyyatdan keçməsi, lisenziya alınması) həyata keçirilməsi üzrə xərclərin səviyyəsi ilə onun nüfuzu arasında dəqiq asılılıq heç də həmişə görünmür. «Nisbətən az xərcli trast» təsis etmək və yaxşı nüfuzla ofşor zonada müəssisənin səmərəli idarəetmə sxemini yaratmaq daha realdır. Lakin trast sahəsində təqdim edilən layihənin ucuz olması potensial təsisçidə ehtiyat hissi oyatmalıdır.

*Trastın fəaliyyətinin təsis edilməsi və dəstəklənməsi üzrə xərclər*

Trastın fəaliyyətinin təsis edilməsi və dəstəklənməsi üzrə xərclər adətən aşağıdakı maddələrdən ibarət olur:

- qeydiyyat ölkəsində trastın və benefisiarların gəlirlərinə qoyulan vergilər;
- trast təsis edilən zaman çıxılan qeydiyyat rüsumu;
- illik hökumət və başqa yığımlar;
- etibarlı idarəedicinin xidmətlərinin ödənilməsi.

Trastın təsis edilməsi və dəstəklənməsi üzrə xərclərlə trast sxemi çərçivəsində müəssisələr sisteminin təşkili və fəaliyyəti üzrə xərcləri bir-birindən fərqləndirmək lazımdır. Aydındır ki, ikinci kateqoriya xeyli genişdir, belə ki, bura müəssisələrin fəaliyyətinin təsisi və dəstəklənməsi üzrə xərclər daxildir.

Bütün kateqoriyalardan olan benefisiarların gəlirlərinə vergiqoyma aşağıda adları çəkilən ölkə və ərazilərdə yoxdur: Kipr (trastın təsis edilməsi üzrə rezidentlərin imkanları məhduddur), Madeyra, Malta, Baham adaları, Kayman adaları, Nevis adası, Terks və Kaykos adaları, Vanuatu.

Qeyri-rezident benefisiarların gəlirləri aşağıdakı ölkə və ofşor ərazilərdə gəlirə görə vergidən azaddır (bir şərtlə ki,



downloaded from KitabYurdu.org

həmin gəlirlər trastın qeydiyyatdan keçdiyi ölkədən kənarda yerləşən mənbələrdən daxil olsun): Hernsi (rezidentlər üçün vergi stavkası 20%), Cəbəllütariq (rezidentlər üçün 30-50%), Cersi (rezidentlər üçün 20%), İrlandiya (əgər benefisiar İrlandiyanın rezidentidirsə, etibarlı idarəedicinin aldığı gəlirdən 27% stavka ilə vergi qoyulur, həmçinin trastın bölüşdürülməmiş mənfəətinə 20% stavka ilə əlavə vergi nəzərdə tutulmuşdur), Lixtenşteyn (rezidentlərin gəlirlərinə 0,1% stavka ilə ildə 1000 İsveçrə frankından az olmayaraq vergi qoyulmuşdur), Men (rezidentlər üçün vergi stavkası 20%), Barbados, Beliz (rezidentlər üçün 15-45%), Britaniyanın Virciniya adaları, Panama, Qərbi Samoa (rezidentlər üçün 50%), Kuk adaları (rezidentlər üçün 37%).

Həm rezidentlər, həm də qeyri-rezidentlər üçün benefisiarların gəlirlərinə 15% stavka ilə Honkonqda, 31% stavka ilə isə Sinqapurda vergi qoyulmuşdur.

Bir sıra ölkələrdə trastın qeyri-rezidentlərinin Benefisiarlarının gəlirlərindən vergi əvəzinə illik müəyyən olunmuş yığım çıxılır. Bu yığımın stavkaları Madeyrada 600 ABŞ dolları (trastın qeydiyyatı zamanı da həmin məbləğ çıxılır), Maltada 1200 Malta lirəsidir (təxminən 3000 ABŞ dolları).

Trastın təsisi zamanı Kiprdə, Madeyrada, Maltada, Nevis adasında (200 ABŞ dolları) rüsum çıxılır.

Bermud adalarında trastın təsisi üçün 100 bermud dolları (Bermud dolları ABŞ dollarına bərabərdir) həcmində rüsum çıxılır və kapital qoyuluşları zamanı (trasta üzvlük haqqı) 0,1% stavka ilə 4000 bermud dollarından çox olmayaraq yığım həyata keçirilir. (Mənbə: «Ofşor zonaları və trast qanunvevə trast qanunvet kitabı, 1996).

Bundan əlavə, trastın qeydiyyatdan keçdiyi ölkədə müəyyən növ əmlakın verilişi zamanı çıxılan vergi və mütləq yığımlar da (əmlak hüquqlarının verilməsinə vergilər, gerb rüsumları və yığımları) ola bilər. Adətən əmlakın etibarlı idarəediciyə verilməsi üzrə trastın müqaviləsinə görə müəyyənləşdirilir ki, onlar ya vergi və yığımlardan azaddırlar, ya da onlara güzəştli vergi dərəcələri tətbiq edilir, həmçinin belə əməliyyatlara standart rejim də tətbiq edilə bilər. Hər halda bu məsələni konkret ölkədə trastın təsis edilməsi qərarına qədər aydınlaşdırmaq zəruridir.

Etibarlı idarəedicinin xidmətlərinin dəyəri konkret trast müqaviləsi üzrə onun öhdəliklərinin həcmindən, onun təsisçi və



downloaded from KitabYurdu.org

benefisiarlar qarşısında məsuliyyətindən, ofşor mərkəzinin sinfindən və nüfuzundan asılıdır.

*Əlavə imkanlar*

Ofşor mərkəzlərə təqdim edilən əlavə imkanlar trastın vergi məqsədlərilə və bir qrup şirkətlər çərçivəsində maliyyə axınlarının planlaşdırılması üçün təsis edildiyi zaman xüsusi əhəmiyyət kəsb etməyə başlayır. Əlavə imkanlara bankların və sığorta şirkətlərinin, holdinq mərkəzlərinin, gəmi sahibkarlığı və istifadəsi sahəsində müəssisələrin lisenziyalaşdırılması şəraitinin yaradılması, başqa ölkələrin bazarlarına giriş, gəlirlərə və əmlaka ikiqat vergiqoymaya yol verilməməsi haqqında müqavilələrin üstünlüklərindən istafadə, daşınmaz əmlak obyektlərinin alınması, müəllif hüquqlarına malik olmaq və qərar verməк, üçüncü şəxslərin vəsaitlərinin cəlb edilməsi, işçi heyətinin yaradılması, real iqtisadiyyat sfeRasında müəssisələrin təşkili (xüsusi vergi rejimləri olan zonalarda), məhsulları bu və ya digər ölkələrdə qoyulan tələblərə uyğunlaşdırmaq imkanları aiddir. Lakin bu imkanları təqdim etməyən ölkə və əraziləri siyahıdan silmək lazım deyil. Trast bir ölkədə, ixtisaslaşdırılmış şirkətlər isə başqa mərkəz və zonalarda təsis oluna bilər. Qeyd etmək lazımdır ki, bir çox əlavə üstünlüklər trastların təsisini həyata keçirən kontinental tipə məxsus mülki hüquq sistemli ölkələrdə mövcuddur.

Ümumi amillərlə yanaşı, trastın təsisi məqsədlərilə bağlı xüsusi amilləri də nəzərə almaq lazımdır:

- məcburi vərəsəlik məsələlərini tənzimləyən xüsusi qanunvericilik normaları;
- kreditorların mümkün iddiaları ilə bağlı norma və məhkəmə presedentləri;
- trast qanunvericiliyi məsələləri üzrə ölkənin beynəlxalq müqavilələrdə iştirakı;
- trastın ləğv edilməsi imkanlarını tənzimləyən normalar;
- etibarlı idarəedicinin səlahiyyətlərinin dəyişdirilməsi imkanları;
- gəlir və əmlakın ikiqat vergiqoymadan yan keçmək haqqında razılıqların olması;
- başqa xüsusi amillər.



downloaded from KitabYurdu.org

Xüsusi amilləri təhlil edərkən bu və ya digər qanunvericilik normalarının nüanslarını yaxşı bilən, məhkəmə iddialarının mahiyyətini qiymətləndirməyi bacaran, xüsusilə də trastın kreditorların iddialarından qorunması və vergi məqsədlərilə təsis edilməsi hallarında yerli yüksək ixtisaslı mütəxəssislərdən istifadə etmək zəruridir.

# VI FƏSİL
# İNVESTİSİYA HOLDİNQ MƏRKƏZLƏRİ

6.1. Holdinq şirkətinin yaradılmasının məqsədləri
6.2. Lüksemburqda və Niderlandda təsis edilən holdinq şirkətlərinin xüsusiyyətləri

## 6.1. Holdinq şirkətinin yaradılmasının məqsədləri

Holdinqlər başqa müəssisələrin nizamnamə kapitallarına qoyuluşlar üzrə ixtisaslaşmış müəssisələrdir. Onlar əsasən sahib olduqları səhmlərdən dividendlər formasında gəlirlər əldə edir. Müasir şəraitdə bir çox ölkələrdə bu cür fəaliyyət müxtəlif növ



downloaded from KitabYurdu.org

məhdudiyyətlər və gəlirlərin dividendlər formasında vergiyə cəlb edilməsinin yüksək səviyyəsi ilə əlaqədardır.

Məhdudiyyətləri aşağıdakı qruplara ayırmaq olar:

- valyuta;
- antiinhisar;
- təşkilati;
- xüsusi.

Valyuta məhdudiyyətləri müxtəlif ola bilər. Daha çox yayılmışlara keçid iqtisadiyyatlı ölkələrdə tez-tez rast gələn uzunmüddətli qoyuluşları həyata keçirmək üçün valyutanın əldə edilməsinə olan məhdudiyyət aiddir. Bu ölkələrin hakimiyyət orqanları kapitalın xaricə axınının qarşısını almaqdan ötrü xarici valyutanı yalnız malların idxalı məqsədləri üçün azad surətdə əldə etməyə icazə verirlər. İxrac əməliyyatları üçün sərt qaydalar müəyyən edilir ki, bunlara müvafiq olaraq müəyyən edilmiş müddətdən gec olmayaraq ixrac edilmiş mal üçün ödənilmiş məbləğ ölkəyə daxil olmalı və səlahiyyəti olan bankların hesablarına keçirilməlidir. Bu zaman valyuta mədaxili bütövlükdə və ya qismən dövlət və ya mərkəzi bank tərəfindən müəyyən edilmiş şərtlərlə mütləq satışa verilməlidir. Bir qayda olaraq, bu şərtlər ixrac edənlər üçün əlverişsizdir. Valyuta qazancının ölkəyə qaytarılmamasına inzibati hüquq pozuntusu və ya cinayət işi kimi, bəzən isə eyni zamanda həm hüquq pozuntusu, həm də cinayət kimi baxılır.

Görünür, bu ölkələrin hökumətləri hələ dərk etmirlər ki, böyük miqyaslı və səmərəli ixrac fəaliyyətini həyata keçirmək üçün müasir şəraitdə başqa ölkələrdə uzunmüddətli qoyuluşlar zəruridir (şəxsi satış şəbəkəsinin, ixrac edilən mürəkkəb malların xidmət və təmir şəbəkəsinin təşkili, milli məhsulların yeni bazarlara hərəkəti üzrə reklam kampaniyaları), yaxud elə ağır maliyyə vəziyyətindədirlər ki, sadəcə milli iqtisadiyyatın strateji inkişaf perspektivləri haqqında qayğını gələcək zamana saxlayırlar (təxirə salırlar).

Bir sıra ölkələrdə uzunmuddətli investisiya qoyuluşları məqsədləri üçün xarici valyuta alınmasına yol verilir. Lakin hökumət orqanları zəruri icazələrin alınması üçün mürəkkəb və



downloaded from KitabYurdu.org

vaxt aparan prosedurlar tətbiq edirlər. Rusiya Federasiyası bu tip ölkələrə aiddir. Rusiya rezidentləri, əsasən də hüquqi şəxslər valyuta nəzarəti orqanlarından (bu orqan kimi RF Mərkəzi Bankı çıxış edir) başqa ölkələrdə uzunmüddətli qoyuluşlar həyata keçirmək üçün icazə almaq imkanına malikdirlər, lakin hər bir konkret halda bu cür qoyuluşları əsaslandırmaq vacibdir. Başqa sözlə, xarici investisiya məqsədilə valyuta almaq üçün icazə, məsələn, Rusiya rezidenti hər hansı başqa ölkənin ərazisində ixtisaslaşmış təmir emalatxanası açmaq üçün zəruri sənədləri toplamalı, filial açacağı və ya «qız» müəssisə təsis edəcəyi ölkədə bütün tədbirləri həyata keçirməli, sənədləri Mərkəzi banka verməli, üç ay icazə gözləməli və icazə alarsa, filialın və ya müəssisənin qeydiyyatına başlaya bilər.

Beləliklə, bütün zəruri prosedurların həyata keçirilməsinin real müddəti yarım ildən az deyildir. Rusiyalı hüquqi şəxsin xarici rəqibləri bu tədbirləri bir neçə gün ərzində həyata keçirə bilər. Bu və ya digər ölkədə analoji filial, nümayəndəlik və ya «qız» müəssisə açmaq üçün rus rezidentləri həmin prosedurları təkrar həyata keçirməlidirlər. Bir icazənin alınması o demək deyildir ki, yeni icazə də beləcə alınacaqdır. Qeyd etmək lazımdır ki, rusiyalı hüquqi şəxsin xarici müəssisəsi və ya filialı mənfəəti Rusiyanın səlahiyyətli banklarının hesablarına keçirməlidirlər.

Bir sıra ölkələrdə milli antiinhisar qanunvericilik xarici ölkələrdə holdinq şirkətlərinin qeydiyyatını stimullaşdıran amil kimi çıxış edir. Bu zaman holdinq şirkətlərinin təkrar yerləşdirilməsinin (təkrar dislokasiyasının) başlıca səbəbi antiinhisar qanunvericiliyin mahiyyəti deyil, qabaqcadan aparılan antiinhisar (antitrest) nəzarətin xüsusi prosedurlarıdır. Bir çox ölkələrdə normalar müəyyən edilmişdir ki, bunlara uyğun olaraq bir və ya bir neçə istehsalçının və yaxud satıcının istehsal prosesinə və ya hər hansı mal və xidmətlərinin reallaşdırılmasına nəzarətə yol verilmir. Bundan başqa, müəyyən ölkədə və ya onun bir hissəsində (rayon, ştat, vilayət, dairə) qabaqcıl istehsalçıların səhmlərinə sahib olmağa məhdudiyyətlər qoyulur. Bir qayda olaraq, antitrest qanunvericiliyini artıq uzun müddət tətbiq edən ölkələr ya



downloaded from KitabYurdu.org

növbəti nəzarətlə kifayətlənir (işlərin faktiki vəziyyətinə nəzarət), ya da qabaqcadan nəzarətin ağır olmayan prosedurlarını müəyyən edirlər. İnhisarçılıqla mübarizəyə təzə başlayan ölkələr bu və ya digər kateqoriyadan olan müəssisələrin qeydiyyatı üçün icazə almaq prosedurlarını tətbiq etməklə, qabaqcadan nəzarət tədbirlərindən sui-istifadə edirlər.

Xüsusi məhdudiyyətlərə sahibkarlıq fəaliyyyətinin hər hansı növlərini həyata keçirmək və ya başqa fəaliyyətlə birgə həyata keçirməyə olan qadağalardır. Bu cür qadağalar bütün inkişaf etmiş ölkələrdə mövcuddur. ABŞ-ın xüsusi bank qanunvericiliyi kommersiya banklarının investisiya fəaliyyəti üzrə imkanlarını məhdudlaşdırır, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında isə bir şirkətin həyatın sığortası üzrə fəaliyyətini başqa fəaliyyət növləri ilə birgə həyata keçirmək üzrə məhdudiyyətlər mövcuddur. Qiymətli kağızlar bazarında da ayrı-ayrı fəaliyyət növlərini birgə həyata keçirməyə qadağalar və ya məhdudiyyətlər vardır, bir çox ölkələrdə kommersiya banklarının sığorta şirkətlərinin kapitallarında iştirakı qadağandır və ya məhdudlaşdırılmışdır, yaxud əksinə, lisenziya almaq qaydalarına görə sahibkarlıq fəaliyyətinin müəyyən növləri fiziki və ya hüquqi şəxsin müstəsna fəaliyyət növü olmalıdır.

Holdinqin adları qeyd olunan məhdudiyyətləri tətbiq edən ölkənin hüdudlarından kənarda qeydiyyatdan keçməsi tez-tez onlardan yan keçməyə və qeydiyyat prosedurlarının müddətlərini qısaltmağa imkan verir.

Holdinqin təsis edilməsinin vergi amilləri müxtəlifdir. Lakin holdinq şirkətinin başlıca təyinatı əmlaka sahiblik və onun ötürülməsi nəticəsində meydana çıxan vergi öhdəliklərinin minimumlaşdırılması, ödəniş mənbəyi yanında dividend, faiz və royalti şəklində çıxılan gəlirlərə vergiqoymanın aşağı salınması hesab edilməlidir. Aydındır ki, holdinqlər gəlirlərdən vergilər üzrə öhdəliklərin minimumlaşdırılması üçün də fəal istifadə edilir. Lakin sonuncu məqsəd prinsip etibarilə başqa metodların da, məsələn, həm ölkə daxilidə, həm də beynəlxalq miqyasda ofşor müəssisələrdən, ikiqat vergiqoymadan qaçmağın aradan qaldırılması haqqında müqavilələrin



downloaded from KitabYurdu.org

müəyyən edilmiş normalarındlan istifadə etməklə səmərəli vergi planlaşdırmalarının köməyilə əldə edilə bilər.

Holdinqin təsis edilməsi müxtəlif növ məhdudiyyətlərin qarşısını almaq və vergiqoymanın səviyyəsini aşağı salmaqdan başqa müxtəlif ölkələrdə yerləşən, müxtəlif sahə və funksional ixtisaslaşması olan müəssisələrin sahibinə onları bir şirkətdə birləşdirməyə imkan verir ki, bu da həmin qrup daxilində maliyyə axınlarını optimallaşdırmağa, bu müəssisələrin idarə edilməsi üzrə maliyyə xərclərini azaltmağa, nüfuz qazanmağa, vahid ticarət nişanlarını fəal irəli verməyə imkan yaradır. Son nəticədə bütün bunlar daha əlverişli şəraitdə xarici investisiya və kreditlərin cəlb edilməsi imkanlarını şərtləndirir (imkanlarının yaranmasına səbəb olur).

Holdinq şirkətinin yaradılması xeyli miqdarda maliyyə resurslarının olmasını, həmçinin əlverişli şərtlərlə əlavə resursların cəlb edilməsini nəzərdə tutur. Bununla əlaqədar olaraq, holdinqin inkişaf etməkdə olan ölkələrdə, keçid iqtisadiyyatlı ölkələrdə, eləcə də ofşor ərazilərdə təsis edilməsi əsaslandırılmamışdır.

Holdinq şirkətinin yerinin seçilməsi zamanı vergi qanunvericiliyinin sabitliyinə xüsusi diqqət yetirmək lazımdır. Bu zaman ölkədə nə vergiqoymanın ümumi səviyyəsi, nə də gəlirlərə vergilər sistemi deyil, əmlaka vergiqoymanı, «mənbə» yanında əmlakla və gəlirlərlə sövdələri tənzimləyən vergi qanunvericiliyinin xüsusi normaları böyük rol oynayır. Müasir şəraitdə «holdinq mərkəzləri» Qərbi Avropanın korporativ verginin yüksək dərəcələrini tətbiq edən və fiziki şəxslərin – rezidentlərin gəlirlərinə inkişaf etmiş vergiqoyma sisteminə malik olan ölkələridir.

Holdinqin qeydiyyatdan keçdiyi ölkədə əlverişli vergi şəraitindən başqa əmlaka və gəlirlərə ikiqat vergiqoymanın aradan qaldırılması haqqında həmin ölkə ilə bağlanmış müqavilələr də mühüm əhəmiyyətə malikdir. Beynəlxalq holdinq strukturu (quruluşu) elə qurulmalıdır ki, kapitalın köçürülməsi zamanı vergi ödənişlərini və öhdəliklərini minimumlaşdırsın. Gəlirlərə və əmlaka ikiqat vergiqoymadan qaçmaq haqqında müqavilələr sözsüz ki, bütün zəruri tələblərə



downloaded from KitabYurdu.org

riayət olunmaqla vergiqoymanın sıfır və güzəştli dərəcələrinin tətbiqi ilə faizlərin, dividendlərin, lisenziya ödənişlərinin holdinq şirkətinə köçürülməsinə, alınan mənfəəti maneəsiz investisiya qoyuluşları etməyə imkan verir.

Holdinq şirkətinin təsis edilməsi nəzərdə tutulan ölkəyə olan əsas tələblərdən biri valyuta məhdudiyyətlərinin olmamasıdır. Bu ölkədə valyuta məhdudiyyətlərinin məcburiliyini müəyyən edən qanunvericilik normalarının olması prinsip etibarilə, holdinq strukturlarının fəaliyyətinə maneə olacaq amil deyil. Holdinq şirkətlərini valyuta nəzarəti qaydalarının ağır olmadığı və ardıcıl nəzarət formasında tətbiq edildiyi zaman təsis etmək olar. Lakin valyuta məhdudiyyətlərini və valyuta nəzarətini tam ləğv etmiş ölkələr daha cəlbedicidirlər.

Bir sıra tələblər də holdinq şirkətinin yaradılması nəzərdə tutulan ölkənin mülki qanunvericiliyi ilə bağlıdır. Yaradılan təşkilatların müxtəlif formalarından istifadəni təqdim edən ölkələri daha münasib hesab etmək lazımdır. Şirkətin təsis edilməsinə olan xərclər, həmçinin onun fəaliyyətinə olan cari xərclərin ölçüsü kimi amillər də önəmlidir (böyük rol oynayır). Qiymətli kağızların yerləşdirilməsi, təminatların verilməsi, şirkətin nizamnamə kapitalının ölçüsündən artıq ölçülərdə ssudaların cəlb edilməsi, holdinqin strukturuna daxil olan və olmayan müəssisələrə borcların verilməsi, filialların açılması, lisenziya və patentlərin alqı və satqısı üzrə imkanlara yol verən və ya məhdudlaşdıran müxtəlif növ xüsusi normalar da böyük əhəmiyyətə malikdir. Holdinq şirkətləri adətən passiv iqtisadi fəaliyyətlə məhdudlaşırlar (kifayətlənirlər), yəni yalnız səhmlərə sahiblikdən gəlir və «qız» müəssisələrindən pay alırlar. Lakin holdinq şirkətinin təsis edilməsinin konkret məqsədləri üçün hər hansı fəal əməliyyatların aparılması da əhəmiyyətli ola bilər. Bu hallarda hər hansı konkret əməliyyətların aparılmasının holdinq şirkəti tərəfindən öz güzəştli vergi statusunun itirilməsinə səbəb ola biləcək müvafiq qanunvericilik normalarına xüsusi diqqət yetirmək lazımdır. Sözsüz ki, holdinq şirkətlərinin yaradıcıları təqdim edənə emissiyalar, eləcə də nominal dəyəri olmayan səhmlərin



downloaded from KitabYurdu.org

verilməsinə yol verilən ölkələrdə əlavə imkanlar alırlar. Holdinq şirkətinin konkret potensial təsisçiləri üçün nizamnamə kapitalının minimal ölçüsünə, ödənilən kapiitalın minimal ölçüsünə, illik hesabatın həcminə, auditin məcburiliyinə, səhmdarların və direktorlar şurasının ümumi yığıncaqlarına olan tələblər də mühüm ola bilər.

Potensial təsisçilər tərəfindən qanunvericilik normaları qarşısında qoyulan tələblərə görə, məlumatların müəyyən hissəsi gizli saxlanılmalı, müəyyən hissəsi isə məcburi çap olunmalıdır. Bu qəbildən olan ölkələri xüsusi qrupa aid etmək olar. İlk baxışdan bu sahədə qaydalar əksər ölkələrdə kifayət qədər sərtdir. Holdinq şirkətinin qeydiyyatı zamanı, eləcə də holdinq şirkətinin səhmləri ilə sövdələr zamanı çox vaxt qiymətli kağızların sahiblərinin adlarını göstərmək tələb olunur. Lakin real sahiblər haqqında informasiyanın, məsələn nominal sahiblərdən istifadə, trastların təsisi və s. gizli saxlanması haqqında müxtəlif imkanlar mövcuddur.

Potensial təsisçilərin fəaliyyətlərinin imkan və şərtləri xeyli fərqləndiyinə görə hər bir konkret hal üçün holdinq şirkətinin ümumi və spesifik vəzifələrin həllinə kömək etməsinə xidmət etməsilə əlaqədar olaraq, holdinq şirkətinin təsis ediləcəyi ölkənin seçimi ciddi problemə çevrilə bilər.

Ənənəvi olaraq qabaqcıl holdinq mərkəzləri kimi Niderland (Hollandiya) və Lüksemburq çıxış edir. Bundan başqa, holdinq şirkətlərinin qeydiyyatı və fəaliyyəti üçün əlverişli şəraiti olan ölkələrə Avstriya, Danimanka, Fransa, Almaniya, İspaniya və İsveç aiddir. 90-cı illərdə beynəlxalq vergi planlaşdırması sahəsində ekspertlərin diqqətini Macarıstan cəlb etmişdir (bu ölkədə ofşor şirkətlərin, o cümlədən xarici ölkələrdə investisiya fəaliyyətini həyata keçirmək sahəsində əldə etdikləri imkanlarla əlaqədar olaraq).

Hər bir konkret ölkədə holdinq şirkətinin qeydiyyat və fəaliyyət şərtləri xeyli fərqlənir. Belə ki, vergiqoyma sahəsində holdinq şirkətinin statusunu və imkanlarını saxlamaq üçün qeydiyyatdan keçmiş şirkət digər tələblərə müvafiq olmaqla yanaşı, başqa ölkədə qeydiyyatdan keçmiş «qız» cəmiyyətinin nizamnamə kapitalında qanun tərəfindən müəyyən edilmiş



downloaded from KitabYurdu.org

səviyyədən az olmayaraq paya malik olmalıdır. Avstriya və Danimarkada «qız» müəssisəsinin səhm kapitalında minimal iştirakın göstəricisi 25% səviyyəsində müəyyən edilmişdir. İsveçdə hər hansı şirkətin holdinq şirkəti hesab edilməsi üçün emitentin «qız» müəssisəsinin səsə malik səhmlərinin 25%-nə sahib olmalıdır. Fransada, Almaniyada, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında bu hədd 10% səviyyəsində müəyyən edilmişdir, bu zaman ayrı-ayrı milli spesifik tələblər də mövcuddur. Niderlandda və İspaniyada «qız» cəmiyyətinin kapitalında minimal iştirak 5%-lə kifayətlənir, Macarıstanda və Lüksemburqda isə bu hədd müəyyən edilməmişdir.

Holdinq mərkəzləri ikiqat vergitutmanın qaçmağın aradan qaldırılması haqqında mövcud müqavilələrin sayına görə xeyli fərqlənirlər. Bu sahədə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı əvvəlki kimi lider olaraq qalır ki, bu ölkə 100 bu kimi müqavilə bağlamışdır. Sonra Fransa (88 müqavilə), Almaniya (75), İsveç (71) gəlir. İkiqat vergiqoymadan qaçmaq haqqında 50-dən artıq müqavilə Danimarkaya (57), Macarıstana (52) və Niderlanda (51) məxsusdur. Daha az müqavilə bağlayan ölkələrə Avstriya (44), İspaniya (35) və Lüksemburq (30) aiddir.

Sözsüz ki, holdinq şirkətinin potensial təsisçisi üçün nəinki ikiqat vergiqoymadan qaçmaq haqqında müqavilələrin ümumi sayı, həm də dividendlər, faizlər və royalti formasında gəlirlərin köçürüldüyü ölkələrlə konkret müqavilələrin olması böyük əhəmiyyət kəsb edir.

Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, ikiqat vergiqoymanın aradan qaldırılması haqqında normalar heç də həmişə holdinq şirkətlərinə ödənilən gəlirlərə tətbiq edilmir. İkiqat vergiqoymadan qaçmaq haqqında olan bir sıra müqavilələrdə gəlir alanların «ana» (baş) və ya «qız» müəssisə olduğu hallarda gəlir mənbəyi olan ölkələrdə vergi ödənişindən azad edilməyin bu və ya digər formalarının tətbiq edilməməsi barədə normalar müəyyən edilmişdir. Ayrı-ayrı müqavilələrdə müqavilə normalarının holdinq şirkətlərinə və ya xüsusi statusu



downloaded from KitabYurdu.org

olan şirkətlərə (ofşor) tətbiq edilməməsi barədə xüsusi müddəalar müəyyənləşdirilə bilər.

Bütün holdinq mərkəzlərini üç qrupa ayırmaq olar.

Birinci qrupa xüsusi statusu olan şirkətlərin qeydiyyatı tələb olunmayan ölkələr daxildir. Bu ölkələrdə vergi güzəştlərinə hüququ, fəaliyyətləri müəyyən çərçivə hüdudlarından kənara çıxmayan şirkətlər alır, yəni «qız» və ya asılı şirkətlərin qiymətli kağızlarına malik olmaqla məhdudlaşır (Danimarka, Fransa, Almaniya, İsveç, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı).

İkinci qrupa ölkə qanunvericiliyinə görə holdinq şirkətinin qeydiyyatı zəruri olan ölkələr daxildir. Bu ölkələrə Avstriya və Lüksemburq aiddir.

Üçüncü qrupa ya xüsusi statusu olan şirkətlərin, ya da müəyyən şərtlərlə qeydiyyatdan keçmiş şirkətlərin güzəşt hüququ aldıqları ölkələr daxildir. Bu ölkələr qrupunu Lüksemburq, Niderland, İspaniya və Macarıstan təşkil edir. Lüksemburqda holdinq şirkətlər və SOPARFI tipli şirkətlər qeydiyyatdan keçə bilər. Niderlandda şirkət «qız» müəssisələrdə kapitalın iştirakının ölçüsünə görə müəyyən olunmuş tələblərə cavab verməlidir. İspaniyada xüsusi statusu olan ETVE şirkətləri qeydiyyatdan keçir, Macarıstanda isə şirkət ümumi norma və qaydalar üzrə vergiqoymadan qaçmaq üçün ofşor şirkət statusu almalıdır.

Bütün holdinq mərkəzlərini asılı şirkətlər arasında həyata keçirilən əməliyyatlar üzrə transfert qiymətqoymanı məhdudlaşdıran normaların tətbiqinin əlamətlərinə görə üç qrupa ayırmaq olar.

Birinci qrupa transfert qiymətqoyma ilə bağlı olan məhdudiyyətlər müəyyən etməyən ölkələr aiddir. Bu qrupa Danimarka və Fransa daxildir.

İkinci qrupu transfert qiymətqoyma üzrə xüsusi normaları olmayan, lakin təcrübədə bu cür məhdudiyyətləri tətbiq edən ölkələr təşkil edir. Bu qrup ölkələrə Lüksemburq və Niderland daxildir.



downloaded from KitabYurdu.org

Vergi qanunvericiliyinə bu kimi normaları daxil edən ölkələrə Avstriya, Almaniya, İspaniya, İsveç, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı və Macarıstan daxildir.

Holdinq şirkətlərinin fəaliyyət sahəsi məhduddur. Əgər şirkət qanunvericilik tərəfindən müəyyən edilmiş məhdudiyyətlərdən kənara çıxarsa, bu zaman öz statusunu itirərək adi şirkətlərə tətbiq edilən vergiqoymaya məruz qalır və ya holdinqin qeydiyyatdan keçdiyi ölkənin qanunvericiliyini xüsusiyyətlərindən asılı olaraq adi holdinq fəaliyyəti çərçivəsindən kənara çıxan konkret əməliyyatlardan aldığı gəlirləri vergiyə cəlb olunur. Holdinq şirkətlərinin fəaliyyətinə görə məhdudiyyət və qadağaları ümumi, yəni praktiki olaraq bütün ölkələrdə tətbiq edilən və spesifik, yəni bir və ya bir neçə ölkə üçün üçün səciyyəvi (xarakterik) olan holdinq şirkətlərinin fəaliyyətlərinə olan məhdudiyyət və qadağalara bölmək olar. Holdinq şirkətlərinin fəaliyyətinə olan ümumi qadağalara aşağıdakılar aiddir:

- müstəsna olaraq bilavasitə holdinq şirkət üçün istifadə edilən daşınmaz əmlak obyektlərinə (torpaq, binalar, tikililər) sahib olmaq;
- bilavasitə holdinq şirkətinin özünün kommersiya (istehsalat və ticarət) fəaliyyətini həyata keçirməsi;
- fiziki şəxslərlə iş.

Daşınmaz əmlak obyektlərinə sahibliyə qadağa o deməkdir ki, holdinq şirkəti özü bilavasitə daşınmaz əmlaka sahib ola bilməz, lakin daşınmaz əmlak obyektləri məxsus olan «qız» şirkətlərinin səhmlərinə sahib olmaq hüququna malikdir. Bu, həm də kommersiya fəaliyyətinə və fiziki şəxslərlə işə də aid edilir.

Ümumi qadağalara aiddir:

- maliyyə müəssisələrində depozit hesablarda şəxsi vəsaitlərini yerləşdirməyə olan məhdudiyyətlər;
- borc vəsaitlərinin ölçüsünün ödənilmiş nizamnamə kapitalının ölçüsünə nisbətinə maksimum yol verilən formada məhdudiyyət (qanunda ya məhkəmə presedentləri əsasında, ya da vergi orqanlarının təcrübəsi əsasında müəyyən edilə bilər);



downloaded from KitabYurdu.org

- buraxılan istiqrazların ölçüsü ilə ödənilmiş nizamnamə kapitalı arasında maksimum yol verilən formada nisbətin müəyyən edilməsi (bu, bir qayda olaraq, bütün növ şirkətlər üçün ümumi məhdudiyyətdir).

Spesifik qadağa və məhdudiyyətlər holdinq şirkətinin özünün «qız» müəssisələrinə və üçüncü şəxslərə kreditlər təqdim edilməsinə, başlıca olaraq sublisenziyalaşdırma və ticarət markaları və patentlərə sahib olmağa aid edilə bilər.

Bütün Avropa holdinq mərkəzləri nizamnamə kapitalının minimal ölçüsünə, ödənilmiş nizamnamə kapitalının minimal payına sərt tələblər qoyur. Bir qayda olaraq, holdinq şirkətinin hüquqi ünvanı, lisenziyası olan auditor tərəfindən təsdiqlənmiş illik hesabatın təqdim edilməsi məcburidir (zəruridir). Ayrı-ayrı ölkələrdə əlavə maliyyə hesabatının (rüblük) təqdim edilməsinin də məcburiliyi müəyyənləşdirilir, həmçinin qarşıdakı maliyyə ili üçün şirkətlərin fəaliyyətinin proqnozunun tərtib edilməsi və nəzarət instansiyalarına təqdim edilməsi nəzərdə tutulur.

## 6.2. Lüksemburqda və Niderlandda təsis edilən holdinq şirkətlərinin xüsusiyyətləri

Lüksemburq və Niderland ənənəvi olaraq holdinq şirkətlərinin qabaqcıl təsis mərkəzləridir. Bu ölkələrin ərazi yaxınlığı və bir sıra ümumi cəhətləri olduğuna baxmayaraq (hər iki dövlət Benilüks birliyinə, Avropa İttifaqına daxildir), bu ölkələrdə təsis edilən holdinqlərin xeyli xüsusiyyətləri və fərqləri vardır. Onlardan heç biri ofşor ərazilərə aid deyildir. Bunlar vergiqoymanın yüksək səviyyəsi olan, holdinq şirkətlərinə gəlirlərə və əmlaka vergiqoymanın xüsusi rejimlərini təqdim edən ölkələrdir.

### *Lüksemburq*

Lüksemburqda həm rezidentlər, həm də qeyri-rezidentlər üçün müəyyən edilmiş ümumi vergi rejimini sərt kateqoriyaya aid etmək olar. Fiziki şəxslərin gəlirlərinə olan verginin minimal dərəcəsi həm rezidentlər, həm də qeyri-rezidetlər üçün



downloaded from KitabYurdu.org

51,25% səviyyəsində (Avropada ən yüksək dərəcələrdən biri) müəyyən edilmişdir. Mənfəətdən verginin maksimal dərəcədə 39% səviyyəsində (orta Avropa səviyyəsindən yuxarı) müəyyən edilmişdir. Mənbə yanında dividendlər 15% dərəcə ilə vergiyə cəlb olunur, müəllif hüquqlarından və ticarət markalarından gəlirlərə vergi 10-12% dərəcəsində müəyyənləşdirilmişdir. Ölkədə əmlak hüquqlarının ötürülməsi zamanı da vergiqoyma mövcuddur. Bundan başqa, sosial xarakterli məcburi ayırmalar sistemi mövcuddur (muzdla işləyənlərdən sosial sığorta fonduna 10,42% dərəcəsi ilə, işəgötürənlərdən 12,62% dərəcəsi ilə haqq çıxılır, müstəqil şəxsi fəaliyyətdən əldə edilən gəlir alan şəxslər üçün sosial sığorta fonduna üzvlük haqqı 23,25% dərəcəsi ilə müəyyən edilmişdir). Fiziki şəxslər əmlak üçün vergi ödəyiciləridir (dəyərdən 0,5% dərəcə). Lüksemburqun vergi sistemi həmçinin direktorların və komisyon idarəedicilərin gəlirlərinə əlavə vergiqoyma da nəzərdə tutur (maksimal dərəcə 39 %).

Lüksemburqda holdinq şirkətinin yaradılması üçün başlıca vergi stimulları aşağıdakılardan ibarətdir

- faiz gəlirinə vergiqoyma yoxdur;
- holdinq şirkətlərinin və investisiya fondlarının mənfəət və əmlakının vergidən azad edilməsi;
- müəyyən kateqoriyaya aid şirkətlərin dividendlərinə verginin olmaması;
- beynəlxalq maliyyə qruplarının, beynəlxalq koordinasiya (əlaqələndirmə) mərkəzlərinin, gəmiçilik şirkətlərinin təkrar sığortası ilə məşğul olan şirkətlərə xüsusi vergi güzəştləri sistemi;
- maliyyə pay iştirakı cəmiyyətlərinin vergiyə cəlb olunmasının xüsusi rejimi (Societes de Participation Financiere – SOPARFI);
- pay iştirakı zamanı vergidən azadolma (Participation Exemption).

Lüksemburqun holdinq mərkəzi kimi cəlbediciliyi yuxarıda göstərilən amillərlə yanaşı, gəlirlərə və əmlaka ikiqat vergiqoymadan qaçmaq haqqında xeyli sayda müqavilələrin



downloaded from KitabYurdu.org

olması ilə güclənir. Bu cür müqavilələr aşağıdakı ölkələrlə bağlanmışdır: Avstriya, Belçika, Bolqarıstan, Braziliya, Macarıstan, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Kanada, Mərakeş, Niderland, Norveç, Portuqaliya, Rusiya, Sinqapur, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Amerika Birləşmiş Ştatları, Finlandiya, Fransa, Çexoslovakiya, İsveç, İsveçrə, Yaponiya.

Qeyd etmək mühümdür ki, holdinq şirkətlərinin Lüksemburqun birbaşa vergiqoymaya düşməməsilə əlaqədar olaraq, onlar gəlirlərə və əmlaka ikiqat vergiqoymadan qaçmaq haqqında müqavilələrin fəaliyyət sahəsindən çıxarılmışdır. Lakin bu müqavilələr SOPARFI və xüsusi vergi statuslu başqa şirkətlərə tamamilə aid edilir.

Lüksemburqda sahibkarlıq fəaliyyəti aşağıdakı əsas formalarda həyata keçirilə bilər:

- bir şəxsə aid müəssisə;
- yoldaşlıq (tam və kommandit);
- məhdud məsuliyyətli cəmiyyət.

Məhdud məsuliyyətli cəmiyyət payçı və ya səhmdar ola bilər.

Holdinq şirkətinin təsis edilməsi üçün əsas etibarilə məhdud məsuliyyətli cəmiyyət (pay və səhmdar), eləcə də kommandit yoldaşlığı istifadə edilir. Məhdud məsuliyyətli cəmiyyətlərin hüquqi statusu 10 avqust 1915-ci il qanunu ilə, holdinq şirkətlərinin vergi statusunun xüsusiyyətləri isə 31 iyul 1929-cu ildə qəbul edilmiş qanunla müəyyən edilmişdir. Başqa şirkətlərdə məhz payçı kimi iştiirak etmək, digər şirkətlərin qiymətli kağızlarına malik olmaq üçün yaradılmış bu cür cəmiyyətlər bəzən ədəbiyyatda 1929-cu ilin «Lüksemburq» holdinqləri adlandırılır. 1929-cu il nümunəsi olan holdinq şirkətlərinə aşağıdakılar qadağandır:

- bank və broker fəaliyyəti də daxil olmaqla, sənaye və kommersiya fəaliyyətini həyata keçirmək;
- holdinqin strukturuna daxil olmayan şirkətlərə ssuda vermək və ya onların aktivlərini idarə etmək;



downloaded from KitabYurdu.org

- tam və ya məhdud məsuliyyətli cəmiyyətlərdə (tam və ya kommandir yoldaşlıqlarda) təsisçi və pay sahibi kimi çıxış etmək;

- komisyoner-şirkət kimi çıxış etmək və ya hesab-fakturaları yenidən tərtib etmək;

- kütləvi xidmətlər göstərilməsi üçün müəssisələr açmaq (holdinqin strukturuna daxil olmayan fiziki və hüquqi şəxslərlə iş qadağan edilmişdir);

- daşınmaz əmlak obyektlərinə sahib olmaq, lakin bu daşınmaz əmlak obyektləri holdinq şirkətinin şəxsi ehtiyacları üçün istifadə olunduğu hallar istisna olunur.

1929-cu il nümunələri olan holdinq şirkətləri aşağıdakı hüquqlara malikdir:

- Lüksemburqun və digər xarici şirkətlərin, həmçinin ictimai və hökumət təşkilatlarının səhmlərini almaq, sahib olmaq, yerləşdirmək və satmaq;

- pul vəsaitlərinə, xarici valyutaya, qızıla, dövriyyədə olan qiymətli kağızlara sahib olmaq; maliyyə müəssisələrində aktivləri depozitlərdə yerləşdirmək;

- holdinq qrupuna daxil olan şirkətlərə ssuda və təminatlar vermək;

- patentlərə sahib olmaq, verilmiş lisenziyalar üzrə gəlir əldə etmək;

- ticarət nişanlarına sahib olmaq və «qız» müəssisələrə müəyyən şərtlərlə lisenziyalar vermək;

- istiqraz buraxmaq və onları qapalı abunə və ya kütləvi şəkildə yerləşdirmək (ödənilmiş nizamnamə kapitalının dəyərindən on qat artıq olmamaq şərtilə);

- borc və kreditlər cəlb etmək (ödənilmiş nizamnamə kapitalının dəyərindən üçqat artıq olmayaraq);

1929-cu il nümunəsi olan holdinq şirkətinin təsisçiləri bu statusun aşağıdakı başlıca üstünlüklərindən istifadə edirlər:

- Lüksemburqda birbaşa vergilərin bütün növlərindən azad edilmə;

- Lüksemburqun ərazisində mənbə yanında vergi tutulmadan dividendlərin hesablanması və ödənilməsi (lakin bu



downloaded from KitabYurdu.org

tip şirkətlərə ikiqat vergiqoymadan qaçmaq haqqında müqavilələr aid edilmədiyindən, bununla əlaqədar olaraq həmin dividendlər alan şəxsin ölkəsində vergiqoyma obyekti ola bilər);

- holdinqin səhmləri təqdim edənə buraxıla bilər.

Lüksemburq qanunvericiliyi səhmlərin nominal göstərilməməklə emissiyasını, həmçinin istənilən valyutada nominallaşdırılmasını mümkün edir.

Prinsip etibarilə holdinq şirkətinin qiymətli kağızlarının Lüksemburq fond birjasının listinqinə (kurs bülleteni) daxil edilməsi imkanı mövcuddur.

1929-cu il nümunəsi olan holdinqlər cəmiyyətin təsisi üçün aşağı xərclər və fəaliyyətin saxlanması üçün aşağı cari məsrəflərlə seçilirlər. Şirkətin təsis edilməsi üçün minimal xərclər 150 min Lüksemburq frankı (Lüksemburq frankı Belçika frankına bərabərdir) təşkil edir.

Yuxarıda göstərilən üstünlüklər və məhdudiyyətlərin vəhdəti 1929-cu il holdinqlərinin tətbiqini aşağıdakı məqsədlər üçün şərtləndirir:

- investisiyaların idarə edilməsi zamanı vergiqoymanın minimumlaşdırılması;
- maliyyə resurslarının birləşdirilməsi və maliyyə axınlarının, həmçinin holdinq qrupuna daxil olan müəssisələrə ssudaların verilməsinin optimallaşdırılması;
- maliyyə qrupuna daxil olan müəssisələr arasında maliyyə axınlarının real idarə edilməsi;
- patentlərdən və ticarət nişanlarından istifadə hüququ üçün (ayrı-ayrı məhdudiyyətlərlə) lisenziyaların verilməsi;

Lüksemburqun 1929-cu il nümunəli holdinqi «maliyyə» holdinqi statusunu ala bilər. Bu statusu almaq üçün ölkə qanunvericiliyinə uyğun şərtlərin olması zəruridir. Lüksemburq qanunvericiliyi müəyyən etmişdir ki, holdinq qrupuna ya «ana» (baş) şirkətə məxsus olan bütün «qız» şirkətlər, ya bir-biri ilə sıx maliyyə əlaqələri saxlayan və bu zaman öz tərəfdaşlarının səhmlərinin 20%-indən az olmayaraq sahib olan firmalar daxil



downloaded from KitabYurdu.org

ola bilər. Bundan başqa, aşağıdakı şərtlərin yerinə yetirilməsi vacibdir:

- «ana» şirkət səhmdar cəmiyyət kimi qeydiyyatdan keçməlidir;
- qrupun üzvləri holdinq cəmiyyətin qeydiyyatı zamanı nizamnamə sənədlərinə onun səhmdarları kimi daxil edilməlidir, ya da «ana» şirkət «qız» müəssisənin nizamnamə sənədlərində təsisçi kimi qeyd edilməlidir;
- bütün səhmlər qeydiyyatdan keçməlidir və bütün kreditlər tam həmcdə qayratılmayana qədər üçüncü şəxsə verilə bilməz;
- cəmiyyətin nizamnamə kapitalı 50 mln. Lüksemburq frankından az olmamalıdır, bu zaman onun 25%-dən az olmayaraq tamamilə ödənilməsi zəruridir;
- holdinq yaradılan andan üç ay müddətində səhm kapitalının 10%-dən az olmayaraq holdinq qrupuna daxil edilən şirkətlərin səhmlərinə investisiya qoyulmalıdır.

Maliyyə holdinqləri Lüksemburqda mənbə yanında faiz gəlirlərinə vergiqoyma olmadığı ilə əlaqədar olaraq, xarici investorların kapitallarının cəlb edilməsi üçün fəal istifadə olunur. Əgər investor qeydiyyatdan keçdiyi ölkədə gəlirlərə vergidən tamamilə azad edilmiş ofşor şirkət vasitəsilə hərəkət edirsə, o, Lüksemburq maliyyə holdinqindən vergisiz gəlir əldə etmək imkanı əldə edir.

Əgər holdinq cəmiyyətinin səhm kapitalı 1 mlrd. Lüksemburq frankını keçərsə və ya hər hansı başqa valyutada bu məbləğin ekvivalenti olarsa, həmin cəmiyyət milyarder-holdinq statusu ala bilər. Milyarder-holdinq statusu qanunla 12 iyul 1977-ci ildə qüvvəyə minmişdir. Əgər cəmiyyət səhm kapitalının ölçüsü üzrə tələblərə uyğundursa, maliyyə nazirliyinə qarşıdakı il üçün bu statusu almaq barədə ərizə ilə müraciət edə bilər. Milyarder-holdinqlər iki növ üstünlükdən istifadə edirlər: aktiv və borc öhdəliklərinin nisbəti üzrə məhdudiyyətlər onlara aid edilmir və kapitala qoyulan və bütün holdinqlər tərəfindən ödənilən illik verginin çıxılması üzrə xüsusi güzəşt müddəalarından istifadə edə bilirlər.



downloaded from KitabYurdu.org

1929-cu il nümunəsi olan holdinq şirkətləri mənfəətə, kapital artımına, dividendlərə, faizlərə və lisenziya hüquqlarının reallaşdırılmasından olan gəlirlərə vergiqoymadan azaddırlar. Bundan başqa, holdinqlər şirkət ləğv olunduğu zaman gerb vergisi və yığımından da azaddırlar.

Holdinq şirkət təsis olunduğu zaman cəmiyyətin nizamnamə kapitalının 1%-i ölçüsündə qeydiyyat yığımı ödənilir. Bu yığım həmçinin cəmiyyətin nizamnamə kapitalının artdığı zaman – nizamnamə kapitalının artım məbləğinin 1%-i ölçüsündə çıxılır. Holdinq şirkəti kapitala illik vergi ödəyir. Bu vergiyə cəlb olunmağın aşağıdakı sistemi vardır. Əgər cəmiiyyətin səhmləri Lüksemburq fond birjasının listinqinə daxil edilmişsə, 0,2% dərəcəsi tətbiq edilən vergiqoyma bazası kimi ötən ildə buraxılan səhmlərin orta bazar dəyəri çıxış edir. Əgər cəmiyyətin səhmləri listinqə daxil olunmamşsa, 0,2% dərəcəsi ya şirkətin nizamnamə kapitalına, ya da ötən il ödənilən dividendlərin onqat ölçüsünə ekvivalent məbləğdə, hansının daha böyük məbləğ olmasından asılı olaraq tətbiq edilir. Prinsip etibarilə bu məbləğ cəmiyyət zərər çəkdiyi zaman azaldıla bilər, lakin 0,2% dərəcəsi tətbiq olunan baza nizamnamə kapitalının 30%-dən az ola bilməz. Hər halda ödənilmiş verginin məbləği 2,5 min Lüksemburq frankından aşağı olmamalıdır. İllik vergi hər rüb cəmiyyətin ümumi öhdəliklərinin bu vergi üzrə dörddən biri ölçüsündə daxil olmalıdır.

Milyarder-holdinqlər həm yuxarıda göstərilən sistemdən, həm də ildə iki dəfə (yanvarda və iyulda) vergi ödədikləri xüsusi vergiqoyma sistemindən istifadə edə bilərlər, bu cür statusu olan cəmiyyətlər üçün illik vergi haqqı 2 mln. Lüksemburq frankı təşkil edir, bu zaman vergiqoyma bazasını Lüksemburq rezidentləri olmayan cəmiyyət rəhbərləri və direktorlarının ödənilmiş dividendləri, faizləri və əmək haqları təşkil edir. Milyarder-holdinq statusu almış cəmiyyətlər üçün minimal dərəcə 0,1% olan reqressiv vergiqoyma sistemi tətbiq edilir.

Lüksemburqda qeydiyyatdan keçmiş cəmiyyətlər istənilən şirkətin 10% səhmlərinə 12 ay ərzində sahib olduqda vergi qoyulan mənfəətdən dividendləri çıxarmaq hüququna



downloaded from KitabYurdu.org

malikdirlər. Lüksemburq cəmiyyəti həmçinin o halda da vergi qoyulan mənfəətdən dividendləri çıxa bilər ki, emitentin səhmlərinin 10%-nə sahib olmuş olsun, lakin onların məcmu dəyəri 50 mln. Lüksemburq frankından az olmamalıdır.

Lüksemburq cəmiyyəti həmçinin aşağıdakı şərtlərə riayət etməklə başqa şirkətlərin səhmlərini satan zaman gəlirə qoyulan vergidən mənfəəti çıxmaq hüququna malikdir:

- bu səhmlər satış həyata keçirilən maliyyə ilinin əvvəlindən 12 ay qabaq cəmiyyətə məxsus olmalıdır;
- emitentin səhmlərinin 25%-dən az olmayan hissəsi Lüksemburq cəmiyyətinə məxsus olmalıdır, bu pay az olarsa, alınan səhm paketinin (zərfinin) dəyəri 250 mln. Lüksemburq frankından az olmamalıdır.

### *Niderland*

Niderland holdinqlərinin üstünlükləri də prinsip etibarilə Lüksemburqda SOPARFI-nin üstünlüklərinə əsaslanır. Niderlandda vergi qanunvericiliyi sistemi həmçinin pay iştirakından əldə edilmiş gəlirlərin vergiyə cəlb olunmasının azad edilməsindən istifadə edir. Müəyyən olunmuş şərtlərə riayət edilməklə səhm satışından əldə edilən dividend və gəlirlər də mənfəətə vergidən azad edilir. Holdinq şirkətlərə güzəştli vergiqoyma ilə yanaşı Niderland qanunvericiliyi lisenziya satışından dividendlər alanlara əlavə üstünlüklər təqdim edir.

Niderland yüksək vergiqoyma səviyyəsi olan ölkələr sırasına daxildir. Belə ki, gəlirə görə vergi nin maksimal dərəcələri həm rezidentlər, həm də qeyri-rezidentlər üçün 60% səviyyəsində müəyyən edilmişdir. Mənfəətə verginin standart dərəcəsi 40% təşkil edir. O, 250 Niderland quldeninə qədər olan gəlirlərə tətbiq edilir. Göstərilən məbləğdən yuxarı olan mənfəətə vergi dərəcəsi 35% ölçüsündə tətbiq edilir (mənfəətə vergiqoymanın reqressiv sistemi). Niderlandı dividendlərin köçürülməsinə olan yüksək dərəcə fərqləndirir. Lisenziya hüquqlarının satışından faiz və gəlirlərə vergi qoyulmur.



downloaded from KitabYurdu.org

Niderland gəlir və əmlaka ikiqat vergiqoymadan qaçmaq haqqında 47 müqavilə bağlamışdır. Holdinq şirkətlərinin Niderlandda ikiqat vergiqoymadan qaçmaq haqqında müqavilələrin tam aid edildiyi rezident kimi qeydiyyatdan keçməsilə əlaqədar olaraq burada şirkətin fəaliyyəti üçün şəraiti əlverişli, xərcləri isə yüksək qiymətləndirmək olar.

Şəxsi şirkətin qeydiyyatı zamanı səhmdarların yol verilən sayı 1-dir. Şəxsi şirkətlər üçün təqdim edənə səhm buraxılışına icazə verilir. Nə şəxsi, nə də kütləvi şirkətlər üçün səhmdarların açıq reyestrinin aparılması vacib deyil. Səhmdarların illik yığıncaqları məcburidir və Niderlandda keçirilməlidir, lakin onlar şirkət səhmdarlarının səhmdarların ümumi yığıncağında müzakirəyə qoyulan məsələlər üzrə qətnamələrin (xülasələrin) təqdim edilməsi ilə əvəz edilə bilər. Prinsip etibarilə qərarlar şirkətin nizamnaməsində yol verilirsə və şirkətin səhm kapitalı bütövlüklə ödənilmək şərtilə istənilən yerdə qəbul edilə bilər. Uçotun xarici valyutada aparılmasına qanunla icazə verilir, lakin vergi hesabatları Niderland valyutası ilə təqdim edilməli və milli dildə verilməlidir. Holdinqin yaradılması üçün yerli hüquqi ünvan zəruridir. Şirkətin fəaliyyəti qeydiyyat agenti vasitəsilə həyata keçirilməlidir, lakin vergi orqanlarına və digər nəzarət instansiyalarına təqdim edilən hesabatların flamand dilində olması ilə əlaqədar olaraq, yerli agentin olması faktiki olaraq zəruridir. Nizamnamə kapitalının müəyyən böyük ölçülərdə olduğu və müəyyən növ əməliyyatların həyata keçirildiyi zaman hesabatların auditor tərəfindən təsdiq edilməsi vacibdir. Şirkətə bir direktorun olması kifayət edir, o, Niderland rezidenti olmaya da bilər.

Şirkətin qeydiyyatı zamanı 175 Niderland quldeni məbləğində hökumət yığımı ödənilir, qeydiyyat zamanı əlavə minimal xərclər 3500 Niderland quldeni təşkil edir, şirkətdən 500 Niderland quldeni ölçüsündə illik yığım tutulur. Niderland Mülki Məcəlləsinə uyğun olaraq, şirkətin əsas formaları şəxsi və kütləvi şirkətlərdir. Şəxsi şirkətlər üçün minimal ödənilmiş nizamnamə kapitalı 40 min Niderland quldeni ölçüsündə, kütləvi şirkətlər üçün isə 100 min Niderland quldeni həcmində



downloaded from KitabYurdu.org

müəyyənləşdirilmişdir. Niderland yalnız bank informasiyaları üçün məxfiliyin vacibliyini müəyyən edir.

Lüksemburq holdinqləri ilə müqayisədə Niderland holdinqləri üstünlük və nöqsanlara malikdirlər. Lüksemburq holdinqlərinin nöqsanlarına misal olaraq xarici «qız» müəssisələrinin səhmlərinin alınması və satışı ilə bağlı maliyyə xərclərinin qeydiyyatının mümkün olmamasını göstərmək olar ki, bu zaman Lüksemburq holdinqləri mənfəətə vergi müəyyənləşdirən zaman bu xərclərin yeganə məqsədi vergidən yayınaraq gəlir əldə etmək olmayıbsa, müəyyən hədlər çərçivəsində maliyyə xərclərini çıxmaq hüququna malikdirlər. Bu imkan holdinq cari fəaliyyətdən ziyan çəkdiyi zaman xeyli əhəmiyyətli ola bilər. Bir sıra hallarda Lüksemburq holdinqinin təsisçisi özünün «qız» müəssisəsinin itkilərini başqa fəaliyyət növlərindən gələn gəlirlərə qarşı «qız» holdinqin itkilərinin qeydi formasında beynəlxalq vergi planlaşdırması üçün istifadə edə bilər. Qeyd etmək lazımdır ki, bu cür imkanlar vergi öhdəliklərinin müəyyənləşdirilməsi müəssisələr qrupunun möhkəmləndirilmiş balansı əsasında həyata keçirilən ölkələrdə geniş istifadə olunur. Niderlandda təsis edilmiş holdinqin Lüksemburqda təsis edilmiş analoji holdinqlərlə müqayisədə üstünlüklərinə «qız» müəssisənin nizamnamə kapitalında payına, həmçinin bu «qız» müəssisənin vergi statusuna vergiqoymanın güzəştli rejiminə qanunvericiliklə qoyulan sərt olmayan tələblər aiddir. Əgər Lüksemburqda «qız» müəssisənin səhmlərinin satışı zamanı vergidən azad olmaq üçün səhm zərfinin ölçüsünün buraxılan səhmlərin həcmindən 25%-dən az olmaması və ya zərfin 250 mln. Lüksemburq frankından az olmayan məbləğə alınması tələb olunursa, Niderlandda pay iştirakı ilə vergidən azad olmaq üçün başqa şirkətlərin 5% səhmlərinə sahib olan şirkətlər bu hüququ əldə edir. Niderlandda əlavə şərt «qız» müəssisənin idarə edilməsində iştirakdır, lakin bu cür iştirakı təsdiq etmək prinsipcə çətin deyil.

«Qız» müəssisənin vergi statusu haqqında Lüksemburq qanunvericiliyi ya Lüksemburqda mənfəətə tam vergiqoymanın məcburiliyini, ya da qeydiyyatdan keçdiyi ölkədə adi vergi



downloaded from KitabYurdu.org

statusunu müəyyən edir, başqa sözlə, qeydiyyat ölkəsində mənfəətə görə verginin dərəcəsi 15%-dən az olmamalıdır. Niderlandda payçı kimi iştirak zamanı vergidən azad olmaq üçün xarici «qız» müəssisənin sadəcə qeydiyyatdan keçdiyi ölkədə vergiyə cəlb olunması kifayətdir.

Niderland holdinqlərinin yuxarıda göstərilən üstünlüklərinin vəhdəti onların təsisçilərinə hətta o hallarda vergidən azad olmağa imkan verir ki, həmin holdinq faktiki olaraq müəyyən şərtlərə riayət edərək portfel investisiyalarını həyata keçirmiş olsun.

Lakin Niderland holdinqlərinin daha böyük üstünlükləri əlavə imkanlarla bağlıdır ki, bunlar «Niderlandın Antil adalarında holdinq – Nidelrandda holdinq» əlaqəsində ifadə olunur. Prinsipcə Niderland holdinqi də Lüksemburqda, Belçikada, Danimarkada, İsveçrədə, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Fransa, Finlandiya və başqa ölkələrdə təsis edilən holdinqlər kimi «qız» müəssisələrdən «ana» müəssisənin hesablarına gəlirlərin yığımı, bu vəsaitlərin saxlanmasını və investisiya qoyuluşları problemlərini az və ya çox dərəcədə səmərəli həll etməyə imkan verir, lakin holdinqin mənfəətinin onun real sahiblərinin xeyrinə bölüşdürülməsi problem olaraq qalır. Bütün holdinq şirkətləri ölkələrinin qanunvericiliyinə görə gəlir holdinq şirkətinin səhmdarları arasında bölüşdürüldüyü zaman, (əgər holdinq şirkətinin qeydiyyatdan keçdiyi ölkənin gəlirlərə ikiqat vergiqoymadan qaçmaq haqqında dividendlər köçürülən ölkə ilə müqaviləsi yoxdursa), mənbə yanında vergiqoymaya məruz qalaraq, bir qayda olaraq 20-25% dərəcəsi ilə, ya da müqavilə varsa, bir qayda olaraq 15% dərəcəsi ilə vergiyə cəlb olunur. Ayrı-ayrı müqavilələr mənbə yanında gəlirlərə verginin daha güzəştli rejimini nəzərdə tutur, lakin bu cür müqavilələrə çox nadir hallarda rast gəlmək olur.

Holdinq şirkəti tərəfindən dividendlərə ödənilən vergiqoyma problemi ya bu cür kombinasiyaların qurulması yolu ilə həll edilir, ya da dividendlərin real sahiblər arasında bölüşdürülməsi faktiki olaraq baş vermir, yaxud da eyni



downloaded from KitabYurdu.org

zamanda aşağıdakı tələblərə uyğun olan ölkədə «həlqə-strukturun» yaradılması yolu ilə həll edilir:

- mənbə yanında vergi üçün holdinqin qeydiyyatdan keçdiyi ölkə ilə dividendlərə ikiqat vergiqoymadan qaçmaq haqqında daha əlverişli müqaviləsi vardır;

- gəlir alan üçün gəlirlərə vergiqoyma rejimi və başqa şərtlər yol veriləndir (kafidir).

Başqa sözlə, bu rolda daha əlverişli ərazi holdinq şirkətinin təsis edildiyi ölkə ilə gəlirlərə ikiqat vergiqoymadan qaçmaq haqqında müqaviləsi olan hər hansı «ofşor»dur. Bu cür ofşor ərazi Niderland holdinqləri üçün Niderland Antil adalarıdır.

Niderland Antil adaları Niderland Krallığı tərkibində yerli idarəetməyə malik ərazilərdir. Burada Niderlandın konstitusiyası və qanunu, xüsusilə Niderland Krallığının 1987-ci il vergiqoyma haqqında qanunu və paralel olaraq daxili özünüidarəetmə məsələləri haqqında qanunlar qüvvədədir. Niderland Antil adalarının xüsusi statusu bu ərazidə qeydiyyatdan keçmiş şirkətlərə əlavə üstünlüklər təqdim edir. Niderland Antil adaları 1964-cü ilin oktyabr ayından Avropa Birliyində assosiasiya üzvü statusuna malikdir.

Antil adalarında müəssisələr müxtəlif formalarda: tam yoldaşlıqlar, məhdud məsuliyyətli yoldaşlıqlar, məhdud məsuliyyətli şirkətlər, fondlar kimi qeydiyyatdan keçə bilər. Xarici investorların qeydiyyatı üçün əsas forma kimi səhmdar şirkətlər çıxış edir. Bu cür şirkətin qeydiyyatı müəyyən prosedurlara riayət edilməsi ilə bağlıdır və adətən bu cür xidmət göstərməkdə ixtisaslaşan yerli müəssisələr tərəfindən həyata keçirilir. Bütün sənədlər Niderland dilində, eyni zamanda ingilis dilinə tərcümə ilə aparılır.

Niderlandda olduğu kimi, Niderland Antil adalarında da xüsusi trast qanunvericiliyi yoxdur. Yerli şirkətlər adətən etibarlı idarəetmə çərçivəsində geniş xidmətlər spektri təqdim edir. Əgər təsisçidən nizamnamə sənədlərinə hər hansı spesifik müddəalar daxil etmək tələb olunmursa, şirkətin fəaliyyətini holdinq vəzifələri ilə məhdudlaşdırmaq nəzərdə tutulursa, bu



downloaded from KitabYurdu.org

zaman hazır şirkətlər almaq mümkündür. Əgər şirkətin nizamnamə kapitalının ölçüsü 30 min ABŞ dolları və ya bu məbləğin hər hansı xarici valyuta ilə ekvivalenti ilə məhdudlaşırsa, onda təsis xərcləri 1500 ABŞ dolları təşkil edir. Bu xərclər aşağıdakı maddələrə bölünür: notarial yığım (600 ABŞ dolları); gerb yığımı (135); lisenziya almaq üzrə tərcümənin dəyəri, dərc etmənin xərcləri (140); kommersiya registrinə salmaq üçün ödəniş (125); qeydiyyat xərcləri (500 ABŞ dolları). Səhmdar şirkətin fəaliyyəti üçün illik minimal xərclər 1500 ABŞ dolları təşkil edir.

Şirkətin səhmləri istənilən valyutada denominasiya edilə bilər, əgər adlı səhmlər buraxılırsa, qeydiyyat anı üçün nizamnamə kapitalının 10%-i məbləğində ödəniş vacib şərtlərdəndir. Təqdim edənə səhm buraxılışı zamanı şirkətin nizamnamə kapitalı tam ödənilməlidir. Şirkətin minimal nizamnamə kapitalının 50 Niderland quldeni (ABŞ dolları ilə 30 min dollar) təşkil etməsilə əlaqədar olaraq, bu ərazidə qeydiyyatdan keçmiş şirkətləri nisbətən bahalı edir, lakin təqdim edənə səhmlərin emissiyasının mümkünlüyü və korporativ qanunvericiliyin digər güzəştli şərtləri bu şirkətlərə əlavə cəlbedicilik verir. Xüsusilə də, şirkət tərəfindən öz səhmlərini qeydiyyatdan keçmiş nizamnamə kapitalının ümumi məbləğinin 80%-ə qədəri ölçüsündə almaq imkanı var. Qanunvericilik tərəfindən səsə malik olmayan, güzəştli, həmçinin xüsusi statusu olan və şirkətin ləğv edildiyi zaman saxlayıcı hüququna malik səhmlərin emissiyasinin mümkünlüyünə yol verilir. Müəyyən olunmuş porsedurlara riayət edilərkən şirkətin nizamnamə sənədlərində müxtəlif növ dəyişikliklərin qeydinin mümkünlüyü mövcuddur.

Niderland Antil adalarında səhmdarların sayı, formaları və rezidentliyi üzrə heç bir məhdudiyyət yoxdur. Şirkətlərin idarə edilməsinə tələblər minimaldır. Səhmdarların və direktorların yığıncaqlarını Niderland Antil adaları ərazisində keçirmək zəruri deyil. Şirkətin idarə edilməsi bir rəhbər tərəfindən həyata keçirilə bilər. Bu rolda həm fiziki, həm də hüquqi şəxs çıxış edə bilər. Lakin belə bir tələb qoyulmuşdur ki, heç olmazsa rəhbərlərdən biri Niderland Antil adaları



downloaded from KitabYurdu.org

rezidenti olmalıdır və ya əgər bu rolda hüquqi şəxs çıxış edirsə, o Antil adalarında qeydiyyatdan keçməlidir.

Antil adalarında şirkətlər adətən etibarlı idarəetmə üzrə şirkətlər və ya bu cür şirkətlərin nümayəndələri tərəfindən idarə edilir. Bu halda tərəflər arasında qarşılıqlı münasibətlər etibarlı idarəedicinin vəzifə və məsuliyyətini müəyyən edən etibarlı idarəetmə haqqında müqaviləyə əsaslanır. Bu cür idarəedicinin minimal funksiyaları (vəzifələri) aşağıdakılardır: idarənin təsisçisinin maraqlarını ifadə etmək, səhm sahiblərini illik yığıncaqlar barədə məlumatlandırmaq, vergi deklarasiyalarının doldurulması və şirkətin Kommersiya Registrində saxlanması üçün sənədlərin verilməsi.

Uçot registrlərinin aparılmasını Niderland Antil adalarının hüdudlarından kənarda da həyata keçirmək olar. Bu halda illik vergi hesabatını tərtib etmək üçün zəruri olan informasiya idarəediciyə təqdim edilir. Bir qayda olaraq, Antil şirkətləri direktorun və ya idarəedicinin hüquqi ünvanına və qeydiyyatdan keçmiş ofisinə uyğun olan hüquqi ünvanı və qeydiyyatdan keçmiş ofisinə malikdirlər.

Müəyyən fəaliyyət növü olan şirkətlərin qeydiyyatına məhdudiyyətlər bank və sığorta sahəsinə, həmçinin Niderland Antil adaları ərazisində fəaliyyətə toxunur (aiddir). Auditorun nəticəsi vacib deyil, lakin ofşor şirkətlərin əksəriyyəti tez-tez vergiqoyma dərəcələrinin tətbiqinin düzgünlüyünü təsdiq etmək üçün auditorların xidmətlərindən istifadə edirlər. Bu onunla əlaqədardır ki, Niderland Antil adalarının qanunvericiliyi bir sıra xüsusi amillərdən asılı olaraq vergiqoymanın müxtəlif rejimlərini müəyyən edir. Şirkətin təsisçiləri haqqında məlumatların dərc edilməsi vacib sayılır. Bu informasiya həmçinin Niderland Antil adalarının Kommersiya Registrinə daxil edilmək üçün təqdim olunur. Bu registr maraqlı şəxslər üçün açıqdır. Lakin səhmlərin sonrakı sahibləri barədə informasiya nə dərc edilə, nə də açıqlana bilər. Niderland Antil adalarının Niderlandın analoji sistemindən xeyli fərqlənən öz vergiqoyma sistemi vardır.

Niderland Antil adalarında qeydiyyatdan keçmiş şirkətlər bütün mənbələrdə aldıqları gəlirə vergi ödəməli, xarici şirkətlər



downloaded from KitabYurdu.org

isə daimi nümayəndəliklər vasitəsilə aldıqları və Niderland Antil adaları ərazisində yerləşən daşınmaz əmlakdan gələn gəlirlərə vergi ödəyirlər. Əgər şirkətin üstün vergi statusu yoxdursa, kapital artımı formasında olan gəlirlər vergiyə cəlb edilən gəlirlər sırasına daxil edilir.

Mənfəətdən vergi 1940-cı ildən mənfəətə vergi haqqında Ordonansa uyğun olaraq müəyyən edilmişdir və investisiya şirkətləri, kollektiv investisiya qoyuluşu fondları, gəmiçilik və sığorta şirkətləri, azad iqtisadi zonalarda yerləşən müəssisələr, həmçinin turizm və daşınmaz əmlak obyektlərinə sahiblik kimi müəyyən iqtisadi sahələr üçün xüsusi vergi rejimlərini nəzərdə tutur.

Mənfəətdən verginin standart dərəcələri nümunəvi ekvivalent 56 min ABŞ dollarndan artıq olan mənfəət üçün 36,8-dən 44,8% arasında tərəddüd edir. Niderland Antil adalarının ümumi vergisi ilə yanaşı, beş adadan hər biri mənfəətdən əlavə vergi alır.

Mənfəətdən verginin xüsusi dərəcələri 1940-cı il mənfəətdən vergi haqqında Ordonans güzəştli statusu haqqında 14 və 14a maddələrinin şərtlərinə uyğun olan şirkətlərə xüsusi dərəcələr 2,4%-lə 3% arasında tərəddüd edən və 56 min ABŞ dolları səviyyəsindən yüksək olan mənfəətə tətbiq edilir. Bu halda mənfəətdən ümumi vergiyə heç bir ada əlavəsi tətbiq edilmir. Bundan başqa, kapitalın artımı formasında gəlirlər mənfəətdən vergi obyekti deyil. Güzəştli vergi dərəcələrinin qüvvədə olma müddəti 2000-ci ilə qədər müəyyən edilmişdir.

Qeyd etmək mühümdür ki, qeyri-rezidentlər – Antil adalarında qeydiyyatdan keçmiş şirkətlərin səhmlərinin sahibləri dividendlərə və ya kapital artımı formasında gəlirlərə görə vergiqoymaya məruz qalmırlar. Beləliklə, dividend, faiz, royalti formasında Niderland Antil adalarında qeydiyyatdan keçmiş güzəştli statusa malik olan şirkət vasitəsilə əldə edilən gəlir endirilmiş 2,4-3% dərəcəsi ilə vergiyə cəlb olunur. Bu zaman bank və ya maliyyə müəssisəsi tərəfindən ödənilən faizlər hər hansı məhdudiyyət olmadan vergi qoyulan mənfəətin həcmini müəyyən etmək üçün çıxılır.



downloaded from KitabYurdu.org

Başqa müəssisələrə faizlərin ödənilməsi üzrə xərclər aşağıdakı məhdudiyyətlərə riayət etdikdə çıxıla bilər: gəlirlərin minimal səviyyəsinin deklarasiya edilməsi zəruridir. Gəlirin cəlb olunan vəsaitlərin orta illik məbləğinin 1%-i ölçüsündə deklarasiya edilməsi adi praktikadır ki, bunu vergiqoymanın güzəşili şərti hesab etmək olar. Niderland Antil adalarının qanunvericiliyi holdinq şirkətlərinə, yəni patent alınması və sonra bunda gəlir əldə etməkdə ixtisaslaşan şirkətlərə vergiqoymanın xüsusi rejimini təqdim edir. Royaltilər 2,4%-dən 3% dərəcələri üzrə vergiqoymaya məruz qalır. Patent hüququna sahiblik nəticəsində yaranan kapital artımı formasında olan gəlirlər vergiyə cəlb olunmur, bu zaman amortizasiya da daxil olmaqla itkilər çıxılmır.

# VII FƏSİL

# GƏMİ SAHİBKARLIĞI VƏ BEYNƏLXALQ YÜK DAŞINMALAR ÜÇÜN OFŞOR ZONALAR

## 7.1. Gəmi sahibkarlığı və beynəlxalq dəniz yük daşınmaları üçün ənənəvi və yeni ofşor zonalar



downloaded from KitabYurdu.org

7.2. Gəmilər vasitəsilə beynəlxalq yük daşınmalar sahəsində ayrı-ayrı ofşor zonaların xüsusiyyətləri və perspektivləri

## 7.1. Gəmi sahibkarlığı və beynəlxalq dəniz yük daşınmaları üçün ənənəvi və yeni ofşor zonalar

Beynəlxalq gəmiçilik sahəsində ofşor biznesin inkişafı yük daşıyanların gəlirlərinə yüksək vergiqoyma ilə, həmçinin əmlaka vergilərin qüvvədə olan dərəcələrinin tətbiqi ilə şərtləndirilir (əlaqədardır). Əsas fondların – gəmilərin və avadanlığın dəyərinin bu sahədə yüksək olduğu üçün əmlaka vergi ödənişi əmlaka yüksək vergiqoyma səviyyəsi olan ölkələrdə qeydiyyatdan keçmiş şirkətlərin rəqabət qabiliyyətini aşağı salan amilə çevrilir.

Ofşor zonalarda gəmi şirkətlərinin və ayrı-ayrı gəmilərin qeydiyyatının daha bir, heç də az əhəmiyyəti olmayan amillərindən biri kimi valyuta tənzimlənməsi çıxış edir. Valyutanın dönərliliyinə, köçürülməsinə olan müxtəlif növ məhdudiyyətlər, məcburi prosedurların yerinə yetirilməsi zərurəti bir çox hallarda müəssisənin beynəlxalq yük daşınmalar sahəsində təmir işləri xərclərinin vaxtında ödənilməsini, müxtəlif növ yığımları, yanacaqla doldurmanı çatdırmayaraq sərfəli sifarişlərin itirilməsinə səbəb olur.

Beynəlxalq dəniz yük daşınmaları sahəsində sahibkarlığın mühüm xüsusiyyəti gəmilərin ekipajının müntəzəm olaraq tamamlanması tələbinin meydana çıxmasından ibarətdir. Bir çox ölkələrin qanunvericiliyi başqa dövlətlərdən olan vətəndaşların personala qəbul edilməsini ya qadağan edir, ya da məhdudiyyətlər qoyur. Ayrı-ayrı dövlətlərin xüsusi qanunvericilikləri tez-tez gəmi ekipajlarının say və peşə tərkibinə yüksəldilmiş və ya artıq tələblər irəli sürür.

Hökumətlərin muzdlu işçilərin sosial müdafiəsi üzrə tədbirləri, eləcə də inkişaf etmiş ölkələrdə həmkarlar ittifaqlarının fəaliyyəti beynəlxalq yük daşınmalarda istifadə olunan gəmi ekipajları üzvlərinin əmək haqqına olan xərclərin artmasına səbəb olur ki, bu da həmin ölkələrdə qeydiyyatdan



downloaded from KitabYurdu.org

keçmiş gəmi şirkətlərinin rəqabət qabiliyyətini xeyli zəiflədir. Ofşor mərkəzlərdə beynəlxalq yük daşınmalar üçün gəmilərindən istifadə olunan şirkətlərin qeydiyyatdan keçməsi sosial sığorta və sosial təminat fondlarına ödəmələrin xərclərini ya tamamilə aradan qaldırmağa, ya da bu cür xərcləri xeyli aşağı salmağa imkan verir.

Beynəlxalq daşınmalar sahəsində ofşor zonalara olan böyük marağın daha bir səbəbi siyasi amildir. Əgər gəmi hərbi əməliyyatlar aparan ölkədə və ya hökuməti beynəlxalq birliyin əksər ölkələrinin bəyənmədiyi siyasət yeridən ölkədə qeydiyyatdan keçirsə, həmin gəmi xarici limanlara daxil olan zaman, həmçinin beynəlxalq yük daşınmalar üçün müqavilələr bağladığı zaman prblemlər meydana çıxa bilər.

Son onilliklərdə bir çox ölkələr köhnə gəmilərin qeydiyyatının qayda və prosedurlarını sərtləşdirir, həmçinin ətraf mühitin təhlükəsizliyi və qorunması üzrə yeni əlavə tələblər işləyib hazırlayırlar. Gəmilərin qeydiyyatında ixtisaslaşmış ayrı-ayrı ofşor mərkəzləri bir qədər yumşaq şərtlər müəyyən edir.

Gəmiçilik şirkətlərinin təsisçiləri üçün şirkətin sürətli qeydiyyatı, təkrar qeydiyyatı, məhkəmə hüququ ünvanın dəyişməsi imkanı böyük əhəmiyyət kəsb edir. Bundan başqa, böyük olmayan gəmiçilik şirkətlərinin təsisçiləri həmişə təsis və inzibati xərclərin minimumlaşdırılmasında, müxtəlif növ məcburi prosedurların aparılması müddətlərinin maksimum azaldılmasında maraqlıdırlar. Beynəlxalq yük daşınmalar sahəsində potensial şirkət təsisçilərinin müəyyən kateqoriyaları üçün səhm sahibi olmaq sirrinin saxlanması imkanı xüsusilə cəlbedicidir. Beynəlxalq daşınmalar sahəsində şirkətlərin qeydiyyatında ixtisaslaşan ofşor mərkəzlər adətən bu cür imkanları təqdim edirlər.

Gəmi sahiblərinin və istifadəçilərinin müəssisələrin ofşor zonalarda qeydiyyatdan keçməsinə marağı stimullaşdıran başqa amillərə antiinhisar (antitrast) qanunvericiliyin olmaması; hesabat təqdim edilməsinin sadələşdirilmiş qaydaları (hesabat verilməsinin məcburiliyini təxirə salmaq da daxil olmaqla); vergiqoymanın minimumlaşdırılmasının trast



downloaded from KitabYurdu.org

sxemlərinin və metodlarının istifadə imkanları; təqdim edənə nominalı göstərilməmək şərtilə səhm buraxalışı üzrə imkanlar, səhmdarların açıq reyestrinin aparılmasının zəruri olmaması və ofşor mərkəzlərin başqa üstünlükləri aiddir.

Liberiya və Panama qədim gəmiçilik ofşorlarıdır. Bu sahədə Kipr, Men adası, Sinqapur, Bermud adaları nisbətən yeni ofşorlardır. Bundan başqa, ofşorlara aid olmayan, lakin gəmiçilik şirkətlərinə və pullara (şirkətlər birliklərinə) ayrı-ayrı vergi güzəştləri təqdim edən bir sıra ölkələr mövcuddur. Bu ölkələrə Almaniya, Norveç, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı və bəzi başqa ölkələr daxildir.

*Liberiya*

Qeydiyyatdan keçmiş gəmilərin ümumi tonnajına görə Liberiya dünya lideri kimi qalmaqda davam edir. Əvvəllər Liberiya müstəsna olaraq beynəlxalq yük daşınmalarda istifadə olunan gəmilərin qeydiyyatdan keçməsinə ixtisaslaşmış ofşor kimi nəzərdən keçirilirdi.

Ölkədə ofşor korporativ proqram paytaxtda, Liberiyanın Monrovi şəhərində Beynəlxalq trast şirkəti tərəfindən həyata keçirilir. Beynəlxalq trast şirkəti qeyri-rezident statuslu korporasiyaların qeydiyyatını həyata keçirərək, bu korporasiyalar üçün qeydiyyat agenti kimi çıxış edir.

Son onilliklər Liberiyanın xidmətlər spektri və vergi üstünlükləri daim genişlənmiş və ölkə qabaqcıl, çoxməqsədli ofşor mərkəzlər sırasına daxil olmuşdur. Liberiyanın ofşor şirkətləri gəmilərin qeydiyyatından başqa beynəlxalq aktivlərin idarə edilməsi, fiziki şəxslər üçün vergi planlaşdırması, həmçinin beynəlxalq ticarət sxemlərində geniş istifadə olunurlar.

Liberiyanın qanunvericiliyi qeyri-rezident şirkətlər üçün real sahiblərin, səhmdarların, direktorların adlarının açıqlanması üçün öhdəlik müəyyən etmir. Vergi orqanları fəaliyyət haqqında illik hesabat tələb etmirlər.

Liberiyanın korporativ qanunvericiliyi prinsip etibarilə ABŞ qanunvericiliyi ilə eynidir. Bundan başqa, Liberiyanın



downloaded from KitabYurdu.org

qüvvədə olan korporativ qanunvericiliyi normalarının izahı üçün Amerika gəmiçiliyinin qərarı geniş tətbiq edilir.

Liberiyaya əlavə cəlbedicilik gətirən amillərdən qeyri-rezidentlərin fəaliyyətinə hər hansı valyuta məhdudiyyətlərinin olmamasını, konfidensiallığın (məxfiliyin) saxlanması üzrə sərt tələbləri, Amerika dollarının Liberiya dolları ilə bərabər hərəkətini göstərmək olar.

Milli valyuta Liberiya dollarıdır ki, o ABŞ dollarına bərabərdir, həm də ABŞ dolları Liberiya dolları ilə yanaşı Liberiyada rəsmi ödəniş vasitəsidir.

Liberiyanın vergi orqanları fəaliyyət haqqında illik hesabat, informasiyanın açıqlanmasını tələb etmirlər, hesabatların auditorlar tərəfindən təsdiqi isə vacib deyil. Şirkətlərin sahibləri, menecerləri və ofşor korporasiyaların fəaliyyət sahəsi haqqında informasiya bir şərtlə tam konfidensial qala bilər ki, korporasiya ölkə ərazisində fəaliyyət göstərməsin və həmin ərazidəki mənbələrdən gəlirlər almasın.

Liberiyanın Beynəlxalq trast şirkəti qeyri-rezidentlərin işgüzar müəssisələrinin təşkilinin müxtəlif formaları spektrini təqdim edir. Bunun başlıca formaları kimi aşağıdakılar çıxış edir:

Qeyri-rezident korporasiyalar;
Xarici gəmiçilik müəssisələri;
Mənfəət almaq məqsədini güdməyən korporasiyalar;
Tərəfdaşlıq;
Məhdud məsuliyyətli tərəfdaşlıq.

İşgüzar müəssisə – qeyri-rezident Liberiya xarici işlər nazirliyinin reyestrinə müvafiq qeyd daxil edildəndən sonra qeydiyyatdan keçmiş hesab edilir. Qeydiyyat üçün nizamnamənin iki nüsxəsi verilir. Bunlardan biri xarici işlər nazirinin imzası və möhürü ilə ərizəçiyə qaytarılır ki, bu da qeydiyyatın həyata keçirilməsini təsdiqləyir. Müəssisənin adına minimal tələblər qoyulur. Müəssisənin formasına göstəriş olmalıdır. Ad istənilən dildə ola bilər, lakin latın hərfləri ilə yazılmalıdır. Bank və sığorta əməliyyatlarının yalnız Liberiya hökumətinin xüsusi lisenziyası olması şərtilə həyata keçirilməsilə əlaqədar olaraq, işgüzar müəssisənin adında bank



downloaded from KitabYurdu.org

və ya sığorta fəaliyyətinə dair söz və söz birləşmələri işlətmək qadağandır. Hazır ofşor şirkətlər Liberiyanın Beynəlxalq trast şirkəti, onun müxbir şöbələri, eləcə də həm Liberiyanın özündə, həm də ən iri beynəlxalq maliyyə mərkəzlərində (Nyu-York, London, Rotterdam, Sürix, Honkonq və başqalarında) bir sıra hüquqi və idarəetmə firmaları tərəfindən təklif edilir. Əgər spesifik funksiyaları olan və ya xüsusi şərtləri olan korporasiyanın qeydiyyatdan keçməsinə ehtiyac (tələb) olarsa, bu cür şirkətin təşkili bir iş günü ərzində aparıla bilər.

Standart ofşor şirkətin yaradılması üzrə xərclər 700 ABŞ dollarına qədər təşkil edir. Bu məbləğə minimal stavka ilə (100 ABŞ dolları) kapitallaşdırmaya (Capitalization tax), həmçinin şirkətin fəaliyyətinin bir ili ərzində qeydiyyatdan keçmiş agentin xidmətlərinin ödənilməsi daxildir.

Liberiyada korporasiyanın saxlanması üzrə xərclər minimaldır. Korporasiyanın fəaliyyətindən bir il keçdikdə 350 ABŞ dolları ödənilir. Bu məbləğ illik korporativ qeydiyyat yığımından (150 dollar) və beynəlxalq trast şirkətinin mükafatından (200 ABŞ dolları) ibarətdir.

Korporasiyanın ləğvi zamanı 136 ABŞ dolları həcmində yığım ödənilir.

Ofşor korporasiya Liberiyada qeydiyyatdan keçmiş ofisə malik olmaya da bilər. Qeydiyyatdan keçmiş, Liberiyanın beynəlxalq trast şirkəti tərəfindən müvafiq səlahiyyətlər verilmiş agentin olması zəruri hesab edilir.

Liberiyanın vergi qanunvericiliyinə əsasən ölkədə qeydiyyatdan keçmiş korporasiyalar eyni zamanda iki şərtə riayət etdikdə gəlirdən vergiyə cəlb olunmurlar:

1. Əgər nizamnamə kapitalının 75%-dən az olmayaraq bir hissəsi birbaşa və ya dolayı yolla qeyri-rezidentlərə məxsusdursa;

2. Əgər korporasiyanın gəliri Liberiyanın hüdudlarından kənarda yerləşən mənbələrdən alınmışsa.

Şirkət tərəfindən verilən dividendlər yuxarıdakı şərtlərə uyğundursa, həmin şirkət Liberiyada vergiqoymaya məruz qalmır. Liberiya inkişaf etmiş ölkələrdə ikiqat vergiqoymadan qaçmaq haqqında məhdud sayda müqaviləyə malikdir.



downloaded from KitabYurdu.org

Liberiyanın beynəlxalq trast şirkəti ölkənin nəqliyyat nazirliyinin agenti kimi çıxış edir. Dəniz səyahətləri haqqında Qanuna müvafiq olaraq, Liberiyanın bayrağı gəmiçilik sahəsində istənilən «Liberiya qeyri-rezident şirkəti» və Liberiya xarici müəssisəsi tərəfindən istifadə oluna bilər. Hər hansı Liberiya şirkətinin, o cümlədən dəniz gəmiçiliyi sahəsində hər cür icazə verilmiş fəaliyyət növü ilə məşğul ola bilməsinə baxmayaraq, bir çox gəmiçilik korporasiyaları qeydiyyat zamanı nizamnamə sənədlərinə müvafiq bəndləri daxil edir. Xarici gəmiçilik müəssisəsi Liberiya xarici işlər nazirliyi tərəfindən qeydiyyatdan keçə bilər. Bu cür qeydiyyat əsasında xarici (qeyri-Liberiya) müəssisə Liberiya bayrağı altında üzən gəminin sahibi kimi çıxış edə bilər. Müəssisələrin qeydiyyatı zamanı 1525 ABŞ dolları məbləğində yığım ödənilir. İllik yığım 500 ABŞ dolları təşkil edir. Tərəfdaşlıq və ya məhdud məsuliyyətli tərəfdaşlıq formasında gəmiçilik müəssisəsinin qeydiyyatı zamanı qeydiyyat yığımı 1225 ABŞ dolları, illik yığım isə, korporasiyalar üçün olduğu kimi 500 ABŞ dolları məbləğində müəyyən edilmişdir.

### *Panama*

Panama qədim ofşor mərkəzlərindən biridir. Ölkə ənənəvi olaraq ofşor şirkətlərin yaradılmasında və onların idarə edilməsində ixtisaslaşır. Panama keçmiş ticarət ənənələrinə, ABŞ və qərb yarımkürəsinin başqa ölkələri ilə sıx əlaqələrə malikdir. Panamanın cəlbediciliyi qanuni tədavül vasitəsi kimi ABŞ dollarından istifadə ilə güclənir. Müasir şəraitdə Panama özünü bank xidmətlərinin geniş spektrini təqdim edən, inkişaf etmiş infrastruktura malik, həmçinin xeyli sayda yüksək ixtisaslı yerli mütəxəssislərin olan müxtəlif profil yönümlü ofşor mərkəz kimi göstərir.

Ofşor biznes sahəsini tənzimləyən əsas akt 1927-ci il 26 fevral tarixli Şirkətlər haqqında Qanundur. Panamanın beynəlxalq dəniz yük daşınmaları sahəsində müəssisələri qeydiyyatdan keçirməsində ənənəvi ixtisaslaşması dənizçilik qeydiyyatının açıq sisteminin (1925-ci il) yaradılması ilə



downloaded from KitabYurdu.org

əlaqədar olmuşdur. Panamada trast haqqında ilk qanun 1925-ci ildə qəbul olunmuşdur. Hazırda 1984-cü il yanvarın 5-dən 1 saylı Trast haqqında Qanun qüvvədədir.

Ofşor şirkətlərə təqdim edilən vergi üstünlükləri gəlirlərə vergiqoymanın ərazi prinsipinə əsaslanır, yəni vergiyə yalnız Panamanın ərazisində olan mənbələrdən daxil olan gəlirlər cəlb oluna bilər. Həm rezidentlərin, həm də qeyri-rezidentlərin Panamanın hüdudlarından kənarda yerləşən mənbələrdən daxil olan gəlirlərinə vergi qoyulmur.

Hazırda Panamada 100 mindən artıq şirkət qeydiyyata alınmışdır. Şirkətlər 1927-ci il 26 fevral tarixli 32 saylı qanuna əsasən yaradılır. Şirkətlərin fəaliyyəti yuxarıda qeyd olunan sənədlə yanaşı Panamanın Kommersiya Məcəlləsinin müddəaları ilə tənzimlənir.

Panama qanunvericiliyi müəssisələrin təşkilinin beş formasını nəzərdə tutur:

- korporasiyalar (Sociedades Anonimas);
- mülki tərəfdaşlıq (Sosiedades Civiles);
- məhdud məsuliyyətli tərəfdaşlıq (different from corporations);
- sadə kommandit tərəfdaşlığı (Sociedades en Comandita Simple);
- səhmdar kommandit tərəfdaşlığı (Sociedades en Comandita por Acciones);

Müəssisələrin hər beş forması istənilən kommersiya sahəsində fəaliyyət göstərə bilər. Ölkədə həmçinin fərdi sahibkar fəaliyyətinə də yol verilir. Lakin xarici təsisçilərin kommersiya fəaliyyətinin başlıca forması korporasiyalardır.

Korporasiyalar istənilən millətdən olan iki fiziki şəxs tərəfindən yaradıla bilər. Korporasiyanın yaradılmasının daha çox yayılmış yolu korporasiyanı müştərinin adından qeydiyyatdan keçirən yerli hüquqşünasa (hüquq firmasına) müraciət etməkdən ibarətdir, bu zaman müştərinin fiziki cəhətdən Panamada olması və ya şirkətin yaradılmasına dair hər hansı sənədi imzalaması vacib deyil. Panamanın hüquq firmaları “Off the shelf” ofşor korporasiyalar təklif edir.



downloaded from KitabYurdu.org

Panama korporasiyasının yaradılması və qeydiyyatdan keçirilməsi üzrə minimal xərclər 650 ABŞ dolları təşkil edir. Bura müxtəlif növ qeydiyyat, notarial yığımlar və qeydiyyat üzrə xidmətlərin ödənilməsi xərcləri daxildir. Panama korporasiyasının fəaliyyətinə olan minimal illik xərclər şirkətin direktorlarına mükafatların bura daxil olub-olmamasından asılı olaraq, 350 ABŞ dollarından 750 ABŞ dolları arasında tərəddüd edir. Panama korporasiyasının ləğv edilməsi üzrə minimal xərclər 400 ABŞ dolları təşkil edir.

Korporasiyanın qeydiyyatı zamanı çıxılan qeydiyyat vergisi nizamnamə kapitalının ölçüsündən asılı olaraq müəyyən edilir. Nizamnamə kapitalı hər biri 100 ABŞ dolları olan 100 səhmə bölünmüş 10 min ABŞ dolları olan korporasiyanın qeydiyyatı zamanı 150 ABŞ dolları minimal dərəcəsi ilə vergi ödənilir.

Şirkətin nizamnamə sənədlərinə olan tələbləri minimaldır. Korporasiyanın nizamnaməsi aşağıdakı məcburi məlumatları əks etdirməlidir:

- korporasiyanın adı (istənilən dildə ola bilər; müəssisənin səhmdar formasına göstərişi əhatə etməlidir, yəni S.A., Corp., ink və başqa) tipli qısaldılmış sözləri əks etdirməlidir;
- ümumi şəkildə yaradılmasının məqsədi;
- istənilən millətdən və istənilən yaşayış yerindən olan ən azı üç direktorun familiyası və ünvanı;
- buraxılmasına icazə verilmiş səhmdar kapitalın ölçüsü;
- korporasiyanın yaradılması müddəti (qeyri-məhdud ola bilər);
- korporasiyanın yeri;
- agentin - Panamanın rezidentinin familiyası və ünvanı (Panamada hüquqi təcrübə aparmağa lisenziyası olan şəxs göstərilir).

Panama korporasiyasının milli statusu Panamanın dövlət siyasəti prinsiplərinə zidd olmamaq şərtilə başqasına dəyişdirilə bilər. Korporasiyanın köçürülməsi şərtləri nizamnamə sənədlərinə müvafiq müddəaların daxil edilməsi və köçürmənin Panama Qeydiyyat palatasında qeydiyyatdan keçirilməsidir.



downloaded from KitabYurdu.org

Panamada qeydiyyatdan keçmiş korporasiyanın vergi öhdəlikləri və bu ölkənin ərazisində yerləşən mənbələrdən gəlir əldə etməyən korporasiyalar illik 150 ABŞ dolları məbləğində birdəfəlik rüsum ödəməklə kifayətlənmirlər.

Panama qanunvericiliyi bir sıra əlavə vergi və yığımlar ödəyən gəmiçilik şirkətlərini xüsusi kateqoriyaya ayırır.

İkinci dünya müharibəsi qurtardıqdan sonra Panama dəniz gəmilərini qeydiyyatdan keçirən iri mərkəzlərdən birinə çevrilmişdir. Qeydiyyatdan keçmiş gəmilərin sayına görə (13 mindən artıq) ölkə bu günə qədər dünyada birinci yer tutur. Panamanın gəmi registrinə uzunluğu 20 metr və ondan artıq, su tutumu heç olmazsa 50 t olan gəmilər daxil edilə bilər. Beynəlxalq təcrübəyə müvafiq olaraq bu, gəmilərin ölçü və tutumlarına olan minimal tələblərdir.

Panamanın gəmi registrinin cəlbediciliyinə aşağıdakı iki amil də təsir edir:

- ikiqat qeydiyyatın mümkünlüyü:
- minimal dərəcələr üzrə qeydiyyat və illik standart vergilər istisna olunmaqla, əmlaka və gəlirlərə vergilərin qoyulmaması.

Panamada gəmi sahibləri aşağıdakı vergi və yığımları ödəyirlər:

- qeydiyyat vergisi:
- illik qeydiyyat vergisi:
- illik müfəttiş yığımı:
- illik konsul yığımı:
- bədbəxt hadisələrin istintaqlarına və müdiriyyətin konfrans və beynəlxalq müqavilələrdə iştirakına illik yığım.

Qeydiyyat vergisi gəminin Panama gəmi reyestrinə bir dəfə daxil edilir. Vergi dərəcəsi gəmilərin su tutumundan asılıdır (Cədvəl 1).



downloaded from KitabYurdu.org

*Cədvəl 1*

**Qeydiyyat vergisinin dərəcələri**

| Su tutumu, qeydiyyat tonnajı. Ümumi çəkisi (tonla) | Vergi dərəcəsi, ABŞ dolları ilə |
|---|---|
| 2000-ə qədər | 500 |
| 2000-dən 5000-ə qədər | 2000 |
| 5000-dən 15 000-ə qədər | 3000 |
| 15 000-dən yuxarı | Hər əlavə tonnaja 3000 üstəgəl 0,10 dollar 15 000 tondan artıq, lakin ümumi məbləğ 6500 dollardan artıq olmamaq şərtilə |

İllik qeydiyyat vergisi gəminin hər ton yük çəkisinə 0,10 ABŞ dolları dərəcə ilə çıxılır.

İllik müfəttiş yığımı gəminin kateqoriyasından və su tutumundan asılı olan dərəcə ilə çıxılır (Cədvəl 2).



downloaded from KitabYurdu.org

Cədvəl 2

**İllik müfəttiş yığımı stavkaları**

| Gəminin tipi | Su tutumu, qeydiyyat tonnajı. Ümumi çəkisi (tonla) | Bir tona vergi dərəcəsi, ABŞ dolları ilə |
|---|---|---|
| Sərnişin gəmiləri | 1600-ə qədər<br>1600 və daha yuxarı | 900<br>1800 |
| Tankerlər və yük gəmiləri | 500-ə qədər<br>500-dən 1600-ə qədər<br>1600-dən 5000-ə qədər<br>5000-dən 15 000-ə qədər<br>15 000-dən yuxarı | 500<br>750<br>850<br>1000<br>1200 |
| Qazma gəmiləri | | 1300 |
| Başqa tip gəmilər | 500-ə qədər<br>500-dən 5000-ə qədər<br>5000-dən yuxarı | 500<br>800<br>1000 |

İllik konsul yığımı cədvəl 3-də göstərilən gəmilərin tipindən, təyinatından və su tutumundan asılı olaraq stavkalar üzrə ödənilir.



downloaded from KitabYurdu.org

Cədvəl 3

**İllik konsul yığımı stavkaları**

| Gəminin tipi | Su tutumu, qeydiyyat tonnajı. Ümumi çəkisi (tonla) | Bir tona vergi dərəcəsi, ABŞ dolları ilə |
|---|---|---|
| Sərnişin, balıqçı gəmiləri, bərələr, qazma, yük və qoşqu gəmiləri | 1000-ə qədər<br>1000-dən 3000-ə qədər<br>3000-dən 5000-ə qədər<br>5000-dən 15000-ə qədər<br>15000-dən yuxarı | 1200<br>1800<br>2000<br>2700<br>3000 |
| Elmi-tədqiqatlarda istifadə edilən mühərrikləşdi-rilməmiş gəmilər; yardımçı gəmilər; sualtı qayıqlar; kəşfiyyat gəmiləri; sərnişin daşınmaları üçün nəzərdə tutulmayan üzən təmir gəmiləri və başqa gəmilər. | 500-ə qədər<br>500-dən 1000-ə qədər<br>1000-dən yuxarı | 850<br>1400<br>1800 |

Bədbəxt hadisələrin istintaqlarına və müdiriyyətin konfrans və beynəlxalq müqavilələrdə iştirakına illik yığım gəminin tipindən və su tutumundan asılı olaraq dərəcələr üzrə çıxılır (Cədvəl 4). Bundan əlavə, gəmi sahibləri (istirahət üçün nəzərdə tutulmuş yaxtalar, gəmilər və ya gəlir əldə etmək məqsədi olmayan şəxsi istifadə üçün nəzərdə tutulmuş gəmi və qazma platformaları istisna olunmaqla) gəminin ildə hər yük-



downloaded from KitabYurdu.org

ton çəkisinə görə 0,03 ABŞ dolları məbləğində əlavə yığım ödəyirlər.

Cədvəl 4

**Bədbəxt hadisələrin istintaqlarına və müdiriyyətin konfrans və beynəlxalq müqavilələrdə iştirakına aylıq yığımın dərəcələri**

| Gəminin tipii | Su tutumu, qeydiyyat tonnajı. Ümumi çəkisi (tonla) | Bir tona vergi dərəcəsi, ABŞ dolları ilə |
|---|---|---|
| Tankerlər, qazma platformaları, sərnişin gəmiləri və kimya məhsulları daşıyan başqa gəmilər | | 850 |
| Yuxarıda qeyd olunanlara aid edilməyən başqa gəmilər | 500-ə qədər<br>500-dən 10000-ə qədər<br>10000-dən yuxarı | 300<br>400<br>500 |

Panamada ofşor şirkətlərin təsisinin cəlbediciliyini aşağı salan amillərə trast biznesi üçün müəyyən edilmiş məhdudiyyətləri aid etmək olar. Qanunvericilik məcburi vərəsəlik hüququnu mümkün edir ki, bu da Panamada trastın cəlbediciliyini aşağı salır. Qeyd etmək lazımdır ki, Panamanın gəlirlərə və əmlaka ikiqat vergiqoymadan qaçmaq haqqında başqa ölkələrlə bağlanmış müqavilələri yoxdur. Prezident Noryeqanın hərəkətləri beynəlxalq ofşor biznesi mərkəzi kimi ölkənin nüfuzuna xeyli dərəcədə xələl gətirmişdir. Panamada prezident Noryeqa hakimiyyəti aradan götürüldükdən sonra ölkədə «çirkli pulların yuyulması»nın qarşısının alınmasına yönəldilmiş bank əməliyyatlarının nəzarət altına alınmasının gücləndirilməsi üzrə tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər çərçivəsində Amerika Birləşmiş Ştatları ilə ABŞ-ın Baham adaları ilə bağladığı müqaviləyə analoji olan cinayət



downloaded from KitabYurdu.org

hadisələrinin açılması üzrə qarşılıqlı yardım haqqında müqavilə bağlanmışdır.

## 7.2. Gəmilər vasitəsilə beynəlxalq yük daşınmalar sahəsində ayrı-ayrı ofşor zonaların xüsusiyyətləri və perspektivləri

Dünyanın qədim ofşor gəmiçilik mərkəzləri olan Liberiya və Panama ilə yanaşı, son onilliklər Sinqapur, Bermud adaları, Men adası, Kipr kimi mərkəzlərin də mövqeləri möhkəmlənmişdir. Yeni mərkəzlər dar ixtisaslaşmış kateqoriyaya aid deyillər, Sinqapur isə ümumiyyətlə «klassik ofşor» deyil.

*Sinqapur*

Sinqapur dinamik inkişaf edən iqtisadiyyatı, adambaşına düşən gəlirin kifayət qədər yüksək səviyyəsi ilə seçilən dövlətdir. Sinqapurun dəniz limanı yük dövriyyəsinin həcminə görə dünyada ən iri limanlardan biridir. Ölkəni xarici ticarətin nəhəng həcmi, qızıl-valyuta ehtiyatlarının yüksək səviyyəsi, xarici investisiyaların böyük həcmi fərqləndirir. Sinqapur qabaqcıl regional maliyyə mərkəzlərindən biridir. Ölkədə 100 xarici bank qeydiyyatdan keçmiş, bu zaman bank investisiya sahəsində dövriyyə 1997-ci ilə qədər sabit artıma meylli olmuşdur.

Ölkədə vergiqoymanın səviyyəsini rezidentlər üçün yüksək kimi müəyyən etmək olar. Vergi sistemi vergiqoymanın ərazi prinsipinə əsalanır ki, bu da xarici mənbələrdən alınan gəlirləri vergidən azad etməyə imkan verir.

Korporativ qanunvericilik sistemini güzəştlilər sırasına aid etmək olmaz. Şirkətin minimum kimi mütləq iki direktorunun olması vacibdir ki, onlar Sinqapur rezidentləri olmalıdır. Səhmdarların illik yığıncaqlarının məcburiliyi, üçüncü şəxslər üçün şirkətlərin səhmdarlarının açıqlığı (əlyetərliliyi) müəyyən edilmişdir, şirkət səhmdarlarının sayı ikidən az olmamalıdır. Sinqapurda təqdim edənə səhm



downloaded from KitabYurdu.org

buraxılışı, eləcə də nominal göstərilməyən səhm buraxılışı qadağandır. Vergi orqanları səhmdar cəmiyyət formasında təşkil edilmiş müəssisələrin illik hesabatlarını, fəaliyyətlərinin auditor yoxlamasını tələb edir. Şirkətin yerinin dəyişdirilməsi mümkünlüyünə yol verilmir. Şirkət mütləq yerli qeydiyyatdan keçmiş hüquqi ünvana malik olmalıdır.

Sinqapurda şirkətin qeydiyyatdan keçməsi üçün müəyyən prosedurlara riayət edilməsi, həmçinin qeydiyyat yığımlarının ödənilməsi zəruridir.

Fiziki şəxslərin – qeyri-rezidentlərin Sinqapurun ərazisində yerləşən mənbələrdən əldə etdikləri gəlir vahid 31% dərəcə ilə gəlirə görə vergiyə cəlb olunur. Bu dərəcə eyni zamanda fiziki şəxslərin - ölkə rezidentlərinin gəlirlərinə verginin maksimal dərəcəsidir. Bu dərəcə həmçinin Sinqapurda təsis edilən trastların gəlirlərinə də tətbiq olunur. Bundan əlavə, ölkədə əmlak hüquqlarına, dividendlərə, faizlərə və müəllif hüquqlarının ötürülməsinə də vergilər qüvvədədir.

Korporativ verginin dərəcəsi 30% müəyyən edilmişdir.

Lakin vergi qanunvericiliyi müəyyən növ gəlirlər üçün istisnalar da nəzərdə tutur.

Vergiqoymanın ərazi prinsipinə müvafiq olaraq rezident-şirkət 30% dərəcə ilə yerləşdiyi ölkənin ərazisindəki mənbələrdən əldə etdiyi gəlirlərə, eləcə də Sinqapura xarici ölkələrdə yerləşən mənbələrdən köçürülən gəlirlərə korporasiya vergisi ödəyir. Bu cür gəlirin Sinqapura köçürülmədiyi halda isə ona korporasiya vergisi qoyulmur.

Sinqapura köçürülən dividendlər xarici ölkədə ödənilmiş vergilərin (xarici vergi krediti – Foreign tax credit) nəzərə alınması (uçotu) ilə vergiyə cəlb olunmalıdır. Sinqapur şirkətlərinə ödənilən dividendlər birbaşa mənbədən vergiqoymaya cəlb olunmur. Rezident-şirkətlər tərəfindən dividendlər bir ölkədən başqa ölkəyə köçürülərkən Sinqapurda ikiqat vergiqoymanı istisna edən sistem tətbiq olunur. Dividendlər Sinqapurun rezident-şirkətlərinə köçürüldüyü zaman ödənilmiş korporasiya vergisi səhmdara vergi krediti kimi hesablanır.



downloaded from KitabYurdu.org

Xarici vergi krediti müqavilədə ikiqat vergiqoymadan qaçmaq barədə qeydin olduğu zaman həyata keçirilir. Sinqapur 31 ölkə ilə bu cür müqavilə bağlamışdır.

Qeyd etmək lazımdır ki, Sinqapur bayrağından istifadə hüququ yalnız bu ölkədə qeydiyyatdan keçən şirkətlərə verilir.

Sinqapur hökuməti iri gəmiçilik şirkətlərini cəlb etmək üçün 1991-ci ildə əlavə tədbirlər həyata keçirmişdir. Bu tədbirlərdən biri xarici şirkətin beynəlxalq səlahiyyətli gəmiçilik müəssisəsi statusunun alması imkanıdır. Bu cür statusu olan şirkət hətta xarici «qız» gəmiçilik şirkətinin Sinqapurda yerləşən ana şirkətə dividendlər köçürdüyü halda belə tamamilə vergidən azad edilir. Beynəlxalq səlahiyyətli gəmiçilik müəssisəsi statusunu almaq üçün şirkət aşağıdakı şərtlərə uyğun olmalıdır:

- birbaşa və ya dolayısı ilə minimum dörd gəmiyə sahib olmalıdır:
- ona məxsus donanmanın 10%-dən az olmayan hissəsi Sinqapur bayrağı altında hərəkət etməlidir;
- Sinqapurda şirkətin ümumi illik xərcləri 2,25 mln. ABŞ dollarından az olmamalıdır.

Sinqapur qanunvericiliyi Britaniya normalarına əsaslanır ki, bu da beynəlxalq vergi planlaşdırmasının tələblərinə cavab verən trastların təsis edilməsi imkanlarını (şərtləndirir) gerçəkləşdirir. Lakin Sinqapur hökumətinin ofşor ərazi deyil, beynəlxalq maliyyə mərkəzi yaratmağa cəhd etməsilə əlaqədar olaraq trastın standart şərtləri daha əlverişli kimi nəzərdən keçirilə bilməz. Bu həm holdinq şirkətlərinin vergiqoyma sisteminə, həm də gəmiçilik şirkətlərinin qeydiyyatına aiddir.

### *Kipr*

Yuxarıda qeyd edildiyi kimi, Kipr çoxprofilli və sürətlə inkişaf edən dünya ofşor mərkəzidir. Ofşor şirkətlər və onların xarici əməkdaşları üçün əsas vergi üstünlüklər 1977-ci ildə gəlirə görə vergi haqqında qanuna düzəlişlərdə müəyyən olunmuşdur. Bu tədbir nəticəsində vergiqoyma sistemi orta



downloaded from KitabYurdu.org

Avropa səviyyəsinə yaxın olan ölkədə xüsusi subyekt – «ofşor müəssisə» olduqca əlverişli vergi statusu almışdır.

Kipr hökuməti klassik ofşor xidmətlərinin tam spektrini təqdim edərək, gəmiçilik və gəmilərdən istifadə şirkətləri üçün əlavə güzəştlər yaratmaqla, onları cəlb etməyə xüsusi diqqət yetirir. Belə ki, əgər ofşor şirkətlər 4,25% stavka ilə vergiyə cəlb olunursa (ofşor o şirkət hesab edilir ki, Kiprdə qeydiyyatdan keçsin, səhmlərinin 100%-i birbaşa və ya dolayı qeyri-rezidentlərə məxsus olsun, fəaliyyəti isə Kiprin hüdudlarından kənarda həyata keçirilsin), gəmiçilik şirkətləri müəyyən qaydalara riayət etməklə tamamilə gəlir vergisindən azad olunurlar.

Bütün ümumi güzəşt və üstünlüklər gəmi sahibləri və gəmi istifadəçilərinə tamamilə aid edilir ki, bunların arasında aşağıdakıları qeyd etmək lazımdır:

- ofşor yoldaşlıq şirkətlərinin gəlirlərinin vergiqoymadan tamamilə azad edilməsi;
- ofşor şirkətlərin Kiprin hüdudlarından kənarda idarə və nəzarət edilən gəlirlərinin vergiqoymadan azad edilməsi;
- ofşor şirkətlərin Kiprin ərazisində idarə və nəzarət edilən filiallarının gəlirlərinə güzəştli vergiqoyma dərəcələrinin tətbiqi (4,25% dərəcə ilə);
- ofşor şirkətlərin adi sahibkarlıq fəaliyyəti ilə bağlı sənədlərinin bütün gerb yığımlarının ödənilməsindən azad edilməsi;
- əmlakın və əmlak hüquqlarının ötürülməsi zamanı mülkiyyətin Kipr ərazisinə daxil olan xarici valyuta hesabına əldə edilməsi şərtilə vergiyə cəlb edilməməsi;
- ofşor şirkətlər tərəfindən ödənilən dividendlər birbaşa ödəmə mənbəyindən vergiyə cəlb olunmur;
- ofşor şirkətlərin Kipr vətəndaşı olmayan əməkdaşları (Kiprdə işləyirlərsə, adi dərəcənin yarı ölçüsündə; Kiprin hüdudlarından kənarda işləyirlərsə, adi dərəcənin onda bir hissəsi ölçüsündə, həm də bu zaman əgər əmək haqqı Kiprdə verilirsə, tamamilə vergidən azad edilirlər) güzəştli dərəcələrlə vergi ödəyirlər.



downloaded from KitabYurdu.org

- ofşor şirkət və ya onun Kipr vətəndaşı olmayan əməkdaşları tərəfindən istifadə edilən avtomobillər, ofis və məişət avadanlıqları idxal rüsumlarına vergidən tam azad edilir.

Şirkətin qeydiyyatının ümumi şərtləri nə ifrat güzəştli, nə də ağır (yorucu) deyildir. Qeydiyyata olan xərclər 750 Kipr funtu (250 – hökumət yığımları, 500 – başqa yığım və xərclər) təşkil edir. Şirkətin fəaliyyətinə olan illik xərclər fəaliyyət növlərindən asılı olaraq fərqlənir. Səhmdarların zəruri olan minimal sayı ikidir, bu zaman onlardan biri mülkiyyətin real sahibi, digəri isə səhmlərin nominal saxlayıcısı ola bilər. Nominalı göstərilməyən səhmlərin buraxılışı, eləcə də təqdim edənə səhmlərin buraxılışı qadağandır. Səhmdarların açıq reyestrinin aparılması vacib deyil. Səhmdarların illik yığıncağının məcburiliyi müəyyən edilmişdir, bu yığıncaqlar istənilən yerdə keçirilə bilər. Lisenziyalı auditor tərəfindən təsdiq edilmiş illik hesabatın təqdim edilməsi vacibdir. Qanunvericilik şirkətin yerdəyişməsinin mümkünlüyünü nəzərdə tutmur. Yerli hüquqi ünvanın olması vacibdir. Mülkiyyətin sahibi haqqında məlumatlar yalnız Kiprin Mərkəzi bankına verilməlidir, Qeydiyyat Palatasına bu məlumatlar verilməyə də bilər. Şirkətin bir direktoru ola bilər, bu zaman o, Kiprin rezidenti olmaya da bilər.

1963-cü il dəniz ticarəti haqqında qanunun müddəalarına müvafiq olaraq, Kiprdə qeydiyyatdan keçən gəmiçilik şirkətləri öz gəmilərini Kipr bayrağı altında qeydiyyatdan keçirmək hüququna malikdirlər.

Kiprin Mərkəzi bankı qeyri-rezidentlərə Kiprdə şirkətlər təsis etməyə, həmçinin heç bir məhdudiyyət qoyulmadan gəmiçilik şirkətlərinin səhmlərini almağa imkan verir. Bu halda şirkətlər vergi nəzarəti normalarının tətbiqi məqsədilə qeyri-rezidentlər kimi nəzərdən keçirilir və:

- hər hansı məhdudiyyət olmadan qeyri-rezidentlərə istənilən gəmini girov verə;

- vəsaitlərini depozitlərə qoya, həmçinin Kiprin hüdudlarından kənarda borc vəsait götürə;



downloaded from KitabYurdu.org

- rezidentlərdən gəmi ala, həmçinin qeyri-rezidentlərə gəmilər sata;

- qeyri-rezidentlərin xeyrinə təminatlar verə bilər.

Dəniz ticarəti haqqında qanunun normalarına müvafiq olaraq Kipr müəssisələrinin bu əməliyyatlardan aldığı mənfəət və ya Kipr gəmiçilik şirkətindən aldığı hər hansı dividendləri vergiyə cəlb olunmur.

Gəmiçilik şirkətlərinə əlavə güzəştlər vergidən xüsusi azad edilmə formasında verilir. Bu forma 1963-cü ildə 10 il müddətinə müəyyən edilmiş və sonrakı onilliklər üçün uzadılmışdır. Kipr «ofşor qanunvericiliyi» normalarının tətbiqi sahəsində qabaqcıl ekspertlərdən biri olan Maykl H. Zampelas qeyd edir ki, Kiprin gəmiçilik ofşor şirkətlərinə başqa güzəştlər də, xüsusilə ofşor gəmi şirkətlərinin səhmlərinə olan vərəsəliyin vergidən azad edilməsi təqdim edilir; gəmiçilik şirkətinin gəmi və ya səhmlərinin satışı zamanı kapitalın artımına vergi yoxdur; gəmilərin komanda tərkibinin və ekipajın əmək haqqına gəlirdən vergi tutulmur; gəmilərin satışı və ya gəmilərin girov verilməsi üçün dövlət rüsumları ləğv edilmişdir.

Gəmiçilik şirkətləri üçün mühüm güzəşt bu şirkətlərin sosial sığorta və təminat fonduna üzvlük haqlarının ödənilməsindən azad edilməsidir. Rəsmi olaraq belə bir tələb müəyyən edilmişdir ki, Kiprdə qeydiyyatdan keçmiş gəminin üzvlərindən 15%-i ölkənin rezidentləri olmalıdır, lakin praktikada bu tələb tətbiq olunmur. Ekipajın üzvləri istənilən ölkənin vətəndaşları və rezidentləri ola bilər. Əsas tələb onların səlahiyyətlərinin Kiprin hakimiyyət orqanları tərəfindən qəbul edilən attestatlarla təsdiqidir. Attestatları qəbul edilən (tanınan) ölkələr sırasında aşağıdakıları göstərmək olar: Argentina, Avstraliya, Bolqarıstan, Yunanıstan, Honkonq, Danimarka, Misir, Hindistan, İslandiya, İndoneziya, İsrail, İrlandiya İspaniya, İtaliya, Kanada, Çin, Kuba, Liberiya, Livan, Malayziya, Niderland, Yeni Zelandiya, Norveç, Pakistan, Polşa, Portuqaliya, Rusiya, Rumıniya, Sinqapur, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ABŞ, Türkiyə, Finlandiya, Fransa, Filippin, İsveç, Serbiya, Cənubi



downloaded from KitabYurdu.org

Koreya, Yaponiya və s. Ekipaj üzvü kimi Kiprin qeyri-rezidentlərindən istifadə üçün şirkət hər ay 1 Kipr funtu məbləğində yığım ödəyir.

Gəmi istifadəçiləri şirkətləri üçün yaradılan əlverişli şərait Kiprdə dünyanın ən iri gəmi istifadəçiləri şirkətlərinin «qız» müəssisələri yaratmasına səbəb olmuşdur. Gəmi istifadəçiləri şirkətləri, bir qayda olaraq, məhdud məsuliyyətli şirkət kimi qeydiyyatdan keçirlər.

### *Bermud adaları*

Bermud adaları dünyanın qədim ofşor mərkəzlərindən biridir. Gəmilərin tonnajına görə Bermud gəmi registri qeydiyyatı dünyada dövrdüncü yeri tutur, bu zaman qeydiyyatdan keçən gəmilərin sayı sabit olaraq artmaqda davam edir.

Gəmiçilik sahəsində Bermud adalarının xüsusiyyəti ondan ibarətdir ki, qanunvericilik bu sahənin müəssisələri üçün hər hansı xüsusi forma müəyyən etmir.

Bermud adaları klassik ofşor mərkəzdir – burada nə rezidentlər, nə də qeyri-rezidentlər üçün heç vaxt gəlirlərə vergi tətbiq edilməmişdir. Gəlirlərə vergi əvəzinə müxtəlif növ hökumət və başqa yığımlar mövcuddur. Yığımlar qeydiyyat və hər il tutulanlara bölünür. Azad edilmiş şirkətin qeydiyyatı zamanı 100 Bermud dolları ölçüsündə hökumət yığımı tutulur, illik hökumət yığımları isə şirkətin aktivlərinin həcmindən asılı olaraq 1600-dən 8000 Bermud dollarına qədər təşkil edir. Şirkətin minimal nizamnamə kapitalı 12000 Bermud dolları təşkil etməlidir.

Sərt məbləğdə müəyyən edilmiş yığım dərəcələri aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 5.

**Bermud adalarında azad edilmiş şirkətlərdən illik yığım dərəcələri (Bermud dolları ilə)**



downloaded from KitabYurdu.org

| Kapital | İllik yığımın məbləği |
|---|---|
| 12 000 | 1600 |
| 12 000-dən 120 000-ə qədər | 3200 |
| 120 000-dən 1 200 000-ə qədər | 4800 |
| 1 200 000-dən 12 000 000-ə qədər | 6400 |
| 12 000 000 və ondan yuxarı | 8000 |

Bermud adalarında müvafiq müəssisənin qeydiyyatının bir sıra cəlbedici tərəfləri, eləcə də Bermud azad edilmiş şirkətinin müəyyən potensial təsisçiləri üçün bir sıra nöqsanları da vardır ki, buna Bermud adalarının daha nüfüzlu və nisbətən bahalı ofşor mərkəzlərdən biri olmasını misal göstərmək olar. Hökumətin siyasəti dinamik inkişaf edən maliyyə mərkəzinin nüfuzunu maksimum dərəcədə möhkəmlətməkdən ibarətdir.

Bermud adalarını yaşayış vasitələrinin yüksək dəyəri, ölkəyə gəliş, daşınmaz əmlak əldə etmək üçün çoxsaylı məhdudiyyətlər, ofşor ərazi sayılan azad, vergidən və valyuta nəzarətindən azad edilmiş şirkətlərin fəaliyyəti üçün maksimum dərəcədə sərt olan qeydiyyat şərtləri fərqləndirir. Qeyd etmək mühümdür ki, azad edilmiş şirkətlər hazır halda potensial istifadəçi deyillər. İnkorporasiya proseduru adətən bütün zəruri sənədlərin təqdim edildiyi andan üç-dörd həftə vaxt aparır.

Şirkətlərin adlarında ayrı-ayrı sözlərin istifadəsi üçün bir sıra məhdudiyyətlər mövcuddur. Əgər göstərilən ad başqa mövcud şirkətlərin adını xatırladırsa, ya ona yaxındırsa, onda qeydiyyat rədd edilə bilər. «Bank», «trast», «fiduşir», «broker», «maliyyə xidmətləri» və bu sözlərin başqa variantları kimi sözlər şirkətin adında o şərtlə istifadə edilə bilər ki, həmi şirkət müvafiq fəaliyyət növü üçün lisenziya almış olsun. Azad edilmiş məhdud məsuliyyətli şirkətin qeydiyyatı üzrə minimal xərclər 100 Bermud dolları (Bermud dolları ABŞ dollarına bərabərdir) təşkil edir. Qanunvericilik nominalı göstərilməyən və təqdim edənə səhm buraxılışını qadağan etmişdir.

Azad edilmiş şirkətin səhmdarları barədə məlumat hamı üçün əlyetərlidir (açıqdır). Bu cür məlumatlar şirkətin hüquqi ünvanında olmalıdır, halbuki, səhmlərin nominal saxlayıcıları



downloaded from KitabYurdu.org

göstərilən sxemlərdən istifadə də mümkündür. Səhmdarların minimal sayı üçdür, onların açıq qeydiyyatının da aparılması vacibdir. Səhmdarların yığıncaqları ildə bir dəfədən az olmayaraq çağırılmalıdır, bunlar mütləq Bermud adalarında keçirilməyə də bilər.

Son benefisiar sahiblər haqqında məlumatlar prinsip etibarilə qapalı qala bilər, lakin bu məlumatlar şirkətin qeydiyyatı zamanı təqdim edilməlidir.

Şirkətin rezidenti Bermud adalarının rezidenti olmalıdır. Direktorların minimum sayı ikidir. Direktorlar şurasının yığıncaqları məcburidir. Şirkətin hüquqi ünvanı da zəruridir. Şirkət illik hesabat tərtib etməlidir. Fəaliyyətin auditor yoxlanması rəsmi məcburidir, lakin direktorlar yığıncağının və səhmdarların ümumi yığıncağının qərarı ilə ləğv edilə də bilər. Bundan başqa, hakimiyyət orqanları maliyyə hesabatının hazırlanması və təqdim edilməsi üzrə əlavə öhdəliklər də müəyyən edirlər, xüsusilə şirkət direktorları şirkətin maliyyə vəziyyəti haqqında rüblük hesabatlarını təsdiq etməlidirlər.

Qeyd etmək lazımdır ki, Bermud adaları ilk olaraq ABŞ ilə məlumat mübadiləsi haqqında müqavilə imzalamışlar (11 iyul 1986-cı ildə imzalanmış, 1 dekabr 1988-ci ildə ratifikasiya olunmuşdur). Sonralar analoji müqaviləni ABŞ Panama ilə bağlamışdır.

Bermud adaları qədim Britaniya müstəmləkəsidir (asılı ərazi), bu da şirkətlər və trast qanunvericiliyinin əsas normalarının burada tətbiqini şərtləndirmişdir.

Bermud bayrağından istifadə Bermud adalarında, Böyük Britaniyada, Men adasında və ya xüsusi hökumət siyahısına daxil edilmiş başqa dövlətlərdə yaradılmış şirkətin haraya məxsus olmasından asılıdır. Bermud bayrağından istifadəyə yalnız xüsusi qeydiyyat, nisbətən vaxt aparan prosedurlar keçildikdən sonra icazə verilir. Qeyd etmək vacibdir ki, geminin benefisiar (son) sahibləri haqqında məlumatın təqdim edilməsi məcburidir.

### *Men adası*



downloaded from KitabYurdu.org

Men adası Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının tərkibində özünü idarə edən ərazidir. Şirkət və trastlar haqqında qanunvericilik aktları Britaniya qanunvericiliyi normalarına əsaslanır, bu zaman bir sıra stimul və güzəştlər də nəzərə alınmışdır. Adanın yeri (mövqeyi) Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığından, həmçinin Qərbi Avropadan olan potensial istifadəçilərin yüksək diqqətini cəlb edən amildir. Ada İngiltərədən, Şotlandiyadan, Uelsdən, Şimali İrlandiya və İrlandiya Respublikasından demək olar ki, eyni məsafədə, İrlandiya dənizində (Şimali) yerləşir. Men adasının valyutası Britaniya funt sterlinqidir, bundan başqa da özünün əskinasları vardır.

Ofşor mərkəzlərin tipinə görə Men adası qeyri-rezident benefisiarlar və xüsusi statuslu şirkətlər üçün aşağı vergiqoyma səviyyəsi və əlavə vergi güzəştləri sistemi olan ərazilərə aiddir. Rezidentlərin – fiziki şəxslərin gəlirlərinə qoyulan standart vergi dərəcəsi 15% müəyyən edilmişdir. Xüsusi hallarda verginin maksimum dərəcəsi 20%-dir. Rezidentlər üçün trastlara vergiqoyma da 20% dərəcəsi üzrə həyata keçirilir. Təsisçiləri və benefisiarları qeyri-rezident olan trastların gəlirlərinə o zaman vergi qoyulur ki, həmin gəlir Men adasında yerləşən mənbələrdən əldə edilsin. Ölkədə əmlak hüquqlarının ötürülməsinə vergi qoyulmur. Qeyri-rezidentlər tərəfindən birbaşa ödəmə mənbəyindən ödənilən lisenziya hüquqlarının ötürülməsindən gələn gəlirlər, dividendlər və faizlər vergiyə cəlb olunmur. Gerb yığımları və kapitaldan vergi tutulmur. Rezident-şirkətlərin mənfəətinə vergi 20% dərəcəsi ilə qoyulur. Qeyri-rezident və xüsusi statuslu şirkətlər üçün mənfəətə görə vergi əvəzinə müəyyən olunmuş (təsbit edilmiş) illik yığım tutulur.

Men adası 1984-cü ildə ticarət gəmilərinin qeydiyyatı haqqında Akt qəbul etdikdən sonra gəmilərin qeydiyyatı üzrə xidmətlər sahəsini fəal inkişaf etdirməyə başladı. Nəzərdən keçirilən gəmiçilik ofşorları ilə müqayisədə Men adasının xüsusi qanunvericiliyi gəmi sahiblərinə Men adası gəmi registrinin Britaniya gəmi registrinin bir hissəsi olması ilə əlaqədar olaraq bəzi əlavə imkanlar verir. Men adasında



downloaded from KitabYurdu.org

qeydiyyatdan keçmiş gəmilər eyni zamanda Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığından asılı olmayan hüquqda (səlahiyyətində olmadan) qalaraq, Britaniyanın bayrağı altında üzürlər. Müvafiq olaraq Britaniya gəmiləri və ya başqa bayraq altında üzən gəmilər üçün adanın gəmi registrinə daxil edilməsi prosedurları müxtəlifdir. Britaniya gəmiləri üçün sadələşdirilmiş prosedurlar həyata keçirilir. Men adasında gəmilərin qeydiyyatdan keçirilməsinin mühüm üstünlüyü ondan ibarətdir ki, qeydiyyat zamanı onlardan illik yığım tutulmur. Gəminin birinci qeydiyyatı və ya xarici registrdən köçürülməsi zamanı tonnajdan asılı dərəcələr üzrə birdəfəlik yığım tutulur.

Men adasında qeydiyyatdan keçmiş gəmi sahibləri və istifadəçilərinin şirkətləri gəlirlərə görə vergilərdən avtomatik olaraq azad edilmir. Şirkət vergilərdən azad olmaq istədiyi halda azad edilmək statusu almaq üçün müraciət etməlidir. Azad edilmiş şirkətlərdən 250 funt sterlinq məbləğində illik yığım tutulur. Qeyd etmək lazımdır ki, Men adasında ayrıca korporativ vergi mövcud deyil. Korporasiyaların gəlirlərinə vergiqoyma 1970-ci ildə qəbul edilmiş gəlirdən vergi haqqında qanun çərçivəsində və qüvvədə olan bir sıra dəyişiklik və əlavələrin nəzərə alınması ilə həyata keçirilir. Gəlirdən vergi haqqında qüvvədə olan qanunvericiliyə daha mühüm dəyişikliklər 1984-cü ildə edilmişdir. Belə ki, azad edilmiş şirkətlər üçün gəlirdən vergi də həmin qanuna daxil edilmişdir.



downloaded from KitabYurdu.org

**İmran Mirzə oğlu Rzayev**
**iqtisad elmləri namizədi, dosent**

---

**Beynəlxalq vergitutmada ofşor mexanizmlərin tətbiqi**
**(Dərslik)**

*Çapa imzalanıb 02.05.2006. Kağız formatı 60x84 1/16.*
*Həjmi 13 ç.v. Sayı 500. Sifariş 51.*

*" İqtisad Universiteti " nəşriyyatı.*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6*



downloaded from KitabYurdu.org

downloaded from KitabYurdu.org